ŞƏMİL SADİQ

monoqrafiya

# İSA MUĞANNA yaradıcılığı İDEAL işığında

**Şəmil Sadiq**

# İSA MUĞANNA YARADICILIĞI “İDEAL” İŞIĞINDA

## MONOQRAFİYA

**(Monoqrafiya Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun 13 mart 2017-ci il tarixli Elmi Şurasının qərarı (4 saylı protokol) ilə nəşr olunur.)**

HƏDƏF NƏŞRLƏRİ

**Elmi redaktor:**
*Akademik* **Nizami Cəfərov**

**Rəyçilər:**
*Filologiya elmləri doktoru* **Salidə Şərifova**
*Filologiya üzrə fəlsəfə doktoru* **Nərgiz Cabbarlı**

**Naşir:**
**Müşfiq XAN**

**Korrektorlar:**
**Vüsalə Məmmədova**
**Ayxal Bahadurlu**

**Mətn tərtibatı:**
**BəxtiYar**

**Dizayn və qrafika:**
**Teymur Fərzi**

***© Şəmil Sadiq. İsa Muğanna yaradıcılığı "İdeal" işığında monoqrafiya***
***© Hədəf Nəşrləri. Bakı–2017. 320 səh.***

Filologiya üzrə fəlsəfə doktoru, dosent Şəmil Sadiqin bu monoqrafiyası giriş və iki fəsildən ibarətdir. "İsa Muğanna yaradıcılığı "İdeal" işığında" adlı bu tədqiqat işində yazıçı, ssenarist və kinoredaktor, "Nəsimi" mükafatının ilk laureatı İsa Mustafa oğlu Hüseynov (Muğanna) yaradıcılığının ikinci mərhələsinə aid əsərlər tədqiqata cəlb edilmişdir. Bu Monoqrafiya böyük sənətkar haqqında ilk irihəcmli elmi əsərdir.

Yazıçının "İdeal" romanından sonra yazdığı "Cəhənnəm", "İlan dərəsi", "GurÜn", "Qırx kisə qızıl", "Qəbiristan", "İsahəq, Musahəq", "Türfə", "Mənim məhəbbətim" kimi bədii əsərlər tədqiqata cəlb edilmiş, Hüseyn Cavid, Kamal Abdulla, Zəlimxan Yaqub kimi yazarların əsərlərinin ideoloji fikri ilə İsa Muğanna yaradıcılığı arasında paralellər təhlil edilmişdir.

**ISBN: 9084600397341**

**© Şəmil Sadiq / 2017**
**© Hədəf Nəşrləri / 2017**

# MÜNDƏRİCAT

## I fəsil
## Tarixilik və mistika dini-mifoloji aspektdə

Ön söz ........ 6
Giriş ........ 12
1.1. İsa Muğanna romanlarında vahid din konsepsiyası ........ 32
1.2. İsa Muğannanın "Cəhənnəm" romanı dini-mifoloji kontekstdə ........ 54
1.3. İsa Muğannanın "İlan dərəsi" silsiləsində tarixilik və mistika ........ 83
1.4. Magik realizm və "GurÜn" romanı ........ 99
1.5. Yarımçıq əlyazma və bütöv ədəbi və əbədi dünya ........ 124

## II fəsil
## İsa Muğanna yaradıcılığına müqayisəli baxış

2.1. İsa Muğanna həqiqəti Hüseyn Cavid işığında ........ 148
2.2. İsa Muğanna yaradıcılığının "Ün" poemasındakı poetik təhlili ........ 169
2.3. Postmodern Azərbaycan romanında "Kitabi-Dədə Qorqud" dastanı və təhrif edilmiş tarix ........ 183

## Müsahibələr

İsa Muğanna ilə ilk tanışlıq ........ 201
İsa Muğanna ilə son söhbətim... ........ 225
Zəlimxan Yaqub Tənhalıqdan tənhalığa ........ 248
İsasız Firuzə Muğanna ilə söhbət ........ 275
İstifadə edilmiş ədəbiyyat siyahısı ........ 284

**Əsər Ruhani sədaları altında ustad sənətkarın**

# 90 illik

**yubileyinə ithaf edilir**

***Firuzə xanım:***
*Allahdan bir arzum var ki, İsa yaşadığı müddətdə məni də yaşatsın. Onu heç kimə etibar edə bilmərəm.*

***İsa Muğanna**:*
*- Onda gərək əbədi yaşayasan!*

# Ön söz

"Ədəbi döyüşlər cəngavəri" Mehdi Hüseyn hələ ilk əsərlərini yazıb nəşr etdirdiyi illərdə İsa Hüseynovu zarafatla "etiraf olunmamış dahi" adlandırar, onun ədəbiyyata təsadüfən deyil, xüsusi missiya ilə gəldiyini hiss etdirər, gənc yazıçı isə bundan, təbii ki, məmnunluq duyarmış. Ancaq güman etmək çətindir ki, Mehdi Hüseyn kimi geniş dünyagörüşlü tənqidçi-ədəbiyyatşünas belə İsa Hüseynovun dünyaya İsa Muğanna olaraq yenidən gələcəyini təsəvvür eləmiş olsun.

"Yanar ürək"dən "İdeal"a, İsa Hüseynovdan İsa Muğannaya yüksəlişin səbəbləri, yəqin ki, XX əsrin sonu XXI əsrin əvvəlləri Azərbaycan ədəbi-ictimai təfəkkürünün üzərində ən çox düşündüyü, ancaq əsaslı bir nəticəyə gələ bilmədiyi mövzulardandır. Və məsələni daha da mürəkkəbləşdirən cəhətlərdən biri, heç şübhəsiz, böyük yazıçı-mütəfəkkirin özünün vaxtaşırı olaraq söylədiyi mülahizələr olmuşdur ki, həmin mülahizələrdə yaradıcılığın bir dövründən digərinə keçmək kimi, əslində, tamamilə təbii (və qanunauyğun) qəbul edilməli olan bir proses xeyli dərəcədə mistikləşdirilərək o həddə çatdırılır ki, guya müəllif "İdeal"dan başlayaraq "ün" eşitmiş və bütün sonrakı əsərlərini həmin ilahi "ün"ün diqtəsilə qələmə almışdır.

Əlbəttə, məsələnin bu cür qoyuluşuna bizim adət etdiyimiz normativ şüur (və yaradıcılıq) təcrübəsi baxımından interpretasiya vermək, prinsip etibarilə,

mümkün deyil. Ancaq ortada hansı enerjidən gəlib-gəlməməsindən asılı olmayaraq yüksək sənətkarlıqla seçilən mükəmməl yaradıcılıq məhsulları var… Və onların adət etdiyimiz metodoloji texnologiyalarla tədqiqi tamamilə mümkündür.

İsa Muğanna yaradıcılığını yeni rakursdan – "İdeal" işığında araşdıran tanınmış yazıçı, ədəbiyyatşünas və redaktor-naşir Şəmil Sadıq qarşısına kifayət qədər cəsarətli (və çətin) bir vəzifə qoysa da, fikrimcə, onun öhdəsindən uğurla gəlmiş, hətta demək olar ki, İsa Hüseynov - Muğanna yaradıcılığı barədə indiyə qədər deyilmiş ən müxtəlif (çox hallarda isə pərakəndə) fikirlərin fövqünə qalxaraq sistemli bir "muğannaşünaslığ"ın əsaslarını müəyyənləşdirmişdir.



"İsa Muğanna yaradıcılığı" "İdeal" işığında" müəllifi yazır:

"… İsa Muğanna yaradıcılığı "İdeal"dan sonra başladı. Ondan sonra yazılan bütün əsərləri "İdeal" silsiləsinin davamıdır və təəssüflər olsun ki, ədəbiyyatşünaslığımız tərəfindən layiqli qiymətini almamışdır hələ ki. Ümid edirəm ki, oxucu da, alim də qorxmadan, çəkinmədən "İsahəqq, Musahəqq"i, "GurÜn"ü, "Türfə"ni, "İlan dərəsi"ni, "Cəhənnəm"i, "Qəbiristan"ı əlinə alacaq, oxuyacaq və münasibətini bildirəcəkdir bir gün".

Və əlavə edir:

" … Bu tədqiqat işində Muğannanın "İdeal"dan sonra yazdığı əsərlərin tarixi, yazılma və çap olunma dövrləri, çapdakı maneələr və müəllifin əsərlərinə

dönə-dönə qayıtmasının səbəbləri, İsa Muğannanın bir postmodernist yazar kimi, magik realizmin banisi kimi, yeni ideoloji konsepsiyanın yaradıcısı kimi, dinə olan yeni baxışının, romanlarının poetikasını araşdırmağı qarşımıza məqsəd kimi qoyduq".

Göründüyü kimi, miqyas xeyli möhtəşəmdir, lakin nəzərə alsaq ki, Şəmil Sadıq uzun illər İsa Muğanna ilə sıx-sıx görüşmüş, onun nəinki əsərlərinin, bütövlükdə ruhunun dərinliklərinə bələd olmuş, hətta ustadla yaradıcılıq əməkdaşlığı da etmişdir, onda miqyası bu qədər geniş götürməyə müəllifin həm mənəvi, həm də peşəkar səlahiyyəti olduğuna şübhə yeri qalmır.



İsa müəllim həm yazıçı-mütəfəkkir, həm də şəxsiyyət kimi nə qədər yüksək intellektual səviyyədə dayanırdısa, o qədər də pak, səmimi və ünsiyyətcil bir insan idi, həmsöhbətini öz geniş (və kifayət qədər mistik) dünyagörüşünə tabe eləmək fikrindən də uzaqdır. Az-çox ağıllı mülahizə eşidəndə onun müəllifini layiq olduğundan da artıq qiymətləndirir, daxildən (ruhunun lap dərinliklərindən) gələn bir məhəbbətlə tərifləməkdən çəkinmirdi. Və mən heç şübhə etmirəm ki, bu, İsa müəllimin mənəvi zənginliyinin tükənməzliyindən qaynaqlanırdı…

"İdeal"a qədərki yaradıcılığını hərdən özü kəskin tənqid edir, "Yanar ürəy"i elə də dəyərli əsər saymırdı. Görüşlərin birində xalq yazıçısı Anar İsa müəllimə dedi ki, "belə bir fikrim var: İsanın özünü özündən müdafiə cəmiyyəti yaradaq… İmkan vermək olmaz ki, ədəbiyyatımızın "Yanar ürək" kimi

qiymətli əsəri onun tərəfindən bu qədər haqsız tənqidə məruz qalsın”… Anar müəllimin haqlı sözü hamının ürəyindən oldu. Hətta İsa müəllimin də… Bir söz demədi, ancaq razılıq əlaməti olaraq ürəkdən güldü…

Həm İsa Hüseynov, həm də İsa Muğanna haqqında mən də bir sıra yazılar yazmışam, televiziyalarda, müxtəlif yığıncaqlarda çıxışlar eləmişəm. Ancaq bunların çoxunda elmi təhlil azdır. Sadəcə olaraq, dərinliyinə lazımi qədər vara bilmədiyim möhtəşəm yaradıcılıq qarşısında heyranlığımı ifadə etmişəm.

Şəmil Sadıq – mənim keçmiş tələbəm isə bu kitabında İsa Muğanna dünyasının dərinliklərinə enir. O məqamlara (məsələn, mistika, din, magik realizm, postmodernizm və s.) diqqət yetirib geniş (və sözün geniş mənasında müqayisəli!) interpretativ təhlil verir ki, həmin məqamlar yazıçının yaradıcılığını, onun dünyagörüşünün fəlsəfi mahiyyətini, metafizik poetikasını anlamağa əhəmiyyətli kömək göstərir. Müəyyən mübahisəli tərəfləri olsa da, ümumiləşdirmələrinin mütləq əksəriyyəti əsaslıdır. Və ən əsas da odur ki, Şəmil Sadıq İsa Muğanna “mətn”ini həm bir əsər, həm də ümumi yaradıcılığı miqyasında kifayət qədər müfəssəl hiss etdiyinə görə, gəldiyi nəticələr bugünkü ədəbi-tənqidi təfəkkür üçün heç də az səciyyəvi olmayan sxematizmdən uzaqdır.



Müəllif hərdən gileylənir ki, nə oxucular, nə də ədəbi tənqid İsa Muğannanın müasir dövrün qlobal problemlərini dərk etməkdə, doğrudan da, çox fay-

dalı olan əsərlərinə az maraq göstərirlər... Elə bilirəm ki, haqlıdır...

Təsəllimiz isə ondadır ki, əvvəla, böyük əsərlər (və ideyalar) bütün dövrlər və zamanlar üçündür, ikincisi isə bizim günlərdə "İsa Muğanna yaradıcılığı "İdeal" işığında" kimi dəyərli bir əsər meydana çıxırsa, görünür, elə də bədbin olmağa dəyməz...

**Akademik Nizami Cəfərov**

# Giriş

Ağlımın kəsdiyi zamanlarda oxuduğum ilk əsər "İdeal" romanı idi. Əruzşünas alim Zülfəli Zülfəliyevin məsləhəti ilə oxumuşdum. Nə qədər ağır bir əsər olsa da, əsər elə bir formada təqdim edilib ki, bu ağırlığı hiss etmədim. Dünyagörüşü yeni formalaşmaqda olan, ədəbiyyat aləminə atılmağı belə ağlına gətirməyən, sadə kənd uşağının dünya sirlərini özündə daşıyan kainat qədər ağır bir əsəri dizləri əsə-əsə, boğazı quruya-quruya oxuması ona bir istiqamət verdi. Həyat fəlsəfəsini, milli kimliyi, mifik dünyagörüşlərin altında gizlənən tarixi, dildəki kodlu sözlərdə yaradılışın sirlərinin necə gizlədildiyini araşdırmağı, öyrənməyi mənə "İdeal" əsəri öyrətdi. Hər cümlədən sonra kasıb kitab rəfimdən yeni bir kitabı masanın üstünə gətirməyi, müqayisəni, müqayisəli təhlili, məntiqi ardıcıllığı, şübhəni, düşünməyi bu əsər öyrətdi mənə...

"İdeal" romanını oxuduğum gündən müsahibim olan, kitabı sevən, milli qürurunun olduğunu hiss etdiyim hər kəsə bu kitabı tövsiyə etdim. Oxuyanlardan "sağ ol" aldım. Sonra da özüm üçün də üstüörtülü qalan suallara cavab verməyim istənildi. Çıxılmazlara girirdim bəzən və sonda bir gün bu "Sirr qoxuyan kişi"nin özü ilə görüşüb bu suallara cavab alacağımı düşünürdüm həmişə.

Tələbə vaxtı bu görüş üçün çox çalışsam da, alınmadı. Son dövrlərdə İsa Muğanna ilə görüşmək üçün çox cəhd etdim. Bütün yazıçı dostlarımdan, ona

yaxın olacaq bir neçə başqa şəxslərdən də xahiş etdim. Amma mümkün olmurdu ki, olmurdu. Adətən də, səhhətinin yaxşı olmadığı üçün bu görüş baş tutmurdu.

Bir gün dostum Əli İbrahimbəyli zəng etdi ki, səni İsa Muğanna ilə görüşdürəcəyəm. Bu şad xəbərə muştuluq nə verəcəksən? Çünki bir vaxtlar bir tələbə üçün əlçatmaz zirvədə olan böyük bir şəxsiyyətlə görüşməyin mənim üçün ən şad xəbər olduğunu bilirdi.

Və beləcə, İsa Muğannanın əlini sıxmaq və o əllərdən öpmək şərəfinə nail oldum. Qapalı dünyamdakı bütün suallara Muğannanın özündən cavab aldım. Bu sirli insanın təvazökarlığı və məntiqi məni əsərlərində olduğundan daha çox heyran etdi.



Həyat yoldaşı Firuzə xanımla münasibətləri və bu yaşda insanların bir-birinə necə hörmət və sədaqətlə yanaşmaları adamı onlara qibtə etməyə məcbur edirdi.

İlk görüşümüz elə Əli İbrahimbəyli ilə birgə baş tutmuşdu. Elmə, incəsənətə və mədəniyyətə böyük qiymət verən Əli müəllimin və mənim suallarım Muğannanı 200000 illik tarixin dərinliklərindən, 70-80-ci illərin Yazıçılar Birliyinə, ordan bu günə və gələcəyə aparırdı. Hərdən Firuzə xanımın ərkyana "İsa, bir az nəfəs al, yavaş-yavaş danış" deyərək keçirdiyi narahatçılıq bizi susmağa və seyr etməyə məcbur edirdi.

Ustad sənətkar söhbət əsnasında indiki gənclikdən şikayətini də dilə gətirdi. Əsərlərinin oxunmamasından və yenidən nəşr olunmamasından danışdı.

Elə bil neçə illərdir, arzusunda olduğum fikrimi səsləndirmək üçün kömək etdi mənə. Və söz verdim: "85 illik yubileyinizə "İdeal" silsiləsindən, SafAğ elminin əsasları olan 6 əsəri müasir tələblərə uyğun çap edəcəyik". Və belə də oldu: "İdeal", "Məhşər", "Qəbiristan", "Cəhənnəm", "İsahəq-Musahəq", "GurÜn", "İlan Dərəsi" əsərlərini redaktorluğumla çap etdik. Həftədə bir dəfə İsa müəllimi görməyə getdim, qeydlərimizi, dizaynlarımızı ona göstərdim, kitabın formatı haqqında fikirlərini öyrəndim, düzəlişlərini götürdüm. iki eynəyi üst-üstə qoyub oxumasına baxmayaraq, ustad sənətkar hər bir kitabının korrektə səhvinə belə diqqət yetirirdi. Ən çox üstündə işlədiyimiz əsər isə "İdeal" oldu. Çünki həmin əsərə iki ayrıca bölmə yazmış, bəzi hissələrə isə xeyli əlavələr etmişdi. Digər tərəfdən də "Yanar ürək"dən bu tərəfə "heç kəsin anlamadığı bədbəxt OdƏr"in yazdığı bu əsər hər işarəsində böyük bir məna daşıyır, hər bir hərfi bir körpüdür. İsa Muğannanın xətti də o qədər mistikdir ki, bəzən elə olurdu ki, zəng edib filan sözdəki filan hərfdən sonra gələn hərf nədir deyə soruşmasaq olmurdu.

Hər dəfə də ağsaqqalın ocağında süfrə açılırdı. İstər Firuzə xanım, istərsə də qızı Sevinc xanım qərb bölgəsinin zəngin nemətləri ilə bəzədilmiş süfrəyə əyləşməyimizi israrla tələb edirdi. O qədər qayğı ilə, o qədər səmimi şəkildə yeməyi təklif edirdi ki, etiraz etməyə belə adam utanırdı. Firuzə xanım əsl azərbaycanlı ağbirçək təcəssüməsidir.

Firuzə xanımın İsa müəllimə qayğısı hər an diq-

qəti çəkir, bir Azərbaycan qadınının timsalında onunla fəxr edirdim. Söhbətlərin birində Firuzə xanım dedi ki, Allahdan bir arzum var ki, İsa yaşadığı müddətdə məni də yaşatsın. Onu heç kimə etibar edə bilmərəm. İsa müəllim özünəməxsus tərzdə güldü və dedi: – "Onda gərək əbədi yaşayasan!"

Bəli, İsa Muğanna əbədi yaşamağa haqqı çatan bir şəxsiyyətdir. Və sözsüz ki, yaşayacaq da. O vaxta kimi yaşayacaq ki, işıq gəmisi Olama-Yerə ensin və bu dünyanı bir ideya altında birləşdirsin, sülhü, əmin-amanlığı bərqərar etsin. Bağ Atanın OdƏrləri ağ günə çıxsın!

Bir gün demək olar ki, redaktoru olduğum bu əsərlərin hamısının çapı bitdi. Ən son əlimə aldığım əsər isə "İdeal" romanı oldu. 750 səhifəlik bu əsər möcüzəvi bir görünüşlə ruhumun və kitab rəfimin şahı oldu. Sanki arzusunu belə qəlbimə gətirməyə çəkindiyim bir iş baş tutdu.



Mənim də ustad sənətkarımıza bir töhfəm oldu. "OdƏrlər" romanım. Roman haqqında İsa Muğannaya danışdım. Kişinin elə bil çiçəyi çırtladı. "Nə vaxt verirsən, oxuyum", – dedi. Buna inanmadım. Səhhətinin o qədər də yaxşı olmadığını görürdüm. Bunu oxumasını ondan istəməzdim. Amma israrla çap edib göndərməyimi istədi. Kitabı verdim. Üç gündən sonra zəng etdi:

– Ya Allah! Ya Allah! Necəsən? Əsərini oxudum, ürəyimə çox yatdı. Çox mənalı, müdrik, ali roman yazmısan. Sevinə-sevinə təbrik edirəm. Böyüksən, amma daha böyük gələcəyini gözləyirəm... Xahiş

edirəm səhifələrin arxasındakı qeydlərimə laqeyd olma... Çünki bizim ikimizin taleyi var bu kitabda. Tale birliyi, əbədi yazıçılıq birliyi, gələcək həyat birliyi böyük, nadir xoşbəxtlikdir...

Məncə, heç bir azərbaycanlı "İdeal"ı oxumadan, Azərbaycan ədəbiyyatı ilə tanışam deyə bilməz.

Məhz bu səbəbdən də mənim üçün İsa Muğanna yaradıcılığı "İdeal"dan sonra başladı. Ondan sonra yazılan bütün əsərləri "İdeal" silsiləsinin davamıdır və təəssüflər olsun ki, ədəbiyyatşünaslığımız tərəfindən layiqli qiymətini almamışdır hələ ki. Ümid edirəm ki, oxucu da, alim də qorxmadan, çəkinmədən "İsahəqq, Musahəqq"i, "GurÜnü", "Türfə"ni, "İlan dərəsi"ni, "Cəhənnəm"i, "Qəbiristanı" əlinə alacaq, oxuyacaq və münasibətini bildirəcəkdir bir gün.



Giriş bir az uzun olsa da, bu tədqiqat işində Muğannanın "İdeal"dan sonra yazdığı əsərlərin tarixi, yazılma və çap olunma dövrləri, çapdakı maneələr və müəllifin əsərlərinə dönə-dönə qayıtmasının səbəblərini, İsa Muğannanın bir psotmodernist yazar kimi, magik realizmin banisi kimi, yeni ideoloji konsepsiyanın yaradıcısı kimi, dinə olan yeni baxışının, romanlarının poetikasını araşdırmağı qarşımıza məqsəd kimi qoyduq.

***

İsa Muğanna 1986-cı ildə ilk dəfə "İdeal" romanı çap olanda əsərin ön sözündə qeyd edir ki, "Müəllif belə qərara gəldi ki, bütün ömrünü bir kitaba həsr edəsi olsa da, "örtüyü" qaldırıb əcdadının hikmətin-

dən xəbər tutmalıdır[1]. Bəli, belə də oldu, o, 70-ci illərdən başlayaraq ömrünü sadəcə bir kitaba "İdeal"a, və idealın şərhinə həsr etdi. 1970-ci illərdə İsa Hüseynovu İsa Muğannaya çevirən "İdeal" romanından başlanan ədəbi-fəlsəfi yol 2014-cü ildə "Mənim məhəbbətim" adlı yarımçıq əlyazması ilə dayandı.

İsa Muğanna "İdeal" romanının ilk nəşrinin ön sözündə "Hüseynov"dan "Muğanna"ya keçməsini bu cür izah edir: "Ulularımızdan irs qalmış tərkidünyalıq bahasına, gecələrimi gündüzlərimdən seçməyib o mənanı və hikməti ifadə eləməyə çalışdım. İş qurtaranda isə qeyri-rəsmi daşıdığım "Muğanlı" familiyası əvəzinə, dünyadan üzüörtülü gedən əzabkeşlərimin şərəfinə "Muğanna" oldum". [2]



"İdeal" əsəri ilk dəfə "Yazıçı" nəşriyyatı tərəfindən 1986-cı ildə nəşr edilmişdir. Ona qədər isə bu roman "Yanar ürək" adı ilə ilk dəfə 1956-cı ildə yazılmış, 1965 və 1979-cu illərdə çap edilmişdir. "Yanar ürək" romanından "İdeal"a keçidi müəllif "Həyatımdan səhifələr" adlı xatirələrində bu cür izah edir: "Bir gün dərin sükut içərisində, balaca stolumun arxasında oturub "Yanar ürək" romanının yeni variantı üzərində işləyirdim. Birdən başımda səs eşitdim: "Nə yazırsan?" Bu səsi sarsıntılar içində, sükunətli çardaqda tək-tənha oturmağımla bağladım; güman etdim ki, beynimdə nə isə qeyri-adi dəyişiklik olub. Amma bir az sonra səs təkrar olunduqda başa düşdüm ki, səs uzaqlardan – qeybdən gəlir. İstər-istə-

[1] İsa Hüseynov, İdeal, Bakı: Yazıçı, 1986, s 5.
[2] Yenə orda, s 6.

məz diqqət kəsildim. Səs dedi: "Bir romanın neçə variantını yazmaq olar?! Sizin xalqın həyatındakı ictimai-siyasi fəsadlar yalnız siyasi quruluşda, kommunist partiyasının siyasəti ilə bağlı olsaydı, mən sənin "Yanar ürək" romanının təzə variantına etiraz eləməzdim. Xalqın həyatındakı təhriflərin tarixi çox qədimdir. Yer planetində insan həyatının üç tarixi məlumdur. Birinci tarix irəli sananan əlli minillik, ikinci tarix geri sananan əlli minillik tarix, üçüncüsü yeni era adlandırdığınız tarixdir. Mən sənə bu tarixlərdə Yer planetində baş vermiş hadisələri danışacam, bu məlumat əsasında "İdeal" adında roman yazacaqsan".[3]



Əslində, İsa Hüseynovun yaradıcılığının ikinci mərhələsi "Məhşər" romanının yazılması ilə başlayır. Bu isə XX əsrin 60-cı illərinin sonuna təsadüf edir. Düzdür, "Məhşər" romanı ilk dəfə 1978-ci ildə "Gənclik" nəşriyyatı tərəfindən çap edilsə də, bunun əsası 1971-ci ildə Heydər Əliyev tərəfindən "Nəsimi" filminin ssenarisinin yazılması sifarişi ilə qoyulmuşdur. İsa Muğanna həmin hadisəni bu cür izah edir: "1971-ci ildə mənə Mərkəzi Komitədən zəng vuruldu, dedilər: – "Heydər Əliyev səni çağırır." Sevincək getdim və qəbul otağına girəndə sevincim daha da artdı: Ulu öndər məni gülər üzlə qarşıladı və dərhal mətləbə keçib:

– Nəsimi haqqında ssenarini sənə tapşırıram, – dedi. Sonra əlavə etdi: – Bilirsən də, bu, dövlət sifarişidir. Filmin çəkilişinə nə qədər lazımdı, o qədər pul

[3] İsa Hüseynov, İlan dərəsi, Bakı: Hədəf nəşrləri, 2013, s 78.

buraxılacaq.

Mən bir qədər fikrə getdim, dedim:

Mən Nəsimi haqqında heç nə bilmirəm.

Məlum oldu ki, xalq şairi Rəsul Rza Hələb şəhərinə bir aylıq məzuniyyətə göndərilib ki, Nəsimi haqqında Suriyada mövcud olan materialların hamısını yığıb gətirsin. Rəsul Rza Hələbdən qayıdanda məni yenə Mərkəzi Komitəyə çağırdılar. Nəsiminin iki "Divan"ı əsasında çap olunmuş böyük şeirlər kitabını və azərbaycancaya tərcümə olunmuş bir aləm material – məqalələr, jurnal məlumatları verdilər və mən Nəsimini öyrənməyə girişib, əvvəlcə roman yazmağa başladım. Bir neçə ay sonra isə ssenarinin ilk epizodlarını filmin rejissoru Həsən Seyidbəyliyə oxudum. Həsən bircə kəlmə: – Yaxşıdı, – dedi. Bundan sonra mən, demək olar ki, hər gün Həsənin evinə təzə epizodlar aparıb oxuyurdum və Həsəndən eyni cavabı: – Yaxşıdı, – eşidirdim".[4]

"Nəsimi" filmi 1973-cü ildə çəkilmişdir, lakin İsa Muğannanın qeybdən səs eşitməsi və bu təlatümlü hadisələrin başlanğıcı isə 1968-ci ildə baş vermişdi. Müəllifin həyat yoldaşı Firuzə Muğanna bunu uzun müddət çap olunmasında problem yaşanan "Türfə" romanının nəşrə təqdim olunması üçün AMEA-nın müxbir üzvü Nizami Cəfərova yazdığı məktubda daha aydın təsvir edir: "1968-ci ildə alihəzrət Dəmirəlin zamanının başlandığında, Azərbaycan yazıçıları nümayəndəliyinin tərkibində Türkiyəyə getdik. İstanbulu, İzmiri, Ankaranı, Bursanı və sair yerləri

[4] İsa Hüseynov, İdeal, Bakı: Yazıçı, 1986, s 5.

gəzdik, Bolu bəyin kəndini, Koroğlunun Çənlibelini gördük. İstanbula qayıdanda məscidləri gəzdik. Ayasofiya məscidində İsa üzünü göyə tutub dedi: "Biz çoxlu uşaq saxlamışıq, özümüzə övlad istəməmişik. Mən səni tanımıram. Əgər varsansa, Firuzəyə bir övlad ver. Oğlan da istəmirəm. Bircə qız. Bircə qız!" (Ş.S. Tanrı ailəyə yeganə övladı Sevinc Muğannanı 19 ildən sonra bəxş etmişdir). Otelə qayıtdıq. Yorulmuşdum, divanda uzanıb yatdım. İsa kresloda oturdu. Bir azdan məni oyadıb dedi: "İndicə, ayıq-sayıq vaxtımda bir altı-yeddi aylıq, gözəl, gombul qız uşağı gördüm. İməkləyib gəlib dizlərimdən yapışdı, qucağıma mindi, burnunu boğazıma söykəyib mışıl-mışıl nəfəs aldı. Səni oyatmaq istədim, uşaq yox oldu. Nəfəsini indi də boğazımda hiss edirəm. Qızımız olacaq". Mən inana bilmədim. Bakıya qayıtdıq. Bir ildən sonra İsanın o gördüyü qız – Sevincimiz doğuldu. Bundan sonra mənim həyatıma fərəh gəldi. İsanın da işləri yaxşılaşdı. Dalbadal əsərləri çap olundu. İsa məni Rusiyanın şəhərlərində kurort zonalarında gəzdirdi. Bolqariyada, Qara dəniz sahillərində, Pribaltika ölkələrində, bir neçə Avropa ölkəsində gəzdirdi. Yetmişinci illərdə çox qəribə hadisə baş verdi: İsa birdən-birə kainatla bağlandı, özünün dediyi kimi, EySarla danışmağa başladı. EySar, İsUsun, İsa peyğəmbərin həqiqi adı – odu – rütbəsidir. "Ey" – Uca deməkdir. "Sar" – hökmdar deməkdir. EySar – uca hökmdar deməkdir. Bu Od – həqiqət qədim türk dilində – OdƏr dilindədir. EySar İsaya OdƏr dili öyrətməyə başladı. OdƏr dilində indiyə qədər heç

yerdə, heç kəsə məlum olmayan məlumatlar verməyə və tamam yeni ruhda əsərlər yazmağa kömək etdi. "İdeal" romanı, "Peyğəmbərin möhürü", "Məhşər" və bir sıra başqa əsərlər belə yarandı. İndi oxuculara təqdim olunan "Türfə" əsəri də bu qəbildəndir".[5]

Məhz buna görədir ki, İsa Muğanna hələ 1978-ci ildə "Məhşər" romanını bitirdikdə bundan sonra yazacağı əsərləri "Karvan"[6] silsiləsi adlandırır və yerdəki ömrünün sonuna qədər bu karvanın mənzilə çatması üçün bir anlıq da yolundan sapmır. Ötən əsrin 80-ci illərindən bu tərəfə həm ölkənin həyatında baş verən ictimai-siyası, həm də özünün həyatında baş verən iki infarkt onu bu idealdan ayırmır.



1990-cı illərdə çap olunan yazılarının hamısında oxucuya onun bu silsilədən olan əsərlərini hansı ardıcıllıqla oxumasını israrla tövsiyə edirdi: "Yaxın və uzaq keçmişimizin tarixi hadisələr, bədii süjetlər içində verilmiş SafAğ həqiqətlərinin qavranılmasını asanlaşdırmaq məqsədilə mən "İdeal" romanını yenidən və sonuncu dəfə işlədim. Bu əsərlə tanış olmayan oxucu altılığa daxil edilmiş romanlarda SafAğ elminin təfsilatını dərk edə bilməz. Həmin romanlar – "Məhşər" (Ənşər -mən şər") "Qəbiristan" "GurÜn", "İsahəq, Musahəq", "Cəhənnəm", burada göstərilən xronologiya əsasında oxunmalıdır ki, lazımınca yaxın və uzaq keçmişimizdən tarixi hadisələr, bədii süjetlər içində verilmiş SafAğ həqiqətlərinin

5 "Mən səni tanımıram, varsansa, Firuzəyə bir övlad ver", Senet.az, (01 aprel 2015)
6 İsa Hüseynov, Məhşər, Bakı: Gənclik 1978, s 3.

qavranılmasını asanlaşdırmaq məqsədilə fayda versin. Muğanna, 27.01. 2013".[7]

Gördüyümüz kimi, müəllif xronoloji baxımdan "Məhşər"i birinci yazsa da, məhz onu "Karvan" silsiləsinin başlanğıcı kimi qeyd etsə də, öz sağlığında "Hədəf" nəşrlərində Şəmil Sadiqin redaktorluğu ilə çap olunan son əsərlərində "Məhşəri" ideya baxımdan "İdeal"ın izləyicisi hesab edir.



İsa Muğanna əsərlərinin yazılma və nəşr tarixini araşdırarkən xeyli problemlərlə qarşılaşırıq. Bu, əlbəttə ki, müəllifin bir əsərə dəfələrlə yenidən qayıtması, yenidən qayıdandan sonra həmin əsəri artıq yeni bir əsər kimi təqdim etməsindən irəli gəlir. Bunu "İdeal" romanının nəşr tarixlərini araşdırarkən də görürük, sonrakı əsərlərində də. Ehtimalımıza görə "İdeal" əsərinin üzərində müəllif 6 dəfə dəyişiklik etmişdir. İlk dəfə "Yanar ürək" adı ilə 1956-cı ildə yazılan əsər 1965-ci ildə nəşr edilərkən, 1979-cu ildə yenidən nəşr edilərkən, 1984-cü ildə "İdeal" adı ilə ilk dəfə çap edilərkən, 1997-ci ildə "Peyğəmbərin möhürü" hissəsi əlavə edilərək çap edilərkən (bu variantda heç bir nəşr ili və ya nəşriyyat göstərilməmişdir. Yəqin ki, Peyğəmbərin möhürünə verilən yeni yozumun yarada biləcəyi narahatlıqdan qaynaqlanır. Hətta əsərdə hansısa bir redaktor və ya tərtib edən də yoxdur. Məhz bu baxımdan nadir nəşrlərdən hesab edilir və çox da tapılmır), 2009-cu ildə "Avrasiya" nəşriyyatında 6 cildlik seçilmiş əsərləri çap edilərkən və ən nəhayət, 2013-cü ildə redak-

---

7 İsa Hüseynov, İdeal, Bakı: Yazıçı, 1986, s 8.

torluğumla hazırlanan nəşrlərdə. Özünün də qeyd etdiyi kimi son nəşr mükəmməl və bitmiş nəşrdir. Çünki nöqtə-vergülünə qədər yenidən baxıb, "EySar Çarmıxda" adlı bölməni əlavə edərək nəşrə təqdim etmişdir. Hətta əvvəlki bölmələrin arasına xeyli əlavələr də etmişdi. "İdeal" romanından sonra həm yazılma tarixi, həm də ideoloji cəhətdən "Qəbiristan" romanı gəlir. Bu əsərin əmələ gəlməsi də mənim bioqrafiyamla bağlıdır. L.N.Tolstoy deyir: "Lamartin yazır ki, yazıçı yaşadığı mühitdən yazır." Doxsan beşinci ildə mən arada infarkt keçirsəm də, demək olar ki, gözlənilmədən ağır xəstələnib reanimasiyaya düşdüm. Beyin işemiyası nəticəsində yaddaşımı itirmişdim. Çox uzun – doqquz dəqiqə sürən klinik ölümün nə olduğunu bildim. Mərhum atam ölümündən qırx üç il sonra ətrafında beş nəfər adamla ağ geyimdə palataya gəldi, divar dibində, kresloda oturub gözlərini mənə dikdi. Mən, demək olar ki, heç nə hiss etmirdim. Yalnız onu fikirləşdim ki, əlli üçüncü ildə öldürüləndə qırx üç yaşı olan atamın, hesabla, indi səksən beş yaşı olsa da, sifətində, qədd-qamətində heç bir dəyişiklik yoxdur. Gözlərini mənə diksə də, dodaqları tərpənmədi. Səssiz təlqinli ünlə dedi ki, yanımdakılar əmilərindi. Biz OdAğÜz BağOdƏrdən heç yana çıxmamışıq. Hamımız canlı insan qədər canlı işıqdan ibarətik. Sənin beynini sağaltmağa, yaddaşını bərpa eləməyə, klinikadan çıxandan sonra təzə roman yazmaq üçün kömək eləməyə göndərilmişik. Sən EyƏr planetində bizim BağÜn EvƏrimizsən (Bağ Ünü – Ev işığımızsan). "İdeal"

romanında SafAğ elminin əsasını yazmısan, amma hələ kifayət qədər geniş izahını verməmisən. Buna görə də romanın davamını "Qəbiristan" adında romanda yazmalısan".[8] Özünün qeydinə görə bu hadisə 1995-ci ildə baş vermişdir. Lakin "Qəbiristan" romanının yazılma tarixini son nəşrində[9] 2004-2005 yazdı. Diqqət çəkən məqamlardan biri də bu əsərin yazılma tarixini və xronoloji ardıcıllığını fərqli göstərməsidir. Biz "Məhşər" romanını "İdeal"dan sonra oxunmasını tövsiyə etməsində də görmüşdük bu cür yanaşmanı, halbuki "İdeal" romanından daha öncə yazılmışdır. "Həyatımdan səhifələr" adlı biblioqrafiyasında isə biz görürük ki, "GurÜn" və "Cəhənnəm" romanları "Qəbiristan romanından öncə yazılmışdır. Yəqin burda da müəllif sonradan işlədiyi variantı nəzərdə tutaraq bu cür qeyd etmişdir.



*"Qəbiristan" romanından sonra mən 1993-cü ildə "Dünya" jurnalında çap etdirdiyim "GurÜn" və "Cəhənnəm" əsərlərini yenidən işləməyə başladım. Daha sonra köhnə əsərlərə yenidən qayıtmaq vərdişimi davam etdirərək "Doğma və yad adamlar" romanının da yeni variantını yazıb adını da dəyişdirdim: "İsahəq, Musahəq" adlandırdım.*[10] Gördüyümüz kimi, həm 93-cü ildə ilk variantı çap olunan "GurÜn" və "Cəhənnəm" romanlarını, həm də 93-cü ildə yenidən üzərində işlənməsinə baxmayaraq, hələ 1958-1960-cı illərdə "Doğma və yad adamlar" adı ilə yazılan "İsahəq, Musahəq" romanlarını xronoloji ardıcıllıq baxımından birinci Qa-

---

[8] İsa Hüseynov, İlan dərəsi, Bakı: Hədəf nəşrləri. 2013, s 90.
[9] İsa Muğanna, Qəbiristan, Bakı: Hədəf nəşrləri, 2013, s 6.
[10] İsa Hüseynov, İlan dərəsi, Bakı: Hədəf nəşrləri, 2013, s 92.

rabağ müharibəsinə həsr etdiyi "Qəbiristan" romanından sonra göstərir müəllif. Təəssüflər olsun ki, bir çox əsərlərinin yazılma tarixi bu qarma-qarışıqlıqda it-bata düşdüyündən izi tam istədiyimiz kimi apara bilmirik.

"Qəbiristan" romanın ilk mətbu variantına 2006-cı ildə "Azərbaycan" jurnalının 3-cü nömrəsində rast gəlirik.

Müəllifin təqdim etdiyi xronoloji ardıcıllığa sayğı ilə "GurÜn" romanın nəşr tarixini araşdırmaq istəsək də, təəssüflər olsun ki, "Həyatımdan səhifələrdə" 1993-cü il "Dünya" jurnalında çap olunması ilə bağlı qeyddən sonra nə vaxt tamamlandığı haqqında dəqiq məlumat əldə edə bilmirik. Nə 2009-cu ildəki altı cildliyində, nə də "Hədəf" nəşrlərinin sağlığında çap etdirdiyi kitablarda romanın yazılma tarixi haqqında məlumat yoxdur. Ola bilsin hansısa mətbu orqanda çap edilib və ya məlumat gedib, lakin biz əldə edə bilmədiyimizdən, düşünür ki, son və tam variantı 2013-cü ildə ayrıca kitab şəklində "Hədəf" nəşrləri tərəfindən çap olunandır.



1958-1960-cı illərdə yazılan "Doğma və Yad adamlar" romanının müəllif xatirələrində "İsahəq, Musahəq" adı ilə yenidən işlədiyini qeyd edir: – "Mən "İsahəq, Musahəq" romanına da, *"Qəbiristan"-dakı, "GurÜn"dəki, "Cəhənnəm"dəki kimi təzə əsər həvəsi ilə girişdim və nəticəsini gördüm".*[11] Halbuki ilk dəfə birinci hissəsi 1962-ci ildə və sonra "Yanar ürək"lə birgə 1979-cu ildə çap edilmişdir. Bu əsərində yazıl-

[11] İsa Hüseynov, İlan dərəsi, Bakı: Hədəf nəşrləri, 2013, s 16.

ma tarixi 90-cı illər olsa da, ilk dəfə kitab şəklində çapı 2009-cu ildə 6 cildliyində görünür.

Bundan sonra isə "Azərbaycan" jurnalının 2007-ci il 2-ci sayında "Cəhənnəm" romanının çapını görürük. Romanın ilk variantının 1993-cü ildə "Dünya" jurnalında çap edildiyini qeyd etmişdik. Ondan sonra isə deyəsən, sadəcə Azərbaycan jurnalında nəşr edilmişdir. Müəllifin əsərlərinin çapının bu cür ara ilə çap olunmasının səbəblərindən biri də 90-cı illər hadisələri olmuşdur, əlbəttə ki. "Cəhənnəm" romanı da 2013-cü ildə ayrıca kitab şəklində "Hədəf" nəşrləri tərəfindən çap olunandır ki, burda da əsərin tarixini müəllifdən dəqiqləşdirərək yazmaq diqqətdən qaçmışdır.



Nədənsə müəllif heç bir müsahibəsində, çıxışında son yazdığı povest və romanları "İdeal" silsiləsinə aid etməmişdir. Halbuki "İdeal" romanına ön sözü 2013-cü ildə yenidən işləmişdir ki, bu zaman həm "Türfə" romanı (müəllif povest adlandırır), həm də "Qırx kisə qızıl", "İlan Dərəsi", "Söz yarası" povestlərini həmin zaman yazıb yekunlaşdırmışdır. Həmin bu adını çəkdiyimiz əsərlər də SafAğ elmi əsasları üzərində qurulmuş, "İdeal" romanında verilmiş tezis xarakterli fikirlərin izahı verilmişdir. "Türfə" romanının yazılması tarixini müəllif öz əli ilə 2009-cu ilin fevral ayının 20-si qeyd edir. Bəzi müsahibələrində bu romanın çap olunmamasından gileylənsə də, nədənsə əsərinin çapına sanki özü də tərəddüdlü idi. Hətta söhbətlərimizdə bu romana görə fanatiklər tərəfindən sui-qəsdə uğrayacağından

da qorxduğunu qeyd edirdi. Nizami Cəfərova inandığından və hörmət etdiyindən, onun "hələ vaxtı deyil" deməsi də müəllifin bir az geri çəkilməsinə səbəb olmuşdur. "Türfə" romanı ilk dəfə 2015-ci ildə ölümündən bir il sonra "Hədəf" nəşrləri tərəfindən mənim redaktorluğumla çap edilmişdir.[12]

Digər üç povesti "Qırx kisə qızıl", "İlan Dərəsi və ya Peyğəmbərin taleyi" və "Söz yarası" isə müxtəlif zamanlarda "Azərbaycan" jurnalında nəşr edildikdən sonra üçü bir kitabda "İlan dərəsi" adı ilə 2013-cü ildə "Hədəf" nəşrləri tərəfindən çap olunmuşdur. Müəllifin "İdeal"dan sonra bədii əsər adına beş romanı: "Qəbiristan", "GurÜn", "İsahəq, Musahəq", "Cəhənnəm", "Türfə", üç povesti; "Qırx kisə qızıl", "İlan Dərəsi və ya Peyğəmbərin taleyi" və "Söz yarası", bir səhifəlik "Mənim məhəbbətim" adlı simvolik romanı və bir də bir səhifəlik yarımçıq əlyazması oxuculara bəxş edilmişdir. Maraqlıdır ki, İsa Muğanna son və "Yarımçıq əlyazma"sı haqqında danışarkən deyirdi ki, *"EySar deyir ki, təzə tsikl başlayacaqsan. Birinci əsərin böyük romandır. Amma nə məzmunu, nə də ideyası haqda heç nə demir... Amma deyir gözün açılsın sonra deyəcəm. Stolumun üstündə bir səhifəlik yazı var, hər səhər gedib o yazıya baxıram ki, görüm gözüm düzəlir, ya yox. Bu səhər baxdım gördüm ki, oxuya bilirəm az-az." 27.03.2014."*[13]

27 mart tarixində onunla son görüşümüzdə demişdi yuxarıda qeyd etdiyim fikirləri. Və 31 mart



[12] İsa Muğanna, Türfə, Bakı: Hədəf nəşrləri, 2015, s 7.
[13] İsa Muğanna, Türfə, Bakı: Hədəf nəşrləri, 2015, s 14.

2014-cü il 1 aprel tarixinə keçən gecə dünyasını dəyişdi. Mistik bir hadisə isə burda baş verir – "Sirr qoxuyan kişi" taleyində. Yaradıcılığının üçüncü dövrünü başlayacağını demişdi ona EySar... O, doğrudan da, yeni yaradıcılığa başladı, amma bu dünyadan çox-çox uzaqda...

Muğannanın müstəqillik dövrü ədəbiyyatımıza gətirdiyi yeni üslub, yeni era, yeni məktəb təkcə onun bədii əsərlərində deyil, publisistik yazılarında və müsahibələrində də davam edirdi.

Məhz bu səbəbdən araşdırmamızı İsa Muğannanı, İsa Hüseynov yaradıcılığından tam ayrı bir şəkildə, əlaqə yaratmadan təhlil etməyi qarşımıza məqsəd qoyub romanları və povestləri üzərində işləməyi daha vacib sayır, gələcək yazılarımızda və monoqrafiyada bu məsələləri geniş şəkildə araşdırmağı düşünürəm.

# I FƏSİL

*Tarixilik və mistika dini-mifoloji aspektdə*

## 1.1 İsa Muğanna romanlarında vahid din konsepsiyası

### Dinlərin və təriqətlərin yaranma səbəbləri

Bu gün dünyanı bürümüş müharibələr və çaxnaşmaların əksəriyyəti dini zəmində yaranan münaqişələrdən doğduğunu hamımız yaxşı bilirik. İnancsız bəşər ola bilməz. Mehmet Dikicinin dili ilə desək, *"din bir inancdır, lakin hər inanc bir din deyil"*.[14] Fikrimizcə, bu inanclar bir ideologiya halına gəldikdə, dinə çevrildikdə böyük bir təhlükə mənbəyi olur. Hələ ki, bu təhlükə mənbəyinin pultu bir qrup insanın, imperialistin, dövlətin, xüsusən şər qüvvələrin əlində ola, o zaman daha təhlükəlidir. Düzdür, bu pultun kütlənin öz əlində olması da, təhlükəlidir. Lakin planlı şəkildə yaradılan ideologiyalar planlaşdırıldığı üçün insanlığa daha böyük zərbə vurmağa qadirdir. Türkiyə yazıçısı Cemil Meriç dediyi kimi, "həqiqət tərif edildikcə, təhrif edilir." Təhrif isə insalığı yanlış istiqamətlərə aparır. Əgər tarixə nəzər salsaq, insanların kürəsəl dini ayrı-seçkiliyinin hardasa səngidiyi bir vaxtda –erkən orta əsrlərdə dindaxili münasibətlərin qızışdığını görərik. Bu, sonradan yaradılmış məzhəblər, təriqətlər əsasında özünü göstərdi. Maraqlıdır, əgər bütün dinləri insanlara tək Tanrı göndərmişdisə, tək Tanrının çoxdinli sistem yaratmaqda məqsəd nə idi? Belə çıxır ki, ya hər dini yaradan bir başqa Allahdır, ya da bir deyim olan



[14] Mehmet Dikici. Türklerde İnanclar ve Din. Ankara: Akçağ, 2005, s 24.

"*yerdəki dinlərin Tanrıya heç bir aidiyyatı yoxdur.*" Və ya tutalım ki, dinin dediyi kimi, dinləri Tanrı insanlara mərhələ-mərhələ göndərib, onları düzgün yola səsləyib. Onda belə çıxır ki, Aristotel kimi bir dahini görən dünyaya Xristianlıq və İslam kimi din gərək idimi? Lap gerçək kimi təqdim edilən qəbul edib düşünək ki, İslam Tanrının insanlara göndərdiyi sonuncu dindir. Əgər belədirsə və dinlərin gəlişi sona çatmışdısa-sonuncu din gəlmişdisə, elə sonuncu dinin içindən təriqətlərin yaranmasına nə ehtiyac var idi? Məhz ona görə təriqətlər deyirik ki, bütün kitablı dinlər özündən sonra gələnləri ya ümumiyyətlə, din adlandırmır, ya da uydurma din adlandırır. Necə ki Xristianlığın yaradılışında Musəviliyin, İslamın yaradılışında Musəvilik və Xristianlığın əlamətləri var, eləcə də, sonradan yaradılmasına cəhd edilən saxta dinlərin hamısı hansısa dinin təməlləri üzərində qurulduğundan təriqətlər kimi meydana çıxmışdır. Marks və Engels bu barədə yazırdılar: "İslam dininin ideya mənbələri iudaizm və xristianlıq, zərdüştlük, Qədim Şərq, xüsusilə ərəb mifologiyası olmuşdur".[15]

*İranlı alim Hüseyn Tövfiqiyə görə "Alimlərin nəzərincə, din cadugərlikdən, təbiətə pərəstişdən və müşriklikdən tövhid və təkallahlılıq mərhələsinə çatmışdır".*[16]

Bu məqamda məqalənin gedişatında fikirlərimizin daha aydın anlaşılması üçün diqqətinizə məhz üç böyük səmavi dinin rəsmi və qeyri-rəsmi təriqət və məzhəblərini çatdırmaq istərdik:



[15] Marks K. Və Engels F., Din haqqında, Bakı, 1965, s 99.
[16] Hüseyn Töfviqi, Böyük dinlərlər tanışlıq, Bakı:Xəzər Universitesi nəşriyyatı, 2013, s 27.

**İslamda** *Sünnilikdə* Hənbəlilik, Hənəfilik, Malikilik, Mötəzililik, Mövlavilik, Nurçuluq, Qadirilik, Rüfailik, Sələfilik, Şafeilik, *Şiəlikdə* Babilik, Bəhailik, Bədailik, Bənanilik, Bəktaşilik, Carudilik, Cəfərilik, Cənahilik, Dəruzilik, Haşimilik, Keysanilik, İmamilik, İsmaililik, Kamililik, Mənsurilik, Mehdiyyə, Müfavvizə, Muğabrilik, Nemətullahilik, Nəsriyyə, Nəzarilik, Numanilik, Nüsayrilik, Qurabilik, Salihilik, Səbailik, Süleymanilik, Ulyanilik, Vaqifilik, Xətabilik, Yunusilik, Zərramilik, Zərrarilik, Zeydilik.

**Xristianlıqda** Adopsiyanizm, Albigeosler, Antoinizm, Arianizm, Barnabascilar, Benediktinler, Bogomilizm, Cizvitlik, Eukhitailer, Flagellanti, Fransiskenler, Hieronymus, Karmalitler, Katarlar Maniseizm, Markionculuk, Maruniler, Meczuplar, Molinosculuk, Montanosculuk, Mormonlar, Nasturiler, Paulusculuk, Pietizm, Presbiteryanizm, Prutenlik, Quakerler, Sabilik, Shakerler, Valdoculuk, Valentinizm.



**Yəhudi-Musəvilikdəki** təriqət və məzhəblər: Ortodoks Yəhudilik, Modern Ortodoks Yəhudilik, Haredi Yəhudiliyi, Hasidik Yəhudilik, Yeniden Yapılanmacı Yəhudilik, Humanist Yəhudilik.

Bu qədər dinin və ya təriqətin yaranma səbəbləri insanı düşündürməyə bilmir. Fikrimizcə, bu gün dünya insanlarını yönləndirən bu fikir silahları müxtəlif səbəblərdən meydana çıxmış və inkişaf etmişdir.

Tədqiqatçıların dinləri təsnifi müxtəlif cürdür. Bunlardan diqqət çəkən bölgülər aşağıdakı kimidir:

*"1. İlk dinlər. Bəzilərinin dini inkişafının ilk addımı olaraq düşündükləri animizm, natürizm, totemizm, fetişizm kimi sadəcə bir kult olaraq düşünülən nəzəriyyələr, ilk qəbilə dinləri (Nuer, Dinka dinlər )*

*2. Milli dinlər. Əsasən bir qurucusundan söz edilməyən, sadəcə bir millətə aid olan ənənələr çərçivəsindəki fəaliyyət göstərən dinlər (Yunan, Misir, Roman, Türk dinləri kimi)*

*3. Dünya dinləri: İslam, Xristianlıq, Müsəvilik kimi.*[17]

Bu bölgüyə diqqət etsək və dinlərin bugünkü vəziyyətinə baxsaq, daha çox cəhalət və ayrıseçkiliyi dünya dinləri adlandırılan müəllifli dinlərdə görə bilərik. Bugünkü bəşəri fəlakətlərin əsas baiskarı elə məhz müəllifli dinlərdir desək, yanılmarıq.



Müəllifli dinlərin daxilindəki parçalanmaların təzahürü kimi Ərəstun Həbibbəyli Sufi cərəyanların yaranma səbələrini dörd amillə qeyd edir:

*"1. Sufizm, xüsusilə islamın ilkin dövrlərində bu dinin yeni ərazilərə yayılmasına xidmət etmişdir.*

*2. Müsəlman dünyası daxilində baş verən siyasi hadisələrə əks-reaksiya.*

*3. İslamdan əvvəlki elmi dünyagörüşünün dinin imkan verdiyi çərçivədə əksi.*

*4. Ərəb işğalı hesabına vahid ümmətə çevrilən müsəlman dünyasında ayrı-ayrı milli-etnik, teoloji xüsusiyyətlərin təzahürü".*[18]

Prof. Dr. Neşet Çağatay və prof. Dr. İbrahim Agih Çubukçu "İslam məzhəbləri tarihi" kitabında

---

[17] Mehmet Dikici. Türklerde İnanclar ve Din. Ankara: Akçağ, 2005, s 26.
[18] Ərəstü Həbibəyli, Sivilizasiyaların kəsişməsində türk dünyası, Bakı: Elm və Təhsil, 2011, s 166.

da İslam dinindəki məzhəblərin yaranma səbəbinin dörd olduğu qənaətindədirlər: siyasət, İslam dövlətinin sərhədlərinin genişlənməsi, mənfəət, savadsızlıq.[19]

Dinlərin və ya məzhəblərin yaranma səbələrini isə biz bu cür ümumiləşdirə bilərik:

**1. Kamil insanın həqiqət axtarışı;**

İnsanın dünyanı dərki yolundakı mübarizəsi şəraitində inanclar sistemi formalaşmağa başladı. Bu inanclar zaman-zaman böyük kütlələri əhatə etdi və beləcə, tayfa və qəbilələr bu inanc sisteminin gətirdiyi qaydalarla idarə edilməyə başlandı. Sonralar isə həmin sistemin yetişdirdiyi sonrakı nəsil – kamil insanlar inandıqları dinin naqisliyi qənaətinə gəldi və yeni ideya axtarışına çıxdı. Əldə olanın əsasında yeni və saf ideologiya yaratmağa cəhdlər etdi ki, sirli dünyanı olduğu kimi anlaya bilsin və yaşam tərzini qaydaya salsınlar.



Bu inanclar, dinlər sistemi seçilmiş, haqq uğrunda yola çıxan kamil insanların arzusu idi. Onlar inanclarının batininə endikcə təhriflərin, gizlədilmiş sirlərin olduğu qənaətinə gəldilər, inandıqları dinin əsasları üzərində yeni konsepsiyalar irəli sürdülər, zaman-zaman haqq səslərini insanlara çatdırmağa başladılar və təşkilatlandılar. Onların tərəfdarları çoxaldıqca bir din modeli yarandı...

[19] Neşet Çağatay və İbrahim Agih Çubukçu, İslam məzhəbləri tarihi, Ankara Universiteti Basımevi, 1985, s 10-11.

**2. Zamanın yaratdığı dinlər və ya dinlərin zamanla ayaqlaşdırılması;**

İnsan şüurunun, elm-texnikanın inkişafı nəticəsində dəyişən dünyaya uyğunlaşdırılmış dini yaşam tərzi yaratmaq arzusu. Bu gün istər din xadimləri, istərsə də hər hansı bir dinə mənsub olan insan təqdim olunan dini olduğu kimi yaşaya bilmir. Çünki insan ruhu çərçivə sevmir və azaddır daima, lap Tanrısı kimi. Biz tarixdən, bədii əsərlərdən də görürük ki, dinlərin qoyduğu qadağaları ilk pozan elə din keşikçilərinin özləri olmuşlar. Belə halda ortalığa digərlərindən daha geniş düşünməyi bacaran dahilər çıxmış, zaman və şəraitə uyğun olaraq özünün başa düşdüyü dini dünyagörüşü sistemə salmışdır. Bu fikirlərlə razılaşanlar onun ətrafına toplaşandan sonra isə artıq bir cəmiyyət yaranmış və bu idelogiyaya inanıb onu geniş kütlələrə yayanlar meydana çıxmışdır. Bu isə artıq dinləri, təriqətləri meydana gətirmişdir. Və beləcə, parçalanmağa və savaşmağa başlamışdır insan. Mövlanə Cəlaləddinin dediyi kimi, "təriqət qanlı yoldur. Orda can vermək də hər adamın bacardığı iş deyil. Əldən düşənə qədər savaşmış, zəiflər məğlub olmuşdur. Amma ideyaları məğlub olmamış, insanlar öz ideyalarını bəzən heç kimə açmadan onu yaşamışdır." Əslində din də bir yaşam tərzidir. Hər kəsin özünəməxsus yaşam tərzi düzgün ola bilmədiyi üçün ideologiyaların nəzarəti altında da yaşam tərzi çərçivəyə salınmağa cəhd edilmişdir. Bu isə heç bir zaman azad insanı qane edə bilməzdi. Dininə sadiq bir insan birdən oxuyur ki, sən örtün-

məlisən və ya gündə bir neçə dəfə ibadət etməlisən, əgər örtünməsən və ya ibadətlərini yerinə yetirməsən bu dini olduğu kimi yaşamırsan, əsl mömin hesab edilmirsən. Və ya Sibirin soyuq dağlarında sərt şaxtadan qorunan kimsə yağlı yemək üçün donuz ətinə müraciət edir və yaşadığı dinə xəyanət etmiş olur və s. Bu cür hallar bütün dinlərdə mövcuddur. Bu gün ən mömin müsəlman belə rəsm çəkdirir. Bu isə islamın qaydalarına ziddir. Deməli, dinə yeni yanaşma lazımdır və belə olan halda, həmin dövrün üləmaları başlayırlar ayələrə günün tələbi çərçivəsindən baxmağa. Və beləcə, yeni dinlər, təriqətlər yaranır.



**3. Layihələndirilmiş dinlər;**

İnsanın inam hissinin qalib gələ bilməyəcəyi güc yoxdur. Tibbin, psixologiyanın da əldə etdiyi nəticələr onu göstərir ki, insan inansa hər şeyə qadirdir. Hətta el arasında səslənən "qara daşa inansan, şəfa taparsan" fikri də bunun sübutudur.

Türklərin eramızdan əvvəl yaratdığı imperiyaların əsas gücü də elm sahibi, insanları inandıraraq arxasınca apara bilən liderlərin varlığı idi. *"Türklər və Hindular bütün dinləri insanlığa miras buraxdılar. Onlar təkcə bir yerdə oturub Tanrıya tapınma yolları icad etmədilər. İnsanın etiqadları bütün insanlığın ruhlarının ən dərinlərində yaşayar. Bədənlərimizin, ruhlarımızın, drvanışlarımızın və ağıllarımızın bir üzvü kimidir. Əslində*

*onlar bizim öz bədənlərimiz, ruhlarımız, darvanışlarımız və ağıllarımızdır".*[20]

Türk təfəkküründə inancın güclü olduğu dövr türk dünyaya hakim olub, inanc sistemi dağıldıqda və ya zəiflədiyi təqdirdə türk də gücünü itirib. Bununla əlaqədar Cəlal Bəydili yazır ki, *"Tarix boyu dağınıqmış kimi bir təəssürat oyadacaq qədər geniş coğrafi məkanda yayılan türk etnosu ayrı ayrı dinlərlə, dini inanış sistemləri ilə təmasda olmuşdur. Türk düşüncəsinə buddizmin, manixeizmin, xristianlığın və ya islamın hansı ölçüdə təsir göstərdiyini söyləmək çətindir. Lakin həmin təsir nə dərəcədə olursa-olsun, türk etnik-mədəni ənənəsinə və onun da bünövrəsində dayanan dini-mifoloji düşüncə sisteminin təməlinə əsla onu sarsıdacaq dərəcədə toxuna bilməmişdir. Ona görə ki, türk etnik mədəni ənənəsi öz təbii halıyla yaşayan sistem kimi olduqca stabil və mühafizəkar deyiləcək qədər dayanıqlıdır".* [21]



Bunun fərqinə ilk olaraq Avropalılar vardı. Türkün ideologiyasından yararlanaraq yeni konsept yaratdı və ona siyasətdə güc gəlməyə başladı. Bu o qədər ciddi məsələyə çevrildi ki, dünyanın əbədiyyətə qədər idarə edilməsi arzusu müxtəlif qrupları birləşdirdi və bu gün də haqqında danışılan gizlin güclərə çevrildilər. Beləcə müxtəlif inanclardan yararlanaraq onları təqib edərək yeni və əsaslı konseptual dinlər yaratdılar. Bunlar zaman-zaman bir-birini əvəzləməyə başladı. Fikirlər köhnəldikcə yeni din

[20] Gene D.Matlock. Ey Dünya İnsanları Hepiniz Türksünüz, İstanbul: Topkapı, 2012, s 17.
[21] Cəlal Bəydili. Türk mifoloji obrazlar sistemi: struktur və Funksiya. Bakı: Mütərcim, 2007, s 17.

yaratmaq zərurəti yarandı. Bu zərurətdən bir-birinin demək olar ki, təkmilləşdirilmiş variantları, kitablı dinlər meydana gəldi və bu dini ideologiyanın əsirinə çevrilmiş insanları isə idarə etmək daha asan, daha sadə oldu. Çünki mayasında bir qorxu, bir təlatüm vardı. Beləcə gizli güclər dinlərin ideyasına söykənən dövlətlər yaradıb bu layihəni davam etdirirdilər. Mükəmməl layihələr əsasında yaradılan dinlər (və ya təriqətlər) yüksək nəticələr əldə etdi. Amma bu layihə sahibləri unutdular ki, insan öz-özlüyündə inkişaf edən bir mexanizmdir. Və bu konsepsiyanı həzm etdikdən sonra düşünməyə başlayacaq. Əlbəttə ki, düşündü də. Amma layihə sahibləri peyğəmbərlər institutu yaratdıqları kimi yeni modeldə keşişlər, imamlar da hazırladılar. Diqqət etsək görərik ki, dünyanın iki böyük dini İslam və Xristianlıq arasındakı çəkişmələrin bitməyə doğru getdiyi erkən orta əsrdə hər iki dinin daxilində parçalanmalar başladı və bu parçalanmalar dərinləşdirildikcə dərinləşdirildi.



Təriqət başçılarının güclənməsi üçün hər şeyi etdilər (Bu hər şeyi edən gizlin güclərin milli mənsubiyyəti yoxdur, məncə. Onlar da çox yaxşı bilirlər ki, dünya insanları vahid kökdəndir). Və bir neçə əsrdə insanları bir-birinə qırdıraraq var-dövlət topladılar, yaradılışın əsl sirrini axtarmağa vaxt qazandılar. İnsanlar yenə özlərini dərk yolunun işığını görəndə isə artıq milli kimlik məsələsi ortaya atıldı və böyük xəyalların qızışdırılması mexanizmi işlənildi. Bu gün də dünya insanını qorxu idarə edən masonları, xaş-

xaşiləri, sələfi, Əl-qaidə, İŞİD (İraq Şam İslam dövləti) kimi qruplaşmalar var. Və bəşəriyyətin qan gölündə üzməsinə səbəb dini düşüncə sisteminin fərqliliyidir. Əgər bu fikri qəbul etməyənlər varsa, Yaponiya modelinə diqqət etsinlər. Çünki yaponların dini dünya görüş sistemində ərəb, türk xalqlarındakı kimi ciddi parçalanmalar yoxdur. Və insanlar bir-birini düşüncəsinə görə qırmır. Bir-birinə düşüncə sisteminə görə düşmən kəsilmir. Lakin hansı ölkələrdə dini-dünyagörüş sistemi rəngarəngdirsə, hətta bu rəngarənglik bir sistemin içində özünü göstərirsə, insanlar arasında bir o qədər də bölünmə və təfriqəçilik var.



## İsa Muğanna yaradıcılığında dinə yeni baxış

Bütün bu yuxarıda göstərilənləri və geniş girişi təsadüfi vermədik. Çünki bunların köməkliyi ilə Azərbaycan ədəbiyyatının, o cümlədən Azərbaycan modernsit ədəbiyyatının görkəmli nümayəndəsi, milli magik realizmin yaradıcısı İsa Muğanna (Hüseynov) (1928-2014) həqiqətini açmağa çalışacağıq. Belə ki, müəllifin "İdeal"dan sonrakı yaradıcılığı ilə tanış olanlar da, olmayanlar da Muğannanın nə demək istədiyini düşünür: Doğrudan da, Muğanna sirli gerçək, magik realizm nümunəsi "İdeal" və onun işığında yazılan "Cəhənnəm", "GurÜn", "Qəbiristanlıq", "İsahəq, Musahəq", "İlan dərəsi", "Türfə" kimi əsərləri ilə nə demək istəyirdi? Bu sualın cavabını

monoqrafiya boyunca verməyə çalışsaq da, Azərbaycan ədəbiyyatının böyük dramaturqu Hüseyn Cavidin "Şeyx Sənan" faciəsində haqq aşiqi Dərvişin sözləri ilə öncədən də vermək olar:

Şəriətdən, təriqətdən kənarəm,
Həqiqət istərəm, yalnız həqiqət!
Yetər artıq şəriət, ya təriqət.
Qulaq verməm bən əsla bir xitabə,
Pərəstiş eyləməm hiç bir kitabə!
Əvət, Quran, Zəbur, İncilü Tevrat
Birər röya bütün əlvahi-aləm,
Birər əfsanə, cənnət, ya cəhənnəm.[22]



İsa Muğanna türk millətçisi idimi, ateist idimi, deist idimi? O İsapərəst idimi? Onu sarsıntı keçirən və başına hava gələn bir insan hesab edə bilərikmi? O peyğəmbərlik iddiasınamı düşmüşdü? O sahibzaman arzusunda idimi? Bütün bu suallar İsa Muğanna yaradıcılığı ilə yaxından uzaqdan əlaqəsi olan hamının beynindən ya keçib, ya da keçməkdədir. Bəziləri isə öz mövqeyindən çıxış edərək cavabını verib və bu yaradıcılığa ya aşiq olub, ya da xülya adlandıraraq uzaq olmağa çalışıb. İsa Hüseynovu "primitiv təfəkkür" sahibi hesab edib Muğannaya çevrilən yazıçı həqiqətən də kim idi? Hansı ilahi və ya qeyri-ilahi qüvvə idi onu ətrafındakılardan fərqli düşünməyə vadar edən? Verilmiş və təsdiq gözləyən sualların hamısının birmənalı cavabı, məncə, Muğanna idi. Bəşər övladını bütün sirli oyunlardan saflaş-

[22] Hüseyn Cavid. Seçilmiş əsərləri II cild “Şeyx Sənan” pyesi. Bakı: Elm, 2007, s 172.

dırmaq üçün özünü təhlükəyə atan bir insan fədaisi idi Muğanna. Təhrif insan deyə-deyə insan beynini ləkədən yumaq üçün çalışan bir filosof idi. O "İdeal"-dan sonrakı bütün yaradıcılığında təhrif dini – İslamı rədd etdi. Amma peyğəmbərləri rədd etmədi. Peyğəmbərlərin zamanında da, ondan sonra da müqəddəs kitablara edilən əlavələri rədd etdi. Amma yenə də yaradanı, peyğəmbərləri rədd etmədi. Sadəcə onlara yeni ad verdi. Öz inandığı, insanlığın hiyləsi ilə ləkələnməmiş SAF adları. Əgər Muğanna yaradıcılığına təqdim edilmiş OdƏr dilinin ağırlığına baxmadan ideyasına, məzmununa, ünvanlanan mesaja diqqət etsək, görərik ki, Muğanna həqiqəti Tanrı və onun oğulları konsepsiyası üzərində qurub. Kamil insanı tanrı – yaradıcının oğlu hesab edib.Və bəşər övladını tam görmək istəyib. İsa Muğannaya görə Bağ Atanın – Tanrının oğulları kimlər idi?

*"İnsanı insana, Yer planetini kainata bağlayan Bağ Ata adlanır. Təkdir, lailahəilləllahdır. Dörd oğlu var:*

*Birincisi ƏsƏlMəndir ki, mənası – mənim yaradan oğlum deməkdir. (Ərəbcə tərcüməsi Süleyman peyğəmbərdir).*

*İkinci oğlu ÜnEydir (təhrifi "Nuh" "Hoydos").*

*Üçüncü oğlu EvƏrimdir (Evimin İşığı deməkdir. Ərəbcə təhrifi İbrahim peyğəmbərdir. Biz də belə deyirik. Xaçpərəstlər isə Avraam deyir).*

*Dördüncü oğlu EySardır ("Ey"- uca deməkdir. Sar – (Çar) hökmdar deməkdir).*

*EySar – Uca Hökmdar deməkdir. ƏlAğ (Allah) ərəblərin təhrif etdikləridir. ...İndi Yer (EyƏr) planetini idarə edən ƏlAğ EySardır”.*[23]

Təəssüflər olsun ki, magik realizmin ədəbiyyatımızdakı yaradıcısının simvolikasını anlamayan, dərin qatlara enməyi bacarmayanlar bu şərti adlara ilişib qalır və əsas mənadan uzaqlaşırlar. Professor Tahirə Məmməd İsa Muğannanın bəşəriyyətə təqdim etdiyi bu rəmzi dil haqqında danışarkən yazır: "Muğanna rəmzlərlə bir Dil açmağa çalışır – rəmz, işarə hesab etdiklərini söz-söz aydınlatmaq istəyir, “təhrif” hesab etdiklərini ilkin şəklinə döndərir və bu zaman yaratdığı bədii model və oxucunu qarşılaşdırdığı yazıçı gerçəyi ilə yozulması gərəkən ikinci bir sistem ortaya qoyur. Bu poetik sistem özlüyündə bir “quş dili”dir. “Quş dili” Tanrı ilə insan arasında gizli ünsiyyət dilidir; o dili öyrəndikcə Tanrıya, yoxdan vara doğru yol gedirsən".[24]



Beləcə, vahid Allah, vahid insan, vahid din arzusunda olan SafAğ – ən təmiz adamı dərk edə bilmir. Muğannanın insanlara çatdırmaq istədiyi yeganə və əsas fikir Tanrı birdirsə, onun dini də, dili də bir olmalıdır. Hüseyn Cavid də bunu " Din bir olsaydı yer üzündə əgər, Daha məsud olurdu cinsi bəşər" [25], – deyə ifadə edirdi.

"İdeal" əsərində dinlərin dünyanı ilahi ədalətə yox, münaqişəyə, düşmənçiliyə sövq etdiyini vurğu-

---

[23] Şəmil Sadiq, Odərlər romanı. Bakı: Hədəf nəşrləri, 2013, s 88.
[24] Ölümdən sonrakı həyat, Məqalələr toplusu, Bakı: Hədəf nəşrləri, 2014, s 55.
[25] Hüseyn Cavid. Seçilmiş əsərləri II cild. “Şeyx Sənan” pyesi. Bakı: Elm. s 255.

layır: – *"Dəhşətdir axı, ay əmi! "Allah" – qardaş kimi!.. Dünənəcən, bu günəcən yad bilirdim mən "İsus"u – "İsa"nı..*

*– Yad? Necə yani "yad?!" Düşün! Dindi sənə yad! Dinin yaratdığı əfsanələrdi!"*[26]

Bütün peyğəmbərlərin bir ruhun daşıyıcısı olmaları fikrini ifadə edən Muğanna bununla insanlığın da qardaşlığını vurğulamaq istəmişdir. Bütün dinləri yaradan peyğəmbərlərin davamçıları şöhrət əsiri olmamışdan öncə bu iddiada olmuşlar. Bütün yaradılmışlar eynidir deyib, insanlıq deyərək hakimiyyət, imperiya quran peyğəmbərlərin sonrakı davamçıları təkəbbür və kibrdən insanların onlarla eyni düşünmədiyini Allahı tanımadıqları kimi qiymətlənidirib qılıncdan keçirmiş və ideyaları istədikləri kimi dəyişdirmişlər.



Əsərin başqa bir yerində isə *"Oxuma o tərcümələri. Nizami yox dərəcəsindədi o zər cildlərin içində. "Xəmsə"də, yenə deyirəm "Allah" yoxdur. "Peyğəmbər" var.*

*"Xəmsə"nin köynəyini cırıb atacam: "İslam" adlananı da, "Xristianlıq", "Büdpərəstlik" adlananları da cırıb atacam! Mifləri, əfsanələri məhv edəcəm!"* [27]

Bəli, maskalar nə qədər qəşəng görünsə də, yenə maska olaraq qalır və insan onun altındakı həqiqəti görmək arzusu ilə yaşayır. İnsanın dini – milli köynəyini soyundursan altında saf insan var. İnsan ruhu var: tərbiyəli, tərbiyəsiz. O insanın ruhunun tərbiyəsi

---

[26] İsa Muğanna, İdeal, Bakı: Hədəf nəşrləri, 2013, s 551.
[27] Yenə orda, s 551.

ilə məşğul olmanın nəticəsidir ki, mənfi və müsbət olur, aqil və cahil olur, vicdanlı və vicdansız olur. İstər kilsədə, istər sinaqoqda, istər məbəddə, istərsə də məsciddə olub ən mömin insan kimi görünsün, bircə dəfə Cavidin "İblis" pyesindəki Elxanın ədalət sınağından keçirildikdə onun varlığı olduğu kimi ya ayaqlar altına töküləcək, ya da göylərə uçacaq ki, toxunulmasın.

İsa Muğannanın konsepsiyasını özündə daşıyan birinci nümunəyə diqqət edək. Əlbəttə ki, Allahın – Bağ Atanın oğulları kimi təqdim edilənlər İsa Muğannanın icadı deyil. Dördü də dinlərin müqəddəs bir insan kimi təqdim etdiyi peyğəmbərlərdir. Muğanna onları bir olan Allahın oğlu kimi təqdim edir. Bu isə insanları qardaşlığa, birliyə səsləməkdir.



Matthev J.Slick "Tanrının oğlu ola bilməzmi?" məqaləsində müsəlmanların Tanrının oğlu ifadəsinə yanaşmasını izah edərkən yazır: Bəzi müəslamanlara görə "Tanrı oğlu" termini bir növ uşaq doğan, tanrıça arvadı olan bir Tanrı fikrini ağıllarına gətirməkdir. Xristianlar bu "Tanrı oğlu" ifadəsini İsaya aid etdiklərində müsəlmanlar anında Xristianların Tanrının Tanrıça arvadı ilə birlikdə bir cinsi əlaqəyə girdiyini ifadə etdiklərini zənn edib Xristianların Tanrıya layiq olmayan bir əməlini qəbul etmirlər.[28]

Tamamilə doğru yanaşmadır. İsa Muğanna da Tanrının oğlu dedikdə, heç də onun hansısa bir arvadı olduğunu demək istəməmişdir. "*İnsanı insana,*

---

[28]Şəmil Sadiq, "İsa Muğanna Həqiqəti Hüseyn Cavid İşığında", 525.az (07.07.14)

*Yer planetini kainata bağlayan Bağ Ata adlanır. Təkdir, lailahəilləllahdır"* deyirdi İsa Muğanna. Bu ifadəni isə bütün dini kitablar deyirlər. Allahın oğlu ifadəsi simvolikasının batininə enən orta əsrlər Hürufi şairi İmadəddin Nəsimi isə "Ənəlhəq" deyirdi. Və bu "ənəlhəq" – "mənəm allah" və "allah məndədir" deyən Nəsimi "Allahın oğlu İsadır" – deyən xristianlardan daha cəsarətli addım atmışdır. Bu insanın tanrısına olan sevgisi və humanizmindən irəli gəlir. Əlbəttə ki, yaradan yaratdıqlarına öz nurunu, öz ruhunu qatmışdır. Dinlərin Allahın yerdəki elçisi, sözçüsü kimi təqdim etdiyi qutsal Tanrının oğlu demək isə heç bir qəbahətli iş deyil. Məgər hər bir insan yaratdığı əsərinə məcazi mənada öz övladı demirmi? Tanrının yaratdığı mükəmməl insan da onun övladı hesab edilməlidir. Məcazi mənada peyğəmbərləri Tanrının oğlanları hesab etmək isə dinə heç bir ziddiyyət təşkil etmir. Əksinə dinin mövqeyini təsdiqləyir. İsa Muğanna da Tanrının oğulları deyərək təqdim etdiyi peyğəmbərlərə ilahi qüvvə kimi baxır, onları və onların ideologiyalarını məkirli insanların bulaşdırdığı çirkabdan təmizləyib, saflaşdırıb öz dərk etdiyi kimi bəşəriyyətə təqdim edir. Bu təqdimatda modern yanaşma var. Bu modern yanaşma insan oğlunun yaşadığı bu böyük dünyada qansız, müharibəsiz, hiyləsiz, Nizaminin, Nəiminin, Nəsiminin, Cavidin axtarışında olduğu kamil insan modelini xatırladır.

İsa Muğanna bütün əsərlərində demək olar ki, bəşəriyyətin qəbul etdiyi peyğəmbərlərə hörmətlə yanaşır və adını çəkib öz yozumunu verir. Hətta bəzi din alimlərinin söylədiyi *"bütün peyğəmbərlər bir nəsildəndir"* fikrini bədii yolla ifadə edir deyə bilərik. "İdeal" əsə-

rində Bağ Atanın nəslindən danışanda *"Ulu Bağ ƏsƏlmənin (Süleymanın) sonrakı parçalanmağı lap müsibətdir"* deyir. Və bu parçalanmadan Zərdüşt peyğəmbərin – *SarOdƏsin (Mənası Yaradan həqiqət sarı hökmdarı)* yarandığı qənaətinə gəlir. *Başqa bir məqamda da Musa peyğəmbəri BağSar* adlandırır və *"Necə təsəvvür edəsən ki, "Süleyman"nan, "Musa" eyni adamdır? "Süleyman" – padşah, "Musa" – çoban, bu lap dəhşətdir"* [29].

Əslində Muğannanın bu idealı bir növ də peyğəmbərlərin çirkaba bulaşmış dünyanı qurtarmaq arzusu ilə ac-yalavac yola çıxmaları zamanı başlamışdır. Seçilmişlərin vəzifəsinin də önəmli olmadığını diqqətə çatdıran ustad yazıçı Süleyman peyğəmbərin hökmdarlığı ilə, Musa Peyğəmbərin çoban olmasını qarşı-qarşıya qoyur və vəzifənin, mənsəbin ziyaya, aydınlığa heç bir maneçilik olmadığını vurğulayır. "Həzrəti Məhəmməd öz özünə səslənirmiş kimi: Əlbəttə, elə bir peyğəmbər yoxdur ki, çobanlıq etməsin".[30] Məhəmməd peyğəmbərin də həyatında çobanlıq və hökmdarlıq birləşmişdir.



"GurÜn" əsərində müəllifin dilindən verilən şərhdə yazılır: *""Mehdi" və sair rütbələr - adlar Sahib Zaman EySara, həm də EySarın "GurÜn"nü yazan BağHəmOda aiddir. Odur ki, EySarın özü ilə birlikdə BağHəmOdu da Sahib-Zaman sayır".*[31]

Bu mətndən aydın görünür ki, Muğanna Məhəmməd peyğəmbəri də, İsa peyğəmbəri də zamanın sahibi hesab edir. Bu gün şiələrin zühurunu gözlə-

---

[29] İsa Muğanna, İdeal, Bakı: Hədəf nəşrləri, 2013, s 543.
[30] Con Adeyr, Lider. Bakı:Yənbu, 2014, s 35.
[31] İsa Muğanna, GurÜn, Bakı: Hədəf nəşrləri. 2013, s 49.

diyi, dünyanın hökmdarı hesab etdikləri Sahib-zamana da hörmət edir. Onların ideallarını, başlatdıqları yolları bir-birindən fərqləndirmir. Bu mövqeni biz sonuncu din olan İslamda da görürük. Bütün mənbələr də Məhəmməd peyğəmbərin İsanı qəbul etdiyini, onun yolunu davam etdirdiyini yazır. Deməli, Muğanna bədii təfəkkürdən çıxış edərək keçilmiş tarixi öz yozumlarında ifadə edir. İnsanlıq haqqı və ədaləti daima axtardığı üçün bütün dinlərdə haqq sahibinin, tanrı elçisinin bir gün yer üzünə yenə qayıdacağı inancı var. Xristianlar İsanın, müsəlmanlar imam Sahib-Zamanın, Buddistlər Buddanın, onlardan daha qədim olan türklər Gök Tanrı dinində Tanrı Xaqanın oğlunun qayıdacağını gözləyirlər.



"GurÜn" əsərindən digər bir məqama diqqət edək: SafAğ alimləri deyir: *"Quranın bətni var. O bətnin də bətni var. Cəmi altı bətn var. Həqiqət yeddinci bətnddədir." Ərəb Xəlifəsi Müstədbillah deyib: "Altı bətn varsa, həqiqət necə yeddincidə ola bilər?! Alimlərimiz deyiblər: "Yeddinci bətn Xəlifənin seyfindəki "GurÜn"-dədir, onun da üstünə qan tökülüb, oxunmur!"*[32]

Bu nümunədən aydındır ki, İsa Muğanna bütün dini kitablar kimi Quranın da bugünkü varinatının tam olmadığı qənaətindədir. Bu qənaətə isə İsa Muğanna geniş mütailəsinin sayəsində gəlmişdir. Çünki dini kitabların təhrif olunduğu qənaətində olan bir çox alimlər var ki, fundamental əsərlərlə çıxış ediblər.

---

[32] İsa Muğanna, GurÜn, Bakı: Hədəf nəşrləri. 2013 s 47.

Nümunələri gətirməzdən öncə diqqətə çatdırmaq istədiyimiz xüsusi bir məsələ də var. Yuxarıda İsa Muğanna ilə bağlı bir neçə sual vermişdik ki, əsər boyunca onların cavabını təqdim etməyə çalışaq. Bir sualı da bura əlavə etmək istəyirəm ki, fikrimizi düzgün istiqamətdə yönəldə bilək. İsa Muğanna təhrif din deyərkən niyə məhz daha çox İslamın üzərində dayanırdı, bütün nümunələri Qurandan verirdi? Və oxucu bizim gətirdiyimiz nümunələri gördükdə ağlından keçirə bilər ki, bütün dünya İncilin müxtəlif variantlarının olduğu qənaətinə gəldiyi təqdirdə Quranın dəyişdirilib, dəyişdirilmədiyi fikrini niyə müzakirə edir və ya nümunələr gətiririk. Bizcə, İsa Muğanna məhz islamla bağlı fikirləri ona görə daha çox qabardırdı ki, o bu cəmiyyəti daha yaxşı tanıyırdı. Bu cəmiyyətin problemlərini daha yaxşı bilirdi. Başqa dinə mənsub olan insanlardan fərqli olaraq, ayrıseçkilik, bir-birinə düşmən kəsilmə müsəlmanlarda daha qabarıqdır. Digər bir prizmadan baxsaq, islamı qəbul edən millətlərin xristian və yəhudilər tərəfindən yönləndirilməsinin ağrılı olduğunu görərik. Bunu isə böyük yazıçı görməyə bilməzdi. O, daima vurğulayırdı ki, dünya Vatikandan yönləndirilir. Bizim təhlilimiz isə İsa Muğanna konsepsiyaları üzərində qurulduğu üçün nümunələri də bu istiqamətdə gətirməyi lazım bilirik. Digər bir tərəfdən də "Quran" nazil olduqdan sonra digər dinlər öz qüvvəsini itirmiş, sonuncu din İslamdır.

Dini kitabların insanlara təqdim edilən variantları niyə təhrifə uğramışdır? Və ya niyə bir qism insan bu kitabların Saf Tanrı kitabı olmadığı qənaətinə gəlib? Tutalım ki, lap bu dini kitabların tanrı kitabı olmadığını sübut etdilər, onda nə baş verər? Sualların cavabı, əlbəttə ki, birmənalı deyil. Lakin şəriətin fövqündə və üstündə olanların bu cür iddialarla çıxış etmələri tamamilə təbii haldır. Çünki dini kitabların tövsiyə etdiklərindən üstdə və Yaradanın və yaradılışın dərki yolunda olanlar Tanrı və onun elçilərini bəsit düşüncə sahibi kimi görmək istəmirlər. Onlar da təsəvvürlərində yeni romantik Tanrı modeli yaradıb ona tapınmaq və ona inanmaq istəyirlər. İdeal Tanrı, ideal cəmiyyət. İdeal cəmiyyət arzusunda olan istənilən mütəfəkkir təqdim olunan və cılızlaşan tanrını qəbul etmək istəmir. İsa Muğanna həqiqəti də bu idi. O, bütov dünya, bütov Tanrı, bütov ideologiya görmək arzusunda idi. Bunu müəllifin son bir səhifəlik romanı ətraflı ifadə edir. Sanki İsa Muğanna "İdeal" romanından başlamış konsepsiyasını təqdim edəcəyimiz bu yarım səhifəlik yazısı ilə bitirdi və onu dərk etmək yolunda çətinlik çəkən insanlara nə demək istədiyini, mücadiləsinin nədən ibarət olduğunu vurğulamaq istədi. İsa Muğanna yaradıcılığının manifesti, bəyannaməsi olan bu yarım səhifəlik yazı ilə bəşəri sevdiyini, dünyanı sevdiyini və bunları yaradanı sevdiyini uca səslə elan etdi. Dini, milli ayrıseçkilik qoymadan, təriqətlərə bölmədən sevdi və kainatın bir həqiqətdən ibarət olduğunu elan etdi: TANRI, İNSAN, SÖZ həqiqəti idi bu VAHİD həqiqət. Yazını burda bitirir və sonunu İsa Muğannanın son

əlyazması olan, özünün bir səhifəlik roman adlandırdığı "Mənim məhəbbətim" romanından bir neçə cümlə ilə bitirirəm: *"Məhəmməd peyğəmbərə, Həzrət Əliyə, imamlara – EyMənlərə məhəbbətim heç bir məhəbbətlə müqayisə oluna bilməz. Vətənim Muğan düzündən sürülmüş Muğannalara – BağÜnlərə məhəbbətim heç bir məhəbbətlə müqayisə oluna bilməz. Muğannalara məhəbbətim kamilliyə doğru gedən Yer bəşəriyyətinə məhəbbətdir. Yer bəşəriyyətinə məhəbbətim kainatın planetlərində yaşayan nəhəng OdƏr bəşəriyyətinə məhəbbətdir. OdƏr bəşəriyyətinə məhəbbətim Günəşin daxilindəki "Yadro" planetinin sahibinə məhəbbətdir. OdƏrcə Ey – uca deməkdir, Əs – yaradan deməkdir. EyƏsÜn – uca yaradan Ün deməkdir. ...Bağ Ataya məhəbbətim heç bir məhəbbətlə müqayisə oluna bilməz. Bağ Atanın birinci oğlu Süleyman peyğəmbərə - "Solomona" məhəbbətim, Bağ Atanın ikinci oğlu Nuh peyğəmbərə məhəbbətim, Bağ Atanın üçüncü oğlu İbrahim peyğəmbərə – "Arrama" məhəbbətim, Bağ Atanın dördüncü oğlu İsa peyğəmbərə "Yisusa" məhəbbətim heç bir məhəbbətlə müqayisə oluna bilməz. Ağ – SafAğ (ən təmiz) insan və SafAğ elmi deməkdir. ƏlAğın ərəbcə təhrifi "Allahdır" EySar ƏlAğa məhəbbətim heç bir məhəbbətlə əvəz oluna bilməz. EySara məhəbbətim sənətə məhəbbətdir. Sənətimə məhəbbətim Sözə – ƏsÜzə məhəbbətdir. Üz həm də məna deməkdir. Sözə – məhəbbətim SafAğ elminə məhəbbətdir. SafAğ elminə məhəbbətim cəmi Bağlara məhəbbətdir. Bağ insanı insana, EyƏr bəşəriyyətini OdƏrlərinə bağlayan Bağ – Allah deməkdir. Bağlara məhəbbətim cəmi kamil insanlara məhəbbətdir".*[33]



---

[33] Ölümdən sonrakı həyat, Məqalələr toplusu, Bakı: Hədəf nəşrləri, 2014, s 12.

## 1.2 İsa Muğannanın "Cəhənnəm" romanı dini-mifoloji kontekstdə

Bəşəriyyət yaradılandan və özünüdərk yolunu tutandan bu günə bir çox elmlərin tədqiqat obyekti insan və onun yaradanı olmuşdur. İnsan kimdir, o, niyə yaradılıb? Öldükdən sonra həyat varmı? Tanrı necədir? Hardadır? – kimi suallar intellektual səviyyəsindən asılı olmayaraq, hər bir insanı zaman-zaman düşündürmüşdür. Bu düşüncələrlə əfsanələr, rəvayətlər, nağıllar, dastanlar yaradılmış, hadisələrə müxtəlif yozumlarla yanaşılmışdır. Sonrakı dövrlərdə isə bədii əsərlərin mövzusu olmuşdur. Dantenin "İlahi komediya", Hötenin "Faust", Bayronun "Qabil", Cavidin "İblis", Bulqakovun "Master və Marqarita" əsərlərini bədii ədəbiyyatın insanın yaradılış sirri yolunda axtarışı hesab etmək olar.



Kitablı-kitabsız bütün dinlərdə dolayısı ilə də olsa, ölümdən sonrakı həyat haqqında bir-birinə oxşar fikirlər var.

Qədim misirlilər insanın öldükdən sonra Ozirisin rəhbərliyi ilə məhkəməyə çıxarılacağı və günahsız olduğu təqdirdə Aru ilə – cənnətlə mükafatlandırılacağı və Tanrı Ranın gəmisinə mindirilib layiq olduğu məkana göndəriləcəyi, orada xoşbəxt bir həyat sürəcəyi və ya ulduz olacağı görüşünə inanırdılar.

Zərdüşt fəlsəfəsinə görə insan öldükdən sonra onun ruhu dördüncü gün axirətə gedər. Ahuramazda tərəfində sorğu-sual edilər. Sorğu bitdikdən sonra

Sinvat körpüsündən keçməsi tələb edilər. Körpüdən keçənlər kavusura-cənnətə, keçə bilməyənlər isə yalan və şər evi adlandırılan cəhənnəmə düşərlər.

Hinduizmdə isə ölümdən sonrakı həyatda Riqvedalarda qeyd edilən cənnət və cəhənnəmlə səsləşən mükafat və cəza yerləri var. Ölən insanlardan əməlisalehlərin ruhu Brahmaya qovuşar və orada əbədi qalar. Yaxşı insanlardan bir qisminin ruhları müvəqqəti olaraq Nandanaya göndərilir və burada gördükləri yaxşı işlər müqabilində mükafatlandırılırlar. Gördüyü əməllərə görə cəzalandırılanlar isə cəhənnəm adlanan Naralokaya göndərilirlər. Orda isə qızmış qum üzərində yaşayır, murdar və qaynar yeməklərlə qidalanırlar.



Qədim Yunan mifologiyasında ölənlərin ruhları Hermes tərəfindən Hades deyilən yerə yığılır. Hadesin qapısında üç başlı it olan Kerberos durur. İçəriyə girən əbədi olaraq orda qalar. Ruhlar sorğuya çəkilər və günahsızlar Elysium bağına aparılırlar. Cənnətliklər burada bütün nemətlərlə qarşılanar: onlar idman edər, şahmat oynar, ata minər, musiqi dinlərlər. Günahkarlar isə Tartarosa aparılıb əzaba düçar olarlar.

Xristianlıqda cənnət Tanrı ilə bərabər olmaq deməkdir. Onlar Tanrı tərəfindən hər gün dəyişdiriləرək yenilənəcəkləri və qiyamət günü gəldikdə Adəmin günah işləməzdən öncə olduğu yerə gedəcəkləri inancındadırlar.

Tövratda cəhənnəm, cənnət anlayışı birbaşa verilməsə də, dolayısı ilə ifadə edilir: "... kimi sonsuz

yaşama (cənnətə), kimi utanacağı və sonsuz murdarlığa göndəriləcək."

İslamda isə cənnət ölümdən sonrakı həyat, müqəddəs sayılan məkana verilən addır. Müsəlmanlar qiyamət gününə qədər məzarda qalacaq. Sonra isə bu həyatda arzuladıqları, amma əldə edə bilmədikləri hər nemətə sahib olub əbədi xoş güzəran keçirəcəklər. Cəhənnəm isə əbədi atəşdə yanmaq, qır qazanında qaynadılmaq, susuzluqdan yanmaqdır. Cəhənnəmliklərə də cənnətliklər kimi, ölümdən sonrakı həyat əbədidir, lakin onlar sadəcə əzab çəkəcəklər.

Türk inanc sistemində cənnət "uçmaq", cəhənnəm "damu" deyə ifadə edilir. Yaxşı insanlar ölümdən sonra Uçmağa (ocmaha, uçmaha) gedir. Onları orda mükafat olaraq gözəl təbiət və bol nemətlər gözləyir. İnancın təməlində ruhun bədəni tərk edərkən "uçan quş" cildinə girməsini ifadə edən qədim türk inancları da durur. Damu – cəhənnəm isə öldükdən sonra günahlıların ruhunun göndəriləcəyi yerdir. Orda onları Tam xan qarşılayacaq və odla cəzalandıracaqdır.[34]



Mifoloji və dini fikri geniş şəkildə zəbt etmiş ölümdən sonrakı həyat bütün bəşər övladı kimi İsa Muğannanı da düşündürmüş, yaradıcılığının ikinci dönəmini demək olar ki, bu mövzuya həsr etmişdir. Bu baxımdan "Cəhənnəm" romanı xüsusi əhəmiyyət daşıyır.

---

[34] Celal Beydili, Türk Mitolojisi Ansiklopedik Sözlük. İstanbul: Yurt Yayınevi, 2005, s 1.

İsa Muğannanın "Cəhənnəm" romanı müstəqillik dövrü ədəbiyyatımızın dəyərli əsərlərindən olduğu qədər ədəbiyyatşünaslığımız üçün də maraqlıdır. Şərq və Qərb mifologiyasına, dini qaynaq və təlimlərə bələd olan müəllifin təsvir etdiyi cəhənnəmdə mifoloji qatlar və dinlərin fəlsəfəsi özünəməxsus bir yozumla təqdim edilmişdir. Ədəbiyyatımızda cəhənnəm və cənnət motivləri "Kitabi-Dədə Qorqud" dastanında, Nəsimi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə, Əbdürrəhim bəy Haqverdiyevin əsərlərində işlənsə də, "Cəhənnəm" romanında müasir romanın tələbləri və sufi fəlsəfəsinin aspektləri baxımından maraqlı konsepsiya qoyulmuşdur. Bu konsepsiya işıq gəmiləri ilə Ağa-Aya gələn Səməd Əmirlinin, Sərvinazın, Musanın, Qumralın saflaşmış ruhlarını Bünyad bəyi qarşılayır, ona cəhənnəm əzabını cənnət kimi görülən yerdə verirlər. Romandan belə məlum olur ki, yolayrıcından alınaraq Aya aparılan cinayətkar (Maraqlıdır ki, cinayətkarın günahları milli zəmində, siyasi məqsədlərlə törətdiyi cinayətlərdir). saflaşdırılma mərhələsinə təqdim edilir. Amma Bünyadın günahları o qədər böyükdür ki, sorğu-sual mərhələsində ona sözün gücü ilə cəhənnəm göstərilir və saflaşmasının mümkün olmadığı məlum olur. Və beləcə, Bünyad bəyin ruhu Tanrının dərgahına getmir, o, yerdə işığı çıxmadan çürüyür.

Əsərdə modernist romana xas olan "keçmişə qarşı indiki zamanın daha üstün tutulması" metodu tam şəkildə əks olunub. Hadisələr gah bu dünyada, gah axirətdə, gah da yüzilliklər öncəsində baş verir.

"İdeal" romanından sonra İsa Muğannanın mövzusunun artıq yerdən yox, Göylə Yerin vəhdətindən alındığını görmək o qədər çətin deyil. Qulu Ağsəsin təbirincə desək, "İsa Hüseynovun bütün yazdıqlarının mayası yerdən, torpaqdan götürülüb. Yəqin elə ona görə biz İsa müəllimi sevir və təqdir eləyirik. Çünki biz yer adamlarıyıq, boyumuz torpaqdan olsa-olsa onca qarış yuxarıdı. Muğannaya (özü demiş) bütün yazdırılanların mayası isə Göydən, Tanrıdan tutulub"[35]

Azərbaycan nəsrinə yeni bir yozum, ədəbi baxış, üslub gətirən yazıçının "Cəhənnəm" əsəri bədii estetik zövq, poetika baxımdan çox maraqlı əsərdir. İlk olaraq əsərin adı adamın diqqətini çəkir. "İdeal" romanı ilə tanış olanlar bu sərlövhədən bir çox istiqamətlərə yönəlir və əsəri oxumaq üçün tələsir. Bu, yazıçının ustalıqla seçdiyi priyomdur. Çünki bir çoxları İsa Muğannanın dini dünyagörüşünün nə olduğunu tam dəqiqləşdirə bilməyib. Hələ də İsa Muğannanın heç bir dinə inanmadığını düşünənlər bu ifadəni oxuyan kimi "deyəsən, İsa Muğanna nəsə fikrini dəyişib" deyə düşüncəyə qapılır, bunu dərk etmək üçün həvəslə oxumağa başlayırlar. Yazıçının marağı üçün ən önəmli priyom, ilk növbədə, oxucunu öz aurasına salmaqdır. Bunu da "Cəhənnəm" romanında layiqincə bacarıb. Əsərin ilk səhifəsində "Cəhənnəm deyilən, doğrudan da, varmı, ya yoxdur? Ömrü onsuz da işgəncələr içində keçən insanı bir daha, özü



[35] Qulu Ağsəs, "İsa Hüseynov və Muğanna", news.lent.az/news/3358, (11.02.2016)

də daima əzaba salmaq hansı vicdansız yaradıcıya lazım olub?" kimi cümlə ilə başlamaq intellektual oxucunun diqqətini cəlb etmək üçün ən yaxşı motivasiyadır. Bunu oxuyan və bəşəriyyətin halına bələd olan oxucu əsəri acgözlüklə qarşılayır. Əgər bu ifadəni oxuyan dindar oxucudursa, onun da diqqətini çəkir. Lakin həmin oxucu bəsirət gözünü bağlayıbsa, həyata yalnız bir pəncərədən baxırsa, o zaman əsər də, müəllif də elə həmin andan onun üçün bitmişdir. Ona görə də İsa Muğanna yaradıcılığı oxucusundan mütaliəli olmağı, şərq və qərb fəlsəfəsini, tarixini yaxşı bilməyi, siyasi prosesləri analiz etmə bacarığını tələb edir.



Əsərin ilk səhifəsində yaradılan bədii ziddiyyət oxucuda çaşqınlıq yaradır. Çünki verilmiş iki cümləlik fikirdən sonra əminliklə "Var cəhənnəm", – deyir. Bu ifadə o qədər inandırıcı səslənir ki, cəhənnəmin varlığına şübhə qalmır. Üstəlik müəllif ənənəsinə sadiq qalaraq burda da öz dilindən danışır və hadisələri şahidlik yolu ilə izah edir.

Bu dünyadan sonra başqa bir dünyanın olduğunu mifik düşüncə də, bütün dinlər də söyləməkdədir.

Və beləcə, oxucusuna "fantastikasız fantastika" deyə-deyə gərgin, düşündürücü, beyni şoka salan fikirlərlə bir həzz yaşadır. Oxucu kitabı əlindən yerə qoyduğu zaman ağlından ilk keçən bu olur: görəsən, bunlar doğru ola bilərmi? Bu isə yazıçının məqsədinə çatması, ideyasına inandırması deməkdir.

"İsa Muğannaya görə, dünyanı dəyişdirən təhrif sözlərdir. Qoca Şərqin böyük müdriki Konfutsi deyirdi ki, sözlər (adlar) mənasını dəyişəndə insan azadlığını itirir".[36]

Bəli, Muğannaya görə dünyanı dəyişdirən təhriflərdir və o, bir ömür bu təhrif sözləri yaratdığı yeni bir düşüncə sisteminin dili ilə izah etməyə və ya çevirməyə çalışıb Lakin "Cəhənnəm" əsərində müəllif sözlərin yox, uzun illərdən bəri insan şüuruna yeridilmiş "Cəhənnəm"in mahiyyətinin təhrifini sanki oxucusuna həzm etdirir. Oxucusuna cəhənnəm əzabı verməkdən belə çəkinmədən. Nizami Cəfərov İsa Muğannanın təhrif anlayışına bu cür qiymət verir: Yaradıcılığının ikinci dövründə İsa Muğanna üsyankar bir ehtirasla elan etdi ki, dünya təhrif olunub! Və cəsarətlə deyə bilərəm ki, bu "təhrif (təhrif olunma)" məfhumu Azərbaycan yazıçısının dünya ədəbi bədii təfəkkürü miqyasına qalxan (dünya ədəbiyyatını zənginləşdirən) böyük kəşflərindən biridir.



Əsərin qəhrəmanı, "çekist", satqın, iblisin qulluqçusu Bünyad bəyə verilən cəhənnəm əzabı, onun yandırılaraq saflaşdırılması oxucunun nəfəsini kəsir, o həyəcanı qəhrəmanla birgə yaşayır.

İsa Muğanna "İdeal" əsərində oda olan münasibətini bəyan etmiş, onu "həqiqət" adlandırmışdır. Türk mifologiyasına diqqət etsək, oda münasibət İslam dinindən və şərq fəlsəfəsindən tamamilə fərqlidir. Qədim türk xaqanlarının yanına gələn elçilərin odun arasından keçirilməsi və ya tullandırılması

[36] Rüstəm Kamal, İsa Muğanna: Ün və İşıq məqamı. (525.az. 14.10.13)

saflaşma əlaməti idi. Od qədim türklərə görə ocağın (ev, ailə) ruhunu özündə ehtiva edirdi. Şamanizmə görə də hər kəs öz odunun, yəni ocağının ruhunu qorumalı idi. Odu sönmək, ruhun ölümü demək idi. İsa Muğannaya görə təhrif ayələr, təhrif fikirlər odun mahiyyətini dəyişib.

Cəhənnəmə "Quran"da və hədislərdə münasibət demək olar ki, eynidir. "Ayələrimizi inkar edənləri oda (Cəhənnəmə) atacağıq. Onların dəriləri bişdikcə, əzabı (həmişə) dadsınlar deyə, o dəriləri başqası ilə əvəz edəcəyik".[37]

Əbu Hüreyrə rəvayət edirdi ki, o, peyğəmbərin belə dediyini eşidib: "Adəm oğullarının yandırdığı od, cəhənnəm odunun yetmişdə biri qədərdir" (Buxarı, Müslim).



Bir dəfə Kab Ömər ibn əl-Xəttaba deyib: "Əgər Cəhənnəmin qapıları bu dünyaya heç olmasa öküzün burnunun dəliyi qədər şərqdə açılsaydı, qərbdəki adamın beyni qaynayıb tökülərdi".

Peyğəmbər (s.ə.v.) həmçinin deyib: – "Cəhənnəmin Odunu o ağ olana kimi min il qalayıblar, sonra qırmızı olana kimi daha min il və sonra qara olana kimi daha min il yandırmışlar. O, zülmət gecə kimi qaradır" (ət-Tirmizi, İbn Macə).

Uca Allah deyib: "Günah qazananlara günahları qədər cəza verilər. Onları zillət basar (bürüyər). Onları Allahdan (Allahın əzabından) heç kəs qurtara bilməz. Onların üzü sanki gecənin zülmət parçaları

[37] Ziya Bünyadov, Vasim Məmmədəliyev. "Qurani Kərim" Bakı, 1997, s 56.

ilə örtülmüşdür. Onlar cəhənnəmlikdirlər, özləri də orada əbədi qalacaqlar!"[38]

Həqiqətən, insan Cəhənnəm odunu təsəvvür edə bilmir, amma hər şeyi udmağa hazır olan bu dünyanın oduna baxmaq kifayət edər. Buna görə də mömin əcdadlarımız ona baxdıqda Allahdan qorxu hissi keçiriblər. Uca Allah deyib: – "Bəs (yaş ağacdan) yandırdığınız oda nə deyirsiniz? Onun ağacını yaradan sizsiniz, yoxsa biz?! Biz onu (sizi cəhənnəm odu ilə qorxutmaqdan ötrü) ibrət dərsi və səhrada olan müsafirlərin faydalanması üçün yaratdıq.[39]

Özünü dini alim elan edən Harun Yəhya isə cəhənnəm xofunu bir az da artıraraq belə izah edir: Cəhənnəm... Allahın "Qahhar" (qəhredici), "Cabbar" (istədiyini zorla etdirən), "Müntəqim" (intiqam alan) kimi adlarının sonsuza qədər təcəlli edəcəyi bu yer insana hər tərəfdən acı vermək üçün xüsusi bir yaradılışla yaradılmışdır. Quran ayələrində cəhənnəm yaşayan bir canlı kimi təsvir edilir. Bu canlı inkarçılara qarşı qəzəb, nifrət, hirs və istəklə doludur. Yaradıldığı gündən bəri səbirsizliklə Yaradıcısını inkar edən kafirlərdən intiqam almağı gözləyir. Ayələrdən məlum olduğuna görə, cəhənnəm insana dəlicəsinə susamışdır. Kafirlərə olan nifrətinə görə çılğına dönmüşdür. Yalançıları gördüyü zaman qəzəbinin şiddətindən parçalanacaq kimi olur. Bu atəşin yaradılışının tək məqsədi vardır - qəhredici bir əzab vermək.



[38] Ziya Bünyadov, Vasim Məmmədəliyev. "Qurani Kərim" Bakı, 1997, s 27.
[39] Yenə orda, s 71-73

O da vəzifəsini yerinə yetirəcək, acıların ən böyüyünü verəcəkdir.

Göründüyü kimi, cəhənnəm və cənnət anlayışlarının yozumları dini xadimlərin şərhində bir-birinə çox yaxın və ya eynidir. Bu isə din xofu altında insanların idarəçiliyinin həmişə əldə saxlanılmasına xidmət edir. Hikmət Babaoğlunun bu mövzudakı yanaşması maraqlıdır: "Dinin elmi və obyektiv əsaslarda öyrənilməməsi isə dindən başqa məqsədlər üçün istifadə etmək istəyən ayrı-ayrı siyasi-ideoloji mərkəzlərin fəaliyyətini asanlaşdırır. Elə buradan da missionerlik məsələsi ortaya çıxır. Qeyd etmək lazımdır ki, missioner anlayışı latın dilindəki "missio" sözündən götürülüb, mənası "vəzifə", "səlahiyyət" deməkdir. Bu və ya digər cəmiyyətdə və ya dövlət içərisində öz maraqlarını təmin etmək üçün fəaliyyət göstərən ayrı-ayrı ideoloji və siyasi mərkəzlər məhz fərdlərin dinə bu həssas münasibətindən yararlanaraq onlardan ibarət özünəməxsus sosial baza formalaşdırır. "Din xadimlərinin bu yanaşmalarını dərk edən və dərk etmə yolunda Nəimi, Nəsimi yolunu seçən insanların həqiqi dinin – elmin nə olduğu yöndəki araşdırmaları təbii və doğrudur. Türkiyə Cümhuriyyətinin qurucusu Atatürk də bir növ günümüzə gəlib çatan İslamın formasını və mahiyyətini dəyişdiyi qənaətində idi: "Müsəlmanlıq əslində ən geniş mənası ilə modern bir dindir. Ərəblər onu öz qavramlarına görə anlamış və tətbiq etmişlər."

Haqqında danışdığımız əsər də din əbası altında gizlənən mövhumatı rədd edir və Tanrının, Yara-

dıcının – hər kəsdən uca olanın bunları edə bilməyəcəyi düşüncəsi qayəsini daşıyır. Çünki insan o dünyaya bizim bu gün daşıdığımız bədəni ilə getmir ən azından. Cismin məhv olduğunu görürük, amma ruhun yox. Deməli, əgər axirət dünyası varsa belə, lap cəhənnəm və cənnət deyilən iki şöbəyə bölünübsə, onda insanın sadəcə işığı, ƏrAğı-ruhu gedəcək ora. Və əgər ruhu gedəcəksə o axirət deyilən məkana, deməli, ruhu yandırmaq mümkün deyil. Əlbəttə ki, ruh bizim təsəvvür etdiyimiz kimidirsə.

Yunus Əmrənin söylədiyi ehtimal edilən "Cəhənnəmdə od yoxdur, hər kəs öz odunu bu dünyadan aparar" fikri demək olar ki, "Cəhənnəm" romanınının ideyasını ifadə edən ən tutarlı cümlədir. müəllif özünü islam alimi hesab edən və min illərdir ki, insanları müxtəlif qorxulu macəralarla həqiqətdən uzaqlaşdıranların təhrif olduğunu vurğulamaq istəmişdir. Bu cür yanaşdıqda, İsa Muğannanın təhrif adlandırdığı dünyanın hələ də təhrif girdabında boğulduğunu görürük.



Əsər boyunca oxucu İsa Muğannanın cəhənnəm anlayışı və mahiyyəti ilə tanış olur. Müəllifə görə, Quranda haqqında danışılan, təfsirlərdə izahı verilməyə çalışılan cəhənnəm odu heç də təqdim edildiyi kimi deyil. Bizim başa düşdüyümüz kimi tonqal qalayıb insanları milyon dərəcə selsi istilik əldə edib odda yandırmaq sadəcə təhrifdir. Çünki ideal heç bir zaman materiya ola bilməz. İnsan sözdür, insan işıqdır, insan vicdandır. Onu yandırsa, yandırsa vicdan əzabı yandırar. Yuxarıda deyilənlər isə sadəcə cahil

insanı qandırmaq, bəlkə də, başa salıb qorxutmaq üçün işə yaraya bilər.

– "Əksinə, bəy! OdÜn – həqiqət səsi cəhənnəmdə cənnət yaradır. Qəbahətini eşitdikcə, öz hərəkətlərini qarşındaca gördükcə yavaş-yavaş yüngüllük hiss edəcəksən. Nədən olur o yüngüllük? Sadəcə qatı qanın yuyulur, canında qan dövriyyəsi normallaşır, hüceyrələri sağlamlaşdırır".[40]

Bu sözləri 113 yaşlı milli mənliyini satmış, "çekist"lərə xidmət etmiş, bu xidməti yolunda öz sevgililərini belə zorlamaqdan, əzab verməkdən, öz casusuna çevirməkdən yayınmayan, Cavidin "İblis" əsərindəki iblis kimi dondan dona girən Bünyad bəyə onun öz əlləri ilə boğub öldürdüyü keçmiş arvadı Sərvinaz deyir. Bu səhnə İblisin tapşırığı ilə Arifin öz arvadı Xavəri öldürməsi ilə eynilik təşkil edir.



Müəllifə görə, cəhənnəm və ya cənnət olduğu tam məlum olmayan bu məkanda insanlar yanaraq saflaşır və yenidən yerə göndərilir. Bünyad bəyin etdikləri gözünün qarşısına gətirildikcə onun vicdanı sızlayırdı. – "İlahi, özün kömək ol mənə! Cənnətdi, cəhənnəmdi, nə möcüzədi bu?! Deyə hayqıran, vicdan əzabında yanıb qovrulan Bünyad bəyə Sərvinaz: – Biləcəksən, Bəy. Səbirlə, dəyanətlə dinlə OdÜnü –həqiqət səsini! Biz odda yana-yana gözəlləşmişik burda. Sən də yanmalısan burda, Bəy!" – deyir.

[40] İsa Muğanna, Cəhənnəm, Bakı: Hədəf nəşrləri, 2013, s 5.

Bu gün də daha çox qabardılan məsələ axirət dünyasının sadəcə iki yolu: cəhənnəm və cənnət olduğunu hamımız bilirik. Lakin misir mifologiyasında olduğu kimi, "Quran"da da bu yolun iki yox, üç olduğu qeyd edilir. "Məryəm" surəsinin 71-ci ayəsi fikrimizin isbatıdır: "Cənnətliklər cəhənnəm odunun içindən yanmadan, sağ-salamat keçəcək, cəhənnəmliklər isə ora düşüb əbədi əzaba məhkum olacaqlar. Bir qism insan da müəyyən müddət orada qalıb günahı təmizlənəcək, sonra cənnətə qayıdacaqdır".

Bu fikirlərdən görünür ki, İsa Muğanna din və Allah tacirlərinin ədalətli deyib, amma əzazil kimi göstərdiyi Tanrını daha ədalətli təqdim edir. Hətta onun cəhənnəmi və cəhənnəm əzabı vicdan əzabı olsa belə, "Quran"dakı kimi əbədi deyil. İnsanlara axirətdə də haqq və ədaləti göstərərək onları saflaşdırır, yaratdığını eybəcərliklərdən xilas edir. Bu, İsa Muğanna düşüncəsinin təhrifsiz təqdim etdiyi dindir ki, mayasında humanizm var. İsa Muğanna təhrif deyə car çəkdikdə, bəlkə də, "Məryəm" surəsinin 27-ci ayəsindəki kimi mətləbləri diqqətə çatdırmaq istəyir. Çünki öldükdən sonrakı həyatın sadəcə iki tərəfini yox, üçüncü bir tərəfin də olduğunu görürük bu ayədən. İsa Muğanna yaradıcılığına dərindən diqqət yetirəndə görürük ki, onun yozumları ya birbaşa Qurandakı müəyyən ayələrlə üst-üstə düşür və həmin fikirlərin möhkəmlənməsinə xidmət edir, ya da tamamilə əksinə gedərək yeni baxışla yanaşıb öz konsepsiyasını ortalığa qoyur. Amma çox önəmli məsələdir ki, Muğanna bütün bunları bədii əsərlərində və

ehtiyyatla təqdim edir. Əgər İsa Muğanna Ün eşidərək "İdeal" və ondan sonra yazdığı əsərləri tarixi araşdırma əsərləri kimi, açıq-açığına yeni düşüncə sisteminin yaradıldığını elan edərək fəlsəfi kitablar kimi təqdim etsə idi, indi hər kəsin bu əsərlərə münasibət bildirməsi bir az asan olardı. Muğanna əsərlərini bədii əsər kimi təqdim etdi, amma bu fikirlərin qaynağı olduğuna inandı və inandırmağa çalışdı. Bu baxımdan türkiyəli araşdırmaçı alim Arif Təkin sanki İsa Muğannanın "din təhrifdir" fikrini tarixi faktlarla isbatlamağa çalışır və "Quranın Kökəni" əsərində gətirdiyi dəlillər insanı inandırmaya bilmir. Həmin kitabın müqədimməsində verilən aşağıdakı kiçik parça sanki İsa Muğanna yaradıcılığının göstərmək istədiyi ideya idi. "Madam ki, İslam dini Allahdan gələn ən mükəmməl sistemdir, o halda ona bağlanan insanların hər baxımdan huzur içində və daha yaxşı yerlərdə olmaları lazım idi".[41]



Professor Tahirə Məmmədin "Muğannanın Ünü və "GurÜn"ü" məqaləsində təhrif anlayışına münasibəti də bu baxımdan çox maraqlıdır: "Gerçək biliklərimiz, qəbul etdiklərimizlə yanaşsaq bir çox məsələlərdə, xüsusən dinə aid təhrifləri düzəltmə cəhdində – ƏlAğ – Allah, BağOdMən – Məhəmməd, EySar-İsa, GurÜn-Quran yozumlarında, onların muğ kahinləri ilə yan-yana qoyulmasında yazıçı ilə razılaşmaq çətindir. Ancaq əməlin və məqsədin gözəlliyi yazıçını adı çəkilən müqəddəslərin idealından uzaqlaşdırmır, əksinə, onların yolunu, izini davam etdi-

[41] Arif Tekin. Kuranın kökəni. Berfin yayınları, İstanbul: 2013, s 6.

rən kimi qəbul edirik Muğannanı. Nəsimi, Yunus Əmrə, Seyid Əzim qədər onu da anlamağa çalışırıq və amalından, tənbehlərindən dərs alırıq".[42]

Akademik İsa Həbibbəyli İsa Muğannanın təqdim etdiyi konsepsiyaya obyektiv movqedən baxaraq müəllifin təhrif deyə təqdim etdiyi dünyanın sadəcə İsa Muğannaya aid olduğunu qeyd edir:

"İdeal" romanı çap olunduqdan sonrakı şəxsi həyatı və yaradıcılığı göstərdi ki, İsa Hüseynov özünün bu əsərlərində inandığı və sanki hətta yaşadığı dünyanı təqdim etmişdir. "İdeal"da və sonrakı əsərlərində İsa Hüseynovun inanaraq formalaşdırdığı SafAğ dünyası ədəbiyyat üçün utopiya kimi görünsə də, İsa Hüseynov üçün gerçəkliyin ifadəsidir. Əgər bu fəlsəfə "İdeal"la bitmiş olsaydı, onda SafAğ yolu İsa Hüseynovun yaradıcılığında keçici bir ovqat, yaxud keçid dövrü romanı kimi qəbul etmək olardı. Lakin yazıçının bundan sonra yazdığı "Qəbiristan", "Cəhənnəm" "GurÜn" "İsahəq, Müsahəq", "İlan dərəsi" kimi əsərlərində "İdeal"-da təqdim olunan dünyanın da sistemləşdirdiyinin, dərinləşdirildiyinin şahidi olduqdan sonra bütün bunlara İsa Muğanna dünyası kimi baxmaqdan başqa yol qalmır.[43]

Əsərdə maraqlı məqamlardan biri də Bünyadın ətrafında gördüyü qızların-hurilərin (əslində bu hurilər onun yerdə zorladığı, aldatdığı qızlar idi) onu öpməsi səhnəsidir. Bu öpüşlərdən birindən sonra Klara ilə Bünyad bəy arasında belə bir dialoq olur:



---

[42] Ölümdən sonrakı həyat, Məqalələr toplusu, Bakı: Hədəf nəşrləri, 2014, s 7.
[43] Arif Tekin. Kuranın Kökeni. İstanbul: Berfin Yayınları,2013, s 6.

Əziz dostun Rahibin sevgilisi Klaranın öpüşü şirindimi?! OdÜnüm yandırırmı, bəy?! İrəli bax! Klaranı necə öldürdüyünü görürmü kor gözlərin?!

Bünyad bəy mızıldanıb:

– Qurtar bu oyunu! Qurtar! Qurtar, – dedi.

Sərvinaz eyni sakitliklə başını buladı:

– Mümkün deyil, bəy. Cəhənnəmdə hər günahın min, milyon dəfə fəzada təkrar olunacaq ki, bətnin saflaşsın.

Əslində Bünyad bəy Klaranın vüsalına çatmaq üçün kəmərini açmalı idi. O, buranı cənnət hesab edirdi. Çünki onun düşündüyü qır qazanından, qıl körpüsündən əsər-əlamət yox idi. Ətrafında gözəl qızlar, bolluca yemək və şərab var idi. Və ona o qızlardan hansı ilə istəsə, yata biləcəyi söylənilmişdi. Lakin onların öpüşü zəhərli söz, saflaşdırma iksiri idi. Yaranın üstünə tökülən kislota kimi. Əməlləri ona göstərildikcə, söyləndikcə o əriyir, yanır, qovrulur və belə saflaşır. Cəhənnəmə verilən bu ədəbi yozum, əlbəttə ki, qədim türk təfəkküründən gəlir. Çünki türklərin oda münasibəti bir çox xalqlardan daha fərqlidir. Onların odla saflaşma ənənələrinə biz həm şifahi xalq ədəbiyyatı nümunələrində, həm də yazılı ədəbiyyatımızda rast gələ bilirik. Koroğlu dastanında İşığın Qıratın qanadlarını yandırması Rövşənin etdiyi yanlışın nəticəsi idi. Və işıq Rövşənə bir dərs vermiş olur, səbr və dözümlü olmağa işarə edir. "Əsli və Kərəm" dastanında millətin qoyduğu qadağaları pozmaq istəyən Kərəmin alışıb yanması da bir növ odun müqəddəsliyinə işarə idi. Hüseyn Cavid

yaradıcılığında "Siyavuş" pyesində xəyanətkar adamı müəyyənləşdirmək üçün odun üstündən keçmə səhnəsi yaradılır. Südabənin şərinə düşmüş Siyavuş da bunu təbii qəbul edir. Münəccim isə saflaşmanın sadəcə yanmaqla mümkün olduğunu deyir.

Əmr ediniz atəş yaxılsın həmən;
Keçsinlər üstündən, diqqət eyləriz,
Yanan suçlu olar, yanmayan təmiz.

Əsərin bir çox məqamında dünyanın xilasını, insanlığın saflaşmasını elm və eşqdə görən müəllifin yanaşması sufizm təlimindən gələn motivdir.

"Şeyx Sənan" əsərində də Şeyx Sənan: "Kim ki eşq atəşi ilə oldu hədər, onu yandırmaz böylə atəşlər" – deyərək atəşin müqəddəsliyinə işarə edir. Bütün bunlarla bərabər, yazıçının fantaziyası Odun məcaziliyini, Odun söz olduğunu və bu sözün bizim təsəvvür edə bilmədiyimiz qədər güclü olduğunu, mayasında həqiqət işığının gizləndiyini açmağa qadir olduğunu görürük.



Sərvinazın dilindən müəllif cəhənnəm haqqındakı düşüncələrini bu cür ifadə edir: – Güman eləyirsən ki, keyfə baxacaqsan? Ay yazıq, bədbəxt insan! Biz axı uzun-uzun illər bundan əvvəl gözəl qızları necə heyvancasına zorladığını göstərəcəyik sənə! Özü də aramsız şəkildə! Gör nə hala düçəcəksən?! "Qıl" sözü Türklə Qrekin söz qarışığındandır. "Qıl" "ki Əl"dən azıb, "ki Əl" Od Əldən azıb, Od Əl, bilirsən, həqiqət əlidir. "Qıl" körpüdən yox, Həqiqət Əli EySarımızın dilinin mənasından – həqiqət körpüsündən keçə bilməyəcəksən!...

Bünyad bəyə əməllərini göstərərək cəhənnəmi yaşadan Səlim onun günahlarının çoxluğundan saflaşma imkanı olmadığını, murdar ruhunun yerdə çürüməyə məhkum olduğunu qeyd edir və yerin halına acıyır: "Səni mən Mazandaran meşəsinə apardım, ordan "İrəmə", sonra yerə... Saflıq dərsindən bir az faydalandın, əmma yenə də zorakı, vəhşi, murdar, təhrif insanlığın üstələdi, qızların öpüşlərini bir-birindən seçmədin, "kəmər" açmaq ehtirasına qatılıb ağlını itirdin. Bunun ardınca o zorakı təhrifliklə yırtıcılıq, qatillik arasında məsafə olmadığını göstərdim: sənə qul kimi tabe olsa da, "verbovka" ya razılaşmayan, yəni vətənini, xalqını satmağı ölümdən betər sayıb sənin it dizlərin altında qarın-bağırsağının dağılmağını ölümdən betər bilən məzlum Sərvini qarın altına basmağını göstərdim, Orduqozlunu necə soyuqqanlılıqla öldürdüyünü göstərdim. Məmməd ağanın, Omar ağanın beş oğlunun, Salahlı Musanın, Salahlı İsmayılın ölümləri sənin Peterburqda dərsinə, casusluğuna bağlandı, casusluğun saysız-hesabsız insan qanından Bünyad bəy adında vəhşi heyvan yaratdı.

Yer indi Bünyadların pəncəsi altında yanır, qana batır, suya batır."

Əsər boyu nə qədər dini, mifoloji qatlara enilsə də, romanın ana xəttində milli sevgi və vətən məhəbbəti möhkəm şəkildə özünü qoruyur. Millət düşmənlərinin ümumiləşdirilmiş tipi olan Bünyad Bəyin cəhənnəmə getmə səbəbləri şər qüvvələrə – türk-Azərbaycan düşmənlərinə etdiyi sədaqətli xidməti

və bu yolda törətdiyi cinayətlər olmuşdu. Türk təfəkkürünün məhsulu olan sufi düşüncəsi ilə hadisələrə yanaşan Muğanna sanki milli cəhənnəm yaratmışdır. Cənnət kimi cəhənnəmdə həqiqi elmdən, haqq yolundan azmış insanı sirli sözlərlə yandırmış, saflaşdırmağa cəhd etmişdir.

***

"Cəhənnəm" romanı fantastika janrının da ədəbiyyatımız üçün maraqlı nümunələrindəndir. Romanın növləri baxımından yanaşsaq, tarixi-fəlsəfi roman adını da vermək mümkündür. Çünki əsərdə Azərbaycanın cənublu, şimallı tarixi taleyi üzərində qurulan süjet, daha çox müəllifin təxəyülünün sayəsində genişlənib. Müəllifin təqdim etdiyi faktlar, ümumiləşdirilmiş Bünyad, Səməd, Musa, xalq obrazı Muğannalar və onların tarixi keçmişi həqiqətləri əsərin tarixi roman janrına yaxınlığını göstərir. Lakin əsərdə Səməd Əmirlinin, Qumralın, Sərvinazın, Musanın bəşər övladı və Tanrı kultuna özünəməxsus münasibəti, Cəhhənnəm və Cənnət kimi fəlsəfi bir ideyanın problematikası əsərə fəlsəfi bir roman abhavası gətirir.

Əsərdə insanın işıqdan ibarət olduğu, istənilən zaman yaddaşının götürülüb və ya sonra yerinə qoyulması, zaman və məkan anlayışlarının insan üçün əlçatan olduğunu, öz əməllərinin o dünyada bir lent kimi ona göstərilməsi, Ay planeti haqqındakı mülahizələr, hadisələrin üç zaman kəsiyində oxucunu yorğa yerişlərlə gəzdirməsi, fantastikanın mahiy-

yətinə uyğun oxucunu elmi informasiyalarla savadlandırması əsərin fantastik bir janr olduğunu göstərir. Klassik romanlardakı keçmiş, indi və gələcək zamanlar bir xronoloji ardıcıllıqla axıb getdiyi təqdirdə, modernist və postmodernist romanlarda sadəcə yaşanan zaman var. Yazıçı vəziyyətə görə zamanla oynayır, istədiyi zaman haşiyə çıxaraq istədiyi zamana gedib-gəlmələr edir. Və zamanla psixoloji oyun qurur. Cəhənnəm əsərində də Azərbaycan modernist romanının yaradıcılarından sayılan İsa Muğanna hadisələrdə zaman məhfumunu öz istəyinə uyğun qurur və qəhrəmanın – Səməd Əmirlinin ideyasını, konsepsiyını təqdim edir. Yol ayrıcından birbaşa sorğu mərkəzinə, saflaşdırma məkanına aparılan Bünyad bəyin ölümü, dirimi, cənətdəmi, cəhənnəmdəmi olduğunu, Səməd Əmirlinin ruhununmu Bünyad bəyin yaşadığı dünyaya gəldiyimi, Bünyad bəyin ruhununmu onların yanına getdiyimi tam ardıcıllıqla təqdim edilmiş və zaman içində zaman pəncərəsi açıb dünənə-bugünə var-gəl edən yazıçı oxucunun beynində sanki psixoloji bir dram yaradır.

Təsadüfi deyil ki, müəllif əsərin daxili başlıqlarını "Fantastikasız fantastika" və ya "yenə fantastikasız fantastika" adlandırır. Müəllif "Fantastikasız fantastika" dedikdə yazdıqlarının təxəyülün məhsulu yox, bir həqiqət olduğunu göstərmək üçün çaba göstərir. Türkiyəli ədəbiyyatşünas Turğay Gülərin fikrincə, olmayanı xəyal etmək çox çətindir, lakin xə-

yal edilənin gerçəkləşməyəcəyini kim dəqiq söyləyə bilər?[44]

Fəlsəfədə insan ağlına gələcək hər bir şeyin nə vaxtsa mümkün ola biləcəyi vurğulanır. Və ya gendə daşınılan yaddaşdır ki, dolayı yolla özünü göstərir. Günümüzdəki texnologiyanın inkişafı bir daha sübut edir ki, yaradan insan şüuruna sonsuz imkanlar verib. Beyin qatının düşündükləri ya nə zamansa olmuşdur, ya da nə zamansa baş verəcəkdir.

"Fantastik əsərlərin özünəməxsus bir terminologiyası var. Yazarlar fərqli, təəccübləndirici, hətta qorxulu dünyalar yaradırlar. Elmi fantastika isə daha çox elmi qaynaqlara söykənilərək yazılır. Bu növ əsərlərdə bildiyimiz kimi, yaxın ya da uzaq gələcək-keçmişə ya da gələcəyə edilən zaman yolçuları, genetik texnoloji, kosmos, planetlər və b. işlənir. Bütün bunların hamısı hökmən elmə əsaslarla müəyyənləşdirilir".[45]



İsa Muğannanın da yaradıcılığındakı fantastik fikirlər elmə söykənir. Burda, əsasən, humanitar elmlər olsa da, dəqiq elmlərin isbatlanmış nəzəriyyələrinə söykənən ideyalar da çoxdur.

İsa Muğannanın "İdeal" əsərində qoyulan "Göylərin yerdəki vəziyyətdən narahatlıq keçirməsi konsepsiyası"nın özündə də bir fantastika var. Düzdür, bütün dini kitablar bəşər övladının iblisə uymasını Tanrının qəzəbinə tuş gələcəyi inamı vurğulanır. Hu-

[44] Tuqay Gülər, Mehdix Olasılık Teorisi. İstanbul: Hayat yayınları 2013, s 5.
[45] Şebnem Atılgan, yazar Resul Yalçınkaya ile bilimkurgu ve fantazya üzerine konuştu, edebiyathaber.net (15.02.2012)

manitar elmi-fantastika janrını yaradan Muğanna yerdəki fəlakətlərdən Tanrının – İsa Muğannanın dili ilə desək, Bağ Atanın da xəbəri var və bunları bəzən onun özü idarə edir. Müəllif "Yer indi Bünyadların pəncəsi altında yanır, qana batır, suya batır", – deyərək Tanrının – Bağ Atanın bunlardan xəbərdar olduğunu vurğulayır. "İdeal" romanının qəhrəmanı Səməd Əmirlinin axirətdə Bünyad bəylə söhbəti zamanı yerdəki bəlaların günahkarının göylərdə olması açıq açığına deyilir:

– İndi biləcəksən, ən böyük günahkar insanın taleyini yazan –"Yazan" – "Yazdan" – "EyƏsÜn" EyOdƏr" babamızdı, ay bədbəxt razvetçik. İkinci günahkar Yazanın yazdığını Bağ Atamıza çatdıran BağBağÜn Babamızdı. Üçüncü günahkar yazılanların əsasında hökm verən Bağ Atamızdı. Dördüncü günahkar hökmləri icra edən EySarımızdı. Bəndədə nə günah var?!



OdƏr övladının, SafAğ elmini mənimsəmiş, haqq dünyasına yüksəlmiş birinin dilindən verilən bu etirafı sanki Hüseyn Cavidin "İblis" əsərinin qəhrəmanı Arifin üsyan dolu "İnsanları xəlq etmədə var, bəlkə də, hikmət, İblisə nə hacət!?" sualına cavabdır.

"Peyğəmbərlərə, qanunlara, kitablara uyub bir həqiqət tapa bilməyən Arif demonizm mövqeyindən çıxış edərək Allahın işinə qarışır. Onun insanlarla bərabər dünyada İblisə də yer verməsini artıq bir şey hesab edir. Yuxarıdakı son misrada Arif tərəfindən söylənilən fikir yarandığı və Allahı tanıdığı gündən bütün zəkalı insanları düşündürmüşdür. İnsanlar

haqqa-həqiqətə yetməkdə iblisi özlərinə bir maneə hesab edərək onu daima, yeri gəldi-gəlmədi lənətləmişlər"[46]

Səməd Əmirlinin qeyd edilən fikrindən sonra Bünyad bəy sanki dəli olur. Sevincinin həddi-hüdudu olmur. Əgər yerdə onun törətdiklərini göylər edibsə, deməli, onun heç bir günahı yoxdur. Bunun üçün də deyir ki, əgər bilsəm ki, bu sözlərinin altında da ayrı söz yoxdur, ayağına yıxılaram. Amma müəllif dialoqu elə məharətlə davam etdirir ki, oxucu bunu Arifin sualına cavabmı, yoxsa ki, bir kinayəmi olduğunu tam müəyyənləşdirə bilmir".[47] Kitabında qeyd edilir ki, kinayə bir açar sözdür və bir sənət əsərinin verəcəyi mesaj, heç bir zaman açıq və bəsit olmayacağına görə, əsərin biçimini təyin edən təməl fikri, yazarın kinayəni istifadə etməkdəki məqsədini, məsələlərə əks baxış bucağından baxa bilmə və bir-birilə təzad təşkil edən müxtəlif ünsürə, ahəngdar bir bütün içində işləklik qazandırmasını görə bilirik. Bu baxımdan bu kinayədə bir işləklik görülür.



Yuxarıda deyilən fikrin cavabını tam anlamaq üçün müəllifin SafAğ elminin əsaslarını, konsepsiyasını mənimsəmək lazımdır. Bunun üçünsə İsalaşmaq, Muğannalaşmaq, OdƏrləşmək lazım gəlir.

***

Romanda yetərincə siyasi fikirlər, yozumlar var. Və yazıçı bütün bu yozumlarını öz faktları ilə təhrif

---

[46] Şəmil Sadiq, Hüseyn Cavid yaradıcılığında qəhrəman konsepsiyası, Bakı: Hədəf nəşrləri, 2011, s 170.

köynəyindən çıxartmağa çalışır. Bu siyasilik müəllifin yaradıcılığının ikinci dövrünün başlanğıcı hesab edilən "İdeal" romanından başlanır. Azərbaycan-türk tarixinin gizlədilməsi, bu tarixi faktların təhrif edilərək yenidən təqdim edilməsi prinsipi demək olar ki, "İdeal" romanında və ondan sonra yazılan bütün əsərlərində özünü göstərir. "İdeal"da Nizami Xəmsəsinin, Firdovsi "Şahnamə"sinin, "Kitabi-Dədə Qorqud" dastanının, "Koroğlu" dastanın, aşıq yaradıcılığının, Quranın əslinin, Nəimi, Nəsimi fəlsəfəsinin təhrif olunaraq türkü öz həqiqi tarixindən uzaqlaşdırılmasını müxtəlif səviyyələrdə açıq və örtülü şəkildə qeyd etmişdir. Sonrakı əsərlərində sanki Muğanna "İdeal" romanında tezislərini vermiş mətləbləri açmağı, bədii həllini və izahını verməyə çalışmışdır. Çünki "İsahəqq, Musahəqq" əsərində bu adda olan əfsanənin, "Cəhənnəm"də Nizaminin "Yeddi gözəl" əsərindəki "Qara geyimlinin hekayəti"nin, "GurÜn" də Quranın və ağ şeyxlərin – Nizami Gəncəvinin, "Qırx kisə qızıl" da "Aşıq Qərib" dastanının, "Söz yarası" povestində "Sarı gəlin" əfsanəsinin, "İlan dərəsi və ya Süleyman peyğəmbər" əsərində Süleyman peyğəmbəri olduğu kimi təqdim etməyə çalışmış, təhrifə qarşı öz yozumunu böyük inamla qələmə almışdır. Bütün bunların fövqündə Sovet hakimiyyətinin ideologiyası əsasında baş verdiyini əminliklə söyləyir, Atatürkün, Nəriman Nərimanovun, Stalinin, Mircəfər Bağırovun apardığı siyasətin gizlin tərəflərini aşkarlamağa çalışır. Hətta Leninin belə, seçilmişlərdən olduğunu qeyd edir, Nərimanovla

dostluqlarından danışır. Bu gün tarixin sübut etdiyi Lenin və Nərimanovun zəhərlənməsini SafAğ elminin zəhərlənməsi və məhv edilməsi naminə edildiyi qənaətindədir. Stalinin "çekisti" Bünyad bəyin etirafı bunu ifadə edir: Nəriman Nərimanov Moskvaya aparılanda Zeynalabdin Tağıyev Muğannalardan kompanionu – Məmməd xozeyni kabinetinə çağırıb, qapını açarla bağlayıb deyib: "Nərimanov vəzifəyə yox, ölümə getdi... Nərimanın, sənin Muğannalara mənsub olduğunuz açıla bilər. Nərimanın Leninlə gizlin danışıqları Ulyanovların EvƏrEy OdƏrliyi, Tərikliyi də açıla bilər. Ulu Bağın cəmi Yer üzündə vahid ədalət Səltənətinə dair yazdıqları axtarılır. Hətta, bəlkə, hammızı qırarlar."



Leninin seçilmiş olduğu nə qədər aksiomadırsa, onun OdƏr elminə xidmət etməsi, OdƏrliyi bir o qədər mübahisə doğuran məsələdir. Düzdür, "İdeal" əsərində slavyanların türklükdən ayrılma və uzaqlaşma prosesi olduqca geniş və aydın şəkildə izah edilib. Amma tarixin dərin qatına enə bilməyən oxucu bunu pafos və millətinə aşiq olma kimi qiymətləndirəcəkdir. Elə müəllif ona görə də "Həyatımdan səhifələr" povestində "Yaxın və uzaq keçmişimizdən tarixi hadisələr, bədii süjetlər içində verilmiş SafAğ həqiqətlərinin qavranılmasını asanlaşdırmaq məqsədilə mən "İdeal" romanını yenidən və sonuncu dəfə işlədim. Bu əsərlə tanış olmayan oxucu altılığa daxil edilmiş romanlarda SafAğ elminin təfsilatını dərk edə bilməz. Həmin romanlar – "Məhşər" (Ənşər-mən şər") "Qəbiristan" "GürÜn", "İsahəq, Musahəq"

"Cəhənnəm", burada göstərilən xronologiya əsasında oxunmalıdır ki, lazımınca yaxın və uzaq keçmişimizdən tarixi hadisələr, bədii süjetlər içində verilmiş SafAğ həqiqətlərinin qavranılmasını asanlaşdırmaq məqsədilə fayda versin.

Fikrimizcə, İsa Muğanna SafAğ elminə xidmət edən insan dedikdə bunu sırf genlə bağlamır. Onun düşündüyü və yaratdığı bu elm bəşəriyyətin xilasını qurtaracaq elmdir. "Cəhənnəm" romanında da qeyd edildiyi kimi, dünyanı xilas edəcək qüvvə yalnız "elm və eşq"dir. Bu fəlsəfənin əsasını sufizm, hürufizm qoyduğu hamımıza bəllidir. Ulu Bağın SafAğ elminin həqiqətlərini, həqiqətin əslini üzü Atilladan, Makedoniyalı İskəndərdən tutmuş Teymura, Sultan Süleymana, Napoleona, Hitlerə, Leninə, Stalinə qədər çoxları axtarıb. Lakin əldə edilməsi mümkün olmayan bu sirrin qalıqları da zaman-zaman məhv edilib, sıradan çıxarılıbdır. Bu gün elmdə də bir inam var ki, yaradılışın sirri hardasa var və bir gün üzə çıxacaq. Bunu tapan isə dünyaya hökmranlıq edəcək. Hətta bəzi inanclarda bu sirr hansısa gizlin bir qüvvənin əlindədir və dünyanın idarəçiliyinə də nəzarəti o edir.



Müəllifin əsərdəki zaman arealı çox genişdir. O, bu gün dünyada danışılan dərin dövlətlər, dünyanın gizlin sahibləri, gələcək dünyanın konturlarının necə cızılması məsələlərinə Azərbaycan romançılıq ənənələrindən kənara çıxaraq, qlobal düşünərək yozum verir. Nəzərə alsaq ki, bu gün dünya insanını öz yozumları ilə sehrləmiş yazıçıların əksəriyyəti bu pri-

yomdan istifadə edir. Den Braunun, Ceymis Rollinsin, Tom Knoksun əsərləri mistik yozumlar üzərində qurulur və sirli dünyanın sirlərini açmış kimi təqdim edilir və bəşəri və bəşəriyyəti dərk etmə yolunda daima maraqlı olan insanı cəlb edir. Təəssüflər olsun ki, bu gün dünyanın ən çox danışılan xalqı yevreylər – ƏvƏrEylər haqqında özünəməxsus, bənzərsiz yozumları olan İsa Muğanna əsərləri dünya ədəbiyyatına təqdim edilə bilmir.

"Cəhənnəm" romanındakı yozumlar o qədər geniş masştablıdır ki, böyük bir dissertasiyanın materialı olduğunu düşünməmək olmur. İstər qrek, türk, fars, yevreylərlə bağlı tarixi faktlardan süzülən anlar, istər Şah İsmayıl, Sultan Səlim, Heydər Əliyev, Nəriman Nərimanov, Atatürk, Lenin, Xumeyni kimi tarixi şəxsiyyətlərə olan münasibət, istər bütöv Azərbaycan ideyaları, İranın apardığı siyasət, Amerikanın şərqdəki proseslərdəki əli oxucunu bu tarixi mövzulara bir daha qayıtmağa tələb edir. Çünki təqdim edilən faktlar o qədər ustalıqla nəsrin incə dili ilə verilmişdir ki, bir anlıq bədii əsər oxuduğunu unudur, romana tarixi bir əsər kimi baxırsan. Tarixi hadislərin, bədii gerçəkliklərin əsirinə çevrilirsən.

Roman içində roman yanaşması baxımından, mövzu, ideya, yozumların mistika ilə siyasətin vəhdəti aspektindən "Cəhənnəm" romanı Mixail Bulgakovun "Master və Marqarita" romanını xatırladır. Digər bir tərəfdən də mövzu Hötenin "Faust", Hüseyn Cavidin "İblis" əsərlərində də öz həllini geniş tapıb. Adı çəkilən hər üç əsərdə iblis obrazı demək

olar ki, çox oxşardı. Və hər üçündə də iblis dondan dona girərək bəşəriyyətin məhvinə, həqiqətin boğulmasına xidmət edir. "Master və Marqarita" romanında "Voland yer üzünə cəza vermək və əfv etmək üçün gəlmişdir və bilir ki, kimi nəyə görə cəzalandırmaq, nəyə görə əfv etmək lazımdır. İvanuşkadan ötrü o, xarici ölkə casusudur, tarix professoru Berliozdan ötrü ağlını itirmiş sərsəri, yabançıdır, Styopa Lixodeyevdən ötrü cadugərdir, Masterdən ötrü isə ədəbi personaj. Lakin əslində Voland İblisin özüdür" "Cəhənnəm" romanında isə Bünyad bəy 1906-cı ildə Zeynalabdin Tağıyevi, Doktor Nərimanı zəhərləyən, Həmid Sultanovu, Baba Əliyevi, Səməd Vurğunu, Mehdi Hüseyni, Muğannanını zəhərləmək istəyən iblisdir ki, birincisi "Qızıl ilandı", ikincisi “Çaxçuxdu” (alverçi), üçüncüsü - “hökmdar". "İblis" pyesində isə İblis gah xidmətçi, gah abid, gah zahid, gah da elə iblis kimi fəaliyyət göstərib öz kirli əməllərini həyata keçirir.



"Qərb və Rus ədəbiyyatlarında da orta əsrlərdən bəri Dantenin “İlahi komediya”, Belmontun “Təbliğçi İblis”, Kalderonun “Ecazkar sehrbaz”, Bel Consonun “Şeytan”, Marlonun “Doktor Faust”, Miltonun “Qeyb edilmiş cənnət”, Hötenin “Faust”, Bayronun “Qabil”, Lermontovun “Demon” əsərlərində İblis öz müxtəlif, çoxcəhətli təzahürləri ilə şər qüvvə kimi təsvir olunmuşdur"[48]

[48] Şəmil Sadiq, Hüseyn Cavid yaradıcılığında qəhrəman konsepsiyası, Bakı: Hədəf nəşrləri, 2011, s 33.

"Cəhənnəm" romanının finalı müəllifin dilindən verilmiş: "Cəhənnəm məkanını tap, ey "ins", o fantastikasız fantastika sənin özündə deyilmi?!" cümlə ilə yekunlaşır. Burda Hüseyn Cavidin "İblis" pyesindəki İblisin son monoloqu diqqətimizi çəkməyə bilməz: "

Mən tərk edirəm sizləri əlan nəmə lazım?
Heçdən gələrək heçliyə olmaqdayım azim.
İblis nədir?
– Cümlə xəyanətlərə bais…
Ya hər kəsə xain olan insan nədir?
– İblis!..

Hər iki müəllifin qənaətinə görə, əgər dünyanı bu qədər iblisləşmiş insan bürümüşsə və onlar dinc dövrdə belə hər kəsin xoşbəxtliyinə mane olub, müharibə dövründə milyonları məhvə məhkum edə bilirlərsə, onda mövhumi İblisə, cəhənnəmə daha ehtiyac yoxdur.



Bünyad bəydən fərqli olaraq, Arif içindəki iblislə mübarizəyə qalxdı, amma o, bunun fərqinə varmadı, çünki Arif İblisi içində yox, Göylərdə təsəvvür edirdi. İblisin yaranmasının da günahını Allahda görürdü və son nəticədə öz daxili aləmini təmizləyə, saflaşdıra bilməyən Arif qəlbindəki iblisə uydu.

Məqalənin əvvəlində "Cəhənnəm" əsərindən verilmiş "ömrü onsuz da işgəncələr içində keçən insanı bir daha, özü də daima əzaba salmağa hansı vicdansız yaradıcıya lazım olub?" sualını müəllif özü vermişdir, amma Hüseyn Caviddə Arif İblislə mübarizəyə qalxmışdı. Nəzərə alsaq ki, obrazları dindirən də müəllifdir, deməli, həm Hüseyn Cavid, həm də isa Muğanna bəşər övladının iblis xofunu yalnız öz bətnindən təmizləməyi tövsiyə etmişdi.

## 1.3. İsa Muğannanın "İlan dərəsi" silsiləsində tarixilik və mistika

İsa Muğanna... Bu ad bütün Azərbaycan oxucusuna doğmadır. Ədəbiyyata gəldiyi gündən keşməkeşli bir ömür yolu keçən İsa Muğanna tutduğu qələmə həmişə sadiq qalmış, çətinliklərə, təzyiqlərə baxmayaraq, inandığı yoldan dönməyən dahi bir şəxsiyyət kimi özünü təsdiqləmişdir. Ədəbiyyatımızda, bəlkə də, dünya ədəbiyyatında onun kimi ikinci bir şəxsiyyət yoxdur ki, uzun illər öncə yazdığı əsərlərə dönə-dönə qayıtsın, məzmununda ciddi dəyişikliklər etsin. Bəlkə də, kimlərsə bunu cəsarətsizlik və lüzumsuz bir hal kimi qəbul edir. Amma, məncə, bu İsa Muğannanın yazdıqlarına və düşündüklərinə sədaqətli olmasından və səmimiliyindən irəli gəlir. Çünki qələminə və sözünə şübhə belə olmayan bir sənətkar öz əsərini yenidən işləyir, onu əlavələrlə zənginləşdirirsə, bu bir növ onun səmimi söz ustadı olduğundan xəbər verir. Professor Nizami Cəfərovun dili ilə desək, "Mən sizin yazdığınız hər cümlənin heyranıyam, çünki sizin yazdığınız hər bir cümlə Azərbaycan dilinə tarixi nüfuz (və hörmət) gətirir. Sizin bədii intellektual təfəkkürünüzün miqyası elədir ki, dünyada mövcud olmuş (və olan!) istənilən xalqın yazıçısının bədii intellekti ilə müqayisə oluna, həmin müqayisədə ən qeyri-obyektiv hakimin münsifliyi ilə qalib gələ bilər"[49]

İsa Muğannanın "Yanar ürək" əsərini yenidən iş-

---

[49] Nizami Cəfərov, Yazıçıya məktub, Ədəbiyyat qəzeti, 6 iyun 2008.

ləyib "İdeal", "Doğma və yad adamlar" əsərini "İsahəq, Musahəq" adlandırması, "Qəbiristan"ı, "GurÜn"ü, "Cəhənnəm"i yenidən əlavələrlə işləyib oxuculara təhvil verməsi səbr və əzm istəyir. Heç bir yazıçı bədii əsərinə qarşı bu qədər tələbkar deyil. Amma İsa Muğanna bunu bu ahıl yaşlarında da edirdi. Ömür-gün yoldaşı Firuzə xanım belə Muğannanın bu tələbkarlığına bəzən üsyan edirdi. Söhbətlərimizin birində ustad sənətkar dedi ki, "Gərək "Məşhər"i yenidən işləyim". Bu zaman Firuzə xanım: "Ay İsa, bəsdir, sən Allah" deyərək etirazını bildirdi. İsa müəllim isə öz mövqeyində qaldı və imkan tapan kimi işləyəcəyini desə də, ömür vəfa etmədi.

İsa Muğannanın son kitabı olan "İlan dərəsində" dörd yeni əsəri verilib: "Həyatımdan səhifələr" oçerki, "Qırx kisə qızıl", "Söz yarası" və "İlan dərəsi və ya peyğəmbərin taleyi" povestləri. Bu əsərlər ilk dəfə Azərbaycan jurnalında çap edilsə də, hələ kitab şəklində oxuculara təqdim edilməmişdir. Bu əsərlərin birinci nəşrini hazırlamaq ilk dəfə mənə nəsib oldu. Bu mənim üçün İsa Muğanna demiş "fantastikasız fantastika" kimidir. Çünki bir vaxtlar əsərlərini oxuyub ideal dünya axtarışında olan bir tələbənin bu ideal dünyanı təqdim edən bir dahinin əsərlərini çapa hazırlaması və ön söz yazması bir möcüzə kimidir. Pafoslu səslənməsini istəmədiyim bir fikri bura yazmaq istərdim, ön söz yazıb-yazmamağım haqqında çox düşünürdüm. Sərhədsiz bir ideya və fikir sahibinin əsərləri haqqında nəsə yazmağın məsuliyyəti məni sıxırdı. Amma ustadım qəbul etdi-

yim Muğannanın şərəfinə və əsərlərindən təsirlənərək yazdığım "OdƏrlər" romanımın ön sözünə yazdığı rəydəki son cümlə məni cürətləndirdi: *Çünki bizim ikimizin taleyi var bu kitabda. Tale birliyi, əbədi yazıçılıq birliyi, gələcək həyat birliyi böyük, nadir xoşbəxtlikdir...* Elə bu cümlədən ürəklənib kitabın adını da təklif etdim: "İlan dərəsi".[50]

Bir az düşündü və olar dedi. Çünki təklifi etdiyim zaman kitabın üz qabığının dizaynını da aparmışdım. "Ağ gəlini yaxşı fikirləşmisiniz" dedi. Zəif görən gözləri ilə ƏsƏlmənin təsvir edildiyi rəsmə baxıb: Bunu daha yaxşı oxşatmısınız", – dedi. Bu ikimizində gülüşünə səbəb olmuşdu.



Azərbaycan ədəbiyyatında çox böyük rezonans doğuran "İdeal" əsəri haqqında demək olar ki, ölkəmizin ən böyük alimləri öz tənqidi fikirlərini yazmışdır.

Akademik İsa Həbibəyli İsa "Hüseynovdan İsa Muğannaya: axırıncı əlyazma və bütöv dünya" məqaləsində qeyd edir ki, "İsa Hüsenovun yaradıcılığı Azərbaycan bədii nəsrinin böyük ustadı Cəlil Məmmədquluzadə ilə altmışıncı illər ədəbi nəslinin arasında körpü funkiyasını daşıyır. İsa Hüseynovun əsərləri Azərbaycan altmışıncılarının möhtəşəm bir proloqudur. Sanki İsa Hüseynov doğma və yad adamlar haqqındakı qənaətlərini, yazıçı təəssüratlarını Azərbaycan altmışıncılarına təhvil verib, özü tamam yeni bir sahə ilə, “İdeal” romanı ilə və onun davamı olan yeni dünyanı təsvir etməklə məşğul ol-

---

[50] Şəmil Sadiq, Odərlər romanı, Bakı: Hədəf nəşrləri, 2013, s 2-3.

mağa keçmişdir. "İdeal" yalnız İsa Hüseynovun yaradıcılığında deyil, geniş mənada Azərbaycan ədəbiyyatında özünəməxsus bir istiqamətdir"[51]

İsa Hüseynovun birdən-birə isa Muğanna olduğunu düşünən və yazanlar da az olmamışdır. Amma onun ta doğulandan Muğanna olub sivilizasiyanın yaradılışından xəbər verən Muğlardan olması nəsilnəcabətinin keçdiyi həyat yolundan görünür. İsa Muğanna doğulduğu gündən İsa Əfəndi olmuşdur. Hər şeyi bilən ağa, üləma, sayğıdəyər, bilgiyə sahib anlamında işlənən "Əfəndi" kəlməsi İsa Muğanna doğulanda ona verilən ilk ad idi. İlahi bir səs bu adı İsa Muğannanın ata qohumu Hilal xalaya dedizdirib. Müəllif bunu özü belə qeyd edir: "Hilal xala sevinclə xeymədən eşiyə atılıb, deyib: – Gözün aydın, ay Omar ağa, İsa əfəndi gəldi!" İsa Əfəndi Muğannanın əmisi olmuşdur. Tarixi sirləri varisləri ilə gələn nəsillərə ötürən Muğlar, Muğannalar İsa Əfəndiyə "Nəslin Günəşi" deyərlərmişlər. Çünki o SafAğ elminin bilicisi və bu elmi gənclərə çatdırmaqda görəvləndirilən bir şəxs idi. O dövrü üçün "çox təhlükəli "İstoriya İslama" kitabı"nı yazmışdır. Yaradılışın sirlərini qəlbində daşıyan, amma bildiklərinin hamısını OdƏrlərə ötürə bilməyən bir SafAğ alimi idi. Çünki vaxtsız vəfat etmişdir. Bu şanlı və müqəddəs iş İsa Muğannanın çiyninə düşdü və o, bu şərəfli işi ləyaqətlə, yolundan dönmədən həyata keçirdi. Mehdi Hüseynə "Anadil ötəndə" oçerkinə görə "atamı daha



[51] İsa Həbibbəyli, İsa Hüseynovdan İsa Muğannaya: Axırıncı əlyazma və bütöv dünya. Bakı: Hədəf nəşrləri, s 3-5.

yaxşı tanıyıram" deyib öz gördüklərindən yazan İsa Muğanna ömrünün sonuna qədər gördükləri və eşitdiklərindən başqa heç nə yazmadı. Gördükləri onun həyatına biçilən yaşam, eşitdikləri isə Bağ Atanın ona babaları, ataları və işıq vasitəsi ilə dedikləridir. İsa Muğannanın yazdıqlarını anlamayan, dərk edə bilməyən şəxs gərək ki, onun 81 yaşında yazdığı "Həyatımdan səhifələr" oçerkini oxusun. O bir OdƏr nəslinin şəcərəsini dərk etdiyi həqiqətlə bu əsərində yazmış, o əsərləri niyə və necə qələmə aldığını pafossuz qeyd etmişdir. Bu oçerk İsa Muğannanın yaşadıqlarını və yazdıqlarını özündə əks etdirən bir tezisdir sanki.



İsa Muğanna möcüzəli bir şəxsiyyətdir. "Həyatımdan səhifələr"i oxuyanda bir hadisə oxucunu mistika ilə tarixi gerçəkliyin vəhdətində vəcdə gətirir. Çünki "Həyatımdan səhifələr" nə qədər tarixə söykənən bir oçerk olsa da, bir o qədər də mistik inancı ehtiva edir. Əsərdən bir daha İsa Muğannanın təsadüfən Hüseynovdan Muğannaya çevrilməsinin təsadüfi olmadığının şahidi oluruq. Müəllifin həyatında baş verən həqiqətləri mistik bir yozumla təqdim etməsi qeyr-adi düşüncə sahibi olduğunu ortaya çıxarır. "Postmodernist mətnlərdə məqsəd hadisəni danışmaq deyil, hadisənin yaratdığı duyğuları anlatmaqdır ki, bu da "yalnızlıq, gerçək həqiqət, depresiya" kimi duyğuların ifadəsidir".[52]

Əsərdən məlum olur ki, İsa Muğannanın və

[52] İsmayıl Şıxlının tanış etdiyi İsa və Firuzə Muğannalar.http://modern.az/articles/59560/1/ (2014.06.22)

ömür-gün yoldaşı Firuzə xanımın valideynləri rəhmətə gedəndən sonra həm özünün 6 bacı-qardaşı, həm də Füruzə xanımın 6 bacı-qardaşını evləndirib köçürmək bu kişinin müqəddəs vəzifəsi olur. Onları evləndirib yola salandan sonra, yəni evləndikdən 20 il sonra həyatının sevinci – Sevinc adlı qızı dünyaya gəlib. Bu, doğrudan da, bir möcüzədir. İsa Muğannanın vəfatından sonra Firuzə xanım bu müəmmalı həyat tərzinə bu cür qiymət verir: "İsayla o qədər ağrılı-acılı günlər gördük ki... İsanın da, mənim də atam müharibəyə gedib qayıtmadılar. Davud Nəsib adında şair var idi, tanıyırdınızmı? Bax, o, kiçik qardaşım idi. Atam elə onun ancaq üzünü görə bildi. Onların evində İsa böyük uşaq idi, bizim evdə də mən. Onların hamısını böyüdüb ali təhsil verdik, ailə sahibi elədik. Amma demək olar ki, indi onların böyük əksəriyyəti dünyadan köçüb. Mən bilmirəm nədir günahımız ki, onlar bizdən qabaq köçdülər, axıra qalan biz olduq"[53]

Bundan sonra isə "Yanar ürək", "İdeal", "Doğma və yad adamlar" "İsahəq, Musahəq" yazılır, cəmiyyət İsa Hüseynovu İsa Muğanna olaraq tanıyır. Bu o zaman olur ki, İsa Muğanna şəcərənin layiqli yaşamasını təmin edir. Seçilmiş olduğunu sübut edir. Beləcə gah silsilənin çağdaş nümayəndəsi Səmədi, gah da ən qədim nümayəndələri – ƏsƏlməni (Süleyman peyğəmbəri), ƏsƏlEyi (İsa peyğəmbəri) BağhəmOdu (Məhəmməd peyğəmbəri), ÜnƏsimi (Nizami Gəncəvini), Nəsimini yazdı. Yazdı və qəbiris-

[53] Faciənin kökü, Xalq Qəzeti. 4 may 1997.

tanlığa çevrilmiş beyinləri SafAğ işığı ilə işıqlandırmağa çalışdı. Amma bəzi qəbiristanlıqlar bunu dərk edə bilmədi. İsa Muğannanın ağlını itirdiyini söylədi və yazdı. Düzdür, İsa Muğannanın SafAğ elmi haqqında dedikləri bir insanın asanlıqla qəbul edə biləcəyi fikirlər deyildi. Bunun üçün gərək beynində SafAğ işığı olsun. Beynində bu işıq olanlar və ya bu işığı görmək istəyənlər onun yazdıqlarını duya və ya anlaya bilərlər. Hüseyn Cavid heç də təsadüfən "Şeyx Sənan" əsərində Sənanın və Xumarın əl-ələ tutub uçduğunu yalnız ruhu pak olanların gördüyünü yazmamışdır. O pak ruhları – SafAğ işıqlarını yalnız saflaşmışlar görə bilərdi. Nəzərə alsaq ki, beyinlərimizin işığı sönüb, onda biz İsa Muğannanın 40 ilə yaxın bir zamanda SafAğ elmi haqqında yazdıqlarını necə başa düşə bilərik?



"İdeal" romanındakı "Qapalı dünya", "Eysar çarmıxda", "Peyğəmbərin möhürü" kimi hissələri və ondan sonra bu ideyanı daha da dərinləşdirib "Cəhənnəm", "Qəbiristanlıq", "İsahəq, Musahəq", "İlan dərəsi və ya peyğəmbərin taleyi", "Qırx kisə qızıl" kimi əsərləri ağlı başında olan heç kim yaza bilməz. Çünki bu ağıl Göylərlə əlaqəyə girə bilmirsə, ordan qidalana bilmirsə, onları nə düşünə və qələmə ala bilər, nə də anlaya... İnsan Göylərlə – Yaradanla əlaqəyə girməyi və onu eşitməyi bacardığı bir zaman ağlı – SafAğ işığı başındakı kəllə sümüyündən – ət parçasından uçub yaradanla əlaqəyə girdiyi zaman qeyri-iradi fikirlər söylər. "Həyatımdan səhifələr" oçerikini vərəqlədikcə görürük ki, İsa Muğanna ağlı

başından çıxıb Göyləri gəzən və eşidən bir OdƏrdir...

***

İsa Muğannanı tarixi keçmişimiz, insanın yaradılışı, mifik düşüncələr maraqlandırsa da, o çağdaş cəmiyyətimizdə gedən proseslərə heç bir zaman biganə qalmamışdı. 85 yaşlı yazıçı iki eynəyi üst-üstə geyərək, böyük bir lampa işığında oxuyub-yazmasına baxmayaraq, milli taleyimizə təhlükə olan bütün məsələləri izləyir, öz analitik düşüncələrini istər müsahibələrində, istərsə son yazdığı povest və romanlarında ürək ağrısı ilə qələmə alırdı. İsa Muğanna Yerlə Göyün əlaqəsindən danışır, qədimdə yerdə olanların xəbərini Göylərdən aldığını deyirdi. Orxan Fikrətoğlunun "Ölü mətn" romanında deyildiyi kimi "Hələ Göydən səs, mələk, fikir və adam gəlməkdədir. Qeybdən xəbər eşidənlər var. Bizim elin kahininə Dədə deyirlər. O, bizim mətnimizi yazır." Bu ifadələr sanki İsa Muğannanı ifadə edir. Hətta Orxan Fikrətoğlunun Cəlil Məmmədquluzadəyə ruhən bağlılığı göstərir ki, özünü Cəlil ədəbi məktəbinin yetirməsi hesab edən Muğanna yaradıcılığının ikinci mərhələsi – magik realizmi Orxan Fikrət oğluna da təsir etmişdir. Bu baxımdan "Ölü mətn"də adı demək olar, keçən təhrifsiz Dədə elə İsa Muğannanın prototipidir.



Yaranışının tarixi və səbəbləri bilinməyən erməni-türk düşmənçiliyi mövzusunda hələ "Cəhənnəm", "Qəbiristan" romanlarında yazmış yazıçı "Qırx kisə qızıl" və "Söz yarası" povestlərində bu mövzuya yenə toxunmuş, düşmənin fitnəkarlığını bir daha göstər-

məyə çalışmışdır.

İsa Muğanna "İdeal" romanında qoyduğu bir ideyanı – xalqların vahid kökü və vahid dili ideyasını "Qırx kisə qızıl" povestində çox anlaşıqlı bir dillə qələmə almışdır. Öz prinsiplərindən vaz keçməyən, bəşərin taleyi düşüncəsinin carçısı olan filosof-yazıçı bu əsərində SafAğ elmini başa düşməyənlərə müəllimlik etməyi qarşısına məqsəd qoymuşdur. Düzdür, müəllifin bu müəllimliyi, ustadlığı bütün əsərlərində var, amma bu əsərdə ustad sənətkar sanki dediklərinin dərin mənasını anlamayan şagirdlərinə bütün bu mətləbləri daha asan, daha sadə və bir az da onun ruhuna daha yaxın olan əhvalatlarla yoğuraraq çatdırmışdır.



"Qırx kisə qızıl" povesti bir gəncin – Zahidin dilindən danışılır. Fəlsəfi fikirlərlə yüklü olan bu tale kitabı əsərin baş qəhrəmanı Zahid və Nəsibənin saf sevgisinin təqdimi ilə gərilmiş fikirləri sanki sığallayır, oxşayır. Amma bu şirin sevgi nəğməsi bir həyat fəlsəfəsini özündə daşıyır.

Əsərdə erməninin dilindən danışılan "Aşıq Qərib" dastanının əsli, sözsüz ki, rəmzi mənadadır. Bütün tarixçilərin gəldiyi bir qənaət var: bütün insanlığın və türkün qədim tarixi bu gün gizli qüvvələr tərəfindən gizlədilir və ya təhrif edilmiş formada bizə təqdim edilir. İsa Muğanna da "Aşıq Qərib" dastanının əsl variantını bu əsərdə təqdim etməklə, tarixi şəxsiyyət olan Məmmədhüseyn Təhmasibi bir obraz kimi təsvir etməklə, hətta Məhəmmədhüseyn Təhmasibi bu dastanın əsl variantını nəşr etdirmə-

məkdə günahlandırmaqla, Ermənistandakı gizli "Matenadaran" kitabxanası haqqında "Matenadaran əməkdaşı" Karens Karapetyanın dilindən danışmaqla, Mircəfər Bağırovun anti-millət fəaliyyətini təqdim etməklə, Göyçə mahalının ermənilərə necə verilməsini, insanların necə köçürülməsini göstərməklə türk dünyasını öz tarixini araşdırmağa, düzgün kimliyini bilməyə səsləyir. Tarixi əsərləri özünə mövzu seçən bədii əsərlərin bir funksiyası da bu olmadır, bizcə.

Yazıçının bir çox əsəri kimi, "Qırx kisə qızıl"ı da vərəqlədikcə sanki tarixi bir əsər oxuduğunu, bitirdikdən sonra isə İsa Muğannanın tarixçi və bu əsərin də tarixi əsər olduğunu düşünürsən. Çünki bədii ədəbiyyat olmasına baxmayaraq, o qədər inandırıcı bir dil, fakt var ki, dəhşətə gəlirsən. Bəlkə də, İsa Muğannanın yazdıqları bir tarixdir və oxucuların dəli olmaması üçün adını bədii ədəbiyyat qoyub. Axı nə qədər də olmasa, bədii ədəbiyyat təxəyyülün məhsulu kimi qəbul edilir. Amma biz dünya ədəbiyyatından da görmüşük ki, bu gün dünyanı heyrətə gətirən texnikaların: yeraltı gəmilərin, vertolyotların nəzəriyyəsi elə ilk dəfə bədii əsərlərin müəllifi Jül Vernin bədii əsərlərində verilmişdir. Sonralar isə alimlər bu fantastik fikirlərdən bəhrələnərək yeni ixtiralar etdilər və bu ixtisarlar bu gün həyatımızın əsas amilinə çevrildi. Jül Vern deyirdi ki, bir adamın xəyal edəcəyini başqasının reallaşdırması çətin deyil. Bəli, bu gün, bəlkə də, bizlərə xəyal kimi görünən İsa Muğanna ideyaları, açılmamış gizli mətləblər, gizli

tarixlər bir gün bir tarixçi, arxeoloq tərəfindən kəşf ediləcək.

İsa Muğanna yenə bir çox stereotipləri yıxdı. Çünki əsərdə Uğur Mağarov, Mircəfər Bağırov, Məmmədhüseyn Təhmasib, Yemliyanov kimi tarixi şəxsiyyətlər və ya tarixi şəxsiyyətlərin prototipləri var. O, indiyə qədər kimsənin cürət edib söyləmədiyi bir fikri bədii obrazın dilindən təqdim edir: "Karens necə heyrətləndisə, hətta dizləri üstə qalxdı.

– Professor Məmmədhüseyn Təhmasibi yaxşı tanıyıram mən, – dedi. Göyçə aşıqlarından dastan toplanmasında iştirak eləmişəm. "Aşıq Qəribi" də mən vermişəm ona. Amma nədənsə mənim verdi-

yim mətn OdƏrUn variantını yox, savadsız bir aşığın danışdığını yazıb". Düzdür bunu deyən erməni Karanes Karapetyandır və o, həmin Karapetyandı ki, "Taqanroq" diviziyasında qeyri-adi qəhrəmanlığı ilə fərqlənən azərbaycanlı Uğur Mağarov haqqında iki daşın arasında da olsa, "material" vermişdi KQB-yə. Buna-Erməninin dediklərinə inanmaq çox çətindir. Amma düşünsək ki, Karapetyan bu fikirləri heç bir təzyiq altında deyil, sadəcə vicdanının səsi ilə etiraf etmişdir, bu etiraf isə azərbaycanlıların heç bir vəhşiliyə, fitnəyə baxmadan öz əqidələrindən: insansevərliyindən, qonaqpərvərliyindən, dürüstlüyündən yaranmışdır, deməli, yazıçı Karenesin fikirlərini təqdir edir. Bir anlıq 1930-cu - 1940-cı illəri yada salıb gözlərimiz önündə canlandırsaq, o dövrdə bir çox qeyri-adi hadisələrin baş verdiyini görmüş olarıq. "Kitabi-Dədə Qorqud" dastanını repressiyaya məh-

kum edən bir rejim necə olur ki, şifahi xalq ədəbiyyatımızın toplanmasına icazə verir və pul ayırır? Azərbaycanda yaşayan türkləri sürgün etməyi düşünən bir rejim necə olur ki, Cənubi Azərbaycan haqqında şeirlər, romanlar yazılmasına start verir? Əlbəttə ki, toplanan bir çox mətnlər təhrif olunaraq yazıya alınmış, həqiqətlə gizlədilmişdir. Hətta bir çox tədqiqatçılar bu gün o dövrdə qələmə alınmış nümunələrin yanlışlığından söz açır, bəzi nümunələrin isə şəxslərin yaradıcılıqlarının məhsulu olduğunu sübut etmişlər. Bəli bu mətləblərin araşdırılmasına böyük ehtiyac var və tarixçilərin bu gizlinlərə bir daha dönmələrini və heç bir təzyiq olmadan doğru-dürüst tədqiq etmələrini səbrsizliklə gözləyirik.



Əsərdə diqqəti çəkən bir məqam da var: Karanes "Aşıq Qərib" dastanının tədqiqatçısı, əsərin baş qəhrəmanı Zahidi Məhəmmədhüseyn Təhmasiblə tanış edən bir şəxsdir. Zahidin atası – Uğur Mağarova xəyanət edən Karanes OdƏr tarixinin üzə çıxmasını istəyən şəxslərdən biri kimi təqdim edilir. Elə buna görə də canıyananlıq edib Zahidi Məhəmmədhüseyn Təhmasiblə görüşdürür və onun aspiranturaya daxil etdirməsini tapşırır. Məhəmmədhüseyn Təhmasib isə onu qəbul edir və Zahidin izinə düşdüyü və bu məqsədlə də yazdığı "Aşıq Qərib" dastanında tarixi həqiqətlər" əsərini oxuyur və ona deyir: – İlk rəyi respublikanın ən yüksək instansiyasından eşidəcəksən. Yəni mənim fikrimi instansiyanın rəyindən sonra biləcəksən". Bundan sonra isə "respublikanın ən yüksək instansiyasından" rəy bildirilir: Zahid Mircəfər

Bağırovun kabinetinə çağırılır "Oxu tar" yazan Müşfiqin yolu ilə gedirsən?" deyilib istintaqsız, filansız həbs edilir.

Bu, diqqətli oxucunu heyrətləndirən bir məqamdır. Çünki Karanes bir zamanlar Zahidin atası ilə dostluğunu, onlara yaxınlaşmasını gizli erməni kəşfiyyatının əli ilə etdiyini etiraf edərək, haqqında "material" verib "qızıl medalı" iki "qırmızı medal"la əvəz etdirməsi günahını yuyub, unutqan bir xalqın övladını yenə aldatmışdır. Uğur Mağarov erməninin – Karanesin OdƏr tarixini bilməsini və ona bəzi mətləblərdən danışmasını xoş niyyət kimi qəbul edib yenə evinə almışdır. Və sonda yenə onun fitnəsi ilə şəcərənin davamçısı, Uğur Mağarovun oğlu Zahid Mağarovu tələyə salmışdır. Onların kimliyini bilən bu erməni məkrli biri olduğunu bir daha göstərmiş olur və yenə öz əlimizlə susduruluruq. Zahid bu işlərin başında erməni olduğunu əsərdə heç düşünmür də. Çünki o, yazdığı gizlin tarix kitabını ilk dəfə Məhəmmədhüseyn Təhmasibə vermiş və ondan sonra həbs edilmişdir.



Əsərin müsbət sonluqla bitməsi oxucunu ümidləndirir. Dastan üzərində qurulan, "Qırx kisə"dəki qızılın OdƏr dilindəki sözlər olduğunu məharətlə oxucuya izah edən yazıçı OdƏr həqiqətlərini öyrənən Zahidə axır ki, sevgilisi Nəsibədən "hə" cavabını eşitdirmiş və vüsala çatdırmışdır. Mircəfərin Bağırovun edam edilməsi ilə azadlığa çıxan Zahidi sevgilisi qarşılayır. Bu bir ümid işığıdır. Demək ki, şəcərə hələ də yaşayır, gizlədilmiş tarixlərin ortaya çıx-

masına ümid var. Bu ümidi isə onların yanında olan Nəsibə kimi türk qızlarının dəstəyi ilə həyata keçiriləcək. Əsərin qəhrəmanı Zahid sanki İsa Muğannanın prototipidir. Çünki onun vərəsənin nümayəndəsi olması, dünyagörüşü, taleyi, filoloq olması, öz xalasıqızını sevməsi, onunla evlənməsi və sairə bir çox xüsusiyyətlər İsa Muğannanın yenə tanıdıqlarından yazmasına, həm də çox yaxından tanıdıqlarından yazması ideyasına sadiq qaldığını göstərən amildir. Bu dəfə isə tanıdığı özü və bu gün də ona dəstək olan sevimli ömür-gün yoldaşı Firuzə xanımdır. Bu əsəri yazmaqla İsa Muğanna SafAğ elmi haqqındakı fikirlərin bədii təxəyyülün məhsulu olduğunu yox, bir tarix olduğunu göstərmək istəmişdir, bəlkə də. Çünki heç bir müsahibəsində, heç bir məqaləsində, heç bir söhbətimizdə mən oxumadım və eşitmədim ki, İsa Muğanna desin ki, filan obraz bədii obrazdır, bədii priyomdur, bədii təxəyyüldür, bədii təhlildir. "İdeal"dan bu tərəfə yaratdığı OdƏr həqiqətlərini bilən obrazların tarixi şəxslər olduğunu vurğulamağa və oxucularını inandırmağa çalışmışdır həmişə. Xalq yazıçısı Anarın bir sözü var: "İsa yazdığına inanan, inandığını yazan bir sənətkardır". Bəli o məhz inandığını yazan sənətkardır. "İnandığı" dediyimiz mətləblər isə ona nəslini tanımasından, tarixi yaxşı bilməsindən gəlir. Bəzən şərti terminlər yaradaraq bəşər övladının yaradılış nəzəriyyəsini ortaya qoymağa çalışır. Amma heç bir ideyasında şovinizm yoxdur. Sadəcə dünyanın şər qüvvələrdən xilasını istəyən və gözləyən bir dahi idi İsa Muğanna.

Müstəqillik dövrü ədəbiyyatımızda İsa Muğanna yeganə klassiklərimizdəndir ki, 90-cı ildən bu günə qədər yazdığı bütün əsərlərdə Azərbaycanın əzəli düşməni olan Ermənilərin türklərə qarşı olan nifrətinin səbələrini göstərən əsərlər yazmışdır. Son illərdə qələmə aldığı "Cəhənnəm", "Qırx kisə qızıl", "İlan dərəsi və ya Peyğəmbərin taleyi", "Söz yarası" kimi əsərlərində türk millətinin tarixi düşməni olan ermənilərin fitnəsinə xüsusi yer ayrılmışdır.

Muğannanın son böyük həcmli əsəri olan "İlan dərəsi və ya peyğəmbərin taleyi" povesti insanın öz yaradılma tarixinə olan marağını cavablandırır sanki. Ən önəmli məsələ isə İsa Muğanna türk millətinin gələcəyinə böyük ümidlə baxır. Süleyman peyğəmbərin vətəninin qədim türk torpaqları olduğu, peyğəmbərin isə türk yanında olduğu qənaətinə gəlir insan. Zəhərli bir heyvan olan ilanın belə dünyanın maariflənməsinə, barışın bərqərar olmasına, günahsız axan qanların durdurulmasına görə insanın – türk oğlunun yanında olması oxucunu heyrətləndirməyə bilmir. Peyğəmbərin türk torpaqlarını işğal etmək üçün bu qədim diyara hücum etmiş Rus Çarı Aleksandra "Türkün heç bir düşməni yoxdur, bizim yeganə düşmənimiz cəhalətdir" deməsi demək olar ki, İsa Muğanna yaradıcılığının, yaratdığı SafAğ elminin əsas qayəsidir. Cəhalətin insanlığı uçuruma sürkləməsi daimə ədibləri düşündürmüş, onlara həqiqəti çılpaqcasına söyləməklə yol göstərmişlər. Türk oğlunun bugünkü azğın bir dünyada intellektle qalib gələcəyini gözləyən Muğanna Hüseyn Cavidin

"Turana qılıncdan daha kəskin, ulu qüvvət, yalnız mədəniyyət, mədəniyyət" səslənişinə XXI əsrin sonunda bir daha səs vermişdir. İnsanlığı dini cəhalətlə parçalayıb istismar etməyi qarşısına məqsəd qoyan qüvvələr qarşı sadəcə elm və mədəniyyətlə qalib gəlməyin mümkünlüyünü söyləyən dahi bəşəriyyətin iblisləşməsinin acısını çəkir, onu tale ağrısı kimi dərk edirdi. Şəxsi tale ilə milli taleni vəhdətdə görənlər millətinin qurtuluşunu bəşəriyyətin qurtuluşu kimi də dərk edənlərdir. Bu millətçiliyin adı isə Cavid millətçiliyi, bəşəriliyidir.

Muğanna 1997-ci ildəki müsahibəsində təhrif tarixin üstünün açılması ilə bağlı deyirdi: Heydər bəy dəfələrlə təkrar edib ki, "Qədim tariximizi yazın!", yazmırlar "Azərbaycan akademikləri", yazanda isə yunan dilində "Arti" yazırlar. (OdƏr yazmırlar!) "Pat" yazırlar (BağOd yazmırlar!) hətta I Pyotrun yürüşündən sonralar da öz qədim adı ilə BağOd adlandırılmış indiki mərkəz şəhərimiz "Ba Ki" haqqında həqiqəti də gizlədib təhrifdillilərimizin, təhrif şüurlularımızın özlərinin vasitəsilə "zdes tat-san" deyirlər.

Öz nəsrində daima təhrif dünyadan danışan İsa Muğanna "İlan dərəsi" kitabındakı əsərlərlə – "Həyatımdan səhifələr", "İlan dərəsi", "Söz yarası", "Qırx kisə qızıl" əsərləri ilə yenə ənənəsinə sadiq qalmış, "İdeal" romanında tezis şəklində yanaşdığı mistik məsələlərin tarixlə uyğun mətləblərinin açılmasına çalışmış, oxucusunu tarix və gerçəklik qarşısına gətirərək bir daha düşünməyə vadar etmişdir.

## 1.4. Magik realizm və "GurÜn" romanı

### Magik realizmin mənşəyi

"Azərbaycan tarixi, bu tarixin ayrı-ayrı səhifələri bir sıra romanlarımızda öz dolğun bədii həllini tapmış, beləliklə, tarixi roman janrı öz axtarışları ilə keçmişimizi daha yaxından duymağa, tanımağa, öyrənməyə kömək etmişdir"[54].

Əgər Nizaminin mənzum roman kimi qiymətləndirilən "Xosrov və Şirin" poemasını nəzərə almasaq, Azərbaycan roman janrının təxminən yüz ildən çox yaşı var. Azərbaycan roman janrında "tarixi roman" janrı demək olar ki, romanla yaşıddır. Yusif Vəzir Çəmənzəminli, Məmməd Səid Ordubadi, Oqtay Salamzadə, Mahmud İsmayılov, Əzizə Cəfərzadə, Fərman Kərimzadə, Əlisə Nicat, İsa Muğanna kimi böyük sənətkarlarımız zaman-zaman tarixi roman janrına müraciət etmiş, roman janrının imkanlarından istifadə edərək sanballı əsərlər ərsəyə gətirmişlər.

Dünya ədəbiyyatında mistika, mifik qavram zaman-zaman bütün janrlarda mövzu kimi seçilmiş, bədii-estetik həllini tapmışdır. Bu baxımdan roman janrında da tarixilik bəzən mifik təfəkkürə qədər enmiş, öz tarixiliyini elə məhz mifologiyadan almışdır. Mifologiya birbaşa tarix kimi qəbul edilməsə də, qədim tarixin öyrənilməsində miflər, rəvayətlər,

[54] Axundlu Yavuz, Tarixi roman yeni mərhələdə, Bakı: Maarif nəşriyyatı, 1988, s 8.

əfsanələr, əsatirlər tədqiqatçıların əlində olan yeganə mənbələrdəndir. Ədəbiyyatşünaslıqda XX əsrin əvvəllərindən bir termin kimi istifadə edilən "magik realizm" məhz adını çəkdiyimiz qaynaqlardan mövzu alaraq müasirliyin tələblərinə uyğun bir yozum, üslubda ortalığa çıxmışdır.

Magik realizm termini ilk dəfə alman tənqidçisi və tarixçisi Frans Rox tərəfindən 1925-ci ildə nəşr olunmuş *"Nach-expressionismus, magischer Realismus: Probleme der neuesteneuropaischer Malerei (Magik realizm: Yeni Avropa rəsm sənətindəki problemlər)* adlı əsərində, dövrün alman rəssamlarının, mövzuları, təxəyyül məhsulları, fantastik və yuxu dəyərindəki çalışmaları izah etmək məqsədilə istifadə edilmişdir. Termin olaraq ədəbiyyatda ilk dəfə italiyan yazıçısı və tənqidçisi Massimo Bontempelli (1878-1960) tərəfindən istifadə edilmişdir.[55]



İlk olaraq ədəbiyyatşünaslığımızda az-az səslənməkdə olan bu terminin mənşəyi və dilimizdə necə işlənməsi haqqında danışmaq istərdim. Dünya terminologiyasında "Magik" termini qədim latın və ya yunan dilindən gəlmə söz kimi istifadə edilir. Əlbəttə ki, "magik" sözü magiya-maq sözü ilə eynimənşəlidir. Magik ifadəsi termin olaraq Avropada yaransa da, magiya sözünün yaranma tarixi və işlənmə dairəsi daha qədimə gedir. Onun üçün də "magik" termininin magiya, maq, mug terminlərindən yarandığını qəbul edərək sonuncuların mənşə-

[55] Hatice Elif Diler, Derya Emir, Büyülü Gerçekçilik, Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi 2011, Sayı 30201, s 52.

yindən başlaya bilərik. Anlamı dini dünyagörüşdür. Bu barədə Q.Qeybullayev yazır ki, *"magiya sözü qədim Azərbaycan tayfalarından olan maqların adı ilə bağlıdır. Belə ki, qədim dövrlərdə məhz maqlar sehr və əfsunla məşğul olduqlarına görə qədim yunanlar bu cür əməlləri "maqların əməli" anlamında "magious" adlandırıblar. Zaman keçdikcə həmin söz latınların da dilinə keçib və magiya şəklində bir çox dünya xalqlarının dilində bu gün də işlənməkdə, maqların adını yaşatmaqdadır"* [56]

Bu gün magik realizmin anlamı da qədim türk dilindəki anlam ilə eynidir. Sehrli, əfsunlu ədəbiyyat. Təsadüfi deyil ki, Türkiyə ədəbiyyatşünaslığında "magik realizm" sözünü "Büyülü gerçəklik" termini



ilə əvəz etmişlər. Büyü sözünün də etimologiyasını araşdıran Dəniz Qaraqurdun fikrincə, *"Bağı – türk və altay mifologiyasında sehr, cadu, əfsun deməkdir.* ***"Bayı"*** *olaraq da deyilər.* ***Bağıçı, Bağışı*** *sözləri sehrbaz mənasını verir.*[57]

*"Azərbaycan tarixində maqlar böyük rol oynamışlar. E.ə. 521-ci ildə fars hakimiyyətinə qarşı Qaumatın üsyanı və Babəkin başçılığı ilə ərəb işğalçılarına qarşı uzunmüddətli mübarizə (ərəb mənbələrində xürrəmilərin maqlar olması göstərilir; məsələn, İbn Əl-Əsir yazır ki, xürrəmilər Məcus, yəni Maq tayfasının bir dəstəsidir.*[58]

Məqaləmizin əsas məqsədi İsa Muğanna yaradıcılığında magik realizm axtarışları olduğu üçün İsa

56 Qiyasəddin Qeybullayev, Azərbaycan türklərinin təşəkkül tarixindən, Bakı, 1993, s 156.

57 Deniz Karakurt, Türk Söylence Sözlüğü (Açıklamalı Ansiklopedik Mitoloji Sözlüğü), 2011

58 Nəfisi S, Babək. Bakı, 1990.

Muğannanın "Bağ Ata" ifadəsini xatırlamaya bilmərik. Dünyanın yaradıcısını, bizim Tanrı adını verdiyimiz gözəgörünməz qüvvəni İsa Muğanna "İdeal" əsərindən başlayaraq "Bağ Ata" adlandırdı. Sözsüz ki, müəllif gözəgörünməz qüvvəni "Bağ Ata" adlandırarkən təsadüfi və ya mənası xoş olan söz kimi seçməmişdir.

*"Həmən birinci əsrdən başlayaraq, ta səkkizinci əsrin axırına qədər Ulu Bağ "atəşgah"larda "Muğanna", "Mağ Mağan" (Mağlar Mağı) adları altında gizlənib"*

Bu gün dilimizdə "bağ" sözünün ifadə etdiyi mənaya diqqət etsək, nəyisə nəyəsə bağlamaq anlamını görərik. Hətta filankəs filankəsin dil-ağzını bağladı, yəni ovsunladı, sehrlədi kimi fikirlərə də rast gəlinir. Vikipediyada "Bağ" və "maq" sözü ilə bağlı qısa da olsa, gərəkli bir fikir yerləşdirilib. "Bağ" sözü *Anadoluda "Büyü" halına çevrilmişdir. Bağlamaq sözü ilə də əlaqədardır. Məsələn, "ağzını dilini bağlamaq..." Bağ sözünün düyün mənası da vardır ki, əvvəllər ovsunlar düyünlər ilə edilməkdə idi.* (Müəllifdən: Xalq dilində nəsə itəndə, tapılmayanda "saçının ucunu düyünlə", "açılmaz düyün", "bağ" eyni mənadadır). *Baxmaq (fal baxmaq) sözüylə də əlaqəlidir. Anadoluda "Bağnaz" (fanatik) sözü də bir şeyə bağlanmış mənasını verər və "bağlanmış (ovsunlanmış)" deməkdir. Bag kökü Tunguscada ağlıq ifadə edər. Bağ/Mağ kökü bir çox dildə sehrlə əlaqəli mənaları olan sözləri türetir. Cəlal Bəydilinə görə Maqus/Magus (sehr) sözü Bağ/Mağ kökü (və Bağı sözü) ilə əlaqəlidir. (Türk Mitolojisi Ansiklopedik Sözlük, Celal*

*Beydili, Yurt Yayınevi (türk)* Baxşi *sözü də bu kökdən törəmişdir. Baqı/Bakı/Baxı isə* fal *deməkdir.*

*Slavyan dillərində "boğ", "bog", "boh" və "bug" şəkillərində rast gəlinən və ilk mənası "bogat" sözü ilə əlaqələndirilərək Türklərlə təmas halında olmuş Şərqi Avropa dillərində rast gəlinir. Miladdan əvvəlki əsrlərə aid Ön Asiya yazılarında bilinən ən ulu ilahi varlığın adı "Bag-Maştu" şəklindədir. Urartuda isə belə bir ilahi varlığın yoldaşı da yenə "Bag" sözündən ortaya çıxmış adla "Bag-Bartu" şəklində xatırlanır.*

Türk xalqlarının *ənənəvi görüşlərində "Bag/Mag" (Bay/May) kökündə çox sayda mifoloji varlıq, ruh və təbii obyektlərin adları mövcuddur. "Mag" (Magiya) anlayışının kökü də "Bag-Mag" təməlinə əsaslanır.*[59]



Əlbəttə ki, məqalədə "magik realizm" terminindəki "magik" sözünün mənşəyini araşdırmağı qarşımıza məqsəd qoymamışıq. Lakin mahiyyət etibarilə hələ şifahi xalq ədəbiyyatında özünü göstərən termin ədəbiyyatşünaslığımıza son zamanlar gəlmiş, bəlkə də, Markesin əsərlərinin dilimizə tərcüməsindən sonra bu ifadə bizə daha çox tanışdır. Bunun üçün də bu ifadənin dilimizdə necə işlənməsi adamı düşündürməyə bilmir. Ədəbiyyatşünaslığımızın rus ədəbiyyatşünaslığı ilə ruhən bağlılığı danılmaz və inkarolunmaz faktdır. Rus dili dünya terminologiyasını, adətən, olduğu kimi qəbul edir. Lakin 1930-cu illərdən Türk dilində rəsmi olaraq terminlərin belə türkcəyə uyğunlaşdırılması prosesi başlandığından indi də dünya ədəbiyyatında istifadə olunun

[59] Magiya, http://az.wikipedia.org/wiki/Magiya#sitat_qeyd-3. (31.01.2017)

terminlərin türkcəyə çevrilməsi prosesi gedir. Azərbaycan dilində isə XX əsrin əvvəllərində başlanan bu ənənə Sovet hökuməti dövründə səngisə də, 60-cı illərdən yenidən dirçələn özləşmə meyilləri müstəqillik qazandıqdan sonra daha da sürətləndi. Elə bu səbəbdən də, biz də terminin hansı adla ifadə edilməsi haqqında düşünməyə bilmədik. Yuxarıda da qeyd etdiyimiz kimi, qardaş Türkiyədə bu termini daha çox "Büyülü gerçəklik" istilahı ilə əvəz edirlər. Bunun qarşılığı olaraq biz də "sehrli reallıq", "sehrli gerçəklik", "əfsunlu reallıq" kimi ifadə edə bilərik. Səlim Babullaoğlu 2008-ci ildə Beynəlxalq Teatr İnstitutunun Markesin 80 illik yubileyi münasibəti ilə təşkil etdiyi konfransdakı "Markes Azərbaycan ədəbiyyatına təsir edibmi?"[60] adlı məruzəsinin "Kitabçı" jurnalında təqdim edilən mətnində "əfsunlu realizm" və "magik realizm" deyə ifadə etmişdir. Zənnimizcə, əgər "magik realizm" terminini tərcümə etmək istəyiriksə, elə "əfsunlu gerçəklik" deməyimiz daha məqsədəuyğun olardı. Lakin dilimizin ən dərin qatlarında "magik" sözünün türk dilində olduğu faktları ilə razılaşsaq, elə "magik realizm" kimi ifadə etməyimizi uyğun görürük.

Roland Walter *"Magical Realism in Contemporary Chicano Fiction"* adlı çalışmasının *"Magical Realism – An Overview"* başlığı altında verilən hissədə "magik realizm"in digər janrlardan fərqlənən üç xüsusiyyətini qeyd edir:



[60] Kitabçı, №3, Mega Basım, İstanbul, 2014.

*1. Fantastiklikdən fərqli olaraq magik realizmdə; yazıçının, xarakterlərin son dərəcə olduqca möhtəşəm bir halmış kimi qarşılamaları və oxucunun da bu kimi halları sorğu-sual etməməyi,*

*2. Realizmin, həqiqət və sehrli səviyyələrinin uyğun bir bütövlüyünün təmin edilməsi,*

*3. Yazıçının susqunluğu (authorial reticence).*[61]

Azərbaycan ədəbiyyatşünaslığında isə əminliklə deyə bilərik ki, "magik realizm" birbaşa İsa Muğannanın adı ilə bağlıdır. Çünki İsa Muğannanın "İdeal" əsərindən başlanaraq yeni üslubda yazdığı bütün əsərləri demək olar ki, mistika ilə gerçəkliyin vəhdətindən təşkil edilib. İstər "İahəqq, Musahəqq", istər "Cəhənnəm", istər "GurÜn" kimi,istər "Qəbiristan", istər "Türfə" romanları, istərsə "İlan dərəsi", "Qırx kisə qızıl" kimi povestlərində gerçəkliklə sehrin, gerçəkliklə mifin sintezini görürük.



Səlim Babulla oğlu qeyd edir ki, *"Azərbaycan magik realizmi həm Anarın, həm Elçinin, daha əvvəl isə bəzi çalarları ilə Azərbaycan nəsrinin korifeylərindən olan İ.Hüseynovun əsərlərində vardır"*[62]

İsa Muğanna yaradıcılığının ikinci hissəsində qələmə aldığı əsərlərinin əsas tərəfi oxucunu "həqiqətmi, təxəyülmü?" sualları qarşısında qoymasıdır. İsa Muğanna qələmindən çıxan hər cümlə oxucunu heyrətə gətirir. Məhz OdƏr mədəniyyəti, SafAğ elmi haqqındakı fəlsəfi fikirlər o qədər tarixi fakt kimi inandırıcı səslənir ki, ən intellektual oxucu belə ya

---

[61] Roland Walter, Magical Realism in Contemporary Chicano Fiction. Frankfurt am Main: Vervuert Verlag, 1993.
[62] Kitabçı, №3, Mega Basım,İstanbul, 2014.

oxuduqlarına və eşitdiyi həqiqətlərə inanmaqdan qorxur, ya da inandığı üçün özündən. Amma İsa Muğanna magik realizimi dünya ədəbiyyatında qəbul edilən magizmdən fərqlənir. Çünki İsa Muğanna yaradıcılığı hər hansı bir sehrdən uzaqdır. İsa Muğanna öz həqiqətini, inandığını, hətta təxəyyülünü mifoloji və tarixi faktların yozumunda təqdim edirdi. Magik realizmin əsas ana sualı da "varlıqmı, yoxluqmu?"dur.

### "GurÜn" magik roman kimi

Azərbaycan ədəbiyyatının özünəməxsus sənətkarlarından biri olan İsa Muğanna yaradıcılığının maraqlı və dəyərli əsərlərindən biri də "GurÜn" romanıdır. Roman "İdeal"da qoyulan konsepsiyanı yenə də davam etdirir. Ruh həmin ruh, üslub həmin üslub, iradə həmin iradə. Amma bu əsərdə İsa Muğanna bundan öncəki əsərlərinə nisbətdə daha cəsarətli görünür. Biz bunu əsərin təhkiyəsindən görürük. Əgər İsa Muğanna "İdeal" romanının sonunda *"Heç kəsin anlamadığı bədbəxt bir OdƏr oturmuşdu. Gecələr saat on ikidən səhər saat yeddiyə qədər OdAğÜz BağOdƏr planetindən ən əziz, ən doğma insanın – Eysarının səsini dinləyə-dinləyə yazdığı bu ƏsƏri ilə "Yer" bəşəriyyətinə lənət oxuya-oxuya deyirdi: "İsa", "İsus" adlandırdığım EySarla, BağSar – AğEyin "Musa ağa"nın nəslindən "Muğanna" arasında rabitə yaranıb. Ey ÜnƏs – "insan"! Oxu bu əsəri dəhşətə gəl, ay qatil! Ayıl və anla*

*ki, "Əbədiyyət" əfsanə deyil!.."*[63] – deyirdisə, artıq "GurÜn" əsəri birbaşa Eysarın dilindən yazılır və hərdən İsa Muğannaya bəzi sözlərin izahının da verilməsi tələb edilirdi. Bu onu göstərir ki, İsa Muğannanın konsepsiyası təkmilləşmiş, öz həqiqətini tapmışdır. Və oxucu da artıq İsa Muğannanın kim olduğunu bilir. Digər bir tərəfdən baxsaq, İsa Muğannanın eşitdiyi "Ün"ün nəticəsində Ün sahibləri kimi düşünməsi və onların nə istədiyini tamamilə mənimsədiyini və artıq mürşid kimi çıxış etməsini görərik. "GurÜn"də artıq fövqəlbəşər obrazlarla real həyati obrazların təmasını görürük. Qədim tarixə bu günün zaman kəsiyindən baxan və lazım gəldikdə keçmişə gedib hadisələrə müdaxilə edən Muğanna görürük. Əsərdə İlahi səs, qədim tarix və Muğanna arasındakı əlaqə iç-içədir.



*""Təkyə" nə deməkdir, ey təhriflərim? – Bilmirsiniz. Şərh-izah yaz Muğanna: ehtiyac olanda mötərizədə şərh yaz ki, ölü sözlər dirilib idraksızlarımın zülmət beyinlərini işıqlandırsın"* (Muğanna 2013: 5-6).Bu dialoq əsərin əvvəlində verilir. Və bundan sonra mötərizə içərisində "şərh" başlığı altında xüsusi izahlar verilir. Başqa bir məqamda isə Uca Ün sahibi şərhləri və izahları özü verir və əsərin möcüzəliliyini və inandırıcılığını artırmış olur. *"Atabəy Məhəmməd Cahan Pəhləvanın Əxilərə danışdığı hadisəni indi özüm danışıram, Muğanna, yaz"*[64]. Bu cümlədən isə aydın olur ki, əsərdəki hadisələri Əxi Baba və Muğanna vasitəsilə

---

[63] İsa Muğanna, GurÜn, Bakı: Hədəf nəşrləri, 2013, s 64.
[64] Yenə orda, s 64.

EySar danışır. Bu da müəllifin əsərinin obrazlarından birinə çevrilərək hadisələrin içində gəzişməsi deməkdir. EySar isə əsərdə heç bir yerdə görünmür, sadəcə onun dedikləri və ideyalarından danışılır. Əsərin dili, sanki Quranı xatırladır. Çünki əsər boyu oxucu müəllifin sərt tonu və əmrləri ilə qarşılaşır. Çox maraqlıdır ki, İsa Muğanna "İdeal"da tənqid etdiyi "İslam təslim ol deməkdir və insanları mütiliyə çağırır" fikrini bu əsərin dilində yaşadır. Bəlkə də, əsərin adı bu cür sərt tonla müəllif təhkiyəsinin verilməsini tələb edir. Allahın yerdəki idarəçilərə və ya yerdəki idarəçilərin özlərini Allaha bənzətməsi insanı düşündürməyə bilmir. Bütün dini kitablarda əmr edilir. Muğannanın təhrif din adlandıraraq üsyan etdiyi dinlərin üslubu ilə oxucusunu bu cür qorxutmasının yeganə səbəbi Muğannanın özü də bilmədən dərindən tanış olduğu dinlərin təsiridir. Çünki bədii əsərin dilində bu cür hökmlərin verilməsi o qədər də məqbul deyil. Əgər "İdeal"da müəllif Səmədin dili ilə danışırdısa, burada müəllifin cəsarəti və hökmü daha aydın görünür. Digər yazılarda da demişdik, Muğanna oxucularına qarşı daha soyuqqanlı görünür. Çünki oxucusuna bağırır, qışqırır, düzgün yol göstərir, ona hiylələrin, fırıldaqların, cinayətlərin içində boğulduğunu açıq-açığına deyir, ətrafını bu qədər təhlükənin sardığını deməsinə baxmayaraq, yenə də hökmlərini verməkdən, gərginliyi artırmaqdan çəkinmir. Sanki ən yüksək cərəyanı oxucusunun beyninə qoşaraq həqiqəti dərk etməsi üçün onun ölümünü, ürəyinin partlamasını

belə vecinə almır. "GurÜn" məhz bu cür əsərlərdəndir. Məhz buna görədir ki, Azərbaycan ədəbi tənqidşünaslığı məhz İsa Muğanna yaradıcılığına müraciət etməyə çəkinir. Çünki tənqidçi tariximi, fəlsəfənimi, bədii təxəyyülümü tənqid etməyə tərəddüd edir.

Əsərin adı da magik bir addır. Çünki "GurÜn" ifadəsi səslənmə baxımından Quranla eyniyyət təşkil edir. Və ilk olaraq forma baxımından Quranın adının da təhrif ifadə olduğu qənaətinə gəlirik. Lakin daxili mənaya varanda əsl həqiqəti anlamış oluruq. "GurÜn" sözünün mənası "Uca səs", "İlahi səs" deməkdir. Quran da Tanrının səsi, sözüdür. "Zuxruf"



surəsinin 3-4-cü ayələrinə diqqət yetirsək mənanın eyni olduğunu görərik: ***"Biz bu kitabı, bəlkə, siz düşünəsiniz deyə ərəbcə olan bir Quran etdik." "Həqiqətən, bu (Quran) Bizim yanımızda ana kitabda (Lövhi-Məhfuzda) uca məqam və möhkəm quruluş, dəqiq məzmun və mətin bəyan sahibidir"*** (Qurani-Kərim 2012: 490)

"Quran" sözünün etimologiyası ilə bağlı müxtəlif fikirlər səslənməkdədir:

**1.** *"Quran" söz heç bir sözdən alınmamışdır. Əvvəllər istifadə olunmamışdır. Allah onu ilk dəfə olaraq bu asimani kitaba ad kimi nazil etmişdir. Necə ki, həzrət İsa (ə) və Musanın (ə) kitabının adını "Tövrat" və "İncil" qoymuşdur.*

**2.** *"Quran" sözü alınma sözdür və həmzəsizdir.*

✓ *"Quran" sözü "qarn" sözündən əmələ gəlmişdir və mənası "surələrin, ayələrin və hərflərin bir-birinə yaxın olmasıdır."*

✓ ***b)*** *"Quran" "qarain" sözündən alınıb və mənası belədir: "Quranın ayələri bir-birinə bənzərdir, ayələr bir-birini təsdiqləyir və yozur."*

**3.** *"Quran" sözü alınma sözdür və həmzəlidir.*

✓ *"Quran" sözü "qar" sözünün cəm mənasını daşıyır. Ərəblər məsələn: "suyu hovuza yığdım" demək istədikdə bu sözdən istifadə edirdilər. "Quran" sözü cəm mənasını daşıyır. Yəni "Quran" bütün asimani kitabların səmərəsidir və onları özündə cəm edib.*

✓ ***b)*** *"Quran" tilavət mənasını daşıyır. "Quran" sözü əslində məsdər şəklindədir, burada "oxunulmuş, oxunulan" mənasındadır. Bu məna "kitab" sözünə bənzəyir. "Kitab" məsdərdir, lakin* "yazılmış" mənasını daşıyır".



Bəzi tədqiqatçıların fikrincə, "Quran" sözü Suryanicədəki, yəni Suryanilərin istifadə etdikləri "kilsədə keçirilən dərs" mənası daşıyan karyənə sözündən meydana gəlmişdir. İstər İsa Muğanna yozumu ilə təqdim edilən GurÜn, istərsə də Quran ifadələrinin batini eynidir. Hər iki ad İlahi sözü, İlahi səsi ifadə edir. Sadəcə bədii ədəbiyyatın daxili həqiqəti və magik realizmin yaratdığı imkanlar müəllifə şərait yaradır ki, öz yozumu ilə yanaşsın.

"GurÜn"lə İsa Muğanna Quranın, işığın, işıq övladlarının təliminin mahiyyətini açmağa və çatdırmağa çalışır. Yadda onun yozumlarından çox,

yandırdığı çıraq qalır"[65].

Əsər bir əsas ana süjet xətti üzrə inkişaf etdirilsə də, modernist bir kompozisiya ilə qurulmuşdur. Ana xətt üç daxili başlığa bölünür: Elm, Din, Dil. Təsadüfi deyil ki, müəllif əsəri elm deyilən başlıqla təqdim edir və Nizaminin sahib olduğu Əxilik elminin simvolikası üzərində bəşəri məsələlərə toxunur. Əsərin əvvəlində Məhəmməd Cahan Pəhləvanla Nizaminin dialoqu da müəllifin elmə verdiyi böyük dəyərdən xəbər verir. Böyük hökmdara Nizami "qul kimi danışmalısan" deyir. "Şeyx, AtaBəyəm mən" deyən Məhəmməd Cahan Pəhləvana "Atabəylər nəslən elmimizin qullarıdırlar. Elmin qulu kimi danış, Elm hökmdarı Nizami qulun olsun!"[66]– deyir



Burdan aydın olur ki, bizə tarixdən də geniş şəkildə bəlli olan Əxilik elmi Səlcuqların varisi olan Atabəylərin sütunu idi. Qurulan dövlətçilik ənənələrində bu sistemin böyük töhfəsi var. Digər bir tərəfdən Nizaminin "Elmin hökmdarı" adlandırılması onun dövrünün ideoloqu və türk fəlsəfi fikrinin daşıyıcısı olduğunu göstərir. Nizaminin dövrünün böyük güc sahibi və Əxi babası olduğunu Məmməd Səid Ordubadinin "Qılınc və Qələm" əsərində də görürük. Hökmdarların atdıqları bütün addımları onunla məsləhətləşməsi, regionda aparılan siyasəti onun tövsiyə və təklifləri ilə həyata keçirmələri məsələnin dərinliyindən xəbər verir. "*Təməldə Quranа və peyğəmbərin sünnəsinə əsaslanan prinsiplər ilə*

---

[65] Ölümdən sonrakı həyat, Məqalələr toplusu, Bakı: Hədəf nəşrləri, 2014, s 7.
[66] İsa Muğanna, İdeal, Bakı: Hədəf nəşrləri, 2013. s 5-6.

*İslami anlayışa birbaşa bağlı olan Əxilik təşkilatının qurulmasında, fütüvvət anlayışının büyük əhəmiyyəti var. İslamın ilk əsrindən etibarən görülməyə başlanan fütüvvət təşkilatları içində IX əsrdən etibarən sənətkar birlikləri ortaya çıxdı.*

*Əxiliyin yayılma arealı və onun ideya əsaslarının formalaşması ilə bağlı əxi araşdırıcıları arasında müxtəlif fikirlər mövcuddur. Bu fikirlərdən biri əxiliyin Türk "akılıq" və "alp" ənənəsinin, Ərəb və İran fütüvvət idealıyla İslamın bir sintez halında birləşməsi nəticəsində yarandığının irəli sürülməsi ilə bağlıdır. Digər bir yanaşma əxiliyin fütüvvətin "bir uzantısı" və onun yeni, daha mükəmməl və təkmilləşdirilmiş bir forması olması ilə bağlı olan fikirlərdir. Bəzi araşdırıcılar isə əxiliyi "Türk hadisəsi", "Türk fütüvvət hərəkatı", "...daha çox türkləşmiş bir qurum" kimi dəyərləndirirdilər".*[67]



*"Türklər məhz İslamı qəbul etmələrindən sonra fütüvvət ideyasını mənimsəyib özlərinə xas igidlik, comərdlik və qəhrəmanlıq vəsfləri ilə süsləyərək, Əxiliyin formalaşmasına və İslam dünyasında 500 il önəmli rol oynamasına səbəb oldular"*[68].

Hələ XII əsrdə belə İslam xilafətinin xristianlığa xidmət etməsindən narahat olan türklər genlərində olan "dünyanın ədalətli idarə edilməsi naminə" əxilik sistemini qurub inkişaf etdirmişdilər. Dövlətin hökmdarı Məhəmməd Cahan Pəhləvan Nizamiyə deyir:*"Mən sənin iqtən Həmdünyanda* ***(Müəllif Həm-***

[67] Əsgər Əhməd, "XII-XIV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti (tarixi etnoqrafik araşdırma)" Bakı, 2012.
[68] Vüqar Zifəroğlu "Azərbaycan Milli Kimliyi. Azərbaycanda doğan 500 illik işıq-Əxilik, Bakı: Elm və Təhsil, 2014, s 260.

***dünyan adının belə simvolika olduğu düşüncəsindədir)*** *əxi icmalarını dağıtmalıyam, şeyx. Əxilərin evlərini yandırmalıyam. Gəncədən Abxasa qədər bütün Həmdünyandan qızıl axır sənin təkyənə. Mən dağıdım, yandırım, sən tikdir. Xəlifə mənə sultanlıq versin, səni mürtəd elan etsin.*

*Atabəy Məhəmməd Cahan Pəhləvan zahirdə Müstədbillaha qul olsun, batində SafAğ elminə... Qılıncımızın əsiri şirürəkli Riçard Müstədbillahın üzünə deyib: Xilafət xristianlıqdan gizlin işləmir, yəni müttəfiqdirlər!"*[69]

Yəqin ki, orta əsrlərdə işıqlı insanların yaratdıqları ideologiyalar bəşərin dinlərin əli ilə idarə edilməsinin əleyhinə idi. İlk olaraq İslama inanış və

sonradan İslamın xilafətini ləğv edib dini idarəçiliyi ələ almağı şərtləndirən məsələ elə məhz bu idi. İsa Muğannanın əsərin birinci bölməsini "Elm" adlandırması və Əxiliyin məhz sənətkarların gizli təşkilatı və ya İ.P.Petruşevskiyə görə "usta əlaltılarının gizli təşkilatı" adlandırılması bir-birini tamamlayan tarixi faktlardır.

Əsərin magik qəhrəmanı Əxi babadır. Əxi Baba isə eşitdiyi ünü "EySarın (İsanın) təkrarı" Nizamiyə çatdırır. "Əxi Baban deyil sənə bu sözləri deyən, EySar özüdür" deyir. Əxi Babaya da bu Ünü deyən Uca Ün sahibi əsərin ara-sıra müəllif dili kimi verilən "Şərh" hissəsində Əxi sözünü belə izah edir: "*Əxi Baba" rütbədir, həm də ad. OdƏrcəsi Ağey BağBağÜn. Ağeylərin Beyin Bağı. Bütün Əxilərin beyinlərində fikirlərdən xəbər tutan və hamını bir-birinə bağlayan Bağ,*

[69] İsa Muğanna, İdeal, Bakı: Hədəf nəşrləri, 2013, s 5-6.

*SafAğ Alimi, Asf hökmdar"*Başqa bir məqamda *"Budur Əxi – Ağeylərdən qeyri heç kəsin dərk etmədiyi SafAğ İnsan"* [70]

Əxi sözünün etimologiyasına baxsaq, görərik ki, "qardaşım" anlamını verir. İsa Muğannanın sözlər simvolikasının məntiqi burda da özünü göstərir. Müəllif bu sözü "hamını bir-birinə bağlayan Bağ, SafAğ alimi" adlandırır, qardaş sözünün də mənası eynidir. Deməli, bəzən oxucu üçün söz oyunu kimi görünən İsa Muğannanın OdƏr dili məntiq və sistemdən uzaq deyil. Araşdırmamız OdƏr dili olmadığı üçün bu dərin mövzunu elə burdaca saxlamağı düşünürük.



Nizaminin və onunla bərabər beş şagirdin müəllimi Əxi Babanın missiyası təhrif dünyanı, simvollarda gizlədilmiş elmi xilas etmək və bəşəriyyəti düşdüyü bəlalardan qurtarmaqdır. *"BağBağÜnün hüzurunda sən ancaq BağBağünə deyilən Ünü BağBağÜnün dilindən eşidirsən. Bunu səndən düz iyirmi üç il gizlətmişəm"*[71]– deyən Əxi Baba Nizamiyə verilmiş elmin bitmədiyi üçün onun gözünə görünür, onunla danışır və ona tutduğu yolun düzgün olduğunu deməyə çalışır. Əxiliyin dinin təhlükəsindən qurtarmaq üçün gizlətdiklərini, onun nümayəndələrini isə başqa adla adlandırdıqlarını izah edir.

Burda İsa Muğannanın "GurÜn" əsərindəki tarixiliyə diqqət yetirmək istərdik. Nizaminin Əxi olub-olmaması ilə bağlı tarixi faktlar da az deyil. Dövlət-

---

[70] İsa Muğanna, İdeal, Bakı: Hədəf nəşrləri, 2013, s 5-6.
[71] Yenə orda, s 5-6.

şah Səmərqəndi Nizami Gəncəvinin Əxi Fərrux Zəncaninin müridi olması ilə bağlı ilk məlumatı verənlərdən olsa da, Əsgər Əhməd özünün *"XII - XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti" əsərində haqlı olaraq qeyd edir ki, əslində Dövlətşah Səmərqəndi bir yanlışlığa yol verir. Belə ki, Zəncani Şeyx Nizaminin anadan olmasından yetmiş il öncə dünyasını dəyişib. Y.E.Bertels də Dövlətşah təzkirəsindəki Nizami Gəncəvinin əxi Şeyxi Fərrux Zəncaninin müridlərindən olması haqqında qeydini şübhə altına alır. Şeyx Nizami olsa-olsa özünü ancaq onun mənəvi müridlərindən hesab edə bilərdi.*[72]



Əgər nəzərə alsaq ki, Nizami dövrünün hökmdarları tərəfindən böyük hörmət sahibi kimi qarşılanan bir şəxs idisə, əgər onun sözü rəiyyət içərisində nüfuz sahibi idisə, deməli, Nizami Gəncəvinin ətrafında olan böyük tərəfdarları vardı. Çox maraqlı bir məqam diqqətimizi çəkir. Ədəbiyyatımızda nə Nizamiyə qədər, nə də Nizamidən sonra müxtəlif şahlar tərəfindən böyük ənamlar alan şair yoxdur. Şahlara qarşı öz əsərləri ilə etirazını bildirən Nizami Gəncəvi heç bir təzyiqə məruz qalmır. Halbuki ona yaxın bir dövrdə, hətta sarayda yaşayan Xəqani sürgün olunmuş, əziyyətlər çəkmişdir. Nizaminin məsləhətləri ilə ölkəsini idarə edən Səlcuqilər, Eldəgizlər, əlbəttə ki, onun hörmətini qazanmaq üçün əllərindən gələni etmişlər. İsa Muğannanın Nizaminin Əxi Türk təşkilatının aparıcı qüvvələrindən olduğunu yazması, hətta Atabəylər sarayında Əxiliyə böyük rəğbət ol-

---

[72] Əsgər Əhməd, XII-XIV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti (tarixi etnoqrafik araşdırma), Bakı, 2012.

duğunu göstərməsi, Nizamini Əlincə qalası ilə əlaqələndirməsi, Naxçıvan və Gəncə şəhərlərindəki Sufi elminin bağlantılarından, onun mədrəsədə dərs almasından danışması müəllifin yozumu kimi qəbul edilə bilər. Lakin tarixilikdən də uzaq deyil bu fikirlər. Vüqar Zifəroğlunun "**Azərbaycanda doğan 500 illik işıq – Əxilik" məqaləsində gətirdiyi faktlar və Bertels, A.Y.Krımski, M.Ə.Rəsulzadə kimi tədqiqatçıların fikirlərinə söykənməsi Muğanna təxəyyülünün zənginliyindəki tarixilikdən xəbər verir.***"Bertels Nizaminin əxi sufi təriqətinə – zalım hökmdarlara qarşı mübarizə edən "əmək cəngavərlərinin" gizli sex cəmiyyətinə mənsub olduğunu yazırdı. A.Y.Krımski də hesab edir ki, Nizami hələ gənc yaşlarından əxi sektasına (fütüvvət ordeninə) qoşulub. M.Ə.Rəsulzadə də Nizaminin əsərlərində əxiliklə bağlı çoxlu motivlərin olduğunu bildirir: "Yalnız "Xəmsə"nin ədəbi təşbehləri arasında "əxiliyi" andıran fikirlərə deyil, əsnaf cəmiyyətləri arasında yayılmış və onları birləşdirən "əxi" ideologiyasında da Nizami fikirlərinə uyğun ideyalara rast gəlirik. "Fütüvvətnamə"lərdəki əxlaq normaları ilə Nizamidəki əxlaqi beytləri qarşılaşdırsaq, ibrətamiz nəticələrə gələ bilərik".* (http\\www.rasulzade.org, 25.01.2017)

Qətiyyətlə deyə bilərik ki, dahi şairimizin "Sirlər Xəzinəsi", ümumiyyətlə, əxi kodeksləri və rəvayətləri ilə tam şəkildə kodlaşdırılmış olan bir ədəbi nümunə hesab edilə bilər".[73]



---

[73] Vüqar Zifəroğlu "Azərbaycan Milli Kimliyi. Azərbaycanda doğan 500 illik işıq-Əxilik, Bakı: Elm və Təhsil, 2014, s 260.

Müəllif Əxiliklə şiəliyi eyniləşdirməməyi, tamam fərqli ideyalar olduğunu deyir. Əxi elminin davamçısı Şeyx Nizaminin "Mənim TəkEyimi Şiə iqamətgahına çeviriblər. Səhərdən axşama qədər fars zəvvarlarına dönə-dönə moizə oxuyuram ki, İmam Əlinin əli deyil o Əl, ƏlEydir - Uca Əldir. "Ələm" ağacı deyil, Əlimdir. Qanan yoxdur. Şiə sayırlar məni. Əxidən ayrı – Şiə" üsyanına bu cür cavab verir: *"Ey oğul, indicə qışqırdın ki, zəvvarlar şiə sayırlar səni, elmi öldürürlər".*[74]



Bütün bunların bir müəmma olduğunu və şagirdi Nizamiyə bu müəmmaların açmasını bir mürşid kimi tələb edir Əxi Baba. SafAğ elmini təhlükədən qorumaq üçün Təkyə adı altında TəkEyi, Şiə -"Əli" altında gizlətdiklərini ƏsEy, "Sufi" adı altında gizlətdikləri SafAğı qaraguruhçü dinçilərdən qorxduqları üçün gizlətdiyini bir daha Nizamiyə xatırladır ustad sənətkar. Professor Tahirə Məmmədin İsa Muğannanın məhz bu əsərdə şiəliyə münasibətinə yanaşması, fikrimizcə, düzgündür: *"Şiəliyin yayılan mənasının əleyhinədir, ancaq imamiyyətə inanır – Əlini, Mehdini inkar etmir, əksinə onlara yeni yozum verir; elə yozum ki, həmin yozumla müasir insanı onlara qoşur. ƏlAğ (Allah), EySar (İsa), BağHəm Od (Məhəmməd) və Mehdini bir sıraya düzür, onların ruh halında eyniləşməsindən göndərilən Ün vasitəsilə dərs alır, o halqaya, zəncirə qoşulur. Bu düzüm və ondakı sıralama, keçidlər və keçid arası axarlar zikr dərəcələridir, bütün dönüş və fırlanma bir nöqtəyə*

[74] İsa Muğanna, İdeal, Bakı: Hədəf nəşrləri, 2013, s 5-6.

*– "yox"da var olmaya; vəhdəti-vücuda, fəna fillaha aparır".*[75]

Digər tərəfdən də Əxi Baba Məhəmməd Cahan Pəhləvanın "məkrə uyub elmin xilası naminə Elmə qılınc çəkmək niyyətində" olduğundan narahatdır. Məhz buna görə, Əxi Baba Göylərin sifarişi əsasında Nizami ilə əlaqəyə girib ki, gizlin həqiqətləri ona çatdırsın. İsa Muğannanın haqlı yozumuna görə türk – OdƏr elmi, mədəniyyəti fars və ərəbin əxlaqı və mövhumatı ilə qarışdığı üçün kirlənmiş, ana xəttindən yayınmışdır. Amma batində qalan saflıq, işıq optimist olmağa çağırır. Əsərdə Nizaminin Məhəmməd Cahan Pəhləvana dediyi aşağıdakı sözlər İsa Muğannanın SafAğ elmi adlandırdığı Tanrı elminin ərəb və fars mədəniyyətilə tanış olduğu gündən məhv olduğunu ifadə edir. Müəllif bunun da kökündə bütün türkoloqların "Türkün zəif yeri" kimi qeyd etdikləri qadının durduğunu deyir. *"Məkr və məhəbbət dünyasında məkrli Xəlifənin qız nəvəsi İnanc Xatunla evlənəndən sonra isə beynində məkr SafAğ işığı yeyir. "Sirlər xəzinəsi"nin sirrini aça bilmədin, AtaBəy".*[76]



Bu sözləri Əxi Babanın müridi olan Şeyx Nizami Məhəmməd Cahan Pəhləvana deyir. Əsərin "Elm" adlanan hissəsində Qızıl Arslanın dili ilə İnanc Xatunun Mömină Xatunu, Şəmsəddin Eldənizi, Cahan Pəhləvanı zəhərlədiyinin şahidi oluruq. Lakin Məhəmməd Cahan Pəhləvanın "Rey" qalasının açarını Əmir İnancın qızı İnanc xatunun qəlbindən

[75] Ölümdən sonrakı həyat, Məqalələr toplusu, Bakı: Hədəf nəşrləri, 2014, s 60.
[76] İsa Muğanna, İdeal, Bakı: Hədəf nəşrləri, 2013, s 5-6.

götürməsi heç "İlan Zəhəri"nin saflaşmağına gətirib çıxarmamışdı. *"Atası bizdən ayrı olanın özü bizdən ikiqat ayrı olmalıdır. Əmma ayrılmalarımızı qaytarmağa qadir elmimiz var. Elm qüdrəti ilə Şiə zəhərindən təmizlənib saflaşanda bu ahunun qəlbində tək bir kişi surəti hakim olacaq"*– deyib İnanc Xatunu altı illik "Əxi baxışı" ilə "ilan zəhəri"ndən təmizləyib sonra onunla evlənsə də, qarışıq qanın təmizlənmədiyinin şahidi oluruq.[77]

O, Həsan Səbbah kimi hiyləgərin hiyləsinə uyaraq fitnələrindən əl çəkmir. Bu barədə də sonrakı səhifələrdə geniş danışacağımızdan fikrimizi burda yekunlaşdırırıq.



"GurÜn" romanının "Elm" adlanan bölməsində istər sadəcə diktə edən yox, bəzən hadisələrə öz münasibətini bildirən EySarın şərhlərində, istər Əxi Babanın Nizamiyə elmin yarım qalmış sirlərini – Nizaminin də bilmədiyi tarixiliyi min il sonra oxucu ilə bərabər dərk etdirməsi əsərin nəbzini tuta bilən oxucunu heyran edir. Oxucu sanki zamansız bir məkana düşmüş olur. Keçmişlə indinin içində özü də bilmədən fəlakətlərə düçar olmuş həqiqət elminin müridi olur. İsa Muğanna Nizami şəxsiyyətinə, elminə, dühasına, fəlsəfəsinə həm tarixi, həm elmi yanaşma ilə bərabər onun fəaliyyət və yaradıcılığında cəsarətli şəkildə bir sirli dünya olduğunu meydana qoymuşdur. Nizamini sadəcə "Xəmsə" müəllifi kimi tanıyan oxucu bu əsərdən sonra Şeyxin bir peyğəmbər missiyasına sahib olduğunu görür. "Sirlər xəzinəsi"ni

---

[77] İsa Muğanna, İdeal, Bakı: Hədəf nəşrləri, 2013, s 5-6.Yenə orda, s 5-6.

oxuyub, bəlkə də, fərqinə varmadığı məsələlərə yenidən baş vurmağa meyillənir.

Maraqlı məqam ondan ibarətdir ki, həm Nizami, həm də onun mürşidi Əxi Baba dünyanın sirlərinə tam hali deyil. Onlar da EySara üsyan edir. Muğannaya görə Nizami otuz dörd yaşında zühur etmiş İsanın – Həqiqətin təkrarıdır. Nizami elmin təhlükədə olduğunu Məhəmməd Cahan Pəhləvana anlatmaq istərkən deyir: *"Eysar otuz dörd yaşında gedib Yerusəlimə. Mənim otuz dörd yaşım var. Xəlifə nəvəsi ilə evlənməmişəm. Beynimdə SafAğ İşığı məkr yeməyib. Sən isə lap Kamil məkr mücəssəməsinə çevrilmisən, Pəhləvanımız".*[78]



Əxi Babanın vasitəsilə ona Ün göndərən EySar Nizaminin özüdür. Çünki Nizami də məkr və hiylədən, qaranlıqdan, uzaq otuz dörd yaşlı bir kamil insandır. Nizaminin kamilliyi onun Eysarla eyniləşdirilməsinə gətirib çıxarır. Nizaminin sahib olduğu elm də dünyanı dərk etmək üçün ona kömək etmir. Əsərin əvvəlində bizim üçün ilahi bir qüvvə kimi təqdim edilən Nizami artıq bir real insana çevrilib və xoşbəxtlik arzusunu dilə gətirir. *"– Təcrid hücrəsində, tənhalıqda iki il Elm qulu olmağın müqabilində təcrid-zəhər!.. Cahan Pəhləvana, Qızıl Arslana, Bəhram şaha, Əmir Daraya taxt-tac, Nizamiyə Firdovsi "Şahnamə"sinin xəzinəsində əsirlik* ("Şahnamə" rəmzi "dəstan"- OdƏslin (Yaradan Həqiqətin Yaradan Ünü) dərslik idi. "Şahnamə"nin xəzinəsində əsirlik" ifadəsi çətin anlaşılan rəmzlər içində batıb qalmaq

---

[78] Yenə orda, s 5-6.

demәkdir.*) müqabilindә yenә tәcrid-zәhәr!.. Xirqә alandan sonra. İcmalarda dәrvişlik müqabilindә yenә tәcrid-hәzәr!.. Tәkyә alandan sonra, son dörd ildә gecәli-gündüzlü moizәlәr müqabilindә tәcrid-zәhәr! Nәhayәt, icmaları xilas etmәyimin müqabilindә tәcrid-zәhәr!"* Başqa bir mәqamda isә belә deyir: *"OdAğÜzdә Tәkrarım, Yerdә Tәkrarım – Әxi Babam, ikisi dә zülmkar! Tәkrarının nәzәrindәn tәcrid yaşamağı ölümdәn betәr bildiyinә görә Qutaybasından tәcrid Nizami özü dә zülmkar! Necә üsyan etmәsin bәdbәxt Nizami?!*[79]

Nizaminin bu üsyanını anlayışla qarşılayan Әxi Baba ona daha böyük zәrbә vurur. İnsan oğlunun xoşbәxtliyini uzun illәr bundan öncә әlindәn uçurduğuna eyham vuraraq deyir:



"Gecәli, gündüzlü moizәlәr"indә hәr *gün, hәr gecә tәkrar etdiyin adi haqiqәti tәkrar edirәm: "Xoşbәxtlik Simurğ quşunun belindә uçub gedib". Nә vaxt? Min yüz yetmiş beş il әvvәl, EySar anadan olan günü Bağ Atamız uşağı böyük oğlu Ulu Bağ ӘsӘlMәnә tapşırıb, SimӘrAğ gәmisinә minib gedib, Әxilәrimizdәn qeyri bir kimsәnin xәbәri yoxdur ki, BağAtamız bir dә otuz dördüncü ilin yayında, EySar Yerusәlimdә çarmıxa çәkilәn günü Yerә enib, ӘrEvOdunu aparıb gedib"*[80].

Nizaminin Afaqla evlәnmәsi zamanı Uca Ün yenә әsәrin tәhkiyәsinә müdaxilә edib Muğannaya bәşәri sual ünvanlayır: " *Sәn danış, Bağ HәmOdum Muğanna. De görüm, Nizami tәkyәsinin qapısında baş verәn bu* hadisә xoşbәxtlikdir, ya bәdbәxtlik?" [81]

---

[79] Yenә orda, s 5-6.
[80] Yenә orda, s 5-6.
[81]İsa Muğanna, İdeal, Bakı: Hәdәf nәşrlәri, 2013, s 5-6.

Əlbəttə ki, Muğannanın cavabı "bədbəxtlik"dir: *"Dəhşətli faciədir? Bəli, əzizim. Dəhşətlidən də dəhşətlidir. Rumdan ƏrAğa – "İraq"a qədər, Çinə qəsər, "Türk ərazisi" adlandırılan böyük ərazidə Səlcuq səltənətinin sahibi Sultan Atabəy Şəmsəddin Eldəniz öz yeganə qızı EvAğı "Qıpçaq qızı kəniz Afaq" adı altında, göyü ƏsAğ Nizamini "Şeyx" rütbəsi altında gizlətməyə, Kainatın sahiblərinin SafAğ Elmini batin saxlamağa məcbur idisə, bundan dəhşətli faciə olarmı?!"*[82]

Gördüyümüz kimi, Muğanna "GurÜn" romanında tarixiliklə müasirliyi magik bir üslubda təqdim edir. Əsərdəki üç zaman kəsiyi vahidləşdirilərək oxucuya bir araşdırma romanı formasında elə təqdim edilir ki, oxucu VI-VII əsrdə baş verən dini hadisələri XII əsrdəki Nizami Gəncəvinin prototipi ilə aşılandığının və XX əsrin İsa Muğannasının müasirlikdən tarixi hadisələrə incə və sənətkaranə müdaxiləsinin fərqində belə olmur.



Əsərin məhz "Elm" başlığı ilə başlanması və sonrada "Din" və"Dil" fəsilləri ilə davam etdirilməsi, ciddi vəchlə Elmin dünyanı xilas edəcəyi konsepsiyası İsa Muğanna ideologiyasının qayəsidir.

"Dil" fəslində də "İdeal" romanında qoyulan ideoloji fikirdən yan keçməyən, inandığı həqiqəti oxucusuna çatdırmaq üçün daha dərindən izah etməyə can atan Muğanna "Elmimiz Vizantiya daxilindədir" deyərək hay çəkir. Tanrı elminin axtarışına çıxmış bütün dahilər kimi Muğanna da elmin bütün dinlərin üstündə olduğunu, bəşəriyyətin itirdiyi elmi

[82] Yenə orda, s 5-6.

və dili tapmadığı müddətcə məhvə mübtəla olduğu qənaətindədir.

İsa Muğanna “Məşhər”dən sonrakı əsərləri ilə dünya ədəbiyyatında yeni bir cığır sahibidir. Bu cığır təəssüflər olsun ki, Azərbaycan ədəbiyyatının dünyaya çıxa bilməməsi səbəbindən böyük yollara, məktəblərə çevrilə bilməyib hələ ki.

“GurÜn” bir bədii əsərdir: yazıçı təxəyülünün məhsulu olan süjetli, kompozisiyalı, poetikası baxımından.

“GurÜn” bir tarixi araşdırma əsərdir: XII əsrdə baş vermiş hadisələri təqdim edərək, faktlarla zənginləşdirərək bu faktlara yeni bir baxışla yazılması baxımından.



“GurÜn” bir ədəbiyyatşünaslıq əsəridir: Nizami Gəncəvinin həyatı, yaradıcılığı, “Xəmsə”sindəki obrazları ilə müqayisə edilərək təhlilə çəkilir, obrazların prototipləri təqdim edilir. Nizaminin əsərlərinin və obrazlarının ideoloji qatı, bədii məziyyətlərinin ustalıqla izah edilməsi baxımından.

“GurÜn” bir xatirə romanıdır: Muğanna bu romanda da digər əsərlərindəki kimi öz həyatı ilə obrazlarını ayırmır, “Məhşər”, “İdeal” və digər bundan əvvəlki əsərləri bu romanda xatırlanır, tez-tez sitatlar gətirilir, izah edilir.

İsa Muğannanın “GürÜn” romanı Azərbaycan ədəbiyyatının “magik realizm” adına bütün məziyyətləri ilə ən dəyərli əsəridir: həm realizmi, həm sehri, həm də gerçəkliyi baxımından.

## 1.5. Yarımçıq əlyazma və bütöv ədəbi və əbədi dünya

### "Türfə" romanının nəşrindəki problemlər və poetikası

Böyük ustad sənətkar İsa Muğannanın əlyazma variantının sonunda öz əli ilə yazdığı tarix ***20.02.2009*** yazdığı, lakin hələ də nə mətbuatda, nə də kitab kimi çap olunan ƏsƏrini – "Türfə"ni çapa hazırlayıb oxuculara təqdim etmək mənim qismətimə düşməsinin misilsiz sevinci içindəyəm. Bir zamanlar müsahibələrinin birində ömür-gün yoldaşı Firuzə xanımın "bəlkə də, bu romanın çapını görməyə İsa Hüseynovun ömrü çatmayacaq"[83] fikrinə yazıçının "Mənim sağlığımda çap olunmalıdır" deməsi ilk baxışda baş tutmamış görünə bilər, lakin söhbətlərimizin birində Firuzə xanımın "kaş Allah mənə o qədər ömür verə idi ki, İsa ölənə qədər ona özüm qulluq edərdim" fikrinə "o, mümkün deyil, çünki mən əbədi yaşayacağam",– deyib gülümsəməsi onu ifadə edir ki, bəli, Muğanna ölməyib, əbədi yaşayır və bu gün də ƏsƏrinin çapını görüb sevinir.

"Ədəbiyyat gözü ilə baxanda "İdeal" mücərrəd görünür. Lakin "İdeal" romanı çap olunduqdan sonrakı şəxsi həyatı və yaradıcılığı göstərdi ki, İsa Hü-



[83] İsa Hüseynovun son müsahibəsi: "Düşmənlərim üçün də darıxıram", http://news.milli.az/culture/257340.html, (01.04.2014)

seynov bu qəbildən olan əsərlərində inandığı və hətta yaşadığı dünyanı təsvir edir.[84]

Akademik İsa Həbibbəylinin İsa Muğanna haqqındakı yuxarıdakı fikri onun "Türfə" romanına da aid edə bilərik. Çünki bütün əsərlərində olduğu kimi çap olunma problemi yaşayan bu əsər "İdeal"dan sonrakı yaradıcılığında ideyalarının təqdimatı baxımından çox önəmlidir.

"Türfə" ƏsƏrinin Muğannanın cismani sağlığında çap edə bilməməyimin yeganə səbəbi ƏsƏrin əlyazmasının özündə də qalmaması idi. Bir gün mənə dedi ki, İntiqam Qasımzadəyə ("Azərbaycan" Jurnalının baş redaktoru) veridiyim nüsxə Nizamidədir (AMEA-nın müxbir üzvü Nizami Cəfərovu nəzərdə tuturdu.). Nizami müəllimlə görüşüb romanı istədim. İsa Muğannaya olan rəğbətimi bilən Nizami müəllim sorğu-sualsız verdi. Nadir bir tapıntı əldə etdiyimi düşünürdüm. Onun bütün oxucuları kimi, onun SafAğ elmi konsepsiyasında yazılan yeganə əsəri idi ki, oxumamışdım. Ətrafında o qədər söz-söhbət gəzirdi ki, sanki bunu tapıb oxumaq bir həyatı məsələyə çevrilmişdi. Müsahibələrinin birində "Amma əsərlərimin hamısı çap olunmayıb. Bir povestim çap edilməyib. Orda çox ciddi məsələlər qaldırmışam. O povest çap olunsa, bizim həyatımızda böyük dəyişiklik ola bilər. "Azərbaycan" jurnalına təqdim etdim, İntiqam Qasımzadə bildirdi ki, sən bu əsərlə inqilab edirsən, bunu çap etsək, başım bəla çəkər. Bu əsəri bir alimə oxumaq üçün verdim.



[84] Ölümdən sonrakı həyat, Məqalələr toplusu, Bakı: Hədəf nəşrləri, 2014, s 5.

O alim də Dövlət Təhlükəsizlik orqanında işləyirmiş, aparıb verib ora. Onlar da mənə deyirlər ki, əsərin çap olunacaq. Nə vaxt çap olunacaq, bilmirəm. Ancaq özlərinin işçiləri var ki, ədəbiyyatla maraqlanırlar, elmli adamlar kimi tanınırlar, onlar hamısı bunu oxuyublar" deməsi Xalq şairi Zəlimxan Yaqub demiş, "sirr qoxuyan" kişinin sirr qoxuyan əsərinin dəyərini bir daha artırırdı.

Sonra, əlbəttə ki, həyat yoldaşı Firuzə xanımla, qızı Sevinc Muğanna ilə məsləhətləşdim. Firuzə xanımın sevinclə qarşılaması və bunu hökmən etməli olduğumuzu deməsi ilə əsəri oxuculara təqdim etdik.



Roman ətrafında çoxlu söz-söhbət gəzir indiyə qədər. Çap edilməməsində də səbəb cəmiyyətimizin həssaslığını nəzərə almaq idi. İntiqam Qasımzadə romanın üzərində çap olunmama səbəbini sayğı ilə bu cür ifadə etmişdir: *"Qocaman yazıçımız İsa Muğannanın bu əsəri redaksiyamızda mübahisə doğurduğuna görə, olduğu kimi çap edib oxucuların müzakirəsinə verməyi lazım bildik. (Azərbaycan jurnalının Baş redaktoru İntiqam Qasımzadə*)

Romanı oxudum və "İdeal" kimi bir roman müəllifinin ikinci bir dalğa yaradacaq əsəri hesab etdim. Əzizə Cəfərzadə hələ 1978-ci ildə "Məşhər" romanına yazdığı ön sözdə dediyi kimi "Oxucu özü üçün romanın səhifələrində böyük bir ziddiyyətlər aləmi kəşf edəcək, ictimai fikir və mübarizə tarixi-

mizin ən gərgin anları, görkəmli şəxsiyyətləri ilə tanış olacaq".[85]

İsa Muğanna bir yazar idi. Heç bir zaman birbaşa tarixçi, araşdırmaçı olması iddiasına düşməmişdi. Ədəbiyyat nümayəndəsi isə öz fikirlərini deməkdə azad və və sərbəstdir. Qulu Ağsəsin dili ilə desək: "Muğannanın SafAğ və OdAğÜz planetlərinə səfərindən arxayınam; o gedir və qayıdır. Hətta bəzən gündə 2-3 dəfə. Ancaq geri qayıdanda Muğannanın ayaqları YERƏ DƏYMİR. Yəqin ona görə dedikləri havadan asılı qalır".[86]

Düşüncə inqilabını da, məhz bu cür böyük sənətkarlar yaradırlar. Əminəm ki, oxucular intellektual şəkildə ƏsƏrə yanaşacaq və müəllifin subyektiv (düşünürəm ki, yazarın böyüklüyü məhz onun subyektivliyindədir) fikirlərinə hörmət edəcəklər. İsa Muğannanın dinin batininə enməsi, onu cahil "mollalar"ın əlindən alması və SafAğ bir elm kimi təqdim etməsi maraqla qarşılanacaqdır.



**"Türfə" romanının çap olunması...**

2015-ci il aprelin biri Azərbaycan ədəbiyyatının özünəməxsusluğu ilə seçilən sənətkarı, magik realizm məktəbinin yaradıcısı İsa Muğannanın dünyasını dəyişməsinin bir ili tamam olurdu. Həmin gün ən böyük, ən yaşlı, ən müdrik, ən sehrli, ən səmimi dostumdan ayrılmaq mənə çətin olmuşdu.

[85] İsa Hüseynov, Məhşər, Bakı: Gənclik 1978, s 6.
[86] İsa Muğanna, Seçilmiş əsərləri VI cild, Bakı: Avrasiya nəşrləri, 2009. s 330.

Əruz elmini mənə öyrədən ustadım Zülfəli Zülfəliyev rəhmətə gedəndən sonra İsa Muğanna ilə tanışlıq həyatımın ədəbiyyatına, fəlsəfəsinə, gündəminə sehrli bir rəng qatmışdı. Bu elə bir sehrli rəng idi ki, dünyanı o rənglə boyasa idilər, gözlərimiz yalnız Ağ görərdi. Həm də SafAğ işığı. Elə İsa Muğannanı da mənə bir yazıçı kimi Zülfəli müəllim tanıtmış, "İdeal" əsərini oxumamışdan öncə o danışmışdı İsa Muğannanın sehrli gerçəkliyindən. Sanki onunla bir gün tanış olacağımı da bilirdi.

İsa Muğannasız keçirdiyimiz bir neçə il ərzində müxtəlif səviyyələrdə yazıçı haqqında yazılar yazıldı, müzakirələr edildi. Muğannadan danışanlar ya onu anlamayıb, sadəcə böyüklüyünü etiraf edə bildilər, anlayanlar da bu böyüklüyü ifadə edəcək söz və cümlələr tapmaqda çətinlik çəkdilər. Zənn edirəm ki, Muğanna yaradıcılığı üçün ən böyük hadisə "Türfə" romanının çapı idi ki, ona da nail ola bildik.



Onunla tanış olduğum bir neçə il müddətində ən az ayda bir dəfə görüşər, dərdləşər, kefin soruşar, yanında olmağa çalışardım. Bütün bu məqamlarda isə İsa-Firuzə bötüvlüyü ilə bir yerdə olurduq. Lakin İsa Muğannanın gedişindən sonra o evə getmək mənim üçün çox çətin oldu. Düzdür, Firuzə xanım da sanki İsa müəllimin missiyasını üzərinə götürmüşdü, o da mənimlə maraqlanırdı. Bu da o müqəddəs ocağa gedib-gəlməyimi asanlaşdırırdı. Amma hər dəfə Firuzə xanımı görməyə gedəndə sözlərin xirtdəyimdə asılıb qaldığını, tıxandığını hiss edirdim. Bu müdrik Azərbaycan qadınının böyüklüyünü

gördüyüm halda, onun İsa Muğanna üçün necə darıxdığının şahidi olub ona necə təsəlliedici nəsə deyərdim?! 60 ildən çox ömrü bir başa vuran bütövün yarısına necə dəstək ola bilərdim. Tək gücüm dinməz, söyləməz, hər dəfə də gözlərinin içinə baxıb yeni çap etdiyimiz kitabı verib, tez də sağollaşıb getmək olurdu vəzifəm. Əvvəlki vaxtlardakı kimi daha yeni nəşrlərə həvəslə baxmadığını, sadəcə "sağ ol, bala" deyib kitabı kənara qoymasını, sonra da əlini çənəsinə qoyub gözünün görə bilmədiyi, beyninin isə çox uzaqlara qədər baxdığı ənginliklərə zilləndiyini hiss edirdim.



Firuzə xanım Əhməd Cavadın Şükriyyəsi, Hüseyn Cavidin Müşkünazı kimi İsa Muğannanın Muğanna olmasında sevgi ilə fədakarlıq göstərmişdir. İsa Muğannanın bəşəri mübarizəsində yanında olan bu böyük insanın Muğannaya olan sevgisini bircə kəlmə "İsa" sözünü eşidənlər daha yaxşı anlayar, məncə.

60 ildən çox bir zamanda bir evi, bir açarı, bir işığı, bir havanı, bir təbəssümü, bir kədəri bölüşən bu ailə insanlıq tarixi üçün bir örnəkdir. Çünki İsa Muğannanın Muğanna olmasında Firuzə xanımın rolu, əməyi, səyi, səbri danılmazdır. Əslində, bu saydıqlarım birtərəfli olmayıb. Firuzə xanımın son illərin ən böyük arzusu İsa Muğannadan sonra vəfat etməsi idi. Belə də oldu. Deyirdi, *ay Allah, sən məni İsadan sonra apar, barı ona sona qədər də olsa, özüm qulluq edim*. Bu sözləri deyəndə, bəlkə, Firuzə xanım fərqində deyildi ki, onsuz yastığa baş qoymaq, divanda

tək-tənha oturub ağı qaradan çətinliklə seçən gözlərini gah bir nöqtəyə zilləmək, gah da xatirələr yağmurunda islanan gözlərini silmək dünyanın ən çətin zindanı olacaqdı ona. Firuzə xanım böyük məhəbbətini ifadə edirdi *"ay Allah, sən məni İsadan sonra apar, barı ona sona qədər də olsa, özüm qulluq edim" cümləsi.* Atası, əri, qardaşı, oğlu kimi sevib əzizlədiyi İsaya kiminsə qulluq etməsinə razı ola bilmirdi. Amma onsuz yaşamağın bu qədər çətin olduğunu bilsəydi, bəlkə də, o, həyata keçmiş duasını geri çağırardı. Elə Muğannasını da. "Şəmil.... İsa üçün darıxıram" deyib qəhərlənmələrini görərək deyə biləyəcəyin bir tikə sözün belə tapılmaması nə qədər soyuq və qan donduran imiş, ay Allah!



Muğannası haqqında xatirələrinin səs yazısını yazmağı təklif etdim, razılaşsaq da, bacarmadı. Ürək getdi, gəldi dəfələrlə. Bir gün zəng edib dedi ki, "Şəmil, bacarmayacağam".

Bu yaxınlarda arxivimə göz gəzdirəndə Firuzə xanımın "Türfə" romanının çap olunması üçün AMEA-nın Müxbir üzvü Nizami Cəfərova yazdığı bir məktubu gördüm. Oxudum və heyrətə gəldim. Çünki Firuzə xanım həyat yoldaşına nə qədər rəğbətlə və heyranlıqla inanırdı. Məhz bu olmalı idi İsa Hüseynovu Muğanna edən böyük amillərdən biri də.

Firuzə xanımın həmin məktubunu oxuculara təqdim etməyin böyük faydası olacağına inanıram.

**İsa Muğannaya aid qeydlər**

*İsa nə qədər böyük yazıçıdırsa, bir o qədər də böyük insandır. Altmış illik birgə həyatımızda ondan bir kəlmə də acı söz eşitməmişəm.*

*Atalarımız dünyalarını çox erkən dəyişdilər. Altı uşaq İsanın anası Xədicənin, altı uşaq da mənim anam İnşanın yanında qaldı. Böyük məhrumiyyətlər, dəhşətli kasıblıq içində on iki uşaq böyütdük. Təhsil verdik, evli-eşikli elədik.*

*Uşaqlar haqqında danışmağımın səbəbi var.*

*1968-ci ildə alihəzrət Dəmirəlin zamanının başlandığında, Azərbaycan yazıçıları nümayəndəliyinin tərkibində Türkiyəyə getdik. İstanbulu, İzmiri, Ankaranı, Bursanı və sair yerləri gəzdik, Bolu bəyin kəndini, Koroğlunun Çənlibelini gördük. İstanbula qayıdanda məscidləri gəzdik. Ayasofiya məscidində İsa üzünü göyə tutub dedi: "Biz çoxlu uşaq saxlamışıq, özümüzə övlad istəməmişik. Mən səni tanımıram. Əgər varsansa, Firuzəyə bir övlad ver. Oğlan da istəmirəm. Bircə qız. Bircə qız!" (Ş.S. Tanrı ailəyə yeganə övladı Sevinc Muğannanı 19 ildən sonra bəxş etmişdir).*

*Hotelə qayıtdıq. Yorulmuşdum, divanda uzanıb yatdım. İsa kresloda oturdu. Bir azdan məni oyadıb dedi: "İndicə, ayıq-sayıq vaxtımda bir altı-yeddi aylıq, gözəl, gombul qız uşağı gördüm. İməkləyib gəlib dizlərimdən yapışdı, qucağıma mindi, burnunu boğazıma söykəyib mışıl-mışıl nəfəs aldı. Səni oyatmaq istədim, uşaq yox oldu. Nəfəsini indi də boğazımda hiss edirəm. Qızımız olacaq". Mən inana bilmədim. Bakıya qayıtdıq. Bir ildən sonra İsanın o*

*gördüyü qız – Sevincimiz doğuldu. Bundan sonra mənim həyatıma fərəh gəldi. İsanın da işləri yaxşılaşdı. Dalbadal əsərləri çap olundu. İsa məni Rusiyanın şəhərlərində kurort zonalarında gəzdirdi. Bolqariyada, Qara dəniz sahillərində, Pribaltika ölkələrində, bir neçə Avropa ölkəsində gəzdirdi. Sonra isə birdən-birə ruhi xəstəliyə bənzər bir cür anlaşılmaz xəstəliyə tutuldu. Daha sonra xəstəlik qurtaranda yetmişinci illərdə çox qəribə hadisə baş verdi: İsa birdən-birə kainatla bağlandı, özünün dediyi kimi, EySarla danışmağa başladı. EySar, İsUsun, İsa peyğəmbərin həqiqi adı – odu – rütbəsidir. "Ey" Uca deməkdir. "Sar" – hökmdar deməkdir. EySar – uca hökmdar deməkdir. Bu Od – Həqiqət qədim türk dilində – OdƏr dilindədir. EySar İsaya OdƏr dili öyrətməyə başladı. OdƏr dilində indiyə qədər heç yerdə, heç kəsə məlum olmayan məlumatlar verməyə və tamam yeni ruhda əsərlər yazmağa kömək etdi. "İdeal" romanı, "Peyğəmbərin möhürü", "Məhşər" və bir sıra başqa əsərlər belə yarandı. İndi oxuculara təqdim olunan. "Türfə" əsəri də bu qəbildəndir.*

*Bu əsərdə "axırıncı peyğəmbər", "Muhamməd – Məhəmməd", İslam peyğəmbəri adlandırılan, OdƏrcə rütbəsi BağHəmOd (Vahid həqiqət bağı) olan nadir insan haqqında həqiqət verilib. İsa şahiddir ki, EySar İşıq gəmisində Yer planetinin üzərində gəzib müşahidələr aparır. Tezliklə vaxt yetişəcək, EySar, BağHəmOdla və rütbəli OdƏrlərlə birlikdə Yerə enəcək. Mən o günün gələcəyinə inanıram və həyat yoldaşım İsa Muğannanın yazdığı əsərləri təqdir edirəm.*

***Firuzə Muğanna. 03.VII.2009.***

Məktubdan da görünür ki, İsa Muğanna əsəri 2009-cu il fevralın 20-də bitirib və həmişəki kimi Firuzə xanım oxuyandan sonra aprelin 7-də çapa təqdim edilmişdir. Bu məktub bir də onu sübut edir ki, Firuzə xanım Muğanna yaradıcılığını izləyir, oxuyur və tövsiyələrini həmişə verirdi. Bir çox tədqiqatçılar, oxuculardan fərqli olaraq həyat yoldaşı olan Firuzə xanımın da ustad sənətkarı İsa Muğanna kimi qəbul etmiş, "Hüseynov" təxəllüsündən imtinasını da anlayışla qarşılamışdır.

Romanın çap olunması ailəsinin sevincinə səbəb oldu. Ustad sənətkarın qızı Sevinc Muğanna romanın ön sözündə sevincini bu cür izhar edir: " Sənin də gözün aydın, göylərdən bizə baxıb gülümsəyən canım Muğannam" "Türfə"n mübarək!"[87]



Onu da qeyd edim ki, "Türfə" romanı müəllifin yeganə əsəridir ki, Muğanna ikinci dəfə üstündə işləməyə vaxt və imkan tapmamışdır. Muğannanın əsərlərinə yenidən qayıdaraq düzəlişlər etməsi və ya ümumiyyətlə, dəyişdirməsi hamımıza məlumdur. Sadəcə bir variantının qalması və o da əlində olmaması üçün heç nə edə bilməmişdi. Əminəm ki, roman əlində olsa idi, biz yenidən çapa verəndə hökmən yeni əlavələr edəcək və ya nələrisə dəyişdirəcəkdi.

"Türfə" romanı Muğannanın ölümündən iki il sonra 2015-ci ildə redaktorluğumla Hədəf nəşrləri tərəfindən çap olunmasına baxmayaraq, dostluq və qruplaşmalara başı qarışmış ədəbi tənqidimiz tərə-

[87] İsa Muğanna, Türfə romanı, Bakı: Hədəf nəşrləri, 2015, s 4.

findən öz layiqli qiymətini almamış, indiyə qədər heç bir tənqidi yazı yazılmamışdır. Sanki heç nə baş verməmiş kimi susur ədəbi tənqid və ədəbiyyatsevərlər.

Bu laqeydliyin səbəbini anlamaq çox çətindir. Bir səbəbi hər kəsin Muğanna meydanına girə bilməməsidirsə, digər bir səbəbi cəsarətsizlikdir. Məhz bu səbəbdən də "Türfə" romanını təhlilə cəlb etməkdənsə, məzmununu yazmağı lazım bilirik.

"Türfə" romanı əsərin qəhrəmanı, Muğanna nəslinin varisi Astan bəyin dilindən xatirə şəklində danışılır. *"Əsərdə yazıçının xatirələr vasitəsi ilə keçmişə nüfuz etməsinin şahidi oluruq. ...Daha çox qəhrəman düşüncəsində, xatirələrin bədii ifadəsində əksini tapır"*[88]

Astan bəy GEPO nümayəndəsi Zalımoğlu tərəfindən öldürülməmişdən əvvəl xatirəsini bu cür tamamlayır: *stolun kənarında üstünə "Türfə" yazdığım qalın dəftər bozarırdı. Gücümü toplayıb dəftəri qabağıma çəkdim. Pencəyimin döş cibindən karandaşımı çıxarıb axırıncı səhifəni açıb bu dediyim sözləri yazdım, sonra gözlərim qarala-qarala, əlim titrəyə-titrəyə əlavə etdim: "Əlvida, əziz anam! Əlvida, əziz Callam. Əminəm ki, arxamca gələcəksən və əbədiyyətdə yenidən xoşbəxt olacayıq. Həlalik, əzizim. Allahdan qorxun! Allahdan qorxun, – deyən müfti xislətli GEPO*[89] *cəlladlarına lənət yağdırı-*



[88] Salidə Şərifova. Azərbaycan postmodern romanları və onların bədii xüsusiyyətləri. AMEA. Humanitar elmlər. Xəbərlər. Bakı, Elm. 2016. S. 167

[89]6 fevral 1922 -ci ildə ÜFK ləğv edilib, əvəzində RSFSR Xalq Daxili İşlər Komissarlığı (НКВД) nəzdində Dövlət Siyasi İdarəsinin (Государственное политическое управление-ГПУ) əsası qoyuldu. "QPU" adı "KQB" adından əvvəl yaranmış və onun kimi geniş yayılıb, Qərb ölkələrinin antisovet təbliğatında geniş istifadə edilmişdir. Alman dilində "GPU" kimi səslənən sözün abreviaturası "Grauen, Panik, Untergang" (Qorxu, Təlatüm, Ölüm) formasında açılırdı.

*ram.! Astan".*[90]

"Türfə" Qazadakı İncə dərəsinin Astanbəyli kəndinin qəbiristanlığındakı nəqşibəndilik türbəsidir. Muğannaya görə, "mənası gözəl deməkdir". Ərəbcədən gələn bu ifadənin hərfi mənası: "Tapılmayan, nadir, misli-bərabəri olmayan, qəribə, əcaib"[91] deməkdir.

Romandakı hadisələr Sovet dövrünün quruculuq illərindən, represiya dövründən bəhs edir. Bütün hadisələr "Türfə" ətrafında cərəyan edir: *"Hacı Mahmud əfəndi son illərdə Qarabağın Zəngəzur qəzasının Cejimli kəndində yaşayan Şair Şeyx Seyid Nigarinin şagirdi olub, Nəqşibəndi elmini öyrənib qəbul edib, Qarabağda, Qazax, Borçalı, Qaraçöp mahallarında çoxlu mürid-dərviş yetirib, Qazağın İncə dərəsindəki Astanbəyli kəndinin qəbiristanında Türfə – ziyarətgah yaradıb".*[92]



İsa Muğannaya görə, "Nəqşibəndi"lik Yer, İnsan elminin başlanğıcının-SafAğ elminin davamıdır. "Yer"də elmin düşmənlərinin təzyiqi nəticəsində eramızın on dördüncü əsrində "Hürufi" adı altında gizlədilib, sonrakı əsrlərdə "Sufi", "Səfi", "Səfa" sözləri altında gizlədilib, nəhayət, "Nəqşibəndi"liyə gəlib çıxıb".[93]

Əsərin qəhrəmanı Astan Nəqşibəndilik elminin davamçısı olmuş üç böyük övliyadan biri olan Kiçik Mahmud Əfəndinin oğludur. Həmin bu üç alimdən

---

[90] İsa Muğanna, Türfə romanı, Bakı: Hədəf nəşrlər. 2015, s 5.
[91] Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb-fars sözləri lüğəti. II cild. Şərq-Qərb. Bakı 2015. s.411
[92] İsa Muğanna, Türfə romanı, Bakı: Hədəf nəşrlər. 2015, s 5.
[93] Yenə orda, s 5.

biri Əsəd bəydir ki, Hacı Mahmud Əfəndi rəhmətə getdikdən sonra Ələs kənd natamam orta məktəbdə direktor işləyib, kiçik Mahmud əfəndi isə bir müddət Qazax məscidində molla adı altında nəqşibəndiliyi tədris edib və sonradan xəstələnərək vəfat edib. Türfəni işlətmək isə İsmeyil əfəndiyə qalıb. İsmeyil Əfəndi Qazax mahalının sayılıb seçilən müdriklərindən olub. Düzdür, əsər boyu heç bir möcüzəsini görmədiyimiz İsmeyil Əfəndi KQB tərəfindən həbs ediləndən sonra təcridxanasının qapılarını istədiyi zaman açması bir möcüzədir. Lakin İsmeyil Əfəndidən bunu kim edir soruşanda da, onu Yerin sahibi bilər deyərək yalançı peyğəmbərlik iddiasında olmur heç bir zaman. İsmeyil Əfəndi Türfəyə gələn insanlara SafAğ elmindən, bu elmə agah olan Nəsimidən, Yunis İmrədən, Seyid Nigaridən moizələr oxuyur, gizlin və təhrif edilmiş elmin şifrələrini açır camaata. Türfənin məsciddən fərqi onda idi ki, burda qətiyyən ölülərlə məşğul olunmur, qəbiristanlıqda olsa belə. İnsanlara elmdən, fəlsəfədən, əxlaqdan dərslər verir, müşküllərini bir müdrik kimi həll etməyə çalışır. Məhz elə bu səbəbdəndir ki, Astan bəy təhsilini bitirib evlərinə dönəndə ilk olaraq onunla görüşür, nə edəcəyi tapşırığını ondan alır, hətta sevdiyi qızı ona vermək istəməyəndə belə ilk olaraq onun yanına gedir. İsmeyil Əfəndinin Astana tapşırığı bu olur ki, məktəbdə müəllim işləsin və Türfənin gələcəyi üçün, vərəsənin yaşaması naminə tez-tez ora da gəlməsini istəyir.

İsa Muğannanın "İdeal"dan sonrakı bütün əsərlərində bu xətt davam etdirilir. Vərəsinin ağsaqqalı və gənc davamçı... "İdeal" romanında Sultan və Mədəd Əmirli ustad dərslərini alan Səməd, "Cəhənnəm" romanındakı mistik obraz Səməd Muğanna ilə gənc Bünyad bəy, "Qəbiristan romanındakı Səməd Əmirlinin oğlu polis geyimli Səmiyə gizlin elmi izah edən Pünhan Əmirli obrazı kimi, "Türfə" romanında da Astan bəy İsmeyil Əfəndinin nəzarəti və ustadlığı ilə əsərin qəhrəmanı, vərəsənin nümayəndəsi, İsa Muğannanın prototipidir.

1929-cu ildə Qazax Pedaqoji Məktəbini – Seminariyanı bitirəndən sonra kəndlərinə dönən Astanın gördükləri və yaşadıqları əsərin süjet xəttini təşkil edir. Əsəd müəllimin yanında məktəbdə dərs deməyə başlayan Astana camaat "Türfə"yə getdiyinə görə birtəhər baxır, bəzən ironiya ilə "Molla" da deyir. Amma əsərdə İsmeyil Əfəndinin dilindən dəfələrlə eşidirik Türfə mollalığı qəbul etmir. Hətta o Astana deyir ki, oğul, mən istəmirəm, Türfəyə mollalar ayaq açsın, Türfəmiz molla düşüncəsi ilə idarə edilsin.

Astan elə ilk gündən dərs dediyi şagirdlərdən Callaya vurulur. Qarşılıq aldıqda isə bu məhəbbət daha güclənir. Düzdür, müəllifin məqsədi bir aşiq obrazı yaratmadığından əsərdə Astanı çox tərəddüdlü, eşqi yolunda çox az mübarizə aparan, hətta bir az qorxaq da görürük. Buna baxmayaraq, müəllif ara sıra əsərdəki məhəbbət süjetinə dönür, bir-iki epizodla mövzunu bağlayır. Hətta Callanın atası Zaloğlu onu qamçılayanda da ciddi bir etiraz etmir,

sanki taleyi ilə barışır. Və bir müddət sevgilisindən uzaq da durur. Qızın ondan daha cəsarətli olması toyunda belə elin qabağına çıxıb Astanı sevdiyini etiraf etməsi, evi tərk edib Astana gəlməsində açıq aydın görünür. Astan bir elm daşıyıcısı idi. Bu elm daşıyıcısını sanki bir qadın, sevgi uğruna qurban verməyə qıymayan müəllif sonda taleyin axışının, reallığın qarşısını ala bilmir. Zaloğlu həm şəxsi qisasını, həm də Sovet ideologiyasının qisasını nəqşibəndilik elminin son nümayəndəsini öldürür. Tarixdə də görürük ki, Nəqşibəndiliyin bir çox nümayəndələri, dərvişləri, tərəfdarları 30-cu illər represiyasında tariximizdən silinir.

Aslan obrazı əsərdə üç böyük sarsıntı xətti ilə yaşayır. Sevgilisinə qovuşa bilmək, anasının ona xəyanəti və SafAğ elminin üzə çıxardığı tarix.



Astan anasını çox istəyir. Ananın yetim oğlunu böyütdüyü zaman çəkdiyi əzab-əziyyət, təhsil verməsi ananın oğula olan məhəbbətinin göstəricisidir. Lakin Astan biləndə ki, Molla Əhəd gizlincə anası ilə görüşür və hətta heç kimə demədən evləniblər də, bunun ağırlığından bir müddət qurtula bilmir. Bu süjet “Tütək səsi” əsərini andırır. Sadəcə burda məsələ bir az başqadır. Molla Əhəd əsərin mənfi obrazlarından biridir. Özünü Muğanna nəslinin nümayəndəsi kimi göstərən Molla Əhədin iç üzünü Sovet kəşfiyyatında vəzifə sahibi olan general Məhərrəmov açır.

Molla Əhəd tez-tez Sənəmin, Astanın anasının evinə gələrək meyxana məclisi qurur, oxuyaraq qa-

dınları özündən keçəcək hala gətirir və sonda da cəzb olmuş Sənəmlə yatır. Biz bu meyxanə adətini İsmayıl Şıxlının "Dəli Kür" romanında daha geniş təsvir edilmiş görürük.

Astan bu cür məclislərdən birinin sonunda evə girir və anasını Molla Əhədin qoynunda görür. Onu döyüb qovmaq istəyəndə də Astanın zəifliyinin şahidi oluruq. Burda da Astanın çılğın və gözü dönmüş bir oğul yox, sanki daxilində gerçəkliklə barışan, amma etiraz etməsi də vacib olan bir insan görürük. Molla Əhəd cibində bükülmüş kəbin kağızını Astana göstərib qeyri-qanuni heç nə olmadığını deyəndə Astan bir az sakitləşir. Əslində, bu kəbin kağızını görən Astan heç bir zaman onun Muğannalardan olduğuna inanmamalı idi. Çünki Muğannalar Quranın təhrif olunduğunu deyir. Onu GurÜn adlandırır, hətta əslini qaytarmaq üçün yenidən tərcümə də etmişdilər. İsmeyil Əfəndinin Quranı "GurÜn" olaraq tərcümə etmişdir. Molla Əhəd sonra Astana danışır ki, onun oxuması üçün bütün pulları o göndərib, o olmayanda anasına dəstək olub, ona görə ki, o da Muğannadır. Özü gizlənir ki, heç bilməsin. Halbuki İsmeyil Əfəndi də ona Türfədə üz vermirdi. Buna baxmayaraq sadəlövh Astan onu bağışlayır və onların evində qalmasına belə razılıq verir. Hətta barışdıqları üçün Şir Abbasın Molla Əhədə verdiyi erkəyi də evdə kəsib kabab edirlər.

"Türfə" romanının çap olunmama səbəbi "Quran"a münasibət idi. İsa Muğanna "Türfə" romanında "İdeal" əsərində tezislər şəklində qoy-

duğu mətləbləri daha geniş şəkildə aydınlaşdırır. "İdeal" romanında təhrif edilmiş faktların adını çəkir, əslini deyəcəklər və ya gizlədilib deyə hayqıran Muğanna "Qırx kisə qızıl" povestində "Aşıq Qərib" dastanının əslini təqdim etdiyini iddia edirdisə, bu romanda "Quran"ın heç də Allah kəlməsi olmadığını, onun batininə yad əllərin dəydiyini faktlarla sübut etməyə çalışdığı üçün onlarla ayəyə şərh vermədən seçib təqdim edir və bunu "Allah deməz, Allah bu cür düşünə bilməz" deyə fəryad edir. Amma bu əsərdə də əvvəlkilərdə olduğu kimi Məhəmməd peyğəmbərə qarşı simpatiyasını gizlətmir, Bağ Atanın 4 oğlundan biri kimi BağHəmOd deyə təqdim edir. Ümumiyyətlə, onu qeyd etməliyik ki, kimlərinsə Muğannanı dinsiz, inancsız kimi qəbul etməsi və təqdim etməsi böyük yanlışdır. Muğanna Yerin idarəçilyinin Bağ Atanın oğlanlarında olması iddiası və bu oğulların məhz müqəddəs kitabların təqdim etdiyi peyğəmbər olması onun Mirzə Cəlil yolunda gedərək Hüseyn Cavid fəlsəfəsindən çıxış etməsinin tərənnümüdür. Realizmi romantik və fantastik yolla təbliğ etməklə magik realizmin carçısı kimi çıxış edir. Allah və Peyğəmbərləri öz yozumu ilə bu cür təqdim edir: *"Bu, ərəbcə "Allah" deyilən, OdƏrcə Odu – həqiqəti, adı ƏlAğ olan "Allah"ımızın ünü imiş. ƏlAğ tək deyil, kainatda ƏlAğlarımız çoxdur. ƏlAğların bir adı da Bağdır. İnsanı insana, bəşəriyyətimizi kainatın OdƏr bəşəriyyətinə bağlayan Bağlar həm də SafAğ insan adlanırlar. Kainatda Bağ Atamızın dörd Əli – Oğlu var. Oğul OdƏrcə AğƏldir. Bağ Atanın dörd oğlundan – AğƏlin-*

*dən birincisinin adı Ulu Bağ ƏsƏlməndir. OdƏrcə Əs – yarat, yaradan deməkdir, Əl həm də Oğul və yaradan deməkdir. ƏsƏlmənə Yerdəki təhrif dillərdə "Solomon", "Süleyman" da deyilir. Bağ Atanın özü kimi Oğlu ƏsƏlmən də ƏlAğdır və Bağdır.*

*Bağ Atanın ikinci Oğlunun Odu – həqiqəti, adı, rütbəsi SarÜnEydir. Sar OdƏrcə hökmdar deməkdir, Ün, dedim, səs deməkdir, Ey – uca deməkdir. Sar ÜnEy – uca Ün hökmdarı deməkdir. SarÜnEy Yerdəki təhrif dillərdə "Nuh", "Noy" adlanır.*

*Bağ Atanın üçüncü Oğlunun OdƏrcə Odu – həqiqəti, rütbəsi, dedim, EvƏrimdir.*

*Yerdəki təhrif dillərdə EvƏrimin adı "İbrahim"di,*

*"Avram"dı. Biz Ərəbin "İslam" dinini qəbul eləyəndən sonra EvƏrimə Ərəbcə "İbrahim" deyirik.*

*Bağ Atanın dördüncü Oğlunun Odu – həqiqəti, adı, rütbəsi ƏlAğ EySardır. Yerdəki təhrif dillərdə ƏlAğ EySara "Allah" EySar – "Allah" uca hökmdar, "İsa" peyğəmbər, "İsayi Məsih", "İisus" deyilir, "İsa" peyğəmbər vaxtilə otuz yaşı ilə otuz dörd yaşı arasında Yeri – "Kürreyi ərzi" gəzib təhrif dillərin hamısını öyrənə-öyrənə, SafAğ elmi haqqında moizələr oxuya-oxuya millətlərə ən çox bələd olan ƏlAğ – "Allah" olduğuna görə Bağ Atamız onu Yer üzünün "Allah"ı – ƏlAğı təyin eləyib".*[94]
Göründüyü kimi Süleyman peyğəmbər, Nuh peyğəmbər, İbrahim peyğəmbər və İsa peyğəmbər müxtəlif dini kitablarda da məhz müqəddəs kimi təqdim edilir.

---

[94] İsa Muğanna, Türfə romanı, Bakı: Hədəf nəşrlər. 2015, s 5.

Birmənalı olaraq Nəsimi kimi qanın, şiddətin, radikalizmin əleyhdarı olan Muğanna bu əsərdə Allahın dilindən "Quran"da səslənən *"Bəqərə" surəsinin 40-cı ayəsində deyilir: "Qorxun məndən". 67-ci ayədə deyilir: "Allah sizə əmr eləyir…" 131-ci ayədə deyilir: "İslam ol (təslim ol)". 150-ci ayədə deyilir: "Zalımlardan qorxmayın, məndən qorxun ki, tamamlayım sizə nemətimi". 154-cü ayədə: "Allah yolunda öldürənlərə "ölülər" deməyin, diridir onlar, siz bunu duymazsınız". 155-ci ayədə: "Sizi mütləq sınağa çəkirik, bir az qorxu, bir az da aclıq ilə". 179-cu ayədə: "Ey ağıl yiyələri, qisas alırsınızsa, deməli, yaşayırsınız, deməli, qorxursunuz Allahın əzabından." 189-da: "O adam yaxşıdır ki, Allahdan qorxur, Allahdan qorxun ki, qəzəbinə düçar olmayasınız". 194-də: "Qorxun Allahdan" tipli fikirlərə etirazını bildirir, bunları uca Tanrının deyə bilməyəcəyi fikirlər kimi qəbul etdiyini ehtimal edir".*[95]

Əsəri müəllif özü povest janrı kimi təqdim etsə də, romanın bütün tələblərinə cavab verdiyi üçün biz də "Türfə"ni roman kimi qəbul edib bu cür də təqdim etdik. Bütün magik romanlardakı mistika və gerçəklik olduğu kimi "Türfə"də də mistika və gerçəklik var. Lakin bu mistika və gerçəkliklə bərabər romana tarixi roman kimi də yanaşmaq mümkündür. Çünki əsərdə yetərincə tarixi şəxsiyyətlər var və onların həyatı müxtəlif məqamlarda izah edilir. Nəqşibəndilik təriqətinin XX əsrdəki vəziyyətini siyasi və məişət məsələləri fonunda təqdimatın

[95] Yenə orda, s 5.

özü birbaşa tarixiliklə müasirliyin vəhdətini göstərməkdədir.

## Mənim məhəbbətim

*"Mənim məhəbbətim" adlı əlyazma İsa Muğannanın masasının üstündə olan son iki əlyazmadan biridir. Yazılma tarixini dəqiq bilməsək də, 2013-cü ilin son aylarında yazıldığını ehtimal edirəm. Çünki bir neçə ay bundan öncə mənə zəng edərək dedi: "Şəmil bir vərəqdən ibarət roman yazmışam. Bu roman bütün əsərlərimin ideyasını özündə birləşdirir".*

*Vəfatından sonra bu romanı gördüm. Nədənsə üstündən xətt çəkilmişdi. Yəqin bu da ustadın özünəməxsus yeni variant işləmək istəyindən doğmuşdur.*





**İsa Muğannanın Mənim məhbbətim adlı son əlyazması**

Məhəmməd peyğəmbərə – BağhəmOd BağÜnEyərə, Həzrət Əliyə, imamlara, EyMənlərə məhəbbətim heç bir məhəbbətlə müqayisə oluna bilməz. Vətənim Muğan düzündən sürülmüş Muğannalara – BağÜnlərə məhəbbətim heç bir məhəbbətlə müqayisə oluna bilməz. Muğannalara

məhəbbətim kamilliyə doğru gedən Yer – EyƏr bəşəriyyətinə məhəbbətdir. Yer bəşəriyyətinə məhəbbətim kainatın planetlərində yaşayan nəhəng OdƏr bəşəriyyətinə məhəbbətdir. OdƏr bəşəriyyətinə məhəbbətim Günəşin daxilindəki "Yadro" – EyOdƏr planetinin sahibi EyOdƏr EyƏsÜn babamıza məhəbbətdir. OdƏrcə Ey – uca deməkdir, Əs – yaradan deməkdir. EyƏsÜn – uca yaradan Ün deməkdir. EyƏsÜn babamızın oğlu BağBağÜn babaya, BağBağÜn babanın oğlu Bağ Ataya məhəbbətim heç bir məhəbbətlə müqayisə oluna bilməz. Bağ Atanın birinci oğlu Süleyman peyğəmbərə - ƏsƏlmənə, "Solomona" məhəbbətim, Bağ Atanın ikinci oğlu Nuh peyğəmbərə - ÜnEyə məhəbbətim, Bağ Atanın üçüncü oğlu İbrahim peyğəmbərə - EvƏrimə, "Arrama" məhəbbətim, Bağ Atanın dördüncü oğlu İsa peyğəmbərə – Eysara , "İsayi məsihə", "Yisusa" məhəbbətim heç bir məhəbbətlə müqayisə oluna bilməz. OdƏrcə Sar – "çar", hökmdar deməkdir. EySar – uca hökmdar deməkdir. Min nəfər Bağın SimOd məclisində EySar – ƏlAğ seçilib. Əl həm də oğul deməkdir. Ağ – SafAğ (ən təmiz) insan və SafAğ elmi deməkdir. ƏlAğın ərəbcə təhrifi "Allahdır" EySar ƏlAğa məhəbbətim heç bir məhəbbətlə əvəz oluna bilməz. EySara məhəbbətim sənətə məhəbbətdir. Sənətimə məhəbbətim Sözə – ƏsÜzə məhəbbətdir. Üz həm də məna deməkdir. Sözə-ƏsÜzə məhəbbətim SafAğ elminə məhəbbətdir. SafAğ elminə məhəbbətim cəmi Bağlara məhəbbətdir. Bağ insanı insana, EyƏr bəşəriyyətini OdƏr-

lərinə bağlayan Bağ – Allah deməkdir. Bağlara məhəbbətim cəmi kamil insanlara ÜnƏslərə məhəbbətdir. Yer üzündə nadir tapılan ÜnƏslərə məhəbbətim Heydər babaya – Ulu Öndərə məhəbbətimdir.

*"EySar deyir ki, təzə tsikl başlayacaqsan. Birinci əsərin böyük romandır. Amma nə məzmunu, nə də ideyası haqda heç nə demir... Amma deyir gözün açılsın sonra deyəcəm. Stolumun üstündə bir səhifəlik yazı var, hər səhər gedib o yazıya baxıram ki, görüm gözüm düzəlir, ya yox. Bu səhər baxdım gördüm ki, oxuya bilirəm az-az." 27.04.2014.*



Bu sözləri son görüşümüzdə – 27 apreldə demişdi. Haqqında danışılan romanın yazıya köçürülmüş bir parçası. Romanın tam variantı İsa Muğanna ilə başqa bir dünyaya getmişdir.

Bu yazı İsa Muğannanın son əlyazmasıdır.



**İsa Muğannanın sonuncu yarımçıq əlyazmasıması**

...

Deyirlər güzəştə getmək müdriklik əlamətidir. Mən bu fikirlə razılaşa bilmirəm. O baxır nəyi, necə addımları, səhvləri, yanlışlıqları, cinayətləri güzəştə gedirsən – bağışlayırsan. Məsələn, min bir hiylə ilə, zorla sevgilini əlindən

alan adamı necə bağışlayasan? Heç cür, heç cür bağışlaya bilmirəm, əksinə, intiqam almaq, hətta nəyin hesabına olursa olsun, bəlkə, lap həbsxanaya düşmək hesabına, öldürmək niyyətindəyəm. Bu məqsədi, niyyəti həyata keçirmək üçün qarşımda heç bir çətinlik görmürəm. Çətini bu məqsədlə özümün ürəkdən gələn məqsədim olmalı idi ki, o da sevgilimin – Nazəninin məndən gözəlliklə, ağıllı, dərrakəli bir gənclə – Əyyubla qısa ünsiyyətdən sonra dəyişməyə meyl göstərdiyini duyduğum dəqiqədə daxilimdə olan alov kimi qaynayan ehtirasın oyandığı anda baş vermişdi.

Nərimanov prospektinin düz xətt boyunca uzanan genişliyindəki təzə çoxmərtəbəli binalardan birinin mərtəbəsində çox alverçilərin qibtəsinə səbəb olan ərzaq malları ilə dolu olan dükanımı bağlayıb küçəyə – prospektin genişliyinə çıxanda böyrümdən qıjıltılı sürətlə bir "Mersedes" keçdi. Özü də maşını kimi qapqara sifətli, amma son dərəcə yaraşıqlı – lap ali simmetrik gözəl Əyyubun məni vurmaq qəsdini lap aydın hiss etsəm də, buna inanmaq istəmədim.

# II FƏSİL

*İsa Muğanna yaradıcılığına müqayisəli baxış*

## 2.1. İsa Muğanna həqiqəti Hüseyn Cavid işığında

Köklü ənənələri olan Azərbaycan ədəbiyyatının nümayəndələri dünya mədəniyyətinə böyük töhfələr vermiş, onu əsrlərlə istiqamətləndirmişdir. Klassik Azərbaycan-Türk mədəniyyətinin böyük şəxsiyyəti Nizami Gəncəvi yaradıcılığı nəinki əsrlərlə şərq fəlsəfəsinin, təfəkkürünün formalaşmasında önəmli yer tutmuşdur, hətta orta əsrlər Avropa ədəbiyyatının yeni düşüncədə yaranmasına, inkişafına təkan vermişdir. Ədəbiyyatın bir mövzusu var: insan. Nizaminin insan konsepsiyası dünya ədəbiyyatını daima heyrətləndirmiş, bu gün də heyrətləndirməkdədir. Zaman-zaman həm yazıçılar, həm də ədəbiyyatşünaslıq Nizami yaradıcılığına müraciət etmiş və bu müraciətlə Azərbaycan-Türk təfəkkür ilə tanış olmuşlar.



Təkcə dövrünün yox, məhəlləsinin yox, regionunun yox bəşəriyyətin şair və ya yazıçısı meyarı ilə araşdırsaq, Azərbaycan ədəbiyyatında yetərincə bu cür şəxsiyyətlər görə bilərik. Bu meyara cavab verən ədiblərimizdən Nizami Gəncəvini, İmadəddin Nəsimini, Məhəmməd Füzulini, Mirzə Fətəli Axundzadəni, Seyid Əzim Şirvanini, Məhəmməd Hadini, Hüseyn Cavidi, Yusif Vəzir Çəmənzəminlini, Məmməd Səid Ordubadini, İsa Muğanna və s. kimi şair və yazıçılarımızı misal çəkə bilərik.

Hər bir xalqın ədəbiyyatı digər xalqlar üçün o zaman maraqlı və cəzbedici olur ki, həmin ədəbiyyat

öz orijinallığı ilə təqdim edilsin. Dəblə yazılan bədii əsərlər sadəcə dövrü üçün populyar olar, qısa vaxtda parlar və sönərlər. Lakin milli düşüncənin alt qatındakı ideya ustalıqla və səmimiyyətlə qələmə alınarsa və ümumilikdə bəşəriyyətə xidmət edərsə, o zaman bütün maneələri asanlıqla dəf edər və zirvədə görünər. Buna Mopassan, Viktor Hüqo, Çingiz Aytmatov, Tolstoy, Nəsimi, Hüseyn Cavid, İsa Hüseynov kimi dahilərin yaradıcılığını misal çəkmək olar.

Bu məqalədə daima həqiqət axtarışında olan, bəşəri faciələri ürək ağrısı ilə qələmə alan, öz yozumları ilə milli ədəbiyyat köynəyində bəşəri ədəbiyyat yaradan iki böyük Azərbaycan yazıçısının: Hüseyn Cavid və İsa Muğanna ideyalarındakı oxşarlıqları müqayisə etməyə çalışacağıq.



Hüseyn Cavid (1882-1941) XX əsrin əvvəllərindəki Azərbaycan ədəbiyyatının görkəmli sənətkarlarından biridir. Yaradıcılığında poeziya və dramaturgiyadan istifadə edən sənətkar Azərbaycan romantizminin banilərindəndir. Onun "İblis", "Şeyx Sənan", "Peyğəmbər", "Topal Teymur", "Xəyyam", "Səyavuş" kimi pyesləri dünya ədəbiyyatının incilərindədir.

Bütün yaradıcılığı boyu xeyirlə şərin mübarizəsini təsvir edən H.Cavid əsas qayəsi, ideyası kimi humanizm, insanpərvərlik mövqeyindən çıxış edərək, müxtəlif mövzularda məhəbbət və fəlsəfi məzmunlu əsərlər yaradaraq sənət, fikir və amalını geniş oxucu kütlələrinə sevdirməyi bacaran bir sənətkardır.

"Şeyx Sənan", "Peyğəmbər" və "Xəyyam" pyeslərində dramaturqun qarşıya qoyduğu məqsəd haq-

qa-həqiqətə qovuşmaq yollarını arayıb axtarmaq və bunun geniş həcmdə bədii həllini vermək olmuşdur. Şeyx Sənanın, Peyğəmbərin, Xəyyamın - hər üçünün haqq-həqiqət yolunda təsəvvürləri müxtəlif olduğu kimi, ona qovuşmaq yolları da müxtəlifdir.

İsa Muğanna isə (1928-2014) Azərbaycan magik realizminin, postmodernizmin yaradıcılarından biri kimi tanınır. Onun yaradıcılığını tədqiqatçılar iki böyük mərhələyə bölür: birinci dövr İsa Hüseynov kimi ömrünün 40 ildən çoxunu realist bir sənətkar olaraq, ikinci dövrü isə 1980-ci illərin sonundan başlayaraq bütün keçmiş üslubunu, ideya və bədii düşüncəsini, ümumiyyətlə yaradıcılığını bir kənara qoyaraq modernist bir yaradıcılığa İsa Muğanna kimi başlayıb, həm öz yaradıcılığında, həm də Azərbaycan ədəbiyyatında yeni bir çağ açan filosof sənətkar kimi yaşayıb yaradan yazıçı.



Onun "Yanar ürək", "Teleqraf", "Tütək" kimi əsərləri yaradıcılığının birinci dövrünün dəyərli əsərləri hesab edilirsə, "Məşhər", "İdeal", "Cəhənnəm", "GurÜn" kimi əsərləri yaradıcılığının ikinci mərhələsini təşkil edir. Akademik İsa Həbibbəyli İsa Muğannanın yaradıcılığının ikinci hissəsinə qiymət verərkən demişdir: "İdeal" romanı çap olunduqdan sonrakı şəxsi həyatı və yaradıcılığı göstərdi ki, İsa Hüseynov özünün bu əsərlərində inandığı və sanki hətta yaşadığı dünyanı təqdim etmişdir. “İdeal”da və sonrakı əsərlərində İsa Hüseynovun inanaraq formalaşdırdığı SafAğ dünyası ədəbiyyat üçün utopiya kimi görünsə də, İsa Hüseynov üçün gerçəkliyin ifa-

dəsidir. Əgər bu fəlsəfə “İdeal”la bitmiş olsaydı, onda SafAğ yolu İsa Hüseynovun yaradıcılığında keçici bir ovqat, yaxud keçid dövrü romanı kimi qəbul etmək olardı. Lakin yazıçının bundan sonra yazdığı “Qəbiristan”, “Cəhənnəm” "GurÜn" "İsahəq, Musahəq", "İlan dərəsi" kimi əsərlərində “İdeal”-da təqdim olunan dünyanın da sistemləşdirdiyinin, dərinləşdirildiyinin şahidi olduqdan sonra bütün bunlara İsa Muğanna dünyası kimi baxmaqdan başqa yol qalmır”.[96]

Bəşəriyyət yaradılandan və özünü dərk yolunu tutandan bu günə bir çox elmlərin tədqiqat obyekti insan və onun yaradanı olmuşdur. İnsan kimdir, o niyə yaradılıb? Öldükdən sonra həyat varmı? Tanrı necədir? Hardadır? Tökülən qanları görmürmü? – kimi suallar intellektual səviyyəsindən asılı olmayaraq, hər bir insanı zaman-zaman düşündürmüşdür. Bu düşüncələrlə əfsanələr, rəvayətlər, nağıllar, dastanlar yaradılmış, hadisələrə müxtəlif yozumlarla yanaşılmışdır. Sonrakı dövrlərdə isə bədii əsərlərin mövzusu olmuşdur. Dantenin "İlahi komediya", Hötenin "Faust", Bayronun "Qabil", Cavidin "İblis", Bulqakovun "Master və Marqarita" əsərlərini bədii ədəbiyyatın insanın yaradılış sirri yolunda axtarışı hesab etmək olar.



***

İsa Muğannanın "İdeal"dan sonrakı yaradıcılığı ilə tanış olanlar da, olmayanlar da Muğannanın nə

[96] Ölümdən sonrakı həyat, Məqalələr toplusu. Bakı: Hədəf Nəşrləri. 2104, s 5.

demək istədiyini düşünür: doğrudan da Muğanna "İdeal" və onun işığında yazılan "Cəhənnəm", "GurÜn", "Qəbiristanlıq", "İsahəq, Musahəq", "İlan dərəsi" kimi əsərləri ilə nə demək istəyirdi? Bu sualın cavabını Hüseyn Cavidin "Şeyx Sənan" faciəsində haqq aşiqi Dərvişin sözləri ilə öncədən də vermək olar:

Şəriətdən, təriqətdən kənarəm,
Həqiqət istərəm, yalnız həqiqət!
Yetər artıq şəriət, ya təriqət.
Qulaq verməm bən əsla bir xitabə,
Pərəstiş eyləməm hiç bir kitabə!
Əvət, Quran, Zəbur, İncilü Tevrat
Birər röya bütün əlvahi-aləm,
Birər əfsanə, cənnət, ya cəhənnəm.[97]



İsa Muğanna ateist idimi, deist idimi? İsapərəst idimi? Onu sarsıntı keçirən və başına hava gələn bir insan hesab edə bilərikmi? O peyğəmbərlik iddiasına düşümüşdümü? O sahib-zaman arzusunda idimi? Bütün bu suallar İsa Muğanna yaradıcılığı ilə yaxından-uzaqdan əlaqəsi olan hamının ürəyindən ya keçib, ya da keçməkdədir. Bəziləri isə öz mövqeyindən çıxış edərək cavabını verib və bu yaradıcılığa ya aşiq olub, ya da xülya adlandıraraq uzaq olmağa çalışıb. İsa Hüseynovu "primitiv təfəkkür sahibi" hesab edib Muğannaya çevrilən yazıçı həqiqətən də kim idi? Hansı ilahi və ya qeyri-ilahi qüvvə idi onu ətrafındakılardan fəqli düşünməyə vadar edən? Ve-

[97] Hüseyn Cavid. Seçilmiş əsərləri II cild. "Şeyx Sənan" pyesi. Bakı, elm. 2007. s. 172

rilmiş və təsdiq gözləyən sualların hamısının birmənalı cavabı məncə Muğanna idi. Bəşər övladını bütün sirli oyunlardan saflaşdırmaq üçün özünü təhlükəyə atan bir insan fədaisi idi Muğanna. Təhrif insan deyə-deyə insan beynini ləkədən yumaq üçün çalışan bir ədib idi. O "İdeal"dan sonrakı bütün yaradıcılığında dinlərin təhrif olunduğunu deyərək onları rədd etdi. Amma peyğəmbərləri rədd etmədi. Peyğəmbərlərin zamanında da, ondan sonra da müqəddəs kitablara edilən əlavələri rədd etdi. Amma yenə də yaradanı, peyğəmbərləri rədd etmədi. Sadəcə onlara yeni ad verdi: öz inandığı, insanlığın hiyləsi ilə ləkələnməmiş saf adlar. Əgər Muğanna yaradıcılığına təqdim edilmiş OdƏr (Od–həqiqət, Ər–İşıq, OdƏr – Həqiqət işığı deməkdir) dilinin ağırlığına baxmadan ideyasına, məzmununa, Ünvanlanan mesaja diqqət etsək, görərik ki, Muğanna həqiqəti Tanrı və onun oğulları konsepsiyası üzərində qurulub. Kamil insanı Tanrı – Yaradıcının oğlu hesab edib. Və bəşər övladını tam görmək istəyib. İsa Muğannaya görə Tanrının oğulları kimlər idi?

İsa Muğannaya görə Tanrının dörd oğlu var və dünyanın saflaşdırılması bu Tanrı oğullarına tapşırılıb: "*İnsanı insana, Yer planetini kainata bağlayan Bağ Ata adlanır. Təkdir, lailahəilləllahdır. Dörd oğlu var: birincisi Süleyman peyğəmbər, ikinci oğlu Nuh peyğəmbər, Üçüncü oğlu İbrahim peyğəmbər, dördüncü oğlu İsa peyğəmbərdir".*[98]



[98] İsa Muğanna, İdeal, Bakı Hədəf Nəşrləri, 2013, s 544.

Müəllifə görə bütün dinlərin təqdim etdiyi kamil insanlar – peyğəmbərlər eyni ruhun daşıyıcılarıdır. Hətta bəzən Məhəmməd peyğəmbərin ruhunda İsa peyğəmbərin təcəlli etməsi qənaətinə də gəlir.

Təəssüflər olsun ki, Azərbaycan magik realizminin yaradıcısının simvolikasını anlamayan, dərin qatlara enməyi bacarmayanlar bəzən bu şərti adlara ilişib qalır və əsas mənadan uzaqlaşır. Beləcə, vahid Allah, vahid insan, vahid din, vahid dil arzusunda olan SafAğ – ən təmiz adamı dərk edə bilmir. Muğannanın insanlara çatdırmaq istədiyi yeganə və əsas fikir Tanrı birdirsə, onun yaratdıqları da bir kökdəndir ideyası idi. Hüseyn Cavid bunu "Şeyx Sənan" əsərində xristian qızına aşiq olan, dinlərin məngənəsində əzilən ədalət aşiqi müsəlman Şeyx Sənana "həqiqəti özündə arayıb bulan" dərvişin dilindən "Din bir olsaydi yer üzündə əgər, Daha məsud olurdu cinsi bəşər"[99] deyir.



"İdeal" əsərində dinlərin dünyanı ilahi ədalətə yox, münaqişəyə, düşmənçiliyə sövq etdiyini vurğulayır: "Dəhşətdir axı, ay əmi! "Allah"-qardaş kimi!.. Dünənəcən, bu günəcən yad bilirdim mən "İsus"u – "İsa"nı..

– Yad? Necə yəni "yad?!" Düşün! Dindi sənə yad! Dinin yaratdığı əfsanələrdi!"[100]

Bütün peyğəmbərlərin bir ruhun daşıyıcısı olmaları fikrini ifadə edən Muğanna bununla insanlığın da qardaşlığını vurğulamaq istəmişdir. Bütün dinləri yaradan peyğəmbərlərin davamçıları şöhrət əsiri ol-

---

[99] Hüseyn Cavid. Seçilmiş əsərləri II. “Şeyx Sənan” pyesi. Bakı, elm, s 255.
[100] İsa Muğanna, İdeal, Bakı: Hədəf Nəşrləri 2013 s 551.

mamışdan öncə bu iddiada olmuşlar.Bütün yaradılmışlar eynidir deyib, insanlıq deyərək hakimiyyət, imperiya quran peyğəmbərlərin sonrakı davamçıları təkəbbür və kibrdən insanların onlarla eyni düşünmədiyini Allahı tanımadıqları kimi qiymətlənidirb qılıncdan keçirmiş və ideyaları istədikləri kimi dəyişdirmişlər.

"İdeal" əsərinin başqa bir yerində isə İlahi səs İsa Muğannaya deyir: "Oxuma o tərcümələri. Nizami yox dərəcəsindədi o zər cildlərin içində. "Xəmsə"də (Nizami Gəncəvinin "Xəmsə"si nəzərdə tutulur. İsa Muğanna görə bu gün bizə təqdim edilən "Xəmsə" təhrif olunmuşdur.), yenə deyirəm "Allah" yoxdur. "Peyğəmbər" var.[101]



"Xəmsə"nin köynəyini cırıb atacam: "İslam" adlananı da, "Xristianlıq", "Büdpərəstlik" adlananları da cırıb atacam! Mifləri, əfsanələri məhv edəcəm!" Bu məqamda yenə Hüseyn Cavidin "Şeyx Sənan" əsərindəki Dərvişini yenə xatırlayırıq:

Əvət, Quran, Zəbur, İncilü, Tevrat
Birər röya bütün əlvahi-aləm,
Birər əfsanə, cənnət, ya cəhənnəm.[102]

Bəli, maskalar nə qədər qəşəng görünsə də, yenə maska olaraq qalır və insan onun altındakı həqiqəti görmək arzusu ilə yaşayır. İnsanın dini, milli köynəyini soyundursan altında saf insanı görmüş olarıq. İnsan ruhu var: tərbiyəli, tərbiyəsiz. O insanın ruhunun tərbiyəsi ilə məşğul olmanın nəticəsidir ki, mən-

---

[101] İsa Muğanna, İdeal, Bakı: Hədəf Nəşrləri, 2013 s 551.
[102] Hüseyn Cavid. Seçilmiş əsərləri II. "Şeyx Sənan" pyesi. Bakı: Elm. 2007 s. 172

fi və müsbət olur, aqil və cahil olur, vicdanlı və vicdansız olur. İstər kilsədə, istər sinaqoqda, istər məbəddə, istərsə də məsciddə olub ən mömin insan kimi görünsün, bircə dəfə Cavidin "İblis" pyesindəki Elxanın ədalət sınağından keçirildikdə onun varlığı olduğu kimi ya ayaqlar altına töküləcək, ya da göylərə uçacaq ki, toxunulmasın.

Cavid bu səhnəni islaholunmazların gərəkli cəzalarına yetişən bir məqamı kimi çox ustalıqla yaratmışdır. Bu islaholunmazlar və ölümü vacib olanlar kimdir; İbn Yəmin və Zənci çavuş, bir papas, bir xaxam, bir iranlı şeyx, pis xəstəliyə tutulmuş qara çarşaflı bir qadın və özü kimi sağalmaz dərdə düşmüş on yaşlı bir cocuq.



Səhnənin gedişində məlum olur ki, papas İncil adı ilə Ermənistana milli davanı qızışdırmaq üçün silah daşıyırmış, əldə Tövrat tutub fransız casusu olan xaxam Ərəbistanda çaxnaşmalar yaradırmış, müsəlmanların əli Quranlı şeyxi isə ingilislərə pul naminə casusluq edirmiş. Burnu quruyub düşmüş qara çarşaflı qadın isə özü kimi xəstə cocuğu ilə Kərbəlaya gedib şəfa tapmaq ümidi ilə öz zöhrəvi azarını minlərlə sağlam adam arasında yayacaqmış. Bu sağalmaz, islaholunmazların bir çarəsi var. O da Elxanın haydutları tərəfindən həyata keçirilən ölüm hökmüdür.

Böyük Cavidin bu hökmü indi də qüvvədə olsa idi, cəmiyyət nə qədər saflaşıb paklaşa bilərdi. İblis məhz Elxanın məhkəməsini görəndən sonra mənən az da olsa, sarsılır və iblisləşmiş insanları ittiham

edən son monoloqunu söyləyir. Cavidin yaratdığı Elxanın divanı olan yerdə İblisə yer yoxdur. Çünki onun tora saldıqları ya tövbə edib haqq yoluna qayıtmalı, ya da islaholunmaz məqamında məhkum olunub məhv edilməlidir. Cavid romantikasının məhsulu olsa da, Elxan divanı Tanrının qiyaməti kimi yoldan azmışlara xəbərdarlıqdır.

İsa Muğannanın konsepsiyasını özündə daşıyan birinci nümunəyə diqqət edək. Əlbəttə ki, Allahın – Bağ Atanın oğulları kimi təqdim edilənlər İsa Muğannanın icadı deyil. Dördü də dinlərin müqəddəs bir insan kimi təqdim etdiyi peyğəmbərlərdir. Muğanna onları bir olan Allahın oğlu kimi təqdim edir. Bu isə insanları qardaşlığa, birliyə sasləməkdir.



Matthev Slik "Tanrının oğlu ola bilməzmi?" məqaləsində müsəlmanların Tanrının oğlu ifadəsinə yanaşmasını izah edərkən yazır: Bəzi müslamanlara görə "Tanrı oğlu" termini bir növ uşaq doğan, tanrıça arvadı olan bir Tanrı fikrini ağıllarına gətirməkdir. Xristianlar "Tanrı oğlu" ifadəsini İsaya aid etdiklərində müsəlmanlar anında Xristianların Tanrının Tanrıça arvadı ilə birlikdə bir cinsi əlaqəyə girdiyini ifadə etdiklərini zənn edib Xristianların Tanrıya layiq olmayan bir əməlini qəbul etmirlər.[103]

Tamamilə doğru yanaşmadır. İsa Muğanna da Tanrının oğlu dedikdə, heç də onun bir arvadı olduğunu demək istəməmişdir. "*İnsanı insana, Yer planetini kainata bağlayan Bağ Ata adlanır. Təkdir,*

[103] Şəmil Sadiq, "İsa Muğanna Həqiqəti Hüseyn Cavid İşığında", 525.az (07.07.14)

*lailahəilləllahdır"* deyirdi İsa Muğanna. Bu ifadəni isə bütün dini kitablar deyirlər. Allahın oğlu ifadəsi simvolikasının batininə enən Nəsimi isə "Ənəlhəq" deyirdi. Və bu "ənəlhəq" – "mənəm allah" və "allah məndədir" deyən Nəsimi "Allahın oğlu İsadır" deyən Xristianlardan daha cəsarətli addım atmışdır. Bu insanın Tanrısına olan sevgisi və humanizmindən irəli gəlir. Əlbəttə ki, yaradan yaratdıqlarına öz nurunu, öz ruhunu qatmışdır. Dinlərin Allahın yerdəki elçisi, sözçüsü kimi təqdim etdiyi müqəddəslərə Tanrının oğlu demək isə heç bir qəbahətli iş deyil. Məgər hər bir insan yaratdığı əsərinə məcazi mənada öz övladı demirmi? Tanrının yaratdığı mükəmməl insan da onun övladı hesab edilməlidir. Məcazi mənada peyğəmbərləri Tanrının oğlanları hesab etmək isə dinə heç bir ziddiyyət təşkil etmir. Əksinə dinin mövqeyini təsdiqləyir. İsa Muğanna da Tanrının oğulları deyərək təqdim etdiyi peyğəmbərlərə ilahi qüvvə kimi baxır, onları və onların ideologiyalarını məkirli insanların bulaşdırdığı çirkabdan təmizləyib, saflaşdırıb öz dərk etdiyi kimi bəşəriyyətə təqdim edir. Bu təqdimatda modern yanaşma var. Bu modern yanaşma insan oğlunun yaşadığı bu böyük dünyada qansız, müharibəsiz, hiyləsiz, Nizaminin, Nəiminin, Nəsiminin, Hötenin, Cavidin axtarışında olduğu kamil insan modelini xatırladır.



İsa Muğanna bütün əsərlərində demək olar ki, bəşəriyyətin qəbul etdiyi peyğəmbərlərə hörmətlə yanaşır və adını çəkib öz yozumunu verir. Hətta bəzi din alimlərinin söylədiyi *"bütün peyğəmbərlər bir nəsildəndir" fikrini bədii yolla ifadə edir deyə bilərik.* "İdeal" əsərində

Bağ Atanın nəslindən danışanda *"Ulu Bağ ƏsƏlmənin (Süleymanın) sonrakı parçalanmağı lap müsibətdir"* deyir. Və bu parçalanmadan Zərdüşt peyğəmbərin yarandığı qənaətinə gəlir. Başqa bir məqamda da Musa peyğəmbəri BağSar adlandırır və *"Necə təsəvvür edəsən ki, "Süleyman"nan, "Musa" eyni adamdır? "Süleyman" – padşah, "Musa" –çoban, bu lap dəhşətdir"*[104]

Əslində Muğannanın bu idealı bir növ də peyğəmbərlərin çirkaba bulaşmış dünyanı qurtarmaq arzusu ilə ac-yalavac yola çıxmaları zamanı başlamışdır. Seçilmişlərin vəzifəsinin də önəmli olmadığını diqqətə çatdıran ustad yazıçı Süleyman peyğəmbərin hökmdarlığı ilə, Musa peyğəmbərin çoban olmasını qarşı-qarşıya qoyur və vəzifənin, mənsəbin ziyaya, aydınlığa heç bir maneçilik olmadığını vurğulayır. Məhəmməd peyğəmbərin də həyatında çobanlıq və hökmdarlıq birləşmişdir. Sufizmdə isə çoban anlayışı bir termin kimi qəbul edilir. Biz Hüseyn Cavid yaradıcılığında da Şeyx Sənanın haqqa gedən yolda çobanlıq etməsini, İsa Muğannanın "İlan dərəsi" povestində də Saf İnsanın – Süleyman peyğəmbərin şər qüvvələrdən gizlənməsi üçün çobanlıq etdiyinin şahidi oluruq. Bu məqam onu göstərir ki, Nəsimini bilmədən, Cavidi, Cavidi bilmədən İsa Muğannanı dərk etmək çox çətindir.



***

İsa Muğannanın "İdeal" əsərində qoyulan "göylərin yerdəki vəziyyətdən narahatlıq keçirməsi kon-

---

[104] İsa Muğanna, İdeal, Bakı: Hədəf nəşrləri 2013 s 543.

sepsiyası"nın özündə bir fantastika var. Düzdür, bütün dini kitablar bəşər övladının iblisə uymasını Tanrının qəzəbinə tuş gələcəyi inamı vurğulanır. Humanitar elmi-fantastika janrını yaradan Muğanna yerdəki fəlakətlərdən Tanrının-İsa Muğannanın dili ilə desək, Bağ Atanın da xəbəri var və bunları bəzən onun özü idarə edir. Müəllif "Cəhənnəm" romanında "Yer indi Bünyadların pəncəsi altında yanır, qana batır, suya batır", – deyərək Tanrının – Bağ Atanın bunlardan xəbərdar olduğunu vurğulayır. "İdeal" romanının qəhrəmanı Səməd Əmirlinin axirətdə Bünyad bəylə söhbəti zamanı yerdəki bəlaların günahkarının göylərdə olması açıq-açığına deyilir:



- İndi biləcəksən, ən böyük günahkar insanın taleyini yazan – "Yazan" – "Yazdan" – "EyƏsÜn" EyOdƏr" babamızdı, ay bədbəxt "razvetçik". İkinci günahkar Yazanın yazdığını Bağ Atamıza çatdıran BağBağÜn Babamızdı. Üçüncü günahkar yazılanların əsasında hökm verən Bağ Atamızdı. Dördüncü günahkar hökmləri icra edən EySarımızdı. Bəndədə nə günah var?!"[105]

OdƏr övladının, SafAğ elmini mənimsəmiş, haqq dünyasına yüksəlmiş birinin dilindən verilən bu etirafı sanki Hüseyn Cavidin "İblis" əsərinin qəhrəmanı Arifin üsyan dolu "İnsanları xəlq etmədə var, bəlkə də, hikmət, İblisə nə hacət!? " sualına cavabdır.

"Peyğəmbərlərə, qanunlara, kitablara uyub bir həqiqət tapa bilməyən Arif demonizm mövqeyindən çıxış edərək Allahın işinə qarışır. Onun insanlarla

[105] İsa Muğanna, Cəhənnəm, Bakı: Hədəf nəşrləri. 2013, s 218.

bərabər dünyada İblisə də yer verməsini artıq bir şey hesab edir. Yuxarıdakı son misrada Arif tərəfindən söylənilən fikir yarandığı və Allahı tanıdığı gündən bütün zəkalı insanları düşündürmüşdür. İnsanlar haqqa-həqiqətə yetməkdə iblisi özlərinə bir maneə hesab edərək onu daima, yeri gəldi-gəlmədi lənətləmişlər".[106]

"Arif insanın tökdüyü qanda, törətdiyi fəlakətdə əsil müqəssirin ünvanını düzgün qiymətləndirə bilmir, lənəti ilahi şər qüvvəyə – iblisə yağdırır. İblis də həqiqəti göstərmək üçün Arifin qarşısına düşür, onu hadisələrdən keçirir və öz təlimini isbat etməyə çalışır: şər insanın mənəvi dünyasında pünhan saxlanır!.. Ehtiyac, istək və bunları pəncəsində saxlayan zaman, ictimai şərait insanı Mələk də edir, İblis də"[107]



Mövzu, ideya, yozumların mistika ilə siyasətin vəhdəti aspektindən İsa Muğannanın "Cəhənnəm" romanı Mixail Bulgakovun "Master və Marqarita" romanını da xatırladır. Digər bir tərəfdən də mövzu Hötenin "Faust", Hüseyn Cavidin "İblis" əsərlərində də öz həllini geniş tapıb. Adı çəkilən hər üç əsərdə iblis obrazı demək olar ki, çox oxşardı. Və hər üçündə də, iblis dondan dona girərək bəşəriyyətin məhvinə, həqiqətin boğulmasına xidmət edir. "Master və Marqarita" romanında "Voland yer üzünə cəza vermək və əfv etmək üçün gəlmişdir və bilir ki, kimi nəyə görə cəzalandırmaq, nəyə görə əfv etmək la-

106 Şəmil Sadiq, Hüseyn Cavid yaradıcılığında qəhrəman konsepsiyası, Bakı: Hədəf Nəşrləri , 2011, s 170.

[107] İsrafilov H. Azərbaycan dramaturgiyasının inkişaf problemləri. Bakı: Elm, 1988, s 124

zımdır. İvanuşkadan ötrü o, xarici ölkə casusudur, tarix professoru Berliozdan ötrü ağlını itirmiş sərsəri, yabançıdır, Styopa Lixodeyevdən ötrü cadugərdir, Masterdən ötrü isə ədəbi personaj. Lakin əslində Voland İblisin özüdür".[108]

"Cəhənnəm" romanında isə Bünyad bəy 1906-cı ildə Zeynalabdin Tağıyevi, Doktor Nərimanı zəhərləyən, Həmid Sultanovu, Baba Əliyevi, Səməd Vurğunu, Mehdi Hüseyni, Muğannanını zəhərləmək istəyən iblisdir ki, birincisi "Qızıl ilandı", ikincisi "Çaxçuxdu" (alverçi), üçüncüsü – "hökmdar". "İblis" pyesində isə İblis gah xidmətçi, gah abid, gah zahid, gah da elə iblis kimi fəaliyyət göstərib öz kirli əməllərini həyata keçirir.



"Qərb və Rus ədəbiyyatlarında da orta əsrlərdən bəri Dantenin "İlahi komediya", Belmontun "Təbliğçi İblis", Kalderonun "Ecazkar sehrbaz", Bel Consonun "Şeytan", Marlonun "Doktor Faust", Miltonun "Qeyb edilmiş cənnət", Hötenin "Faust", Bayronun "Qabil", Lermontovun "Demon" əsərlərində İblis öz müxtəlif, çoxcəhətli təzahürləri ilə şər qüvvə kimi təsvir olunmuşdur".[109]

"Cəhənnəm" romanının finalı müəllifin dilindən verilmiş: "-Cəhənnəm məkanını tap, ey "ins", o fantastikasız fantastika sənin özündə deyilmi?! "cümləsi ilə yekunlaşır. Burda Hüseyn Cavidin "İblis" pyesindəki İblisin son monoloqu diqqətimizi çəkməyə bilməz:

---

[108] kult.az/az/6947/bulqakovun-staline-mesaj 6. bulqakovun-staline-mesaj
[109] İsmayılov Ə, Dünya romantizm ənənələri və H.Cavid. Bakı:Yazıçı ,1983, s 33.

– Mən tərk edirəm sizləri əlan nəmə lazım?
Heçdən gələrək heçliyə olmaqdayım azim.
İblis nədir?
– Cümlə xəyanətlərə bais…
Ya hər kəsə xain olan insan nədir?
– İblis!..[110]

Hər iki müəllifin qənaətinə görə, əgər dünyanı bu qədər iblisləşmiş insan bürümüşsə və onlar dinc dövrdə belə hər kəsin xoşbəxtliyinə mane olub, müharibə dövründə milyonları məhvə məhkum edə bilirlərsə, onda mövhumi İblisə, cəhənnəmə daha ehtiyac yoxdur.

Bünyad bəydən fərqli olaraq Arif içindəki iblislə mübarizəyə qalxdı, amma o, bunun fərqinə varmadı, çünki Arif, İblisi içində yox, göylərdə təsəvvür edirdi. İblisin yaranmasının da günahını Allahda görürdü və son nəticədə öz daxili aləmini təmizləyə, saflaşdıra bilməyən Arif qəlbindəki iblisə uydu.



"Cəhənnəm" əsərindən verilmiş "ömrü onsuz da işgəncələr içində keçən insanı bir daha, özü də daima əzaba salmağa hansı vicdansız yaradıcıya lazım olub?" sualını müəllif özü vermişdir, amma Hüseyn Caviddə Arif İblislə mübarizəyə qalxmışdı. Nəzərə alsaq ki, obrazları dindirən də müəllifdir, deməli həm Hüseyn Cavid, həm də isa Muğanna bəşər övladının iblis xofunu yalnız öz bətnindən təmizləməyi tövsiyə etmişdi.

İsa Muğannanın digər bir əsərində – "GurÜn" da müəllifin dilindən verilən şərhdə yazılır: "Mehdi",

---

[110] Hüseyn Cavid, Seçilmiş əsərləri III cild. Bakı: Elm. 2007. s 119.

"Məhəd" – BağOd "Həmid" – HəmOd, "Məhəmməd" -BağHəmOd və sair rütbələr – adlar Sahib-zaman EySara, həm də EySarın "GurÜn"nü yazan BağHəmOda aiddir. Odur ki, Eysarın özü ilə birlikdə BağHəmOda aiddir. Odur ki, EySarın özü ilə birlikdə BağHəmOdu da Sahibi-Zaman sayır".[111]

Bu mətndən aydın görünür ki, Muğanna Məhəmməd peyğəmbəri də, İsa peyğəmbəri də zamanın sahibi hesab edir. Bu gün şiələrin zühurunu gözlədiyi, dünyanın hökmdarı hesab etdikləri Sahibzamana da hörmət edir. Onların ideallarını, başlatdıqları yolları bir-birindən fərqləndirmir. Bu mövqeni biz sonuncu din olan İslamda da görürük. Bütün mənbələr də Məhəmməd peyğəmbərin İsanı qəbul etdiyini, onun yolunu davam etdirdiyini yazır. Deməli, Muğanna bədii təfəkkürdən çıxış edərək keçilmiş tarixi öz yozumlarında ifadə edir. İnsanlıq haqqı və ədaləti daima axtardığı üçün bütün dinlərdə haqq sahibinin, tanrı elçisinin bir gün yer üzünə yenə qayıdacağı inancı var. Xristianlar İsanın, müsəlmanlar imam Sahib-zamanın, Buddistlər Buddanın, onlardan daha qədim olan qədim türklər Gök Tanrı dinində Tanrı Xaqanın oğlunun qayıdacağını gözləyirlər.



"GurÜn" əsərindən digər bir məqama diqqət edək: SafAğ alimləri deyir: "Quranın bətni var. O bətnin də bətni var. Cəmi altı bətn var. Həqiqət yeddinci bətnddir." Ərəb Xəlifəsi Müstədbillah deyib: "Altı bətn varsa, həqiqət necə yeddincidə ola bilər?!

[111] İsa Muğanna, GurÜn. Bakı: Hədəf Nəşrləri. 2013 s 49.

Alimlərimiz deyiblər: "Yeddinci bətn Xəlifənin seyfindəki "GurÜn"dədir, onun da üstünə qan tökülüb, oxunmur!"

Bu nümunədən aydındır ki, İsa Muğanna bütün dini kitablar kimi Quranın da bugünkü varinatının tam olmadığı qənaətindədir. Bu qənaətə isə İsa Muğanna geniş mütailəsinin sayəsində gəlmişdir. Çünki dini kitabların təhrif olunduğu qənaətində olan bir çox alimlər var ki, fundamental əsərlərlə çıxış ediblər.

İsa Muğanna yaradıcılığının manifesti, bəyannaməsi olan bu bir səhifəlik yazı ilə bəşəri sevdiyini, dünyanı sevdiyini və bunları yaradanı sevdiyini uca səslə elan etdi. Dini, milli ayrıseçkilik qoymadan, təriqətlərə bölmədən sevdi və kainatın bir həqiqətdən ibarət olduğunu elan etdi: Tanrı, insan, söz həqiqəti idi bu vahid həqiqət. Yazını İsa Muğannanın son əlyazması olan "Mənim məhəbbətim" romanı ilə bitirirəm. Əminəm ki bu bir səhifəlik yazı İsa Muğannanın ideal işığında həqiqəti göstərməkdə bizə yardım edəcəkdir.



*"Məhəmməd peyğəmbərə – BağHəmOd BağÜnEyərə, Həzrət Əliyə, imamlara – EyMənlərə məhəbbətim heç bir məhəbbətlə müqayisə oluna bilməz. Vətənim Muğan düzündən sürülmüş Muğannalara – BağÜnlərə məhəbbətim heç bir məhəbbətlə müqayisə oluna bilməz. Muğannalara məhəbbətim kamilliyə doğru gedən Yer – EyƏr bəşəriyyətinə məhəbbətdir. Yer bəşəriyyətinə məhəbbətim kainatın planetlərində yaşayan nəhəng OdƏr bəşəriyyətinə məhəbbətdir. OdƏr bəşəriyyətinə məhəbbətim Günəşin daxilindəki "Yadro" – EyOdƏr planetinin sahibi EyOdƏr EyƏsÜn babamıza məhəbbətdir. OdƏrcə Ey –*

*uca deməkdir, Əs –yaradan deməkdir. EyƏsÜn – uca yaradan Ün deməkdir. EyƏsÜn babamızın oğlu BağBağÜn babaya, BağBağÜn babanın oğlu Bağ Ataya məhəbbətim heç bir məhəbbətlə müqayisə oluna bilməz. Bağ Atanın birinci oğlu Süleyman peyğəmbərə - ƏsƏlmənə, "Solomona" məhəbbətim, Bağ Atanın ikinci oğlu Nuh peyğəmbərə – ÜnEyə məhəbbətim, Bağ Atanın üçüncü oğlu İbrahim peyğəmbərə – EvƏrimə, "Arrama" məhəbbətim, Bağ Atanın dördüncü oğlu İsa peyğəmbərə - Eysara , "İsayi məsihə", "Yisusa" məhəbbətim heç bir məhəbbətlə müqayisə oluna bilməz. OdƏrcə Sar – "çar", hökmdar deməkdir. EySar – uca hökmdar deməkdir. Min nəfər Bağın SimOd məclisində EySar – ƏlAğ seçilib. Əl həm də oğul deməkdir. Ağ – SafAğ (ən təmiz) insan və SafAğ elmi deməkdir. ƏlAğın ərəbcə təhrifi "Allahdır" EySar ƏlAğa məhəbbətim heç heç bir məhəbbətlə əvəz oluna bilməz. EySara məhəbbətim sənətə məhəbbətdir. Sənətimə məhəbbətim Sözə – ƏsÜzə məhəbbətdir. Üz həm də məna deməkdir. Sözə – ƏsÜzə məhəbbətim SafAğ elminə məhəbbətdir. SafAğ elminə məhəbbətim cəmi Bağlara məhəbbətdir. Bağ insanı insana, EyƏr bəşəriyyətini OdƏrlərinə bağlayan Bağ – Allah deməkdir. Bağlara məhəbbətim cəmi kamil insanlara ÜnƏslərə məhəbbətdir. Yer üzündə nadir tapılan ÜnƏslərə məhəbbətim Heydər babaya – Ulu Öndərə məhəbbətimdir"*[112]

Dahilərin yaratdığı əsərlər həmişəyaşardır. Bu baxımdan H.Cavidin də, İsa Muğannanın da hansı əsərinə müraciət ediriksə, bu və digər cəhətdən müasir dövrlə səsləşir, öz aktuallığını itirmir. XXI



[112] İsa Muğanna, Mənim məhəbbətim, Bakı: Hədəf Nəşrləri 2014, s 12-13.

əsrdə, yəni hazırkı dövrdə Qərblə Şərq arasındakı iqtisadi və siyasi qarşıdurmanı qəsdən xristian-müsəlman münaqişəsinə çevirərək müharibə təhlükəsi yaradan din, məzhəb dəllalları buna sübut deyilmi? Axı insanlığın yeganə çıxış yolu, milyardlarla insanın arzusu azad ticarət, sülh və əminamanlıq olduğu bir zamanda müharibə təhlükəsi yaratmaq istəyənlərə Cavidin təbirincə iblisdən başqa nə ad vermək olar?

Fikrimizcə, məqaləni eyni ideya daşıyıcıları olan bu ustad sənətkarların bəşər övladına, türkə həyat tezisi olan fikirləri ilə bitirsək, daha münasib olar. Hüseyn Cavid "Turana qılıncdan daha kəskin, ulu qüvvət, yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət " fikrini XXI əsrdə İsa Muğanna "Türkün heç bir düşməni yoxdur, bizim yeganə düşmənimiz cəhalətdir" deyə ifadə etmişdir.



Hüseyn Cavid və İsa Muğanna Azərbaycan, o cümlədən, dünya ədəbiyyatındakı yeganə filosof yazarlardandır ki, onların yaradıcılıqları ilə yaşadıqları həyat gerçəkliyi tamamən vəhdət təşkil edir. Belə ki, hər iki şəxsiyyətin bir ömür yazmaq və demək istədiklərini öz keşməkeşli həyatlarında da yaşamış, yaradıcılığı ilə bütövləşmiş şəxsiyyətə çevrilmiş, ideallarına sadiq qalmışlar. Məhz buna görə də bu filosof-yazarlar məişət səviyyəsindən çox yuxarıda durmuş, bəşəri ideyalar uğrunda qələmlə, sözlə döyüşmüşlər.

## 2.2. İsa Muğanna yaradıcılığının "Ün" poemasındakı poetik təhlili

Bu yaxınlarda xalq şairi Zəlimxan Yaqub mənə zəng etmişdi. "Zəlimxan müəllimdir, danışan" deyəndə bir az təəccübləndim. Çünki telefon zənginə qədər elə bir ciddi münasibətimiz və ya ünsiyyətimiz olmamışdı. Amma bizi bağlayan bir ortaq bağ olduğunu bilirdim. Məhz bu ortaq bağa görə sanki çoxdandır, Zəlimxan müəllimlə münasibətlərimiz varmış kimi söhbəti davam etdirdik. Əlbəttə ki, Zəlimxan müəllimi şirin və zəngin dilə, rəvan nitqə, xalq təfəkküründən süzülüb gələn türk-Turan sevdalı, haqq və ədalət yükümlü şeirlərə sahib bir ədib olaraq əksəriyyət kimi mən də tanıyır və rəğbət bəsləyirdim. Lakin bu rəğbətin əsas səbəblərindən biri Zəlimxan müəllimin də Ustad dediyi ustadım, böyük yazıçımız İsa Muğanna idi. İsa Muğanna Zəlimxan müəllimi çox istəyirdi. Həmişə ondan söz düşəndə böyük hörmət və məhəbbətlə danışardı. Məhz buna görə də zənnim məni yanıltmadı. Söhbət elə ortaq bağımızdan getdi. Hələ uzun illər bundan qabaq İsa Muğannanın "Yeni Azərbaycan" qəzetində işıq üzü görən "Zəlimxan Yaqub və "Bisütun"da külüng səsi" məqaləsində yazdığı fikirlər onun Zəlimxan Yaquba verdiyi böyük dəyərin nümunəsidir: "Həq"dən – Ağdan xəbər verən Ün eşidənlər əsla şübhə eləmirlər ki, Zəlimxan Yaqubun səsi də "Həq"dən–Ağdandır" ... " Külüngün "Bisütun"u Bağıstana döndərsin, bütöv

Azərbaycanda, vahid Bağdayda əbədi vəkil əbədi şeirin gurlasın"...[113]

Söhbətimiz zamanı Zəlimxan müəllim dedi ki, Şəmil, ustadımızı tez-tez yuxuda görürəm, gör yuxuda mənə nə dedi?! "Bilirəm, məni yaxşı oxumusan. Ancaq sənə tam aydınlığı ilə çatmayan çox mətləblər var. Qaldırdığım problemlərə, toxunduğum məsələlərə yenidən güzgü tutmağa, SafAğlara, OdƏrlərə cəmiyyətdəki təhriflərə aydınlıq gətirməyə böyük ehtiyac var. Hər şeyi təzədən başla, məni yenidən oxu, ağlımın, idrakımın, təfəkkürümün süzgəcindən keçən nə varsa, hamısını ürəyindən keçir. Mənim yaradıcılığım sağlığımda mən istəyən kimi açılmadı. İnanıram ki, onu sizlər açacaqsınız. Vuruşun təhriflərlə, SafAğlar, Odərlər dünyanın naqis işlərini düzəltmək üçün bizə hava, su kimi gərək olacaq. Mən yazdığımı yazmışam, dediyimi demişəm. Demədiyim çox şeyləri də ürəyimdə o dünyaya – inandığım dünyaya aparmışam.



Son söz Odər bəşəriyyətinin, uca hökmdarın – EySarın, SafAğların olmalıdır.

Mən ölməmişəm! Öz fikir gəmimdə yol gedir, dünyaya, dünyama və sizlərə baxıram." (P.S. Zəlimxan müəllim mənə telefonda dediklərini daha bədii formada poemanın girişi kimi çap etdirdiyi üçün həmin mətni verməyi daha məqbul hesab etdim.[114]

Mən də bu sözlərdən təsirlənib "Ün" adlı poema yazdım. Göndərim sənə, ona bir yaxşıca bax, sonra

---

[113] İsa Muğanna, Seçilmiş əsərləri. VI cild. Bakı, Avrasiya press 2009. s 77.
[114] Zəlimxan Yaqub, Azərbaycan jurnalı, Ün, N10. 2014, s 39.

məsləhət bildiyin bir yerdə yayımlayaq. Mən bilirəm, sən Muğannaya ən böyük dəyər verənlərdənsən."

Bu fikirlər ruhumu oxşadı. Birinci ona görə ki, ustad hesab etdiyim fikir adamının yaradıcılığına bələd olduğumu bilən, dostluğumuzdan agah olan Xalq şairi Zəlimxan Yaqub mənə etimad edirdi, ikinci isə İsa Muğanna haqqında bədii əsər yazılırdı. Həmin əsərin məhz qeybdən gələn səsin təkidi ilə yazılması isə Muğanna həqiqətinin yenidən təzahürü idi. Zəlimxan müəllimin lirik poeması "Ün"ü birnəfəsə oxuya bilmədim. Çünki hər cümlə, hər misra bir əsəri xatırladır, elminin ağırlığı ilə beyni dondururdu. Bitirdikdən sonra, əlbəttə ki, heç bir təklif etmədim. Zəlimxan müəllim təvazökarlıq edib göndərib, axı mənim onun qələmindən çıxan hər hansı bir cümləni redaktə etmək kimi ixtiyarım yox idi. Açığı buna heç gərək də yox idi. Çünki poema o qədər səmimi, ürəklə, ruhla və ilhamla yazılıb ki, hər hansı bir sözün artıq olduğunu düşünmək mümkün deyil. Poemada müəllifin gözləntisi, təmənnası sadəcə ürəyinin rahatlaması ola bilərdi...

Bu mövzuda ilk dəfə Böyük şairimiz Xəlil Rza Ulutürkün İsa Muğannanın "İdeal" romanını oxuyarkən yazdığı "Sən mənə bir silah verdin" şeirini oxumuş və heyrətlənmişdim. Çünki bir bədii əsəri digər bir bədii əsərlə təhlilə çəkmək və tərənnüm etmək o qədər də asan məsələ deyildi. Əlbəttə ki, Xəlil Rzanın milli ruhu dərk etməsi və çılğıncasına vətən eşqi ilə yazdığı şeir "İdeal" romanındakı simvolikanı oxuculara bir də bədii yolla təqdim etmişdir.

*"Uzaqda yox, bu dünyada verdin mənə cənnətimi,*
*Kəşf elədim cahan boyda qürurumu, millətimi*[115].

İsa Muğanna Xəlil Rza Ulutürkün bu şeirinə Zəlimxan Yaqub haqqındakı məqaləsində münasibətini bu cür bildirmişdir: " Bəli, canım-ciyərim!.. On il bundan əvvəl Xəlil Rza Ulu Türk şeirimizin tarixində ilk dəfə "Bağ Ata", "OdƏr yurdu" deyəndə "Türk"ün – "OdƏr"in özünə qayıdan yolundakı səddə parçalanma başlandığını hiss etdim. Səni oxuyanda isə düşündüm ki, səddin parçalanması nə mənim OdƏr mədəniyyətinə, Bağday tarixinə aid yazdıqlarımdan başlanıb, nə də Xəlilin "Bağ Ata", "OdƏr" yurdu inqilabından".[116]



"İdeal" romanı 80-ci illərdə böyüməkdə və güclənməkdə olan azadlıq ideyalarına ideoloji dəstək olan ən böyük və dünya səviyyəli əsərlərimizdəndir. Həmin dövrün gəncliyi məhz "İdeal"la əfsunun gerçəkliyə çevriləcəyinə inandılar və bu inancdan qüvvət aldılar. Millət eşqi ilə döyünən böyük ürək sahibi, Caviddən sonra ədəbiyyatımızda millət şairi kimi tanınan Xəlil Rza Ulutürkün "İdeal" əsərində təqdim etdiyi konsepsiyanı, fəlsəfəni yeni gəncliyin özünüdərki üçün böyük silah hesab edirdi.

*Sən mənə bir yaraq verdin, raketlərdən güclü yaraq.*
*Bir cüt sönməz çıraq verdin, əziz şair, gözüm-çıraq.*
*Bəxş elədin elə müdrik, elə bir qüdsi kitabı,*
*Öpdüm, sıxdım ürəyimə kitab adlı inqilabı.*[117]

---

[115] X.Ulutürk, Mən Onsuz da əbədiyəm, Bakı: Gənclik 2003, s 92.
[116] İsa Muğanna Seçilmiş əsərləri. VI cild. Bakı: Avrasiya press 2009. s 77.
[117] Yenə orda, s 237.

"İdeal" romanı İsa Hüseynovu İsa Muğanna etdiyi kimi, artıq oxucuları EySara, BağOda, OdƏrə çevirmişdi. İdealdan sonra bir müddət susan yazıçı sonradan "Cəhənnəm", "GurÜn", "Qəbiristanlıq", "İsahəq, Musahəq" kimi romanlarını, "İlan dərəsi və ya Peyğəmbərin taleyi", "Qırx kisə qızıl", "Söz yarası" kimi povestləri, məqalələri, açıqlamaları ilə yeni yetişməkdə olan Azərbaycan oxucusunun könlündə özünə tac qurdu. Sonrakı əsərləri və fikirləri sanki "İdeal" romanında qoyulan konsepsiyanın, fəlsəfənin, əfsunun, gerçəkliyin şərhi və təfsirləri idi.



Xalq şairi Zəlimxan Yaqubun "Ün" poeması İsa Hüseynovdan İsa Muğannaya keçilən yolun həyat fəlsəfəsini özündə ehtiva edən dəyərli poemadır. Kredo qəzetinin 31 oktyabr sayında Əli Rza Xələfli "Zəlimxan Yaqubun "Ün" poeması üzərində düşüncələr" məqaləsində doğru olaraq qeyd edir ki, "Ün" bizə deyir: ...poetik şərhin gücü hər misranın ilhamında və siqlətində Zəlimxan Yaqub imzasını təsdiqləyir. Bəli, bizim üçün adi olan, hamımızın anladığı, anamızın dilinin şəhdi-şəkəri ilə təbii balı, şirəsilə süslənmiş sözləri ancaq Zəlimxan Yaqub bu qədər ustalıqla İsa Muğanna zamanının və məkanının sonsuzluğunu özündə ehtiva edərək göstərə bilərdi..."[118]

Böyük ustad İsa Muğanna ilə söhbətlərimizin birində məndən soruşdu ki, Şəmil, "OdƏrlər"in ikincisini yazırsanmı? Dedim, İsa müəllim, nəsə yaza bilmirəm hələ. Dedi: “tələsmə özləri deyəcəklər, on-

[118] Kredo qəzeti. N44 (799) 31 oktyabr, 2014

da da yazarsan. Birincini də yazanda onlar deyib, diqtə edib, sən yazmısan". İndi İsa müəllim demişkən, sanki Zəlimxan müəllimə bu poemanı göylərdən kimsə diqtə etmiş, o da yazmışdır. Əsər o qədər elmi və fəlsəfi mətləbləri poetik şəkildə ifadə edir ki, sanki bu poema deyil, mənzum elmi əsərdir. Bəli, mənzum elmi əsər. Çünki İsa Hüseynovdan İsa Muğannaya qədər gedən yolda ustadın bütün yaradıcılığı poetik təhlilə cəlb edilmişdir.

Mənzum əsərlərdə elmi izahat və təhlillər verilməsi ənənəsi qədim türk təfəkküründən gəlir. Nizamiyə, Nəsimiyə, Xətayiyə yalnız şair demək və günümüzün anlamı ilə şair kimi yanaşmaq böyük yanlışdır. Kimlərsə elmi fikirlərini, fəlsəfəsini nəsrlə dediyi halda, bu böyük dühalar ahəngdar və ritmik olaraq ruhlara daha da yaxşı xitab etsin deyə nəzmi seçmişlər. Xalq şairi Zəlimxan Yaqubun "Ün" poeması onu göstərir ki, Sabir Rüstəmxanlı demişkən, "Bu torpaq hələ də bərəkətlidir". Bəli, bərəkətin toxumları genetik yaddaşımızda yaşayır hələ də, onu elmlə, zəka ilə, saflıqla suvara bilsək, bir zamanlar Bilgə xaqanlar kimi dünya mədəniyyətinə yaşam konsepsiyaları və dini fəlsəfi dünyagörüş ixrac edən və sadəcə yaradan xalq kimi mühüm yeri olan türk təfəkkürü yenidən cücərər və bəşəriyyətin xilasının işığı ola bilər.

"Ün" poemasının sadəcə alt başlıqları göstərir ki, müəllif filosof yazıçının həyat və yaradıcılığına tam mənası ilə bələddir: *SafAğ elmi, İsadan Muğannaya, Onun qurduğu məclis, Yerlə göy arasında, Atadan Bağ*

*Ataya, Yanğın, "Zarinci" üstündə, Muğanna saz çalırdı, Sən nələr çəkirsən, Sui-qəsd, Pıçıltılar, Firuzə xanıma salamlar olsun, Nəimilik – Nəsimilik - Muğannalıq, Muğanna var, Muğannadan içəri.*

*Başdan-başa müəmma,*
*sehr qoxuyan kişi.*
*"Tövrat"ı, "İncil"i də,*
*Quranı "GurÜn" kimi,*
*Təzə gözlə, baxışla,*
*duyan, oxuyan kişi.*
*Sən ağ görmək istədin,*
*bu düzü, bu dünyanı.*
*Silahlardan aralı,*
*Günahlardan aralı,*
*Allahlardan aralı.*[119]



Misralardan bəlli olur ki, Zəlimxan müəllim "İdeal" romanından başlamış "Mənim məhəbbətim" adlı bir səhifəlik son yazıya qədər Muğanna yaradıcılığı ilə dərindən tanışdır. Müəllifin "Sehr qoxuyan kişi" ifadəsi isə maraqlı bir tapıntıdır. Elmi ədəbiyyatda magik realizm – əfsunlu realizm kimi səciyyələndirilən Muğanna yaradıcılığının baş obrazı olan İsa Muğannaya yaraşan uyğun poetik ifadələrdəndir – "Sehr qoxuyan kişi" ifadəsi. Ustad sənətkarın İsa Muğanna kimi yazdığı bütün əsərlərində bir sirr, bir məna gizlənib. Hər bir sözü üzərində fikirlər yürüdülə, müzakirələr açıla bilər. Şairin "Silahlardan aralı, Günahlardan aralı, Allahlardan aralı" misraları

[119] Zəlimxan Yaqub, Azərbaycan jurnalı, Ün, N10. 2014, s 8.

ilk baxışdan oxucunu düşündürə bilər. Lakin əminəm ki, Muğanna ideoloji fikri ilə tanış olan oxucu, gülümsəməyə bilmir bu məqamda. Dünyanı "Ağ" görmək istəyən yazıçı həyatının son 30 ilini təhrif olunmuş dinlərin, allahların mahiyyətini açmağa çalışdı. Onun konsepsiyasına görə bu gün dünyanı dinlərlə idarə edənlər pul allahları, qorxu allahları, təhrif allahlarıdır.

Hər hansı bir oxucu əsərləri ilə yazıçını oxuya, duya, anlaya bilər. Hətta onunla dərdləşə, söhbətləşə də bilər. Lakin bu cür bir poemanı yazmaq üçün vacibdir ki, oxuduğun əsərin müəllifi dostun ola, həm də onun yazdıqlarına pərəstiş edəsən, simpatiya ilə yanaşasan və hər cümləsinə qibtə edəsən ki, belə bir əsər ortalığa qoya biləsən.



*Əzizimiz, Muğanna!*
*Heç kəs soruşmasın ki,*
*Haralıyam,*
*hardanam.*
*Mən də Odərlərdənəm,*
*Mən də SafAğlardanam.*[120]

Bəlkə, bir zamanlar Zəlimxan müəllim də İsa Muğanna ilə söhbətlərində onun göylərdən Ün eşitməsinə inanmadığını deyib və ya eyhamını vurub, bəlkə də sadəcə ürəyindən keçirib. Amma poemanı oxuduqca görürsən ki, bu gün Zəlimxan müəllim İsa Muğannaya və onun Ününə tam varlığı ilə inanır. Və zaman-zaman planetdən Muğannanın göndərdiyi ilahi səsi, siqnalı eşidir, qədim elm olan ağ, maq,

[120] Zəlimxan Yaqub, Azərbaycan jurnalı, Ün, N10. 2014, s 70.

muğ – SafAğ elminin fəlsəfəsini sözün qüdrəti ilə bizə təqdim edir.

Doqquz oğlu, övladı,
bir-bir gülLədən keçən,
İsa, Musa babanın
İsahaq, Musahəqtək,
Anadilə çevrilib
tüstülənən ahı da,
Yazıq Taftı qarının
Açılmaz sabahı da
SafAğ elmindən gəlir.
Cümrünün tütəyində
alovlanan nəfəs də,
Tapdığın sinəsindən
qopan o qəmli səs də,
Çayın hayqırtısı da,
selin gurlaması da,
Sudüşən çəmənində
Şehin parlaması da
SafAğ elmindən gəlir.[121]



Yuxarıdakı misralar İsa Muğanna taleyi ilə obrazlarının taleyinin ifadəsidir. Çünki İsa Muğannanın adı onun əmisinin, Musa isə babasının adıdır ki, biz bu haqda İsa Muğannanın "Həyatımdan səhifələr" oçerkindən oxuyuruq: "İsa əfəndi mənim doğuluşumdan səkkiz il əvvəl, nəslimizin Muğanlıdan əvvəlki kəndi Padişahlıqda dünyasını dəyişmiş əmim idi. Nəriman Nərimanov sosialist ideyaları

[121] Zəlimxan Yaqub, Azərbaycan jurnalı, Ün, N10. 2014, s 9.

təbliğ etdiyinə görə həbs olunub Tiflis həbsxanasında bir il yatdıqdan sonra 1906–cı ildə Bakıya gedərkən SafAğ elmi haqqında məlumat toplamaq üçün yolunu SafAğ alimlərinin kəndi Padişahlıqdan salıb, orada babamla doğma qardaş qədər yaxınlaşdıqdan sonra 1913-cü ildə Odessadan təhsildən qayıdanda Zeynalabdin Tağıyevin kompanyonu, babamın əmisi oğlu "Xozeyin Məhəmməd"in vasitəsilə SafAğ təhsilli İsa əfəndini, kiçik qardaşı Musa ilə birlikdə Bakıya çağırtdırıb. Qara şəhərdəki hərbi gimnaziyaya qəbul elətdirib, şəxsən "silsilə"dən, (Həllac Mənsurdan, Firdovsidən, Nizamidən, Nəsimidən, Füzulidən, Yunis İmrədən) özü dərs deyib. Musa gimnaziyanı qurtarmamış xəstələnib Padişahlığa qayıdıb"[122]



İsa Muğanna istər bədii əsərlərində, istər müsahibələrində, istər publisistik məqalələrində, istərsə də, adını çəkdiyimiz "Həyatımdan səhifələr" əsərində elə bir üslub seçib ki, oxucu birmənalı olaraq bütün bu olanların bir bədii təxəyülün məhsulu yox, İsa Muğannanın öz taleyi olduğu qənaətinə gəlir. Çünki İsa Muğanna ədəbiyyatla əbədiyyatın, ədəbiyyatla həqiqətin, ədəbiyyatla tarixin, ədəbiyyatla göyün, ədəbiyyatla yerin arasında olan "sehr qoxuyan kişiydi"

"İdeal" romanı ilə əsası qoyulan SafAğ elminin fəlsəfəsini bir dərviş kimi oxuculara izah etməyə çalışan şair yazır:

---

[122] İsa Hüseynov, İlan dərəsi, Bakı: Hədəf Nəşrləri, 2013, s 16-17.

*SafAğ elmi deyir ki,*
*Cahilliyə nöqtə qoy,*
*cəhaləti məhv eylə.*
*İnsanlar arasında*
*Qanlı düşmənçiliyi,*
*ədavəti məhv eylə.*
...
*SafAğ elmi deyir ki,*
*Öz işini halal gör,*
*Öz işini təmiz tut,*
*Can gəldi-gedərdi,*
*elmi candan əziz tut.*[123]



İsa Muğanna ideologiyasının əsasında duran ən ali amal elm idi. SafAğ elmi. Bu elm cəhalətin kökünü kəsmək, onu məhv etmək üçün işıq gəmiləri tərəfindən insan oğluna göndərilmişdir. Lakin insan oğlu cəhalətə uyaraq bu elm qılıncının qəbzəsindən tuta bilmir, onun üçün də dünya qan gölünə, bəşəriyyət nəfsinin qurbanına çevrilib. Bu misralarda Nəsimi fəlsəfəsindən qaynaqlanan İsa Muğanna ideologiyasının mayasını Zəlimxan Yaqub sanki Şah Xətayi modelinə çevirib oxuculara təqdim edir. Bu model İsa Muğannanın xalq genetik yaddaşından, yoxluğu var edən ruhundan yoğrulduğunu daha praktik şəkildə göstərir. Seçilmişlər zamansız olsa da, dediklərinin zamana görə önəmi daha böyükdür. Kodlaşdırılmış mesajları İlahi Ünün gücü ilə biri seçilmiş bəşər övladına yetirirsə, onun həzm olunmasında sonrakı varisin işi daha önəmlidir. Muğannadan

[123] Zəlimxan Yaqub, Azərbaycan jurnalı, Ün, N10. 2014, s 12.

sonra Zəlimxan Yaqubun bu poema ilə üzərinə götürdüyü mənəvi yük SafAğ elminin xalq təfəkkürünə, düşüncəsinə yaxınlaşdırması missiyasıdır.

*Səsi sazdan gəlirdi,*
*ünü neydən gəlirdi.*
*İstədiyi nə varsa,*
*enib göydən gəlirdi.*
*Mələklər qanad çalır,*
*Göydə yalanlar olmur.*
*Göydə təhriflər olmur,*
*Göydə talanlar olmur.*
*Göydə əqrəblər olmur,*
*Göydə ilanlar olmur.*
*İlana zəhər verən*
*filan filanlar olmur.*



– deyən müəllif bu misralarla adiliyin içindəki qeyri-adiliyi, sadəliyin içindəki mürəkkəbliyi, yoxluğun içində varlığı sözlərlə yansıtsa da, Muğannanın yerdən üz döndərib göylərə olan etibarının və inamın səbəblərini daha aydın izah edir. Bir çox insan yerdə olan bəlaların, faciələrin, vəhşətlərin, dəhşətlərin məhz göylərdən gəldiyinə bu gün də inanmaqdadır. Bütün dini kitabların söykəndiyi bir həqiqət var: cənnətdən yerə qovulan və ya göndərilən ilk insan Adəmdir. Və bu ilk insan həm də ilk peyğəmbərdir. Bu gün bəşəriyyətin caynaqlarında can verdiyi nəfs, tamah, qan da elə Adəmin ailəsi ilə dünyaya tanışdır. Bu da onu deməyə əsas verir ki, göylərdən yerə göndərilən Adəm özü ilə bir çox bəlaları

gətirmiş və bəşəriyyətə miras qoymuşdur. Yuxarıdakı misralara diqqət etdikdə, Muğanna həqiqətinin nüvəsində göylərin paklığından danışıldığını görərik. Bəlkə də, məhz bu səbəbdəndir ki, insan övladı bəzən də məcazi anlam daşıyan göylərdən, qutsal yaşam tərzindən qovuldu və dünyamıza göndərildi. (Bəlkə də, Adəm yerə endirilməmişdən öncə yerdə yaşayanlar vardı və bu yaşayanların xisləti pozulmamış, korlanmamışdır. Bəlkə də, Adəm və arvadının Tanrı dərgahından qovulandan sonra yer üzündəki özbaşınalıqlarının qarşısını almaq üçün öz nurundan yaratdığı yeni bir qövmü Yerə göndərib. İstənilən halda Göy Yerdən daha pak və daha aydındır, həm materiya, həm də ideya baxımından.)



Göylərin kir, ləkə, hiylə, təhrif saxlamadığı üçün aqil insanların əksəriyyəti kimi Muğanna həqiqət Ününü yalnız göylərdən eşitmək istəyirdi. Çünki günah ifadəsi göylərdə yaşayanların nə ağlından keçir, nə də dillərinə gəlirdi. Ustad sənətkarın eşitdikləri və ya eşitmək istədikləri isə o qədər batini mənalarla yüklü idi ki, yerdəki insan bunu anlaya və dərk etməkdə çətinlik çəkirdi. "Ün" poemasının misraları isə bu simvolların açılmasında çətinlik çəkənlər üçün daha sadə dillə sirli elmi izah edir.

Həmin batini elmdir, dindir ki, "bu din (və bütün dinlər) məhəbbət dinidir. Qanun və ehkam yığıntısı deyil. Biz ərəblərin, bizə "əcəm" deyərək ixrac etdikləri din adlanan dəbilqənin altında can vermək üzrəyik! (buna deyərlər, həyəcan siqnalı, yoxsa "din əldən getdi, qoymayın, millət kafir oldu". Bunlar hamı-

sı boş-boş şeylərdir.) Din bizimdir... Amma ərəb dövlətçiliyi tarixi bizim deyil. Din bizimdir... Amma İran şiəliyi bizim deyil. Mən İmadəddin Nəsiminin təqdim etdiyi Həzrəti Mühəmmədi sevirəm! O. Hərra mağarasında "Hu" deyərək, özündən gedən aşiqdir. Mən Xətayinin vəsf etdiyi Əlini sevirəm! O Əli ki, mənə 4-cü xəlifə olaraq lazım deyil".[124]

Xalq şairi Zəlimxan Yaqubun "Ün" lirik poeması bütövlükdə İsa Hüseynov – İsa Muğanna yaradıcılığını özündə ehtiva edən dəyərli bir əsərdir. Poema yaradıclığının deməkolar ki, olmadığı dövrdə bu cür bir əsərin yazılması istər nəzmin, istərsə də tərənnümün ən incə məqamları, zərif və ilahi mətləblərin daşıyıcısı olduğunu bir daha sübut edir.



Xalq şairi Zəlimxan Yaqubun "Ün" poeması axıcı dili, üslubu, daşıdığı tarixi əhəmiyyəti ilə XXI əsr Azərbaycan şeirinin qızıl fonduna düşəcək, ədəbiyyatşünaslığın ən maraqlı tədqiqat obyekti kimi yaşayacaq əsərlərdəndir.

[124] Fəxrəddin Salim. Milli Yaddaş sistemində Ürfan və təsəvvüf. Bakı: Elm və Təhsil, 2010, s 43.

## 2.3. Postmodern Azərbaycan romanında "Kitabi-Dədə Qorqud" dastanı və təhrif edilmiş tarix

Avropada artıq haqqında çox az danışılan postmodern roman ifadəsi bu gün Azərbaycanda haqqında daha çox danışılan ədəbi termindir. Və təəssüflər olsun ki, postmodern anlayışı altında təqdim edilən romanların demək olar ki, hamısı xalqın tarixi, mədəniyyəti haqqında daşlaşmış ehkamları daşlamaq kimi bir vəzifəyə sahib olduğunu göstərir. Sanki bədii mətn o zaman postmodern olur ki, çılpaqlığı ilə ürək bulandırsın. F.e.d. Salidə Şərifova "Çağdaş Azərbaycan postmodern romanı" əsərində haqlı olaraq qeyd edir ki, *"Azərbaycan postmodern romanı iki əsrin qovşağında ədəbiyyat tarixində paradoksal vəziyyət yaratdı. Postmodernist təfəkkür sistemi yazarlara əsaslandırılmamış, postmodernist təfəkkürün bədii və fəlsəfi quruluşunu təşkil edən istiqamət və prinsiplərin təkamülünün xronoloji çərçivəsinin olmaması səbəbindən yazarların qələmə aldıqları əsərlər intuitiv halda ənənəvi dəyərləri kompromissiz olaraq dekonstruksiyaya məruz qoydular".*[125]



Şərq təfəkküründə yüz ildir ki, yenilik ifadəsi, adətən, bütün ehkamları, min illərdir formalaşmış ənənələri dağıtmaq kimi qəbul edilir. Professor Vaqif Yusiflinin də dediyi kimi *"Belə çıxır ki, postmodernizmdə hər şeyin üzərindən xətt çəkilir, bütün köhnələr de-*

[125] Şərifova S, Çağdaş Azərbaycan postmodern romanı, Bakı: Elm və Təhsil 2015, s 20.

*konstruksiya nəticəsində əvvəlki görkəmində yox, tamam başqa yöndəmdə nəzərə çarpır. Deməli, məlum mətn yenidən söylənilir, nəql edilir. Postmodernist "oyunda" həqiqət yoxdur, amma inandırıcılıq da mövcuddur, hadisələr elə nəql edilməlidir ki, "görünməzlər" tarixi həqiqət kimi qəbul edilsin".* [126]

Postmodernizm anlayışının bu cür tanıtımı əlbəttə ki, oxucunun heysiyyatı ilə oynamaq və onun sahib olduqlarına ironiya ilə yanaşmaq onda qıcıq doğurmuş, məhz bu adla çıxış edən yazarları və onların əsərlərini də qeyri-ciddi hesab etməyə gətirib çıxarmışdır. Halbuki keçmişə fərqli, amma müsbət anlamda da baxmaq mümkündür ki, bunu da postmodern baxış adlandırmaq olar. Necə ki, *Modernday Dictionary of Received İdeas* adlı sözlükdə deyilir: *"Bu sözcüğü kullananlar ona istedikleri gibi anlam vermekdedirlər".*[127]



Niyazi Mehdi "Azərbaycan postmodernizminə giriş" məqaləsində postmodernizmi qərbin tullantısı adlandıraraq yazır: *"Azərbaycanda bu cürbəcürləşmənin iblisanə rəqsinin ilk partiyası gedir. Ancaq elə bu, mənəviyyatsızlıq, pozğunluq haqqında hiddətlər, ümidsizliklər doğurur. Bəs rəqsin ortası gələndə nə olacaq? Biz bu rəqsi yaxşı oynamağı öyrənməliyik, yoxsa ahıl kişilər kimi qırağa çəkilməliyik? Çağımızın baş suallarından biri budur. Azərbaycan postmodernistləri isə bu soruya öz cavablarını verməkdədirlər".*[128]

[126] Azərbaycan. Ədəbi-bədii jurnal, Bakı 2014, №10.
[127] Gencay Şaylan, Postmodernizm, Ankara: İmge Kitabevi 2002, s 62.
[128] (www.kitabxana.net 09.07.2015)

Yuxarıda da qeyd etdiyim kimi, özlərini məhz postmodernist kimi təqdim edərək haqq qazandırmaq istəyən yazıçıların əsərlərindən doğan münasibətdir Niyazi Mehdinin bu aqressiyası.

Azərbaycan postmodern romançılığında İsa Muğannanın, Anarın, Kamal Abdullanın, Orxan Fikrətoğlunun, İlqar Fəhminin, Həmid Herisçinin, Pərviz Cəbrayılın, Aydın Talıbzadənin, Xan Əmirin, Şəmil Sadiqin adlarını qeyd etmək olar.

Azərbaycan ədəbiyyatşünaslığında yekdilliklə postmodern romanın başlanğıcını Kamal Abdullanın "Yarımçıq əlyazma" əsəri ilə götürürlər. Bu haqda tənqidçi professor Vaqif Yusifli yazır ki, *"Kamal Abdullanın "Yarımçıq əlyazma" romanı postmedernizmin poetikası ilə birbaşa səsləşən əsər olduğu üçün onu Azərbaycan ədəbiyyatında ilk postmodernist roman kimi qəbul etmək olar..."* Teatrşünas Aydın Talıbzadə isə *"Yeni Azərbaycan romançılığı Kamal Abdulladan başlanır"* deyir. Tənqidçi Tehran Əlişanoğlu da qeyd edir ki, *"Yarımçıq əlyazma" romanı "əsri çevirən əsər"dir.*[129]



Əgər postmodern romana bir millətin, bir xalqın tarixi ehkamlarını dağıdan bir janr kimi baxmasaq, yuxarıda deyilən fikirlərlə razılaşmır, yeni Azərbaycan romanının, postmodernizmin başlanğıcını İsa Muğannanın (Hüseynovun) dünya ədəbiyyatı üçün də böyük önəm kəsb edə biləcək əsəri olan (700 səhifəlik) "İdeal" romanı ilə götürə bilərik. Lakin "Yarımçıq əlyazma" "İdeal" əsərindən sonrakı postmodern romanın ikinci dalğasını tam məsuliyyəti ilə

[129] Azərbaycan. Ədəbi-bədii jurnal, Bakı 2014, №10.

başlatdı, deyə bilərik. Bunun da nəticəsində də postmodern gənclik yetişdi və "Yarımçıq əlyazma"nın daşıdığı ideyanı şərəflə davam etdirdi.

İsa Muğannanın 1980-ci illərdə yazdığı "İdeal" romanı və ilk dəfə 1993-cü ildə "Dünya" jurnalının 3-cü nömrəsində çap edilən "Cəhənnəm" romanı Azərbaycan ədəbiyyatının ilk postmodern əsərlərindəndir. "İdeal" romanı çap edildiyi ərəfədə ədəbiyyatda bir inqilab yaratdı. Əsərdəki Azərbaycan-türk tarixinə, o cümlədən də dünya tarixinə, dilçiliyinə, fəlsəfi konsepsiyasına yeni baxış, SafAğ konsepsiyası, OdƏr mədəniyyəti, mifik zamanla real zaman arasında yazıçı manevrləri bizə bu fikirləri səsləndirməyə imkan verir.



İsa Muğanna (1928-2014) Azərbaycan magik realizminin, postmodernizmin yaradıcılarından biridir. Onun yaradıcılığını tədqiqatçılar iki böyük mərhələyə bölür: birinci dövr İsa Hüseynov kimi ömrünün 40 ildən çoxunu realist bir sənətkar olaraq, ikinci dövrü isə 1980-ci illərin sonundan başlayaraq bütün keçmiş üslubunu, ideya və bədii düşüncəsini, ümumiyyətlə, yaradıcılığını bir kənara qoyaraq modernist bir yaradıcılığa İsa Muğanna kimi başlayıb, həm öz yaradıcılığında, həm də Azərbaycan ədəbiyyatında yeni bir çağ açan, filosof sənətkar kimi yaşayıb yaradan yazıçı.

Həm Azərbaycan və dünya oxucusuna yetərincə tanış olan akademik, dilçi alim, "Yarımçıq əlyazma" (2004), "Sehirbazlar dərəsi", "Unutmağa kimsə yox" romanlarının müəllifi kimi tanınan Kamal Abdulla,

həm də həyatı və yaradıcılığı baxımından iki müxtəlif dünya yaşayan İsa Muğanna "Kitabi-Dədə Qorqud" dastanına ənənəvi düşüncədən fərqli yanaşmışdırlar. Kamal Abdulladan fərqli olaraq İsa Muğanna "İdeal" və "Qəbiristan" romanlarının mövzusunu birbaşa olaraq "Kitabi-Dədə Qorqud" dastanından almamışdır. Dastanın əslinin gizlədildiyi düşüncəsində olan Muğanna hər iki əsərində dastan haqqında bir türkün qəbul edə bilməyəcəyi fikirləri səsləndirmişdir. Kamal Abdulla isə "Yarımçıq əlyazma" əsərində İsa Muğannadan fərqli olaraq, ümumiyyətlə, dastanın görünən qatını şübhə altına almışdır. Məhz buna görə də, bu yazıda Türk yazar və araşdırmaçı İrfan Ülkünün İsa Muğannanı *"Azərbaycanın Folkneri"*[130] *Kamal Abdullanı isə "Azərbaycanın Umberto Ekosu"*[131] adlandırdığı əsərləri üzərində quracaq, dastana qarşı bu fərqli münasibətin səbəblərini, yozumların mahiyyətini, araşdırmağa çalışacağıq.



İsa Muğannaya görə əlimizdə olan *"Kitabi-Dədə Qorqud" dastanı bizim deyilmiş. Vatikanda yazılıb, izi azdırmaqdan ötrü Drezdenə göndərilib, nə qədər mümkündü yayılıb ki, həqiqi tariximizi – Bağdayımızı, Bağlarımızı unudaq..."*[132]

Kamal Abdulla isə "Yarımçıq əlyazma"da kitabxanadan tapılmış yeni bir qədim əlyazmanın əslində

[130] İsa Muğanna, Qəbiristan. Bakı: Hədəf nəşrləri 2013, s 232.
[131] Salamoğlu T, "Yarımçıq Əlyazma" Postmodernizm..." www.kitabxana.net (12.09.2015)
[132] İsa Muğanna, İdeal, Bakı: Hədəf nəşrləri 2013, s 680.

"Kitabi-Dədə Qorqud" dastanının bizə məlum olmayan batini kimi təqdim edir. O batin ki, bütün türk dünyasının bilici, müdrik, ağsaqqal kimi qəbul etdiyi Dədə Qorqudu xanın katibi və dedi-qodularla məşğul biri kimi təqdim etmiş, Beyrək kimi üzü niqablı bir ər Təpəgözün qorxusundan qaçıb kafirə sığınmış, dillərdə dastan olan Beyrək və Banuçiçək sevgisi yalan imiş, Beyrək kafir qızları ilə əylənib Banuçiçəyi aldadıb, Salur Qazan kimi tanıdığımız el qəhrəmanı Oğuzu ikiyə bölən məkrli biri imiş, Burla xatun kimi müqəddəsləşdirilmiş qadın obrazı öz ilk sevgisinə görə atasının xanimanından istifadə edərək Qazan Xanı öz oyunlarına qurban etmişdir. İsa Muğanna "Kitabi-Dədə Qorqud" bizə təhrif edilərək təqdim edilmişdir" deyərkən, mətnin əslinin əlimizdə olandan daha mükəmməl olduğunu, türk tarixinin simvollarını, gizlin şifrələrini özündə daşıdığını vurğulamaq istərkən, Kamal Abdulla əlimizdə olan mətnin əslində pafoslu olduğunu, bu pafosun yalançı qəhrəmanlıq yaratdığı qənaətinə gəlir və oxucuya ruh düşkünlüyü yaradan bir bədii mətn təqdim edir. Azərbaycan Yazıçılar Birliyinin sədri Anar bu mövzuda həssaslığını gizlədə bilməyib və müxtəlif zamanlarda hər iki yazıçıya da təqribən eyni sərt münasibəti göstərmişdir. O, İsa Muğannanın 80 illik yubileyi münasibətilə 2008-ci ildə ədəbiyyat qəzetində yazdığı yubiley məqaləsində qeyd edir, *"İdeal"da "Kitabi-Dədə Qorqud" haqqında verilən hökmlər də ədalətsizdir. İsanı nə qədər çox sevsəm də, Dədə Qorqudu on-*

*dan da çox sevirəm.*[133] Kamal Abdullanın "Yarımçıq əlyazma"sı ilə əlaqədar isə bunları ifadə edir: *"Çağdaş edebiyatımızın değerli bir numunesi olarak kabul ediyorum ve Dede Korkut çalışmalarında başarılar diliyorum ama Dede Korkut ve Beyrek için biraz olsun insaflı davran!"*[134]

Təqdim etdiyim bu kiçik bilgilərdən də göründüyü kimi hər iki yazar dolayısı ilə "Kitabi-Dədə Qorqud" dastanının əlimizdə olan varinatlarının təhrif edilmiş olduğunu söyləyir. Əlbəttə ki, hər iki əsərin tarix yox, məhz bədii mətn olduğunu anlayırıq. Bədii mətn isə yazıçının birbaşa da olmasa gəldiyi öz qənaətləridir. Görmək istədiklərinin yeni yozumda təqdimatıdır. Nəzərə alsaq ki, bu gün bədii əsərin oxucuda buraxdığı təsirlər tarixi əsərlərdən daha dərindir, demək postmodernizmin ən böyük silahı olan inandırmaq bacarıqları istənilən oxucunu təbəddülata salmaya bilməz.



Maraqlıdır, görəsən, yazıçıların gəldiyi bu qənaətə elmdə münasibət necədir? Tarix elmi bu haqda nələr yazır. Axı etiraf edək ki, bu möhtəşəm abidənin bizə gəlib çatan hər iki variantını bizə Qərb təqdim etmişdir. Bəlkə, həqiqətən də nələrsə real dünyamızdan gizlədilib. Əslində, mənim də yazdığım "Odərlər" romanındakı münasibət hardasa "İdeal"dakı ilə eynidir. OdƏrlər romanının baş qəhrəmanı Dədə Əfəndi türk gənclərə müraciətində deyir: *"Əslində "Dədə Qoqrud" dastanı bizim gördüyümüz dastan kimi*

[133] İsa Muğanna, Qəbiristan, Bakı: Hədəf nəşrləri 2013, s 211.
[134] Azərbaycan. Ədəbi-bədii jurnal, Bakı 2014, №10.

*olmayıb, oğul. Onu heyvan cinsindən yarananlar dəyişdirib, təhrif edərək bizə bu cür təqdim edib. Onun əsli hələ də Avropada – Vatikan arxivindədir. O kitabların üzə çıxması dünyanın əsl sahibinə tapşırılması deməkdir. Onlar o kitabları verməyəcək, amma biz almalıyıq. Kitab dəyişdiriləndə o kodları oxuyacaq adamların sağ qalmadığını zənn etdilər. Süjeti qırdılar, ideyanı qarışdırdılar. Mükəmməl bir tarixi qarma-qarışıq bir şəkildə bizə təqdim etdilər, oğul."*[135]

Bu məqamda "Kitabi-Dədə Qorqud" dastanının bizə gəlib çatan variantlarında dəyişikliklərin olduğunu sübut edən bir neçə fakta diqqətinizi çəkmək istəyirəm.



Siyasi elmlər üzrə fəlsəfə doktoru Zaur Alıyev "Türk tarixinin "Soy kitabı"nın orijinalı hələ də dünyadan gizlədilir" adlı geniş araşdırmasında qeyd edir:

*"Vatikanda və Drezdendə tədqiq olunan əsərlərin orijinal olması da şübhə altındadır. Hər iki arxivdə aşkar olunan nüsxələrin içəriləri fərqli olsa da, müqəddimələri eynidir. İki fərqli məzmunun müqəddiməsi necə eyni ola bilər? Görünür, hər iki nüsxə daha qədim naməlum bir nüsxədən köçürülüb. Bu naməlum nüsxə Vatikanda, yaxud hər hansı bir arxivdədirsə, tapılması çox mühümdür.*

*Bir tarixi faktı nəzərinizə çatdıraq. Azərbaycanlı mühacirlərin Almaniyanın paytaxtı Berlində çıxartdıqları "Açıq Söz" jurnalının 1936-cı il tarixli III sayında Bakıda çıxan "Bakinskiy Raboçiy "qəzetinin 4 avqust 1936-cı il tarixli sayında gedən yazı dərc edilib. (Həmin yazı qəzetin*

[135] Şəmil Sadiq, Odərlər, Bakı: Hədəf Nəşrləri, 2013, s 291.

*bütün nüsxələri ilə səhəri gün tamamilə yox edilir). Yazıda qeyd edilir ki, Bəkir Çobanzadə Leninqrad Şərqşünaslıq İnstitutunun arxivində "Kitabi-Dədə Qorqud"un on üç boyunu tapıb. Sonradan bu hekayənin Azərbaycanda dərc olunduğuna dair şifahi xəbərlər də gəlmişdir. Azərbaycanda isə 1939-cu ildə akademik H.Araslı tərəfindən nəşr olunan kitabda bu boy olmayıb."*

Əlbəttə, biz tarixçi olmadığımızdan və mövzumuz birbaşa qeyd etdiyimiz bu məqamlar olmadığından daha geniş araşdırma aparmadıq. Lakin məhz bir boyun sonradan aradan götürülməsi və bir variantda Qorqud, bir variantda isə Qorqurt kimi təqdim edilməsi şübhə doğurmaya bilməz. Ümid edək ki, tarixçilər bu mövzuya daha həssas yanaşacaq, həqiqətin ortaya qoyulması üçün səy göstərəcəklər.



İsa Muğanna "İdeal"la başlayan silsilə 6 romanında qədim türk dilini OdƏr dili adlandırır və bu sözün mənasını rəmzi olaraq, Od – Həqiqət, Ər – işıq kimi təqdim edir. Bu prinsip əsasında da sözlərə öz yozumunu sərgiləyir. Onun fikrincə, Oğuz yox, AğÜz olmalıdır. Digər bir məqamda isə Vatikan bilərək Korkut yazır ki, bunun da mənası Qorxutdur deyir. "Vatikan monarxları "Kitabi-Dədə Qorqud"un lap ilk kəlmələrindən qorxurdular: *"Dədə"miz ölkənin hansı səmtinə gedir qəbirqazana rast gəlir. Bu qazannan "Salur qazan" adını yanaşı qoy. "Salur" dialektidi, "salır" deməkdi. Qəbri qazanımız, milləti qəbrə salanımız elmsiz Qazan xandı! İlan "alimlər"i bunu da görməzliyə vurur-*

*lar!.."*[136]Burdan aydın görünür ki, İsa Muğannanın Qazan xana münasibəti Kamal Abdulla ilə eynidir. "Yarımçıq Əlyazma"da da *Qazan xan dayısı Aruzu yağmaya çağırmamaqla vəzifə hərisiolduğunu göstərir, Boğazca Fatmanın hiyləsinə şəhvani hisslərini cilovlaya bilmədən qurban olur, Bəkil İmrana qarşı təkəbbür göstərərək bölücülük yaradır və Burla Xatunla bacara bilmir, çünki arvadağızlıdır. Şirşəmsəddinin Bayındır xanın istintaqında dediyi fikir isə belə idi. "Burla Xatunla Beyrək Qazanın evinin bağçasının uzun Pınar axıb gedən yerində gecə ikən buluşdular. Nə oldu aralarında, nə olmadı, mən bilmənəm, bilmək də istəmənəm, nə işimə?!"*[137]

Əgər İsa Muğanna Qazanı elmsiz adlandırıb, SafAğdan, işıqdan uzaq düşdüyünü deyirdisə, Kamal Abdulla ona qarşı daha sərt yanaşaraq bir növ "nakişi" adlandırmışdı. Hər iki məqam postmodern düşüncənin məhsuludur, hər iki münasibət yeni yanaşmadır. Lakin İsa Muğanna bu durumu birliyin pozulmasının günahkarı kimi qiymətləndirdiyi halda, Kamal Abdulla Qazan xanı hardasa "biqeyrət" kimi təqdim etmişdi. O da bir həqiqətdir ki, birliyi pozmaq da bir qeyrətsizlikdir.Həmin cümlənin sonunda Muğanna yazır: *""Qıpçaq"ları "Oğuz bəyləri"nə düşmən qələmə verən "kitab" ifşa olunmayınca, Odu əvəzində "at"ı, BağBağÜnü əvəzində "papağı"ynan öyünən "kişi qeyrəti" verib patriarxal bataqlığa sürüyəcəklər bədbəxt xalqımızı!*



[136] İsa Muğanna, İdeal, Bakı: Hədəf Nəşrləri 2013, s 594.
[137] Kamal Abdulla, Yarımçıq əlyazma, Bakı 2004, s 129.

*Daxilimizdədi bu bataqlığa sürüyənlər institutlarda, mədəniyyət ocaqlarındadılar!*

*Vətənin həqiqətlərini danan adam vətəndaş olammaz, oğul!"*

Dr. Fatih Yalçın beyin fikirləri bu məqamda fikrimizi daha aydın ifadə edər: *“Tarihsel bilginin nesnelliğinin bile tartışıldığı bir dönemde bir de yazarların tarihî metinler üzerinde kurgu yapma özgürlüğü ortaya çıkınca tarih bir fantezi alanına dönüşmüştür. Hiçbir etik kaygı taşımayan bu tavır zaman zaman tarihin ideolojik kaygılarla çarpıtılmasına, kişilik haklarının ihlaline kadar ileri boyutlara varabilmektedir. Bu tür metinleri kurgusal metinler olarak değerlendir(e)meyen okur zihninde tarih bu yolla suistimal edilmekte, istikrarsızlaştırılmaktadır.*[138]



İdeal romanından sonra "Qəbiristan" (1991-92) romanında İsa Muğanna "Kitabi-Dədə Qorqud" mövzusuna bir daha qayıdır. Bu dəfə isə daha böyük ürək yanğısı ilə gizlədilmiş tarixin – vərəsənin yerini bilən Səməd Əmirli oğlu Səmiyə bu haqda danışır. İsa Muğanna sonralar öz xatirələrində yazır ki, *"Ün eşitməyimdə təbəddülat yaranmışdı. Məhz bu təbəddülata görə romanda bəzi xırda-para nöqsanlar getmişdi. Həmin nöqsanları əsər "Azərbaycan" jurnalında çap olunandan sonra gördüm: "Kitabi-Dədə Qorqud" dastanındakı rəmzləri açarkən nöqsana yol vermişdim. Dastanın əvvəlində kişilərə Bağ rütbəsi vermək əvəzinə, "buğa" rütbəsi verməklə kobud, təhqiramiz fiziki qüvvə təbliğ olunur. Bunu emosional cəhətdən nöqsanlı yazmışdım. Oturub düzəlt-*

---

[138] Atatürk ÜniversitesiTürkiyat Araştırmaları Enstitüsü Dergisi, Erzurum 2013, s 171-184,

*dim."*[139]

Nəzərinizə çatdırım ki, İsa Muğanna son əsərlərini yazarkən iddia edirdi ki, o Ün eşidir və sonra eşitdiklərini köçürür. Onun fikrincə Bağ Tanrı deməkdir. *"Ruscadakı Boq –Tanrı sözünün ilkin variantı məhz Bağ olub."* Bağ, maq, muğ sözlərini bir biri ilə əlaqələndirərək yeni etimologiya təqdim edirdi.

Əsərin qəhrəmanı Səmi xəyalən ölmüş atası ilə söhbətləşir, atası ona deyir:

*– Birinci başla "Dədə Qorqud"dan. "Salur Qazanın evinin yağmalanması"ndan. Niyə? Çünki xalqın tarixi məhz o dastanda dəfn olunub. Təhqirlər kitabıdı Dədə Qorqud...*

*Səminin ağzı açıq qaldı:*

*– Ata!.. Ata, sən nə danışırsan?! Salur Qazan?! Burla Xatun?! Beyrək?! Qaraca Çoban?! O biri boylar!.. Dəli Domrul təki qeyri-adi igidlik rəmzi! Necə yani təhqir?*

*Səməd birdən-birə başdan-ayağa titrədi.*

*– Budur, bax, məhv olan xalqın məhv olan oğlu Səmi Səməd oğlu Əmirli. "Domrul" domara deməkdi! Qozbel deməkdi! Əzrayılla – əfsanəylə döyüşməyi!.. Təkcə "Yağmalanmaya" görə nə qədər işgəncə çəkirik biz?!"*[140]

"Yarımçıq əlyazma"nı da oxuyanda Səmədin oğlu kimi bizim də ağzımız açıq qalır, ideoloji qəhrəmanlarımızın gözdən düşmüş vəziyyətinə görə heyrətlənirik. Məhz bu baxımdan bütün tədqiqatçılar postmodernizmin keçmişə bu cür qəddarcasına hücumuna



[139] İsa Muğanna, İlan dərəsi, Bakı: Hədəf nəşrləri 2013, s 91
[140] İsa Muğanna, Qəbiristan, Bakı: Hədəf nəşrləri 2013, s 269

razılaşa bilmirlər. Burda sanki əsərdə reallığı, yəni bizi təmsil edən Səmi atasına deyir ki, – *"Ata, bu dastan xalqın qəlbindədir."*

İstər İsa Muğanna, istərsə də Kamal Abdulla dastandakı obrazlara öz yozumları ilə yanaşıblar.

"Qəbiristan" romanında müəllif Səmədin dili ilə deyir:*"Ə" hərfini" "e" şəklində tələffüz eləyən təriklərimizin "dil"ində "Beyrək" "bəyirək"deməkdi. Yəni gəyirək. İndi də işlənir bu "bəyirmək" sözü. Monarx hırıldayır, "Od"u yeyək, gəyirək! Budu sənin əli qılınclı, qolu zorlu "Beyrək" oğluyun "Od"u – həqiqəti! Yeyir, qolu zorlu olur, qılınc çalır, qan tökür, vəhşiləşib. Elmdən uzaq düşüb, düşmən pəncəsində əsir qalır!.. "Atilla"nın - OdƏlin "Qazağıstan" ərazisinə sığınmış OdƏr - "Kar"Uca ordusunu "Qaraca" çobana döndərib Monax, AğUcaya - Elmə yox, təhrif sözə "ağaca" bağlayıb"*[141] deyən İsa Muğannadan hardasa on il sonra "Yarımçıq əlyazma"nı yazan Kamal Abdulla isə yazır:*"Beyrək hiylə edir, ad qazanır, Qazanın inağı olur, bu yana da Təkgözün üstünə savaşa getməməkdən ötəri Bayburd əsirliyini intixab edir. Ancaq və ancaq böylə olmuşdur. Heç kim bilməsə də mən bunu səhih bilirəm. Bayburdun adamı mənə bunu dedi. Bu yana da bu casus… Nə edəlim?!"*[142]



Hər iki yazıçının da Beyrək kimi qəhrəmana bu cür münasibəti əlbəttə ki, şübhə doğurmaya bilmir. Kamal Abdulla İsa Muğannanı yaxşı tanıyır və əminəm ki, əsərləri ilə yaxından tanışdır. İsa Muğanna sadəcə yazıçı olduğu halda akademik Kamal Abdulla həm də "Kitabi-Dədə Qorqud" dastanının

---

[141] İsa Muğanna, Qəbiristan. Bakı: Hədəf nəşrləri 2013, s 270.
[142] Yenə orda, s 270.

tədqiqatçısı və hardasa hamisi kimi çıxış edir. Dəyərli elmi əsəri olan "Gizli Dədə Qorqud"da bunun bariz nümunəsidir. Amma heç cür anlamaq olmur ki, Beyrəyin dastandakı hansı hərəkəti və ya əməli bu qənaətə gəlməyə səbəb verdi. İsa Muğanna sadəcə ad simvolikası üzərindən türk dünyasının elmindən – SafAğdan – İrfandan uzaqlaşmasını, dilini unudaraq milli təfəkkürünə yad olmasını deyirsə, dəyərli yazıçımız Kamal Abdulla birbaşa dastanın mətnində çox inandırıcı manevrlər edir.

"Qəbiristan"da dastandakı adların yozumu verildikdən sonra Səməd uca səslə deyir: *"Türk, Odər, hər yanda qəbir qazılır sənə!"İrak" yazdıqları ƏrAğı Asoru "Ərəb"lərinə vermişdilər, ƏrÜz vilayətini "pars"-lara vermişdilər. Ərim – "Türkiyə" ərazisindən OdƏrlərimizin hamısı tərik düşüb Şimala, indiki Türkmənistan, Qazağıstan, Özbəkistan ərazilərinə köçmüşdülər. Oralara, bilirsən, Qalam deyiblər o vaxt. Yəni xalq ŞumƏrləri ilə birlikdə orda məskunlaşmaq fikrinə düşübmüş. Həmin o vaxtlar Rimin qreklatınları OdEvi - "Kiyev"i tutublar, oxumusan, bilirsən ki, xalqımızın o tərəflərdəki seyrək qisminə təhrif Skandinaviya dillərində qat-qarışıq "Svitka" - "Bibliya"dan dərs keçməyə başlayıblar"*.[143]



Təəssüflər olsun ki, mən bu yazımı dəyərli hocamız **Doç Dr. Ali Erol beyin "Yarımçıq əlyazma" haqqında yazdığı geniş məqaləsindəki kimi** Abdülhak Şinasi Hisar'ın, *Romana Dair Bazı Hakikatler* 'e yazdığı ön sözdəki *"Bütün romanların kıymetleri(ni) hiçbir zaman maksat ve gayelerine göre değil, fakat her*

[143] Yenə orda, s 270.

*zaman ancak sanattaki kıymet ve muvakkiyetleri(ne göre) ölçmek lazım gelir."* cümləsi ilə bitirə bilməyəcəm.[144]

Mənə görə türk xalqlarının qəhrəmanlıq dastanı olaraq, obrazların milli təfəkkürümüzdə buraxdığı izlər, gəncliyin mənfisi ilə, müsbəti ilə örnək götürməsi gərəkən prototiplər olan şah əsərimiz "Kitabi-Dədə Qorqud" dastanına nə ustad sənətkar İsa Muğanna kimi şifrəli, mistik, magik yozumlarla yanaşıb qəlbimizə şübhə toxumu salmaq, nə də bu gün dünyaca məhşur yeganə yazıçımız Kamal Abdulla kimi Dədə Qorqud da başda olmaqla, Bayandır xana, Qazan xana, Beyrəyə, Burla xatuna qarşı ikrah hissi aşılayacaq bir ideya ilə çıxış etmək təqdir ediləndir. Düzdür, İsa Muğannanın həm "İdeal"ının, həm də "Qəbiristan"ının ümumi ideyası türk tarixinin Vatikan, ruslar, farslar tərəfindən gizlədildiyi ideyasını irəli sürür, Türkü dünyanın xilaskarı kimi təqdim edir, bu xilaskar mövqenin ortaya çıxması üçün türkə elmli, bilgili olmağı tövsiyə edir. Hüseyn Cavidin Turana vacib olan nəsnənin mədəniyyətdə gördüyü kimi, Muğanna da elmdə, SafAğ, Tanrı elmində görürdü. Bu prizmadan baxanda hardasa onun Dədə Qorquda yanaşması o qədər də narahatlıq doğurmur, lakin "Yarımçıq əlyazma"nın ümumi ideyasına varanda bir nəfər də olsun dürüst, əxlaqlı, qəhrəman, mərd Oğuz övladı görmürük. Və bu gün düşdüyümüz bəlaların səbəbi kimi bizim elə məhz o cür, romanın qəhrəmanlarının xarakterində olmağımız göstərilir. Bəzi tədqiqatçılar bu romanda tarix axtarmağı, "Kitabi-Dədə Qorqud" dastanı ilə müqayisə etməyi ədəbiyyata xas olmayan bir metod kimi qələmə verir-



[144] Şinasi Abdülhak Hisar, Romana Dair Bazı Hakikatler, Roman Sanatı, (Kléber Haedens- Çev: Yaşar Nabi, Varlık, İstanbul: 1961, s 8.

lər. Lap tutalım ki, elədir. Və dastanın bütün obrazları, ideyası, məzmunu müəllifin təxəyyülünün məhsuludur, nə tarixlə, nə də qədim bir dastanla əlaqəsi var. Amma bunu danmayaq ki, dastan türk xalqının həyatındandır. Yenə də sual doğurur, doğrudanmı Oğuzda dürüst bir kişi, əxlaqlı bir qadın olmayıb? "Yarımçıq əlyazma"da bir işıq yoxdur, oxucu əsəri bitirəndən sonra özünü zülmətdə hiss edir, hara gedəcəyini bilmir. Düşünürük ki, ədəbiyyatın ilk işi millətə, bəşəriyyətə xidmət etməkdir. Əgər ədəbiyyat, ədəbi mətn bir xalqın qutsallarına postmodern başlığı altında zərbə vuracaqsa, kimliyini əlindən alacaqsa, inancları yerləyeksan edəcəksə, demək ki, sadəcə zərərli bir hadisədir! Doğuracağı fəsadları aradan qaldırmaq çox çətin olacaq.

# USTADLA SÖHBƏTLƏRİMİZDƏN

# İsa Muğanna ilə ilk tanışlıq

**Ustadımla ilk şəxsi tanışlığımız 12.12.2012-ci ildə baş tutmuşdu. Dəfələrlə qeyd etdiyim kimi, bu tanışlığın yaranmasında dostum Əli İbrahimbəylinin böyük dəstəyi olmuşdu. Əli müəllim çox ehtiyatlı və diqqətli adam olduğundan elə görüşə də fotoaparatla getmişdi. Bizi çox mehribanlıqla qarşılayan Muğanna ailəsi bundan sonrakı görüşlərimiz kimi yemək yeməyimizi israrla istəmişdi. Söhbət əsnasında da icazə alıb söhbətlərimizin yazılmasını istədik. Ustad da etiraz etmədi. Bir gün bir monoqrafiya yazacağam və bu söhbəti də ora yerləşdirməyi düşünəcəyəm deyə ağlımdan heç nə keçməmişdi təbii ki. Sadəcə onunla olan hər dəqiqə mənim üçün önəmli olduğundan bu tarixi söhbəti unutmayım deyə telefonuma yazmışdım. İndi isə üstündən xeyli zaman keçib və bu söhbətləri ədəbiyyatçıların, oxucuların da oxumasını düşünürəm. Bəzi məqamlar böyük ajiataj gətirə bilər bəlkə də, amma ustad özü demişdi ki, mən olmayanda verərsiniz... Məhz ona görə də söhbətimizi redaktə etmədən sizlərə təqdim edirəm...**



**Əli İbrahimbəyli:**İsa müəllim, Siz böyük masştabda Azərbaycan xalqına xidmət edirsiniz. Biz də istədik ki, kiçik masştabla da olsa, görkəmli şəxsiyyətləri həm ölkə daxilində, həm də ölkə xaricində – dünyada tanıdaq. Şəmil müəllim "Hədəf" nəşrlər evinin sahibidir. Müxtəlif kitablar nəşr edirlər. Özü alimdir,

elmlər namizədidir, ədəbiyyatşünasdır. Bir neçə kitabını da gətirib sizin üçün.

**Şəmil Sadiq:** Bu romandır (Ümidlərin izi ilə), İsa müəllim, Qarabağ mövzusundadır. Bu əsərdə çox fikirləşirdim ki, sevdiyim "İdealı" necə daxil edim əsərə. Orda maraqlı bir hadisə var, deyir ki, əsir qız sevgilisindən məktub alır və onu çox sevdiyi "İdeal"-əsərinin arasında gizlədir. Bu da Hüseyn Cavid haqqında monoqrafiyadır. Həm də Cavidşünasam, doktorluğu da bu mövzuda götürəcəm inşallah. Sizinlə görüşməkdə məqsədimizi Əli müəllim dedi...



**Əli İbrahimbəyli:** İsa müəllim, iki gün əvvəl sizin vətəninizdəydik, Ağstafada. Orda sizi axtardıq. Elbrus müəllimin köməyi ilə gəldik sizin qəbulunuza.

**İsa Muğanna:** Çox sağ olun... İcra aparatından mənə dedilər ki, Naxçıvandan gəliblər, 8 nəfərdilər.

**Əli İbrahimbəyli:** Biz iki nəfər getmişdik. Amma sizi orda tapmadıq, qərara gəldik ki, gələk sizi Bakıda ziyarət edək.

**İsa Muğanna:** Çox sağ olun. Sizin gəlişiniz məni ruhlandırır ki, hələ də məni axtaran var. Cavan uşaqlar – oxucular gəlirlər. Çox xəstə yatdım mən Mərkəzi Klinikada. İki dəfə klinik ölüm keçirdim – altı və doqquz dəqiqə. Sonra evdə yatdım. İndi Allaha dua edirəm ki, nə yaxşı möhlət verdi, beynimdəki əsərlər

mənimlə getməsin planetə. Üç-dörd gün qabaq birini yazmışdım. Onun üstündə işlədim qurtardım. İndi dincəlirəm.

**Əli İbrahimbəyli:** Bu son əsəriniz iri həcmli romandır?

**İsa Muğanna:** Bu, yəni Süleyman peyğəmbər demirikmi?

**Şəmil Sadiq:**Əsəlmən...

**İsa Muğanna:** Əsəlmən OdƏr dilindədir... Xarici dillərdə Solomondur. Əfsanələrdə deyirlər ki, uçan xalçası olub. Dünyanı səyahətə çıxıb. Hətta Nizamidə bu haqda hekayət də var. Hekayətdə deyilir ki, "Süleyman peyğəmbər gəlir görür ki, bir qoca quru yerə buğda səpir. Soruşur ki, niyə quru yerə səpirsən? Qoca göyü göstərir, deyir ki, ordan gəlsə bitəcək, gəlməsə bitməyəcək".



Mən ora baxıram. Mən bu Süleymanın həyatına fantastik elementlər qatmışam. Çalışmışam ki, maraqlı olsun. Yüz səhifəlik povestdir. Mənim son vaxtlar yazdıqlarım qısa olur. Bir az "İdeal" və "Məhşər" iridir...

**Şəmil Sadiq:**İsa müəllim, bu Süleyman peyğəmbərin arvadı var, Bilqeys... O işıqlandırılıb, yoxsa? Səbael adlı olması, Bakıda xaqan olması orda da varmı?

**İsa Muğanna:** Onu mən necə informasiya almışamsa, elə də işıqlandırmışam. OdƏr dilində "Od Gəlin"i xalq arasında elə"Ağ Gəlin" də gedir. Məncə, pis alınmayıb.

**Şəmil Sadiq:**İsa müəllim, bunların çapı necədir? Yəni kitab kimi ortaya qoyulması?

**İsa Muğanna:** Mənim bir neçə povestim var, jurnalda çıxıb. Amma hələ kitab halında çap etdirməmişəm. Gözlədim ki, bu da çıxsın bunların hamısını bir araya yığım sənin kimi yaxşı bir oğlana verim çap eləsin...



**Şəmil Sadiq:** Elə bizim məramımız da budur. İnşallah indi burda məsləhətləşərik bu haqda. Mən çox istəyərəm ki "İdeal"ı, Məhşər"i, digər əsərlərinizidə yenidən nəşr edim. Biz nəşriyyat olaraq sizin irsinizi davam etdirmək üçün kitablarınızı yenidən çap etmək istəyirik. Bu, bizim mənəvi borcumuzdur. Son oxuduğum povest "Sarı gəlin"lə bağlı povestinizdir.

**İsa Muğanna:** O əsəri şikəst ediblər. Mən redaktora də məktub yazmışam... Hələ mənim əsərlərimə əl vuran olmayıb. Götürüb ixtisar ediblər. İnşallah bu da jurnalda  çıxsın, dörd-beş jurnaldır. Bir yerə yığıb hamısını verərəm sənə...

**Şəmil Sadiq:**Biz "İdeal"ı, "Məhşər"i, "Qəbiristan"ı yığmağa başlayırıq, icazə verirsinizsə.

**İsa Muğanna:**Hə. "İdeal"ı bir az dəyişdirmişəm.. Elə bil ürəyimə damdı ki, kimsə gələcək bunu çap etdirəcək... "Məhşər"i də verə bilərəm. "Qəbiristan"ın əvvəlinə əl gəzdirməliyəm... Bədii əsər elə şeydir ki, hər yazıçı yaşadıqca qayıdır əl gəzdirir. "Məhşər"ə toxunmayacam. "Qəbiristan"ın birinci səhifəsində düzəliş olmalıdır. Səhv gedib.

**Şəmil Sadiq:** Biz bu kitabları ictimaiyyətə təqdim etmək istəyirik, gənc nəsilə tanıtmaq istəyirik.



**Əli İbrahimbəyli:** Köhnə oxuyanlar hələ var...

**İsa Muğanna:** Yoldaşım mənə qadağa qoyub ki, göylərlə bağlı fikirlərimi danışmayım.

**Şəmil Sadiq:** Mən bir roman yazıram, kitabın adını sizin şərəfinizə "OdƏrlər" qoymuşam. Qəhrəmanlardan birinə türk tarixinin gizlədildiyi kitabları tapmaq tapşırılıb. Sizdən bir məsləhət almaq istəyirəm. Bu, üç kitabdır – biri Vatikanda, biri Çində, biri də Şuşada...Sizcə, hardadır bu tarix?

**İsa Muğanna:** Bir kitabxana var – 750 cildlik kitabxanadır. Dünyada bundan yoxdur. Nərimanov, Pişəvəri bu kitabxanadan istifadə edib. O vaxtın gizli kommunistləri Naxçıvanın bərisində, Əlincəçayın

yanında kəndə gəliblər. Burda dərviş təşkilatları haqda  məlumat verib, göstəriş alıblar. Orda Nəiminin qəbrini açıblar. Qəbirdə böyük bir sandıq var.  Durur o sandıq, içi boşdur. Təkcə “Cavidannamə”ni tapıblar. Heydər (Heydər Əliyev) məni göndərdi farsca bilən çekistin yanına, çekist “Cavidannamə”ni mənə oxudu, qeydlər götürdüm. Nəsiminin divanını öyrəndim. Onun qəzəllərini diqqətlə oxuyanda bioqrafiyasını bilmək olur. Başladım Nəsimini yazmağa. Mən səninlə açıq danışa bilərəm. Mən planetlərə bağlanıb ordan Ün eşidəndən sonra Eysar “Yanar Ürəy”i ləğv etdi. Dedi ki, “mən sənə tarixi material verəcəm” və mən başladım “İdeal”ı yazmağa. 1986-cı ildə əsərin birinci variantı çıxdı. Mənim ən maraqlı yazıçılıq dövrüm  ondan sonra başladı. Nəsiminin yubileyindən sonra başıma gələn əhvalatlar, Heydərlə (Heydər Əliyev) bağlılığım, Mərkəzi Komitəyə gedib gəlməyim mənə tarixi məlumatlar verdi və mən çox ciddi yaradıcılığa başladım. “İdeal” bunun nəticəsidir. Son illərdə yazdığım əsərlərdən bəzilərini deyim, istəsən onlardan qeyd edərsən. Bu Qarabağ əhvalatı... Vətəndaş müharibəsi idi, ona görə də məni daha çox daxilimiz maraqlandırırdı və mən “Qəbiristan”ı yazdım. Xəstəxanada yatanda atamı gördüm. Atam onda mənə dedi ki, “sən “Qəbiristan”ı yazacaqsan.” Atam dedi ki, “İdeal” və “Məhşər”də olduğu kimi sənə səs gələcək, öz süzgəcindən keçirib yazacaqsan. Mən xəstəxanadan çıxdım, gəldim bir səhifə yazdım. Bir səhifə yazandan sonra səs gəldi... “Qəbiristan”ın birinci səhifəsindən

intizaram. Ona görə deyirəm ki, əl gəzdirəm gərək ona, sonra verim sənə...

... Səməd planetdən gəlir oğlunun yanına görür ki, oğlu polisdir. Deyir: "Sən silahı buraxıb elmlə məşğul olmalısan". Oğlu əl çəkmir. Daxildə olan ermənilərlə vuruşur. Bu əsərdə xoşuma gələn hissələr çoxdur. Bu da planetlə bağlıdır. Səməd o biri əsərdə ölmüşdü. Bu əsərdə isə gəlir oğlu ilə görüşür. Oğlunu silah yolundan döndərməyə çalışır. Amma bu mümkün olmur. Hərəsi öz yoluyla gedir. Axırda buna qəbiristan qismət olur, ruhu uçur, işıq çıxır və ilaxır...



**Şəmil Sadiq: "**5" rəqəminin müqəddəsliyi ilə bağlı fikriniz necədir? Mən "OdƏrlər" romanında bu mövzuya toxunmaq istəyirəm...

**İsa Muğanna:** Mən sənə deyim. Məndə bir kitab var idi –"Velikiy Abman"... Avropa ölkələrinin tarixinin yalan olduğunu inandırıcı şəkildə sübut edir. Bütün tarix... Alimlər yalan danışıblar. Nəzəriyyələr də, qurduqları dövlət də, gətirdikləri rəqəmlər də, uydurmadır. 5 rəqəmi də yalandır, 7 rəqəmi var. İndi peyğəmbər "Bağ Ata"dır. Onun dörd oğlu var. O, günəşin daxilindəki planetlərin sahibidir. Bizim qalaktikanın birinci şəxsiyyətidir. Bütün səslər ilk ona gəlir. Sonra gəlir "Bağbağün"ə. Ondan gəlir "Bağ Ata"ya. Ordan da gəlir dörd oğluna. Ələsgərdə şeir var, deyir "beş gözəlin aşiqiyəm." Yəni, "Bağ Ata" və dörd oğlu. Beş həqiqəti burdadır. "OdAğüz"

"EyOdər" planetində yaşayanla bağlıdır. Avropanın bütün məlumatları uydurmadır. Yəhudilər yazıb, ruslar da tərcümə edib. "GurÜn" əsərinin adını çəkmək istəyirəm. Onun əvvəlində jurnalda rəqəm səhv gedib. 1179 əvəzinə 1175 yazılıb. O vaxt Nizami "Sirlər xəzinəsi"ni yazmamışdı. Nizami Naxçıvanda təhsil alıb. Eldənizin alimi ona dərs deyib. Afaq adında qadını olmayıb. Nizami 39 yaşında evlənib. Nizaminin günəşi qızıl Arslandır. Nizami Eldənizin qızı ilə evlənib. Eldəniz də daim Bağdadın təsirində olub. "Saf Ağ" elmini mənimsəyəndən sonra "Sirlər xəzinəsi"ni yazıb və o ildə evlənib. Eldənizin qızı başqa Əxilərdən – Ağeylərdən dərs alırdı. Nizami onunla evlənib. Qızıl Arslan öldürüləndə bunun 12 yaşı olub. Bizim millət Qızıl Arslana qiymət vermir. O ingilislərlə çox güclü müharibə edib, qəhrəmanlıq göstərib.



**Şəmil Sadiq:** İngilislərin o vaxt Azərbaycana gəlməsi haqqında tarixdə nəsə varmı?

**İsa Muğanna:** Briton – Bir od. Adı "BirOd"dur. Özləri sonra dilləri dəyişəndə Britt deyiblər. Dilləri "OdƏr" dili olub. Bütün Avropanın...

**Şəmil Sadiq:** "Quran"da da İsrail oğulları haqda məlumat var, Tövratda var. Nəyə görə müqəddəs kitablarda Tanrı İsrail oğullarını seçilmiş və lənətlənmiş xalq kimi vurğulayır? Səbəbi nədir?

**İsa Muğanna:**Səbəbi Qreklərdir. Onlar istəmirdilər ki, bizim millət "OdAğüz"lə, o planetlə "BağOdər"lə əlaqə saxlasın. Öz dilində danışsın. "Man"a "Mənağ" deyiblər türklər. Onlar "MənAğ" deyiblər, yəni saf ağ mənasında. Onlar "OdƏr" dilini bilirmişlər və yerli xalqın kəkələdikləri sözləri də bilirmişlər. Onlar Qreklərlə birgə dünyanı kəşf ediblər. Dünyanın məşhur fatehləri Qreklər olub. Bunlar "ƏdƏr"ləri parçalayıblar. Yəhudi millətinə "ifrit" də deyiblər. Bunlara "ƏvƏrEy OdƏr"ləri də deyirlər. Əsl adları "Əvərey OdƏr"ləridir. Bizdəki tatlar "ƏvƏrey Odər"ləridir. Qreklər manaxları salıblar millətlərin canına. Onlar silah gücü ilə gənclərin dilini dəyişib latın dili öyrədirmişlər. "Odər" sözlərini təhrif edirmiş. Qreklər monaxların gücündən istifadə ediblər. Əski əri öldürəndə torpaq bunun bədənindəki işığı çəkir və insandirilir. İnsanlar bundan sui-istifadə ediblər. Yerdə bir təbiət aləmi gəlib gedib. Sonradan yarananlar başqadır.



**Şəmil Sadiq:**O Qreklər kimdir indi?

**İsa Muğanna:** İndiki qreklər bizdəndirlər. "GurAğ"-lar bizdəndirlər. Amma bunlar qılıncı alıb adi qılınc veriblər. Sonra onlar bizim əleyhimizə çıxıblar və müharibələr başlanıb. Əlli min illik tarix var irəli sananır, əlli min illik tarix var geri sananır. İndi yeni tarixdəyik.

*Deməli, Əli müəllim də, mən də ikimizdə söhbətə ac idik. Hərəmizi də başqa mövzular maraqlandırdığı üçün bir də*

*görürdün birimizin söhbətinə elə qəfildən girirdik ki...*

**Əli İbrahimbəyli:** Ağstafada görməli yer yoxdurmu? Siz özünüzü orda yaxşı hiss edirsiniz, yoxsa burda?

**İsa Muğanna:**Orda – Ağstafada bağımız var.

*Mən yenə mövzunu öz maraqlarıma doğru yönəldirəm...*

**Şəmil Sadiq:**İsa Muğanna müəllim, Ağstafa sözü necə yaranıb?

**İsa Muğanna:** "AğÜzOdər"... Odər həqiqət evi. "AğÜz" "SafAğ" mənasındadır. Bunun adı "BağOd" olub, yəni "bağ həqiqəti". Bakının adını Qreklər dəyişdiriblər. Od sözünü, həqiqət sözünü dəyişdirəndə Bakı olub.



**Şəmil Sadiq**: İndi qreklər bizim dostumuzdur, ya düşmənimizdir?

**İsa Muğanna:** Qreklər bəşəriyyətin düşmənidir.

**Əli İbrahimbəyli:** Ziyalı yazıçı cəmiyyətin nəbzini tutur. Həssas insan kimi dünəni bugünü, sabahı görə bilir, anlayır. Bu baxımdan millətin sabahkı gününü necə görürsünüz?

**İsa Muğanna:** Bizim çox böyük düşmənimiz var. Adı rusdur. Ruslar Amerikayla konfliktə girib, demək,

böyük səhvdir. ABŞ Rusiyanı alt-üst edəcək. Ruslar bu dünyadan gedəcəklər. Bir çox xalqlar dəyişəcək. Amma mənə deyilib, mən də sizə deyirəm ki, yerdə əbədi həyat bərpa olunacaq. Ölüm nisbi şeydir. İnsanın işığı çıxıb qəbrin üstündə yığılır. Başlayır uçmağa. Kainatdan elementlər çırpılır bunun içinə. Planetə çatana qədər insan bərpa olunur. Orda bağları buna ruh verir və orda insan əbədi yaşamağa başlayır.

**Şəmil Sadiq**: Yevreylər var ee... Belə demək olarmı ki, bunlar öz hökmranlıqlarını qurmaq üçün müqəddəs mif kitablarını yaradıb və orda özlərindən bəhs edib?



**İsa Muğanna:**"Quran"... Mən sizə açım.. Məhəmməd peyğəmbər hicrətə gedib ona görə ki, Vatikandan göndərilən bir nəfər "Quran"ı OdƏr dilindən tərcümə edib verib xəlifə Müaviəyə. Bircə axırıncı surədə orijinalın izi var. Birinci "inək surəsi" də tam uydurmadır. Burda "ÜnAğ"dır. "SafAğ" insanının "Ün"ü. İbrahimi yevreylərin içinə necə göndərirlər, qırx il orda qalır. Dəyələrdə yaşayır. Dəyələrin də adını türkcə tərcümə ediblər. "OdƏr" həqiqətidir. "ƏsEvƏr" Yaradan Evin işığıdır. Məhəmməd peyğəmbərin möhürü üç sözdən ibarətdir.

**Şəmil Sadiq**: Ermənilərin "OdƏr"lərlə bağlılığı var?

**İsa Muğanna:** Bütün millətlər "OdƏr"lərdən çıxıb.

**Şəmil Sadiq**: Bəs onların yaxşısı pisi, ağı qarası?..

**İsa Muğanna:**Suriya erməniləri bizə daha yaxındır... Haylar... Onların dilində "OdƏr" sözləri var...

**Şəmil Sadiq**:"Qəbiristan"ı niyə indiyə qədər çap etməmisiniz? Özünüz istəməmisiniz, yoxsa?

**İsa Muğanna:**Cilddə var... Cilddə çıxıb.

**Şəmil Sadiq**: Hə, 6 cildlikdə...

**İsa Muğanna:** Amma birinci səhifəsini yazanda mən özümü yaxşı hiss eləməmişəm. Eləcə vermişəm gedib. Yeddi səhifə bir az qarışıqdır. Ona əl gəzdirəcəm, sonra verəcəm sənə.



**Şəmil Sadiq**: O axırdakı məsələni "İdeal"da niyə verməmisiniz? Cildi nəzərdə tuturam. Möhür məsələsini...

**İsa Muğanna:** Möhürü mən təzə əl gəzdirdiyim variantın axrına salmışam. Həm mətndə var azərbaycanca, həm də axırda var "OdƏr"cə.

*Burada söhbətimiz yenə məişət mövzularına keçmişdi. Ustad "İdeal"ın Türkiyədə çap olunduğunu dedi. Düzü, "Məşhər"in çapını bilirəm, amma "İdeal"dan hələ də mənim xəbərim yoxdur. Biz İsa müəllimin üzərində işlədiyi "İdeal"ın son variantına baxırıq.*

**Əli İbrahimbəyli:**İsa müəllim, bunun elektron variantını yığıb göndərmisiniz Türkiyəyə? Yəni səhv yoxdu burda? Redaktə olunub?

**İsa Muğanna:** Bunu necə vermişəmsə o şəkildə çap olunub. Dəmirəlin baldızının yaxşı kitabxanası var. Özü də yaxşı qadındır. Ona aparıb veriblər. O da götürüb çap edib.

**Əli İbrahimbəyli:** Bunun elektron variantı varmı sizdə?



**İsa Muğanna:** Yoxdu yox... Dəmirəl çalışıb bunu bu əlifba ilə oxusun, oxuya bilməyib. Sonra mənə ismarıc göndərib ki, “müəllifdən xahiş edin ki, icazə versin biz bunu bizim əlifba ilə tərcüməsiz çap etdirək. Necə varsa o şəkildə çap eliyək. Çünki bunu tərcümədə korlaya bilərik.” Mən də dedim ki, “mən şad olaram.” Dəmirəl bunu yüz-iki yüz nüsxə çap edib. Paylayıb hökumət adamlarına. Cümhuriyyət partiyasının lideri bu əsəri oxuyub sonra istefa verib ki, mən imtina edirəm hər şey yalandı. Və “SafAğ” elmini qəbul edib.

**Şəmil Sadiq**: Açıq-aydın yazmısınız, hardan-hara əlavə...

**İsa Muğanna:** Bu sözləri işarə elədiyim yerlərə qoysunlar. Bir də bunun arxasınca belə bir cümlə gedir: “Eysar çarmıxda.” Bunu böyük hərflərlə versinlər.

Bir də mənim münasibətimdi ki, bunu niyə yazmışam. Öz münasibətimlə birgə əlavə edin ki, oxucu üçün aydın olsun. Bu kitabı, zəhmət olmasa, mənə qaytararsan. Axırıncı variantdır bu...

**Şəmil Sadiq**: Məndə olan isə başqa cilddir.. Dövlətin...

**İsa Muğanna:** Yox, o şikəstdir... Orda "Qapalı dünya"nı salmayıblar. Bunlar da şeirlərdir...

**Şəmil Sadiq**: Maraqlıdır, adətən, şeirdən nəsrə keçirlər, siz isə...



**İsa Muğanna:** Əşi... Yuxarıdan əmr edir ki, belə yaz... Şeir yaz... Mən də yazıram daa...

**Şəmil Sadiq**: Deyirlər, sevəndə şeir yazırlar...

**İsa Muğanna:** İndi yoldaşıma şeir yazmışam, dildən-dilə gəzir.. İndi bir sirr açım sənə. Süleyman peyğəmbər mənim ulu babamdır. Onun yerdə qəbri yoxdur.

**Şəmil Sadiq**: Bunlar bizim dərk edə bilməyəcəyimiz səviyyədədir.

*İsa Muğanna ürək xəstəliyindən əziyyət çəkdiyi üçün tez-tez nəfəs almaqda çətinlik çəkirdi... Söhbətlərimiz də tez-tez qırılır, onun sakitləşməsini, Firuzə xanımın tə-*

*laşla ona su və dərman verməsini gözləyirdik. Hərdən də Muğannanı məzəmmət edirdi ki, nə xəbərdi az danış... Bizim pərt olduğumuzu görəndə isə dönüm inciməyin, onun sağlamlığı hər şeydən vacibdir. Biz isə dəqiqələrcə susur, bəzən isə, bəlkə durub gedək" deyə fikrə düşürdük.. Ustad isə əli ilə "narahat olmayın, keçəcək" deyə işarə edirdi...*

**İsa Muğanna:** Ürəyim yaxşıdır indi. Söhbət edə bilərəm.

**Şəmil Sadiq**:İsa müəllim, biz də "SafAğ" elmini öyrənmək istəyənlərdənik. Yəqin ona görə...



**Əli İbrahimbəyli:**İsa müəllim, sizin haqqınızda deyilən sözlər, yazılan məqalələr hardasa bir yerdə toplanmayıbmı?

**İsa Muğanna:** Toplanıb, var... Axırıncı cilddə var. Məqalələr çoxdur. 6-cı cildə düşüb. Yarısı da mətbuatda qalıb tapılmayıb.

**Şəmil Sadiq**:İsa müəllim, Nihal Atsız var, onu tərcümə etdiririk. Murad Adcının kitabları var. Ona münasibətiniz necədir?

**İsa Muğanna:** Heç bir səhifəsini də oxumamışam. Gərək tapam oxuyam...

**Şəmil Sadiq**:  O da türkçülükdən yazıb. Tarixçidir... İsa müəllim, bir sual da verim mən. Füruzə xanım razı olmasa da, verməliyəm. Necə oldu ki, bütün peyğəmbərlər Yərusəlimdən çıxdı?

**İsa Muğanna:** Türk xalqı çox böyük xalqdır. "OdƏr" bütün xalqların atasıdır. Bunu da işıq gəmilərində ordan göndəriblər. Yer hazır olanda –Qreklər yeri təmizləyəndən sonra... Neçə min peyğəmbər göndərilib... Peyğəmbər deyil, onlar "OdƏr"dilər...

**Şəmil Sadiq**: Onların niyə hamısını ora göndəriblər?



**İsa Muğanna:** Sonradan dəyişdiriblər. Yerlərini sonradan dəyişiblər. Bütün planet dolu türkdür. Xakaslar eşitmisənmi? Onlar qədər gizli yaşayan xalq yoxdur. Hamısı türkdür. Böyük səhrada hamısı türkdür. Nərimanov da getmişdi ora.

**Əli İbrahimbəyli:**İsa müəllim, Nərimanova, deyəsən, xüsusi məhəbbətiniz var.

**İsa Muğanna:** O qohumdur da... Gəlib mənim əmilərimi oxudub. İsa əfəndi gedib Rusiyanın ordusunda döyüşüb. Məşhur zabit olub. Bakıda hərbi gimnaziyanı bitirib. Bircə atryadla Denikinin dədəsini yandırıb. Nərimanov oxudub onu...

**Şəmil Sadiq**:İsa müəllim, sizin adınızla yaradıcılığınızı bağlayan nə isə var?

**İsa Muğanna:** Var, yazmışam bioqrafik oçerkdə. İsa əfəndi mənim əmimdir. Atatürkə məktub göndərib ki, Atatürk Azərbaycanla Türkiyəni birləşdirsin. Bunu da İncədərəsi adlı yer var orda musavat zabiti... Tiflisdən gəlib İncədərəsinə ordu yığmağa ki, Gəncəni təzədən ələ keçirsin, musavatı qursun. Bu da İsa Əfəndinin köhnə naziri olub. Bu da üzüyün qaşından zəhəri töküb onun içdiyi suya.

**Əli İbrahimbəyli:**İsa müəllim, Qarabağla bağlı yeni əsər düşünürsünüzmü?



**İsa Muğanna:** Yox..."Qəbiristan" elə əsərdir ki, bütün daxili ziddiyyətlərlə əlaqədar olduğu üçün ikinci əsər yazmaq istəmirəm Ermənistana. Nədi axı ermənilər? Erməni müvəqqətidir yer üzündə. O qədər şey yazmışam ki, ermənilərlə əlaqədar olaraq kitabların hamısında. Gülənov var idi "İdeal"da, o da ermənidir.

**Şəmil Sadiq**: "Türk" sözünə siz "tərik" deyirsiniz də– Tərk olunmuş...

**İsa Muğanna:** Türk tərikdir. Onlar I Aleksandrın dövründə Muğan düzündən köçürülüblər Qazaxa, Türkiyəyə... 1 milyon... Türkiyənin Muğla vilayəti var... Hamısı muğannalardır. Hər yerdə var.

**Əli İbrahimbəyli:** İsa müəllim, Heydər Əliyevin sizi təltif etməyinin tarixi yadınızdadırmı?

**İsa Muğanna:** Yadımdan çıxıb ili...

**Əli İbrahimbəyli:** İsa müəllim, bu yazıçı, şairlərdən ən çox kiminlə yaxınlıq etmisiniz?

**İsa Muğanna:** İsmayıl Şıxlı, Yusif Səmədoğlu, Mehdi Hüseynlə... 43 nəfər partiya üzvü var idi. Onun 40-ı hər iclasda məni döyürdü. Axırı Moskvaya məktub yazdılar ki, Mehdi Hüseyn öz qohumunu bizə qarşı qoyub antisovet əsərlər yazır. Biz bunu partiyadan çıxartmaq istəyirik, Mehdi Hüseyn qoymur. Ordan siyasi şöbədən birini – Şofirov adlı yəhudini göndəriblər bura. O plenum çağırdı – yazıçıların plenumunu. Yenə 40 nəfər hamısı danışdı, hamısı döydü... Şofirov dedi ki, son sözü Əjdəroviç deyəcək – Ali sovetin sədri. Mirzə Əjdəroviç çıxdı tribunaya, qışqırdı ki, “nə istəyirsiniz? Öldürməkmi istəyirsiniz? Bu ürəyinin qanı ilə yazıb əsərlərini. Nə Mehdi onu sizə qarşı qoyub, nə də özü... Siz özünüzü ona qarşı qoymusunuz” – dedi düşdü tribunadan, iclas bitdi.



**Şəmil Sadiq**: Neçənci ildə olub bu?

**İsa Muğanna:** 1961

**Əli İbrahimbəyli:** Mirzə İbrahimov kişi adam idi. 1956-cı ildə dil məsələsində riskə getdi.

**İsa Muğanna:** O dil məsələsinə görə Azərbaycanı sürmək istəyirdilər, türkə yaxındır, olmasın burda.

Sonra getdi o Kalinlə danışdı. O da ürəyiyumşaq adam idi. Mirzəyə icazə verdilər ki, Azərbaycan dili dövlət dili olsun. O da gəldi qəbiristanlığa, Səməd ölmüşdü onda. Dedi ki, "ay Səməd, ruhun şad olsun Azərbaycan dili dövlət dili oldu. Yurdumuzda qalası olduq".

**Əli İbrahimbəyli:** Siz Səməd Vurğunla görüşmüşdünüzmü?

**İsa Muğanna:**Hə, Səməd tez öldü. Fadeyev yaman içirdi. Bizim də Moskvada yataqxanamız vardı. O gəlib o qədər içib ki, düşüb kanala. Biz getdik çəkib çıxartdıq.



**Əli İbrahimbəyli:** İsa müəllim, siz Moskvada Ədəbiyyat İnstitutunda kimlə oxumusunuz?

**İsa Muğanna:** Bizdən Samət Əlizadə, Nəbi Xəzri, mən – üçümüz idik.

**Əli İbrahimbəyli:** Əli Kərim özünü həqiqətənmi asmışdı? Yoxsa bu şaiyə idi?

**İsa Muğanna:** Yooox.. Əli Kərim ürəyindən gedib. Xəstə idi, çox içirdi.

**Əli İbrahimbəyli:** İsa müəllim, bu Yazıçılar İttifaqından gələn-gedən, axtaran varmı sizi?

**İsa Muğanna:** Hərdən Anar zəng edir. Bu yaxınlarda çağırdı “Nəsimi” mükafatı verdi. Beş min manat... Mənim qədrimi bilir. Mənim cavanlıqda ona, Elçinə çox köməyim dəyib.

**Əli İbrahimbəyli:** Belə demək olarmı ki, Rəsul Rza Anardan bir az daha kiçik adam olub?

**İsa Muğanna:** Rəsul çox mürəkkəb adam idi. Kişiliyi mürəkkəbliyindən gəlirdi. Mən bir dəfə gəldim gördüm ki, Rəsul durub pəncərənin qabağında, Mehdi Hüseyn də buna deyir ki, “Rəsul sən nə vaxt düzələcəksən? Sən düzələn deyilsən”. Bilmədim söhbət nədən gedir, mən də çox soruşmadım. Amma Rəsulun subyektiv cəhətləri var idi. Məsələn, Vaqifi, Aşıq Ələsgəri bəyənmirdi. Mayakovskinin təsiri ilə yazırdı. Çox savadlı adam idi. Rəsul şair olmağına şair idi, amma adamlığında bir az subyektiv tərəfləri var idi. Mehdiylə yola getmirdi. Məsələn, mən buna key salam verirdim. Bir dəfə yolda tutdu məni dedi ki, “Salam verirsən adam kimi ver, vermirsən rədd ol”. Nigar xanım bir gün çıxdı tribunaya dedi ki, “İsanın yazılarında və simasında fransız siması var. Mən onun yazılarını da, özünü də sevirəm”.



**Əli İbrahimbəyli**: İsa müəllim, bu elit təbəqə istər yazar, istər həkim, istər müəllim, heç vaxt yola getmir.

**İsa Muğanna:** Onların savad dərəcələri müxtəlif idi. Çox müxtəlif olublar azərbaycan ziyalıları. Hüseyn Caviddən, Haqverdiyevdən tutmuş bu günə qədər hamısı subyektiv olub, təhsili də, özü də. Bağırov da bundan istifadə edirdi. O son dərəcə ziddiyyətli idi. Hətta bəzən heç nəyə yaramayan adamı nazir qoyurdu, bəzən də savadlı adamı əlaltısı edirdi.

**Əli İbrahimbəyli:**Həmidə xanımın "Xatirələrim" adlı kitabı çıxdı bu yaxınlarda. Mirzə İbrahimov bunu çağırır deyir ki, "Xatirələrim" adlı kitab yazmalısan Mirzə Cəlidən, Bağırovun Qarabağdakı fəaliyyətindən yazmalısan. Buna xüsusi maşın ayırırlar, pul-zad verirlər... Yazır gətirir, sonra Bağırov oxuyur görür ki, onun haqqında heç nə yoxdu... Verdiklərini əlindən alırlar, əlyazmaları da itirirlər.



**İsa Muğanna:** Həmidə xanım çox qeyrətli qadın idi. Gözəl azərbaycanlı idi.

**Əli İbrahimbəyli:** Başqa yerdə yazıb qeyd edir ki, Bağırov Qarabağda quldurluq edirdi. Bir gün atasına xəbər göndərir ki, məni xilas edin. Hətta bir məsələ var ki, onu quyuya salıblar. Rəsulzadənin əmisi gedib qurtarıb onu.

**...**İsa müəllim, bugünkü Azərbaycan ədəbiyyatına necə baxırsınız?

**İsa Muğanna:** Zəifdir. Əkrəm Əylislini mən xoşlamıram. Nə xarakterini, nə yazısını. O köçürdürdü. Mənim təsirim altında yazırdı o.

**Şəmil Sadiq**: Bu yaxınlarda eşitdim ki, Əkrəm Əylisli deyib ki, Nizami fars şairidir.

**İsa Muğanna:** Əşii... Əkrəm "jurik"dir. Ermənidir. Mənim yanımda Heydər (Heydər Əliyev) sübut etdi ki, "sən ermənisən." Bu da Heydər (Heydər Əliyev) Moskvaya gedəndən sonra onun arxasınca danışıb. Mən də küçədə tutdum bunu biabır elədim ki, "niyə onun arxasınca danışırsan?" O da dedi ki, "məni yoxlatdırıb". Mən də dedim ki, "səni qardaşın da yoxlatdıra bilər. Onun ixtiyarı var". Çox pis adamdır. O, Anarın uşağını kalyaskada dənizin qırağında gəzdirirdi. Sonra onunla düşnüşdü. Başladı Anarı pisləməyə. A kişi utanmırsan sən? Anar səni qaldırıb, ad verib. Bizi qurultayda ağsaqqallar şurasının üzvü seçdilər. Gördüm Əkrəmin adı da var orda. Dedim ki, "mən onu yazıçı hesab etmirəm, məni siyahıdan silin. Mən onda yazıçı xarakteri görmürəm". O da dedi ki, "öləndə birinci əklili mən qoyacam sənə".



**Şəmil Sadiq**:İsa müəllim bu yazını biz publikaya çıxarmaq istəsək, hansısa hissəni verməməyimizi istəyirsinizmi?

**İsa Muğanna:** Yox, verin mənsiz...

**Şəmil Sadiq**: Rüstəm Behrudi ilə aranız necədir?

**İsa Muğanna:** Oxumamışam, bilmirəm...Ədəbiyyat aləmində meydana çıxmaq çox çətindir...Bu çıxıbsa demək ki, nəsə var. Təzə jurnal oxuyuram, hələ bir işıq üzü görmürəm. Nəsr yazan yoxdur. Mən sizə təşəkkür edirəm ki, bu gün məni ziyarət etdiniz... Mən bu gün belə şəxsiyyətlərlə tanış oldum...

*Söhbətimiz o qədər maraqlı gedirdi ki... Beynimdə ilişib qalan bütün mətləblərə aydınlıq gətirmək istəyirdim sanki...*



**Şəmil Sadiq**: Ziya Bünyadovun sevmədiyi yazıçı...

**Füruzə xanım:** Düzdür, qırıblar bunlar bir-birilərini. Dalaşıblar.

**Şəmil Sadiq**: Niyə sevmirdi? Nə olmuşdu? Bu tarixi yanaşmanıza görə olmuşdu, yoxsa şəxsi məsələ idi?

**İsa Muğanna:** İdeyasına görə... Azərbaycan xalqı... Kamran Məmmədov çıxış elədi ümumi iclasda, rusca danışırdı, dedi ki, "Azerbaycanskiy narod isklyuçitelnıy pa slovam İsa Quseynova. İsklyuçitelnıy narod". Ziya da iki dəfə böyük variantda "Kommunist" jurnalında yazmışdı ki, rusca və azərbaycanca ki, "ne obxadima pakonçit s İsa Quseynovom skorey tem luçşe. (İsa Hüseynovun işi nə qədər tez bitirilsə, o qədər yaxşıdır.)" Mən də necə soyuqqanlı

yanaşım ki, buna? Heydər (Heydər Əliyev)də qəzəblənmişdi: "İsaya, yazıçıya ölüm hökmü verirsən? Sən kimsən axı?!"

**Şəmil Sadiq**: Daha çox sizin yaradıcılığınızdakı bu "OdƏr", "SafAğ" elminə görə əks çıxıb yəqin...

**İsa Muğanna:** Hə...

**Şəmil Sadiq**: Hə, başlığını ayrı qoymuşdular: "İsa Muğannanı sevməyən Ziya Bünyadov".

**İsa Muğanna:** O "Quran"ı tərcümə eləmişdi, özü də İslamist idi. Bir tərəfi rus idi, amma İslamist idi. "Quran"ın təhrif variantına da vurulmuşdu.



*Söhbətimiz birbaşa başladığı kimi, elə birbaşa bitmişdi... Çox yorulduğunu hiss etdiyimiz üçün ilk görüşdən ayrılmağı qərarlaşdırdıq. Uzun sürməyən sağollaşmadan sonra Hüsü Hacıyev küçəsində yerləşən bu 3 otaqlı köhnə təmirli evdən çıxdıq...*

# İsa Muğanna ilə son söhbətim...

## Vicdan dinin hamısıdır

İsa Muğanna... Göylərin adamı... Bir çoxlarının "Azərbaycanın Dostoyevskisi", "Azərbaycanın Folkneri", "Çingiz Aytmatovu" adlandırdığı Azərbaycanın İsa Muğannası... Şəxsiyyəti ilə yaradıcılığı vəhdətdə olan, böyük olduğu üçün heç bir zaman sadə görünməkdən qorxmayan, İsa Muğanna İsa Hüseynovu yaratdığı əsərləri ilə milyonların sevimlisini və onun yanında olan şöhrəti bir kənara qoyaraq bəyənməməsi və yenidən yeni yazıçı imici, yaradıcılıq yolu, üslub yaradaraq addımlamağı bacaran iradəli, cəsarətli düha... İsa Muğanna çağdaş dövrümüzün az klassiklərindən biri idi ki, onun haqqında heç bir etiraz, narazılıq yox idi. Həm həmyaşıdları, həm də gənclər onu sevir, zərif bir hörmətlə yanaşırdılar (Bu dahilərə daş atmaqla məşhurlaşmaq arzusunda olan cahillərə aid deyil). Bu, şəxsiyyətlə yaradıcılığın mükəmməl vəhdətindən doğmuşdur. Çünki o, böyük fikir, istedadlı qələm sahibi olduğu qədər, həssas ürəyə, eqoizmdən uzaq xarakterə malik idi.

O daima yüksəldi, yüksəldikcə də oxucusunu da yüksəkliyə, aliliyə dəvət etdi...

İki illik ustad-şagird münasibətlərimiz, dostluğumuz onun yaradıcılığına olan hörmətimi şəxsiyyətə olan məhəbbət zirvəsinə qədər yüksəltdi. Dostum Əli İbrahimbəylinin sayəsində yaranan tanışlıq xə-

yallarımın yazıçısının 7 əsərini nəşr etdirmək, redaktoru olmaq şansını verdi mənə. 85 illik yubileyini keçirdik. Demək olar ki, ayda bir dəfə evində, onun zəngin süfrəsində qonaq olmaq, gecənin bir yarısı da olsa, onun mənə, mənim ona zəng edib nəyisə dəqiqləşdirməyimiz bir şərəf, bir qürur hissi idi.

Təvazökarlıqdan uzaq görünsə də, deməliyəm ki, İsa Muğannanın sağlığında qədrini bilənlərdən olmağa çox çalışdım. Bacardığım qədər qayğı göstərməyə çalışdım. İsa Muğanna kimi – heç kimdən, heç kəsdən, heç nə gözləmədən. Bu, o uca ruhlu insana olan bir oxucu, yazıçı, vətəndaş borcum idi. Bunların qarşılığında isə ustaddan bir cümlə öyrənmək, onun əlini sıxmaq imkanı qazanmaq mənə şərəf idi. Nə qədər yaşayacağımı bilmirəm, amma bir ömür onunla olan söhbətlərimiz və xatirələrimizdən danışmaq həmişə mənim üçün önəmli və gərəkli olacaq.



Yeni kitab evinin açılışında səhər-səhər zəng edib xeyir-dua verməsi və: "Bu gün mənə iki sözün təhrifsiz variantını dedilər, Nizami də (AMEA-nın müxbir üzvü Nizami Cəfərovu nəzərdə tuturdu), sən də yazıb masanızın üstünə qoyun: fikir və təfəkkür – Od və Həqiqət" – deməsi sadəcə fəxarət hissi yaradır.

Bir neçə ay öncə qərara gəlmişdim ki, Muğanna haqqında "Müstəqillik dövrü Azərbaycan romanı İsa Muğanna işığında" və ya "İdeal"dan sonrakı həyat və yaradıcılıq" adlı monoqrafiya hazırlayım. Onun elmi tərcümeyi-halını hazırlamaq və əsərləri haqqında özünün açıqlamalarını da eşitmək üçün razılaşmış-

dıq ki, mən gəlib onunla söhbət edim və səsini yazım.

Zəngləşdik. Martın 27 -sində bayramlaşmaq və söhbətləşmək üçün getdim. Bu görüşümüzdə "Cəhənnəm" romanı haqqında danışdıq. Hərdən kənara çıxmalar da olurdu. Mən jurnalist kimi yox, tədqiqatçı kimi getdiyim üçün məhz əsəri müzakirə etdik. Amma söhbətimizdən nə o doyurdu, nə də mən. Düz üç saat. Həmişə təngnəfəs olan ustad bu dəfə heç yorulduğunu hiss etdirmirdi. Heç Firuzə xanım da "Ay İsa, bəsdi, indi ürəyin dayanacaq" – demirdi. Söhbətin maraqlı alınmağı məndə gələn dəfəki söhbətimizi əsərlərinin üzərində yox, həyatdan, sevgidən, ümumi ədəbiyyatdan qurmaq arzusu yaratdı. 31 mart gecəsi isə səhər İsa müəlimlə görüşmək üçün suallar hazırladım. Yazdığım suallardan ən yaxşısı və özlüyümdə bir tapıntı kimi düşündüyüm sual: "18 yaşlı eşqlə 86 yaşlı eşqin fərqi nədir, eşq qocala bilərmi?" idi.



1 aprel səhəri isə məni yuxudan İsa Muğannanın telefonundan gələn zəng oyatdı. Saata baxdım... 8-ə işləmişdi, təəccüblə telefonu açdım. Həmişəki kimi Firuzə xanım idi. Adətən, Firuzə xanım zəng edər, kef-əhval soruşduqdan sonra İsa müəllimə verərdi. Bu dəfə isə belə olmadı. O ağlayırdı: "İsa dünyasını dəyişdi..." Bəli, dünyasını dəyişdi. Əminəm ki, Muğanna dünyasını dəyişməmişdən öncə "Ağ" deyə bildi. Və qohumlarının olduğu planetə getdi, saflaşmış ruhlarla qovuşdu.

Artıq Muğanna öz dünyasına uçdu getdi... Amma bizim dünyamızı da Muğannasız qoymadı... Həm yerdən, həm göydən yazdıqları ilə qəlbləri saflaşdırdı, könülləri əbədi fəth etdi, getdi.

**P.S. 27 martda İsa Muğanna ilə olan söhbətimizin bir çoxunun kütləvi oxucu üçün olmadığından sadəcə bir hissəsini hazırladım. Bir jurnalist olmadığımı, bu söhbətimizi bu formada mətbuata vermək üçün etmədiyimi oxucuların nəzərə almasını xahiş edərdim. Sadəcə apardığım tədqiqat üçün şəxsən mənə lazım olan məqamlara, "Cəhənnəm" əsərinin təhlilinə yönəlik sualları vermişdim.**



Buyurun, söhbətimizin əsas hissəsini yazıya alıb sizlərə təqdim edirəm.

**Şəmil Sadiq:** İsa müəllim, "Cəhənnəm" romanından başlayaq. Mən bu əsəri iki dəfə oxudum. Bir xeyli qeydlərim var, əsərdə həm təzadlı fikirlər var, həm də yeni və maraqlı yozumlar...

**İsa Muğanna:** Sən de görüm, necə dərk eləmisən? Mən də onun üstündə deyim də...

**Şəmil Sadiq:** "İdeal"ın son nəşrinin ön sözündə bir fikir yazmışdınız.

**İsa Muğanna:** Müqəddiməni oxumadan kitab oxunmaz!

**Şəmil Sadiq:** Müqəddiməni oxumuşam... Bəli, təqdim etdiyiniz SafAğ elmi, fəlsəfəsi yeni olduğu üçün bəzən izaha ehtiyac olur. Hətta deyərdim ki, müridlərə – OdƏrlərə belə ehtiyac var. Sizin fəlsəfəni duyub, dərk edib, həzm edib oxucuya daha asan dillə çatdırsın. Necə ki, Nəimi fəlsəfəsini xalqa Nəsimilər aşılayırdı. Əgər bir cümlə ilə ifadə etsəm, "Cəhənnəm" romanı cəhənnəm alovunu alışdıran vasitənin söz olduğu qənaətindədir, elə buna görə də "cəhənnəm əzabı" vicdan əzabı deməkdir. Bu roman bir növ bütün dinlərdə olan cəhənnəmin mahiyyətinin təhrif olduğunu, Ərağın-ruhun sözün gücü ilə saflaşmasını təqdim edir. Lakin çox maraqlıdır ki, sizin konsepsiyanızda qədim misirlilərin dini dünyagörüşünün də izləri var. Bir çox dinlərdən fərqli olaraq, qədim misirlilər düşünürdülər ki, insan öldükdən sonra onun ruhu Ozirisin rəhbərliyi ilə məhkəməyə çıxarılacaq və günahsız olduğu təqdirdə Aru ilə – cənnətlə mükafatlandırılacaqdır. Beləcə, Tanrı Ranın gəmisinə mindirilib xoşbəxt bir həyat sürər və ya ulduz olarlar.

Digər tərəfdən də siz, bəlkə də, dünyada yeganə yazıçılardansınız ki, yazdığınız altı əsərin oxuma xronologiyasını təqdim edirsiniz. Elə mən həmin xronologiya ilə oxumuşam. "İdeal", Məhşər” (Ənşərmən şər”) “Qəbiristan” “GurÜn”, “İsahəq, Musahəq”, “Cəhənnəm” və sonrakı əsərlər...

İsa müəllim, "Cəhənnəm" romanını oxuduqda Hüseyn Cavidin "İblis", Hötenin "Faust", Bulqakovun "Mister və Marqarita" əsərlərini xatırlamamaq olmur.

Hətta "Cəhənnəm"in də sonluğu "İblis" pyesindəki İblisin son monoloqu ilə eyni ideyanın daşıyıcısıdır: İblis nədir, cümlə xəyanətlərə bais, ya hər kəsə xain olan insan nədir, İblis. "Cəhənnəm"də isə müəllifin dilindən deyilən son cümlələrdən biri belədir: "Cəhənnəm məkanını tap, ey İns... O fantastikasız fantastika sənin özündə deyilmi?"

İnsan və İblis... "Cəhənnəm"də nəyi daha çox qabartmaq istəmisiniz? Daha çox vurğulamaq istədiyiniz nədir? Çünki əsərin əvvəlində deyilir ki, cəhənnəm varmi? Və Allah bu qədər insanları bu dünyada bu qədər əzabla yaşadır və hələ bir də o dünyada cəhənnəmi də hazırlayıb ki, getsin o dünyada da əzab çəksin? Sonrakı abzasda hökmlə deyirsiniz ki, "cəhənnəm var!"



**İsa Muğanna:** Bu "Cəhənnəm"i yazanda mən həmişə islam dini haqqında fikirləşirdim. İslam dininin peyğəmbəri hesab olunan Məhəmməd peyğəmbər əslində SafAğ elminə isnad edir. İslam dini islama isnad edən təhrif alimlərin təhrif dinidir. Cənnət-cəhənnəm də elə şəklə salınıb ki, uydurma kimi görünür. Nəimidən soruşurlar ki, "cənnət haradadır?" Deyir, ayağının altına bax. Yəni yer, torpaq özü cənnətdir. Cəhənnəmin varlığını insan öz bətnində axtarmalıdır. Özünün xarakterində, əməllərində, gördüyü işlərdə, dünyagörüşündə axtarmalıdır. Bunun bir tərəfini də fantastikaya bağlamaqla deyirəm ki, həyat özü, kainat özü fantastikadır. O Ayın cəhənnəm adlandırılması da doğrudur, bir tərəfdən də

yalandır. Doğrudur, ona görə ki, nöqsanlı insan yerdə öləndən sonra bunun işığı gedir Ağa – Ay planetinə. Orda günün müəyyən saatlarında oturur, tərpənə bilmir yerindən. Bütün pis əməlləri, həyatı, insanlara münasibəti lent kimi gəlib gözünün önündən keçir. Bu, saflaşma prosesidir. Cəhənnəmdə yanmaq yalandır. Saflaşma prosesi gedir, sonra gəmiyə minir, o biri planetlərin hansında bunun qohumları var, gedir ora. Əbədiyyətə qovuşur, əbədi yaşayır. Bu cənnət-cəhənnəm məsələsi yerdə insanın həyatında böyük rol oynadığına görə mən bunu SafAğ elmi nöqteyi nəzərindən aydınlaşdırmaq məqsədilə yazmışam. Və orda da mənim babamın iştirakı təsadüfi deyil.



**Şəmil Sadiq:** Musa ağanın?

**İsa Muğanna:** Omar ağanın.

**Şəmil Sadiq:** Musa Omar ağanın oğludur?

**İsa Muğanna:** Bu Musa Omar ağanın oğludur. Cavankən rəhmətə gedib. O biri Musa ƏsƏlməndi isə Süleyman peyğəmbərdi. Babamın babasıdır. Babamın atası Hüseyn ağadır. Hüseyn ağanın atası da Süleyman peyğəmbərdir. Burda cəhənnəm həm SafAğ elmini, həm də dini tərəfdən cənnət və cəhənnəmin mahiyyətini açmaq, insanın bətnində cəhənnəm olduğunu sübuta yetirmək məqsədi güdürəm. Ümumiyyətlə, SafAğ elminin hər əsərində bir guşə

açılır. Bu bir guşə də cənnət-cəhənnəm söhbətinə görə yazılıb.

**Şəmil Sadiq:** Burda belə bir hissə var: Bünyad Səməddən soruşur ki, cəhənnəmi yaratmaqda günahkar kimdir? Səməd deyir ki, İndi biləcəksən, ən böyük günahkar insanın taleyini yazan – "Yazan" – "Yazdan" –"EyƏsÜn" EyOdƏr" babamızdır, ay bədbəxt razvetçik. İkinci günahkar Yazanın yazdığını Bağ Atamıza çatdıran BağBağÜn Babamızdır. Üçüncü günahkar yazılanların əsasında hökm verən Bağ Atamızdır. Dördüncü günahkar hökmləri icra edən EySarımızdır. Bəndədə nə günah var?!" Hətta bütün bunların Bağ Atanın törətdiyini də göstərmiş olur. Sizcə, cəhənnəmin yaradılmasında səbəbkar Bağ Atadır? Və sonda yazırsız ki, dördüncü günahkar hökmləri icra edən EySardır. Bu sualın bədii həlli oxucuda suallar yaradır. Sualın cavabını müəyyənləşdirmək olmur.



**İsa Muğanna:** Səmədin dünyagörüşü aydın olduğuna görə məlumdur ki, bu ancaq Bünyad bəyin daxilini açmaq üçün, suallara cavab almaq üçün deyilib. Səmədin dünyagörüşü özünün dediyi sözlərlə tutuşmur.

**Şəmil Sadiq:** Deməli, bu kinayədir.

**İsa Muğanna:** Səmədin nöqteyi-nəzərindən həqiqət deyil bu. Səmədin dünyagörüşü məlumdur. Səməd

EySara inanır, Bağ Ataya inanır, o biri peyğəmbərlərə inanır. Odər EyƏsÜn babamıza inanır. Onların boynuna bu boyda günahı yıxmaq Səmədin obrazına zidd olar (86 yaşlı yazıçının yaddaşına heyran olmamaq mümkün deyildi. 10-15 il bundan öncə yazdığı əsərə bu qədər bələd olma hər yazıçıya xas olmur. Bu sualı verəndə açığı narahat idim ki, mənim üçün aydın olan bir sualı niyə soruşuram. Amma öz dilindən eşitmək üçün bu sualı verdim. Əsərin ideyasına zidd olacaq, nəyi isə unudacaq heç bir fikir eşitmədim).

**Şəmil Sadiq:** İsa müəllim, mən sizin ideologiyanıza inanan bir oxucu olsam da, Şah İsmayıla, Cumhuriyyətə olan münasibətinizi heç vaxt qəbul etməmişəm. Amma "İdeal"dan fərqli olaraq, "Cəhənnəm"də sanki Şah İsmayıla olan münasibətinizi korrektə etmisiniz. Əvvəlki fikrinizdən fərqli bu əsərdə Şah İsmayıl Xətayiyə bir simpatiya duyulur.



**İsa Muğanna:** Şəmil, mənim, ümumiyyətlə, SafAğ elmində Şah İsmayıla münasibət ikilidir. Bunun babası Şeyx SafAğdır. O, Bağdadda böyüyüb, orda SafAğ elmi ilə məşğul olub. Sonra başlayıblar bunu izləməyə. Bu təhlükə qarşısında qaçıb Ərdəbilə gəlib. Burda adını dəyişib. SafAğ əvəzinə adını qoyub Şeyx Səfi. Şah İsmayıl da şeirlərində, yaradıcılığında elmi gizlədib. Yanında saxladığı aşıqların şeirlərində elmi saxlayıb, gizlədib. Sultan Səlimlə müharibəyə hazırlaşıb. Bu, bir münasibətdir. Səlim islamı qəbul etmiş-

di. Türkiyədə islam dini çiçəklənirdi. Şah İsmayıl islama qarşı idi, indi heç kəsin açmadığı məsələdi bu. İslamın Türkiyədə kökünü kəsmək üçün Çaldıran müharibəsinə çıxdı. Bu, onun elmi gizləmək üçün müsbət cəhəti idi.

**Şəmil Sadiq:** İslam dininə qarşı döyüşdü deyə bilərik?

**İsa Muğanna:** Çaldıran müharibəsi İslam dininə qarşı idi. Onu heç kəsə açmayıb. Aça bilməzdi. Çünki İslam dininə qarşı idi. İslamın belə mürtəce vaxtında bunu açmaq mümkün deyildi. Nəsimi deyir ki, ənəlhəq sirrini faş elədim mən. O, ÜnƏlAğ deyib, amma bunu onun divanlarından pozublar. Hamısını ənəlhəq ediblər. Onları da, SafAğı tərənnüm edən şeirlərini də dəyişdiriblər. Dəri dilini, OdƏr dilini... Dəri farscadı, OdƏr bizim dildədir. Dərisini soyublar. Həm fiziki cəhətdən, həm də divanlarında dərisini soyublar. Şah İsmayıla gəlincə, Şah İsmayıl deyir ki, ənəlhəqi gizlədim mən. Onu da indiyə qədər açmayıblar. O şeiri gizlədiblər. Çox müqtədir alimlərimiz, dəyərli alimlərimiz Nəsiminin bu cəhətini gizlədiblər. Daha doğrusu, başları çıxmayıb, deyəsən. Quluzadə Mirzəağa "Nəsimi" filminin məsləhətçisi idi. Mənə sual verdi ki, Nəsiminin portretini necə yazarsan? Dedim: – "Gözlərinin qaranlığında işıq qaynayırdı". Dedi: –"Doğrudur". Nəsiminin ənəlhəq sirrini faş eləmək haqda mən ondan soruşdum. Dedi ki, mən heç Nəsiminin Hələbə niyə

getdiyini də bilmirəm. Niyə gedib? Sonradan mənə məlum oldu ki, Hələb Əlev şəharidir. Eysarın evi, Eysarın fikri. Bu cəhətdən Şah İsmayılın elmi gizlətmək məqsədinə də çatıb, gizlədibdir. Özbəkistan, Qırğızıstanda da bu elm yayılmışdı. İslamın süqutu başlamışdı. Bağdadda İxvan Əs Səfa qardaşları var idi və onlar jurnal buraxırdılar. Nizami haqda məqalələr çap edirdilər.

**Şəmil Sadiq:** Neçənci əsrdə?

**İsa Muğanna:** Nizaminin vaxtında. XIV əsrdə İslam təzədən yayılıb. Xəlifə Ömər təhrif Quranın üzünü köçürtdürüb göndərib Özbəkistana, orada təzədən yayılıb. Türkiyədən XIII əsrdə gəliblər vətənə, XIV əsrdə dini mükəmməl şəkildə qəbul ediblər və camaat arasında yayıblar. Amma bir cəhəti də qeyd etmək lazımdır ki, niyə bizə qılınc müsəlman deyirlər? Çünki ərəblər hücum ediblər bura. Bağdad xəlifəsinin əmri ilə Azərbaycana hücum çəkdilər, dini qəbul etdirdilər. Kəndlərə, şəhərlərə dəstə-dəstə ərəb atlıları girdi. Qılıncı çıxarıb insanların boynuna qoyub deyirdi ki, kəlmeyi şəhadəti de. Onda gərək onlar deyəydi ki, "la ilahə illallah" mənim əqidəmdir. Allahdan başqa Allah yoxdur. Bir Allahdır, nə doğub, nə törəyib, nə oğlu, nə uşağı var. Belə mistik qüvvə kimi Allahı təqdim ediblər. Bağ Ata da unudulub. Eysar olub xaçın Allahı.

**Şəmil Sadiq:** Vicdan nədir sizin üçün?

**İsa Muğanna:** Nə üçündür bu sual?

**Şəmil Sadiq:** Çünki burda tez-tez vicdan əzabı ifadəsi var. Cəhənnəmdə vicdan əzabı deyəndə İsa müəllim nəyi nəzərdə tutur?

**İsa Muğanna:** İnsanın bətnində yaşayan, daimi yaşayan, ölməyən, dünyaya baxışını idarə edən bir məfhumdur.

**Şəmil Sadiq:** "Vicdan dinin yarısıdır" deyə bilərikmi?

**İsa Muğanna:** Vicdan dinin hamısıdır.



**Şəmil Sadiq:** Sizin "bəy" sözünə münasibətiniz, deyəsən, o qədər də yaxşı deyil. Yəni niyə Bünyad yox, Bünyad bəy? Çünki əsərdə Bünyad bəy obrazı şər qüvvə kimi təqdim edilir. Hansı ki bu mənfi obraz milli düşməndir, milli ideologiyanın düşmənidir. Stalinin sağ əlidir. Repressiyaları törədənlərdən biridir.

**İsa Muğanna:** Müsavat Azərbaycana gələndən sonra bəy yaranıb. Bu da oradan qalıb. 1920-ci ilədək Azərbaycanda bəy də, ağa da olub. 1920-ci ildən sonra Nəriman (Nərimanov) hakimiyyəti alandan sonra ağa, bəy sözü yığışdırılıb.

**Şəmil Sadiq:** Hər xalqın dilində müəyyən müraciət forması var. Bizdə də bu, bəydir...

**İsa Muğanna:** Bəy təhrif olduğuna görə... Nəriman SafAğ elmini bilirdi və mənim əmilərimə Nizamidən, Nəsimidən başlayaraq üzübəri dərs deyirdi. Mənim əmim İsa Əfəndi İslam tarixi kitabı yazmışdı. O, OdƏr mədəniyyətinin necə təhrif olunduğunu yazmışdı. Onu mənim Xanbaba əmim torpağın altından çıxardı. Vərəqlərini bir bir gözümün qabağında yandırdı. Onun titr səhifəsini mən yalvardım, aldım. Orada – arxivdədir. Ruscadır. Eto napisana İsa Quseynova (Bu, İsa Hüseynova yazılıb). O, bağ sözünün təhrifidir. Ona görə də Nərimanov "bəy" sözünün əleyhinə idi. "Müəllim" sözünü Nərimandan sonra sırıyıblar millətə sovet dövründə. İndi o qədər yayılıb ki, hətta müəllim olmayanlara da "müəllim" deyilir. Bu, çox təhrif, çox yalan bir ifadədir. Ona görə mən məcburam müsavatın gətirdiyi təhrif "bəy" sözünü işlədim və deyim ki, bu "Bağ" sözündən azmadır.



**Şəmil Sadiq:** Lenini də siz SafAğ elminin bilicilərindən biri kimi vermisiniz bu əsərdə... "Nəriman Nərimanov Moskvaya aparılanda Zeynalabdin Tağıyev Muğannalardan kompanionu – Məmməd xozeyni kabinetinə çağırıb, qapını açarla bağlayıb deyib: "Nərimanov vəzifəyə yox, ölümə getdi... Nərimanın, sənin Muğannalara mənsub olduğunuz açıla bilər. Nərimanın Leninlə gizlin danışıqları Ulyanovların

EvƏrEy OdƏrliyi, Tərikliyi də açıla bilər. Ulu Bağın cəmi Yer üzündə vahid ədalət Səltənətinə dair yazdıqları axtarılır. Hətta, bəlkə, hamımızı qırarlar".

**İsa Muğanna:** Nəriman onunla yaxın dost olub. Lenin Nərimandan dərs alıb. Çünki SafAğ elmi dünyəvi elmdir. Eysarla Bağ Ata ilə bağlıdır. Bunu unutmaq olmaz. Lenin materializmi yazanda Maxı (Yəhudi əsilli Alman filosofu Max Horkeymer) niyə tənqid edir? Max özü də "Bağ" sözündən azıb. O, özü də təkallahlığı dini cəhətdən izah edir. Lenin onun əleyhinə çıxır. Ancaq buna görə.... Əslində Lenin Nərimandan dərs almışdı.



**Şəmil Sadiq:** Belə çıxır ki, SafAğ elmi təkallahlığı qəbul etmir?

**İsa Muğanna:** Max birbaşa təkallah demir. Yazısında nə Bağ Atanın oğulları var, nə EyƏsün var, nə EyOdər var. Bunların heç birini qəbul etmir Max.

**Şəmil Sadiq:** Mən sizin fikrinizi soruşmaq istəyirəm, SafAğ elmi təkallahlığı qəbul edirmi?

**İsa Muğanna:** Yox.. yox.. Təkallahlığı qəbul etmək cinayətdir. Türkiyədə bir təriqət olub. Onlar Türkiyəni tərk edəndə sərhəddə deyiblər ki, biz də "la ilahə illallah" deyirik. Onunla da salamat qalıblar. Amma əslində "la ilahə illallah"dan başqa dünyanı təhrif eləyən ikinci böyük bir kəlmə yoxdur.

**Şəmil Sadiq:** Sizcə "la ilahə illallaha" bərabər olan söz hansıdır? "La ilahə illallah" əvəzinə nə demək olar?

**İsa Muğanna:** Ağ... SafAğın qısaldılmış variantı.

**Şəmil Sadiq:** Əsərdə maraqlı məqamlardan biri də budur ki, Bünyad bəy axırda bezib deyir: – "Əlimdə imkan olsaydı, sizin EySarınızı da öldürərdim, qardaşı EvƏrimi də, Bağ Atasını da, BağBağÜnü də, EyOdər babalarını da. Bu qədər kin hara, SafAğlılıq hara?" Əgər SafAğ dediyiniz elmdirsə, mən elə düşünürəm ki, sizin görmək istədiyiniz Tanrı Bünyad bəyin bəyənmədiyi tanrıdır. Dinlərin ədalətli adı altında əzazil kimi mistik, nağılvarı təqdim etdiyi Tanrını İsa Muğanna əsərlərində daim bağışlayan və hətta cəhənnəmin özündə belə insanları tərbiyələndirən, saflaşdıran Tanrıdır. İndi Bünyad bəy də deyir ki, dünyanın gözəlliyini istəyirsə, niyə Bağ Atamız bu qədər kinlidir? Niyə bu qədər əzab verir? Əslində bu sual bəşər övladını daima düşündürmüşdür.



**İsa Muğanna:** Müəllif deyir ki, Bünyad bəyin cəhənnəmi onun bətnindədir. Bünyad bəyin Ay planetinə uçmağı, qızlarla görüşməyi, o söhbət-bunların hamısı bədii əsər priyomlarıdır. Bünyad bəyin daxili aləmini açmaq üçündür. Fantastika əslində həyati materialdır. O da Bünyad bəyin daxilini açmaq üçündür. O heç cür qəbul edə bilməz nə Eysarı, nə Bağ Atanı.

Təhrif insanı suitilərə qulluq edir və axırda su itləri gəlib onun başına oyun açır.

**Şəmil Sadiq:** Öləndən sonra verilən həyatdırmı burda verilənlər? Çünki onu sadəcə cəhənnəmdə görürük.

**İsa Muğanna:** Bu torpaqda qalıb Bünyadın meyidi. İşıq çıxmayıb içindən. İşığı kainata uçanda... Quranda da sonuncu surədir. Orada doğrudur. İslam o axırıncı surədə həqiqəti saxlayıb. Ərəb dilində saxlayıb. OdƏr dilində qarışıqdır. Amma ərəbcə oxuyanda görürsən ki, deyir, sən uçub gedəcəksən dərgaha, saflaşandan sonra Allahın hüzurunda olacaqsan.



**Şəmil Sadiq:** Bünyad bəy saflaşdımı, yoxsa yox?

**İsa Muğanna:** Yox. İtlər onu o abıra saldılar... (Gülür)

**Şəmil Sadiq:** İsa müəllim, əsərin əvvəlində verilənlərdən belə çıxır ki, dinlərin təqdim etdiyi cənnət və cəhənnəmi siz qəbul etmirsiz. Cəhənnəmi təhrif olunmuş hesab edirsiniz və yeni cəhənnəm modeli və ya əsl cəhənnəmi bu əsərlə oxuculara təqdim edirsiz. Amma İ slamın təqdim etdiyi cənnət ilə sizin təqdim etdiyiniz cəhənnəm çox oxşardır. Çünki Bünyad bəyin ətrafında gözəl qızlar, hər cür təam və içki var idi. Hətta Bünyad bəy də təəccüblənir ki, bura haradır? Cənnətdir, yoxsa cəhənnəmdir? Ona verilən mə-

nəvi əzablardan başa düşür ki, cəhənnəmdir. Amma ona təqdim olunan İslam dininin qəbul etdiyi cənnət idi. "Quran"da da cənnətdə sizləri gözəl hurilər qarşılayacaq deyilir.

**İsa Muğanna:** Cənnət... Xristianlar "ray" deyirlər dəəə... Ora bizim ilk vilayətimiz ƏrEyin adıdır və ƏrEydəki həyatın gözəlliyi ilə əlaqədar, orada gözəllik, çaylar, meşəlik, bəzi əsərlərdə südlə bal arxı axır... Oradakı bolluqla, həyatla, insanların münasibəti ilə əlaqədar ƏrEyi Ray adlandırıblar. Elə xristianlar da elə adlandırırlar. Amma cənnət, cəhənnəm ərəbcə "cənn" sözüdür. İkisi də eyni mənadadır. Sözün ilk hissəsi "cənn" eyni mənadadır. Çünki cənnəti də təhrifdir, cəhənnəmi də təhrifdir, uydurmadır.



Ay planetində belədir ki, insan günün müəyyən hissəsini adi həyatdakı kimi gen-bol yaşayır. Amma elə ki, kresloda əyləşdi, artıq tərpənə bilmir, heç cür tərpənə bilməz. Əli-ayağı tutulur, qıc olur və gözünün qabağında hadisələr cərəyan edir. Bəziləri altı aya, bəziləri bir ilə saflaşır.

**Şəmil Sadiq:** Saflaşandan sonra nə olur?

**İsa Muğanna:** Gəmiyə minir, gedir.

**Şəmil Sadiq:** Onun bir də bu dünyaya qayıtmaq ehtimalı var?

**İsa Muğanna:** Yox...

**Şəmil Sadiq:** Bəzi versiyalarda insanın bu dünyaya qayıdışını isbatlamağa çalışırlar.

**İsa Muğanna:** Yox... SafAğ elmi nə qədər mürəkkəb görünürsə, bir o qədər sadədir, bir o qədər anlaşıqlıdır.

**Şəmil Sadiq:** Səhv etmirəmsə, "İdeal"da Nəsimi fəlsəfəsinin düşüncəsi olan belə bir fikir var: "Quran"ın iki cüzü gizlədilib. Yəni siz dediyiniz kimi təhrif olunmuş "Quran"ın iki cüzü gizlədilib.

**İsa Muğanna:** Cırılıb, yandırılıb. Yoxdur həyatda.. Orada çox şeylər var idi. Onu Vatikandan göndərilən hökmdar edib. Bağdada göndərilib Sergey – Sar Od Ey.. Ser Ki Ey təhrif adı Sergeydi. O, Müaviyənin köməyi ilə həmin OdƏr variantını yandırıb, məhv edib. Yerinə OdƏr dilindən "la ilahə illallahı" başa çəkib. Vatikanın göstərişi necədirsə, Bibliyanın göstərişi necədirsə, ona uyğun tərtib ediblər. Ün Ax Sar Ün Ağ təyin olunub İbrahim peyğəmbər. Onun Sarlığını, hökmdarlığını Saraya evlənmək kimi qələmə veriblər. Ün Ağı da İnək ediblər ki, bir sarı inək tapıblar. Onun yarısını verdilər yəhudilərə. Guya bununla da yəhudilər adam öldürməkdən əl çəkiblər.



**Şəmil Sadiq:** Cavidin "İblis"i ilə Faustun "Demon" əsəri ilə müqayisə etdikdə sizin cəhənnəmdə bir dəfə təsvir etdiyiniz iblis fərqli görünür. Qulaqlı, quyruq-

lu vəssalam... Sanki İblisin heç bir fəaliyyəti olmayıb. Və iblisi görən Bünyad bəy özünü itirir.

**İsa Muğanna:** O iblis Bünyadın təsəvvüründə yaranır. O yuxu yatmağı təsadüfi deyil. Yol ayrıcında yatır.

**Şəmil Sadiq:** İsa müəllim əsərlərində daha çox əfsanələri, rəvayətləri, SafAğ elminin nümayəndələrinin yazdığı və söylədiyi fikirləri modernist fikirlə cəmiyyətə izah edir. Yeni üslubda oxuculara təqdim edir. Yəqin ki, siz sufiləri SafAğ adlandırırsınız.



**İsa Muğanna:** Sufi təhrifdir. Səfi sözü təhrifdir. Kişinin adı Saf Ağdır. Xətayinin babası.

**Şəmil Sadiq:** Sufilərin təriqətinin əsasında elm və eşq dururdu. "Cəhənnəm" romanında da bu ifadə işlənib. "Dünyanın qurtuluşu elm və eşqin bərqərar olması ilə mümkündür", – deyirsiniz. Nizami Cəfərov deyir ki, Muğanna xalqın taleyini öz taleyi kimi təqdim edir. Sizin əsərlərinizin hamısında çoban anlayışı var və sufi fəlsəfəsində də "çoban" rəmzdir. Bütün əsərlərində sanki Muğanna oz həyatını danışır. Hətta mən belə deyə bilərəm ki, Muğannanın əsərlərində əsas obraz xalq – yəni muğannalar, muğlardır. Çoban ifadəsinə gələk... Bu "Şeyx Sənan"da da var, Nizamidə də var. Siz də Musa ağanı, Omar ağanı hər şeydən gizlənən çoban kimi qələmə vermisiz.

**İsa Muğanna:** Bu, həyatdan gələn faktdır. Nizami Cəfərov xaricdə hürufiliyə həsr olunmuş müşavirəyə qatılıb. Orada "Məhşər" əsərinə görə hürufiliyə neohürufizm deyirlər. Burda Nəsimi, Nizami deyir ki, alimin yeri başda olmalıdır. Bir həqiqət də var ki, tam savadsız çobanın həyata münasibətdə öz təfəkkürü formalaşır. Ona görə də bu, klassiklərin diqqətini cəlb edib, onu müsbət obraz kimi təqdim ediblər. Çoban göy haqda elmi bilməsə də, həyatda təsəvvürü elmə yaxındır.

**Şəmil Sadiq:** Ağıllı, təfəkkürlü, savadlı insanlar təkliyi sevirlər. Buna dərvişləri misal çəkə bilərik. Ən ağıllı, müdrik dərvişlər insan və cəmiyyətdən qaçırlar. Sizcə, niyə?



**İsa Muğanna:** Burda heç bir ikinci fikir yoxdur. Onlar heç cür bəşəriyyəti, cəmiyyəti qəbul etmirlər. Şəhərbəşəhər, kəndbəkənd gedib ağıllı adamlarla görüşür, həsbi-hal edir. O insanlardan bəhrələnir, lazım olanda özləri onlara elmi fikir verir. Dərvişlik İslamın bəhrəsidir. Cəmiyyətdən qaçanlar insanlardan qaçırlar. Dərvişlər baxmayaraq ki, Allahı vəsf edirlər, amma bu, etiqaddan gələn şeydir. Burda yanlışlıq var. Təkallahlığı vəsf etdikləri üçün yanlışdır. Yalan etiqad olsa da, yenə də etiqaddır. Etiqad insana kömək edir.

**Şəmil Sadiq:** Odər dili indi varmı?

**İsa Muğanna:** Türk dili OdƏr dilidir, amma qarışıqdır. Terminlər, dağ, çay, şəhər adları hamısı təhrifdir. OdƏr təsəvvürü SafAğ elminin təbliği ilə əlaqədardır. SafAğ elmi tədris olunacaq, Bakıda, Rusiyada, Amerikada yayılacaq.

**Şəmil Sadiq:** SafAğ elminin ən yüksək dövrü kimi XIII-XIV əsrləri götürmək olar?

**İsa Muğanna:** XIV əsrdə İslam inkişaf edib. XI, XII, XIII əsrlərdə Bağdadda SafAğ elmi hökmran olub. Nəsiminin dövründə çox olub.



**Şəmil Sadiq:** Siz İbrahimin də elmin təbliği ilə məşğul olduğunu göstərmisiz.

**İsa Muğanna:** İbrahim qeyri-şüurlu şəkildə idi. Şeyx Əzəmin pis əməl sahibi olmağı bunu İslamdan aralayıb. İbrahim müsbət adam olub.

**Şəmil Sadiq:** İsa müəllim, cəmiyyətdə bəzi əsərlərinizdən vaz keçdiyiniz barədə fikirlər gəzir.

**İsa Muğanna:** "Bizim qızlar"dan tam imtina etmişəm. Son dərəcə bəsitdir. O biri povestlərdən şərti imtina etmişəm... Yenidən işləmişəm onları.

**Şəmil Sadiq:** Bu yaxınlarda eşitdim "26-lar"dan da imtina etmisiz.

**İsa Muğanna:** Yox... "26-lar".. Şaumyanın milliyəti yəhudidir. Mən dövlət arxivinə gedirdim. Orda Şaumyanın 19 metrə çıxışını çəkiblər, göstəriblər mənə. Mən təəccübləndim ki, Şaumyan portretdə erməniyə oxşamır. Arxivin müdiri gəldi, soruşdu ki, nə gördün? Dedim ki, bu, erməni deyil, dedi: "Afərin! Lenin özü də tatar yəhudisidir".

**Şəmil Sadiq:** Yəhudilər SafAğ elminin təqdimatına görə düşmənimizdir, ya dostumuz?

**İsa Muğanna:** Onlar OdƏr idilər. Onlara EvƏrEy OdƏrləri deyiblər. Vatikan OdƏrlərə qarşı çıxdı. Vatikanın yəhudilərə qarşı təbliğ etdiyi şeydir. EvƏrEylərə qarşıdırlar. EvƏrEy bizim birinci vilayətimizdir. Gəmi OdAğÜzdən gələndə ora düşüb ilk dəfə. Xristianların ƏrEyi ray etməyi təsadüfi deyil.



**Şəmil Sadiq:** Əgər gözləriniz sizə imkan versə idi, İsa Hüseynov kimi hansı mövzuda əsər yazardınız?

**İsa Muğanna:** Mən İsa Hüseynova nifrət edirəm. Təfəkkürünün bəsitliyinə görə nifrət edirəm.

**Şəmil Sadiq:** Axı İsa Hüseynovun oxucuları çoxdur və onu sevirlər. Bəzən siz deyəndə ki, mən onları qəbul etmirəm, kimlərinsə xətrinə dəyirsiniz...

**İsa Muğanna:** Yox. Mən onların işlənmiş versiyalarını qəbul edirəm.

**Firuzə xanım:** O vaxt İsa yazanda onun haqqında dedilər ki, o, böyük yazıçı olacaq. Ona deyirdilər ki, o, Azərbaycanın Dostoyevskisidir.

**İsa Muğanna:** Sonra da "Folkner" adlandırırdılar. Amma Nizami məqalə yazıb, çox aydın izah edib: "Muğanna həqiqəti və ya həqiqətin muğannası".

**Şəmil Sadiq:** Bəs İsa Muğanna kimi hansı əsəri yazardınız?

**İsa Muğanna:** Hələ çox dumanlıdır. EySar deyir ki, təzə tsikl başlayacaqsan. Birinci əsərin böyük romandır. Amma nə məzmunu, nə də ideyası haqda heç nə demir... Amma deyir gözün açılsın sonra deyəcəm. Stolumun üstündə bir səhifəlik yazı var, hər səhər gedib o yazıya baxıram ki, görüm gözüm düzəlir, ya yox. Bu səhər baxdım gördüm ki, oxuya bilirəm az-az.

***(27.03.2014)***

## Tənhalıqdan tənhalığa

**Azərbaycan Xalq şairi Zəlimxan Yaqubu yanvar ayında ziyarət etmişdik Elxan Nəcəfovla. Xeyli dərdləşdik, söhbətləşdik. Ustad sənətkar İsa Muğanna haqqında yazdığım kitab üçün Zəlimxan müəllimində fikirlərinin maraqlı olacağını düşünürdüm. Elə də oldu. Öncədən razılaşdığımız kimi söhbətimizi yazdıq. Diqqətlə oxuyandan sonra oxucular üçün də maraqlı olacağını düşündüyüm üçün mətnə köçürüb bir hissəsini sizlərə təqdim edirik...**



**Şəmil Sadiq:** Zəlimxan müəllim, ədəbiyyat tənhalığı sevir. Amma ədəbiyyat cəmiyyətə, topluma ünvanlanır.

**Zəlimxan Yaqub:** Şübhəsiz, tənhalıqda doğulur və cəmiyyətdə öz yerini tapır. Tənhalıqda düşündüyün, fikirləşdiyin düşüncələr, duyğular heç vaxt ictimai yerdə alına bilməz. Hökmən bir yerə, bir tərəfə çəkilməlisən. Saib Təbrizi deyir ki:

Keçməsə canan ələ,
Qəm yemə canandır xəyal.

Yəni şairin fikri, xəyalı, arzusu, istəyi tənhalıqda hər şey edir. Amma, şübhəsiz, o tənhalığın son hədəfi oxucunun ürəyidir – xalqdır, millətdir, oxucudur.

**Şəmil Sadiq:** Deməli, sonda tənhalığa – ürəyə xitab edir yenə də...

**Zəlimxan Yaqub:** Bəli, yenə tənhalıqdan tənhalığa gedir. Və dünya ədəbiyyatında, rus ədəbiyyatında, Azərbaycan ədəbiyyatında nə qədər xoşa gələn əsərlər varsa, onların hamısı tənhalıqdan doğulub. Amma axırda gəlib millətin sərvətinə çevrilib, xalqı formalaşdırıb, milləti formalaşdırıb, əsri, zamanı formalaşdırıb, elə-belə şey deyil bunlar.

**Şəmil Sadiq:** Zəlimxan müəllim, maraqlı məqam var, şifahi xalq ədəbiyyatımız, aşıq yaradıcılığı, Azərbaycan şeir təfəkkürü – bunlar daha çox tənhalığa bağlı deyil. Daima el arasında, el içərisində, yəni məclislərdə. Amma ədəbiyyat da tənhalığı sevir. Bu, necə, ziddiyyət təşkil etmir ki?



**Zəlimxan Yaqub:** Yox, belədir də. Əslində, nə qədər bizim böyük şəxsiyyətlərimiz - Yunus Əmrələr, Füzulilər, Nizamilər, və daha kimlər kimlər – bunların hamısı nə qədər şedevr, böyük əsərlər yaradıbsa, hamısı tənhalıqda yaranıb, sonra millətin malı olub. Ona görə də istər sufizm olsun, istər hürufilik olsun, istər müxtəlif cərəyanlar, nə olur-olsun hamısı təklikdə yaranır, gəlir axırda millətin sərvətinə çevrilir. Çünki istənilən bir yazıçını götür, o, hökmən tənhalıqda yazıb-yaradır. Sonra olur ictimaiyyətin. Nobel mükafatçısı olan Çin və Yapon yazıçıları təbiəti çox gözəl bilirlər. O.Henrinin "Son yarpaq" hekayəsi var.

Min dənə romana dəyər. Nə qədər gözəldir. Bu mənada yazıçıların, şairlərin, yaradıcı adamların hamısı, mənə elə gəlir ki, tənhalığa minnətdar olmalıdırlar.

**Şəmil Sadiq:** İsa Muğanna da deyəsən tənhalığı sevirdi.

**Zəlimxan Yaqub:** Çox sevirdi. İsa Muğanna (hətta İsmayl Şıxlı ona "guşənişin" deyirdi) tamam başqa bir aləm, tamam başqa bir dünya idi. Yəni, otururdun onun süfrəsində çörək kəsirdin, çörək yeyirdin. (Firuzə bibi də maşallah 5 dəqiqəyə hər şeyi hazır edirdi) və ağalıq, bəylik var idi həm kişidə, həm xanımda. Onların sözü bir-biri ilə tuturdu. Ona görə də İsa müəllim, "guşənişin" olmaqla bərabər dünyanın adamı idi, həm o dünyanın, həm də bu dünyanın. İkisinin də adamı idi.



**Şəmil Sadiq:** Sanki Firuzə xanımla bu dünyaya bağlı idi, özü isə o dünyanın adamı idi.

**Zəlimxan Yaqub:** Düzdür, yüz faiz sizinlə şərikəm. Firuzə xanım İsa Hüseynova çox yaxşı xidmət edib. Onun ədəbiyyatına, onun elminə, onun mütaliəsinə, onun dünyagörüşünə, onun göydən gələn səsinəününə – hamısına şərik olub o arvad. Bilirsən, şair arvadı olmaq, yazıçı arvadı olmaq çox çətin şeydir. Gərək onu bacarasan. Mən onu gördüm, kitablardan oxumuşdum, Cavidin həyat yoldaşı rəhmətlik Müşkünaz xanım, Osman Sarıvəllinin həyat yoldaşı, o da

ağa qızı idi, bəy qızı idi. Şairin həyat yoldaşının yaxşı olmağı onun böyük xoşbəxtliyidir. O mənada İsa Hüseynovu da xoşbəxt edən cəhətlərdən biri də o idi ki, Firuzə xanım elə bil onun bütün yaradıcılığını əzbər bilirdi.

**Şəmil Sadiq:** Belə deyə bilərik da, "Söylülər olmasaydı Moşular dahi olardı".

**Zəlimxan Yaqub:** Düzdür, çox gözəl fikirdir. O qədər böyük istedadlar olub ki, hamısını görmüşəm bunların. Çoxunu arvadları məhv edib. Qaşıq niyə burdadır? Boşqab niyə ordadır? Çörək niyə burdadır?



**Şəmil Sadiq:** Gecə niyə gec yatırsan...

**Zəlimxan Yaqub:** Hə, belə gic-gic şeylərlə kişinin evini yıxıblar, istedadını öldürüblər, onlar heç bir şey olub. Halbuki mən tanıdığım şairlər (ad çəkməyəcəm), yazıçılar var idi ki, onları da arvadları bədbəxt elədi. Mən Tofiq Bayramla bağlı bir xatirə yazmışam. 525-də bu gün çıxıb. Vaxtın olsa oxuyarsan. Arvadı ağlayıb özünü öldürür sevindiyindən. Nə gözəl iş görüb, deyirəm ki, mən həmişə onunla bir yerdə olmuşam. Gərək özündən əvvəlki nəsli yüksək səviyyədə dərk eləməyi bacarasan, qiymətləndirəsən, bunları urvatlı saxlayasan ki, özün də urvatlı olasan.

**Şəmil Sadiq:** Zəlimxan müəllim, Bünyamin Aksunquru, bəlkə, tanıyasız? Türk xalq mahnıları ifaçısıdır. TRT Avazda veriliş aparır. Bu yaxınlarda elə Tofiq Bayramdan düşdü söhbət. Deməli, Türkiyənin 1973-cü ildə klassik musiqi ilə məşğul olan bir sənətkarı var imiş – Sevda Aydan.

**Zəlimxan Yaqub:** Hə, var idi.

**Şəmil Sadiq:** Bu, gəlib Azərbaycana, gələndə ona deyirlər ki, bəs ora gedirsən Sovet hökuməti...

**Zəlimxan Yaqub:**

Bir cüt qara göz görmüşəm, qaradan qara,
Qaranlıq işıq saçır, qaranlıqlara



**Şəmil Sadiq:** Deyəsən bu şeirin hekayəsini bilirsiniz...

**Zəlimxan Yaqub:** Hə, hə.

**Şəmil Sadiq:** Bünyamin müəllim bunu mənə ağlaya-ağlaya danışdı. Çünki bu şeirə onun öz yozumu vardı...

Bir cüt göz gördüm qətrandan qara,
Qara gözlər işıq saçır qaranlıqlara.

Deyirdi biz düşünürdük ki, "Sənin bu qara gözlərin var, biz də qaranlıq dünyadayıq, Sovet hökumətinin azərbaycanlılara verdiyi zülmdür. Sənsə bu

zülmətin içində türk qardaşlarının qəlbinə işıq saçırsan. Bir sözlə ictimai-siyasi şeir...

**Zəlimxan Yaqub:** Yox, inan ki, tam səmimiyyətlə deyirəm orda heç bir siyasət yoxdur. O, ilhamın malıdır, o cür gəlib, o cür yaranıb. Tofiq Bayram onu çox böyük sevgi ilə yazıb. O şeir çox gözəl şeirdir.

**Şəmil Sadiq:** Zəlimxan müəllim, İsa müəllimi neçə ildir tanıyırsınız?

**Zəlimxan Yaqub:** İsa müəllimi təxminən 30 ildir tanıyıram. Bakıda, bir yığıncaqda tanış olmuşam İsa müəllimlə. Ondan sonra bizim məhəbbətimiz çevrildi oldu ata-oğul məhəbbəti. Onunla danışanda, elə bil, ananla, dayınla, atanla, babanla, kənd adamı kimi danışırdı.



**Şəmil Sadiq:** Bu dostluq mənə də qismət oldu. "Oğul" deyə-deyə rəhmətlik hər dəfə zəng vuranda "yalla yalla, Şamil"lə başlayırdı.

**Zəlimxan Yaqub:** Onu Mehdi Hüseyn deyirmiş – "yalla" sözünü.

**Şəmil Sadiq:** Maraqlı xatirələriniz var sizin yəqin, onları bizə danışın.

**Zəlimxan Yaqub:** Belədir də, İsa Muğanna İsa Hüseynov olanda bu söhbətlər yox idi. Bütün söhbətlər

İsa Muğanna olandan sonra yarandı. Bu da "Muğ" nəsli ilə bağlıdır, qədim bir nəsildir, bunların nəslidir və bunlar "OdƏrlər", yəni türk dilində danışanlardır, SafAğ elminin nümayəndələridir. İşıqlı adamlar, təmiz adamlar, halal adamlar – bunlar hamısı SafAğ elimin nümayəndələri idi. İsa Hüseynov həmişə mənə deyirdi ki, sən SafAğ elminin nümayəndəsisən.

**Şəmil Sadiq:** Sizin haqqınızda yazdığı məqalədə də bunu qeyd edir.

**Zəlimxan Yaqub:** Hə, var. 5 məqaləsi var bu haqda. İsa Muğanna həddindən çox sirrləri olan, müəmmaları olan, düyünləri olan, açılmaz boxçası olan bir yazıçı idi. O, bir payını yazdı, min payını özü ilə o dünyaya apardı. Çünki əsərlərindən də görünür, Heydər Əliyevlə olan münasibətlərindən də görünür, bu münasibətlərin hamısında sirli-sehrli, ancaq Xudanın bildiyi bir şey var ki, onu ancaq İsa Hüseynov bilirdi.



**Şəmil Sadiq:** Sizin şeirlərinizlə böyümüşük – bulaq kimi axıb gələn, təbiəti andıran şeirlərinizlə hamımız tanışıq, mən də arada nəsə yazıram, amma İsa müəllimi oxuduqca fikirləşirsən ki, təxəyyülün məhsulu belə ola bilməz axı.

**Zəlimxan Yaqub:** Yox, bu, təxəyyül deyil. İsa Hüseynovda olan təxəyyül deyildi, məsələn, mən fikirləşirdim ki, bu "Yanar ürəy"i yazanda necə olub ürəyi

parçalanmayıb? "Kollu Koxa"nı yazanda necə olub? O Məmiş Əlləzoğlunu işləyəndə bu obrazı necə yaradıb? Səməd Əmirli və s. bu obrazları necə yaradıb? "Məhşər" – deyirsən bu əsəri yazanda necə olur bu əsərdə məhşər qopmayıb? Yəni o qədər güclü əsərlərdir ki, bunları təhlil etmək insan gücündən xaricdir.

**Şəmil Sadiq:** Doğurdan, çox çətindir. Məsələn, mən "GurÜn"ü oxuyuram, hal-hazırda onun üstündə işləyirəm, deməli, bir cümlə yazıram, 10 dənə kitab oxuyuram, bir cümlə yazıram 5-6 materiala baxıram. Niyə? Çünki bir də baxırsan gedir Misir mifologiyasına, bir də baxırsan gəlir əxiliyə. Nəsimi, Nizami fəlsəfəsi və s. O qədər intellektualdır ki...



**Zəlimxan Yaqub:** Bilirsən, ömrüm-günüm, İsa Muğannanın mütaliəsi heç bir yazıçıda ifadə olunmayıb. Eyni zamanda onun müşahidələri çox güclü idi. Bax, gedir çıxır, tutaq ki, Muğanlı kəndinə. Şahlıq dövrünün bir qarış torpağını elə təsvir edir ki, elə bilirsən bu saat həmin torpağın yanındadır. Həm müşahidə güclüdür, həm mütaliə. Amma həm müşahidədən, həm də mütaliədən əlavə, onun "Ün"ü, onun səsi hər şeyi həll edirdi ki, o Azərbaycanda ancaq İsa Hüseynova gəlib, o "Ün" də, o səs də. Çünki hamıya Ün gəlir, amma hamı onu eşitmir, hamıya səs gəlir, hamı o səsi eşitmir.

**Şəmil Sadiq:** Ya da düzgün yararlana bilmir o səsdən.

**Zəlimxan Yaqub:** Məsələn, mən Almaniyada olanda o səsləri, o Ünü eşidirdim. 25 gün mən ancaq İsa Hüseynovu oxudum, "İdeal"a təzədən baxdım, o biri əsərlərə də. Və bu yazı da 2-3 günün içərisində yazılıb. Birdən qələmi götürdüm gördüm gedir, başladım yazmağa. Yəni bunun özü də ündür, bunun özü də səsdir. Hardansa gəlir, yoxsa mütaliə ilə, müşahidə ilə olan şeylər deyil bunlar. Amma onu hamımız bilirik ki, İsa Hüseynovun mütaliəsi çox qeyri-adi bir mütaliə idi.

**Şəmil Sadiq:** Hə, danışırdı ki, Rusiyada olanda səhərə qədər kitabxanalarda işləyərdi. Firuzə xanım həmişə danışanda ki, gecəyə kimi işləyirdi, bir də görürdün səhər açılırdı.

Maraqlı bir məqam var İsa müəllimin yaradıcılığında. Bəşəri yazıçı, bəşəri şair anlayışı var. Bəziləri bəşəri şair və yazıçı deyəndə, sanki şair və ya yazıçının əsərinin və ya obrazının biri Azərbaycan, biri Türkiyə, biri Amerika, biri nə bilim Yaponiyadan bəhs etməlidir ki, bu bəşəri olsun.

**Zəlimxan Yaqub:** Elə deyil.

**Şəmil Sadiq:** İsa müəllim, bir regiondan yazıb, demək olar ki, obrazların hamısı Tovuz, Ağstafa, Qazax rayonundandır təqribən...

**Zəlimxan Yaqub:** Sənə bir şey deyim, o çox ciddi bir söhbətdir. Mehdi Hüseyn deyir ki, "sən nə çox atandan yazırsan?", İsa müəllim deyir ki, "mən atamı yaxşı tanıyıram". İsa Hüseynovun böyüklüyü orasındadır ki, atasını, əmisini, dayısını, babasını, ulu babasını, keçmişini, əslini – hamısını tanıdı, onların hamısını kitablara çevirdi. İndi gör nə olur. Adam dəhşətə gəlir, o, Nizamidən danışanda adam dəhşətə gəlirdi, heç kəsdə Nizami o cür açılmır.

**Şəmil Sadiq:** Nizamiyə indiyə qədər o cür yanaşılmamışdı. Nizaminin Əxiliklə bağlı fəlsəfəsindən **Bertelsdə** bir-iki cümlə var deyəsən. Amma İsa müəllim Ağ şeyxlərin, Eldəgizlər dövlətinin inkişafı ilə bağlı, Həsən Səbbaha fərqli yanaşması, tapınaq şovaliyələri ilə bağlı fikirləri çox maraqlıdır.



**Şəmil Sadiq:** İsa müəllim deyir ki, dünyanı elm qurtaracaq və bu "SafAğ" elmini mənimsəmək sizin dünyanızı – "OdƏr"i dünyaya tanıdacaq. Hüseyn Caviddə də var: Turana qılıncdan yalnız ulu qüvvət, mədəniyyət, mədəniyyət – çox belə oxşar cəhətlər var. Bəs siz necə, oxuyanda bir yaxınlıq görmüsünüzmü Cavidlə İsa Muğannada?

**Zəlimxan Yaqub:** Əslində, Cavid əfəndinin təfəkkürü, dünyagörüşü, mütaliəsi, türk dünyasından danışdığı, türk yurdunun gücü elə İsa Hüseynovda da var idi. Onlar, hardasa birləşirlər. Ruhda birləşir, nəfəsdə birləşir, təfəkkürdə, idrakda birləşir. Bunla-

rın arasında çox böyük yaxınlıq var. Cavid ilə Azərbaycan ədəbiyyatında heç kimi müqayisə etmək olmaz. Ona ancaq yaxınlaşan İsa Hüseynovdur, İsa Muğannadır.

**Şəmil Sadiq:** Mən hətta belə fikirləşirəm ki, İsa Muğannaya olan sevgimin əsas səbəblərindən biri Cavidi dərindən tanımağımdır. Yəqin, Caviddən bir az məlumatım vardı ona görə. Necə ki Nəsimini bilməyəndə "Məhşər"ə yaxınlaşmaq olmur

**Zəlimxan Yaqub:** Ay sağ ol, "Məhşər"i oxumazdan əvvəl gərək Nəsimini oxuyasan. "Məhşər"də həm Teymur açılır, həm Nəsimi açılır, həm də İsa Muğanna açılır. 3 böyük qüvvə var orda.



**Şəmil Sadiq:** Demək olar ki, İsa Muğannanı Muğanna çevirən Nəsimi oldu?

**Zəlimxan Yaqub:** Şübhəsiz. Doğrudan da, Nəsimi İsa Hüseynovun fəlsəfəsinə daxil olandan sonra İsa oldu Muğanna, başladı Muğannalıq dövrü.

**Şəmil Sadiq:** Bəli, görmək olur ki, "Məhşər"dən ustadın yaradıcılığında hadisələr dəyişdi. Bilirəm, hərdən yazıçılarla söhbətlərinizdə şirin zarafatlarınız da olurdu, İsa müəllimin yaradıcılığına inananlar da var idi, inanmayanlar. Son zamanlar İsa müəllim özü də danışırdı və mən də bilirdim ki, hətta İsa Muğanna yaradıcılığının konsepsiyasını bir təriqət, bir din gö-

rüb onun arxasınca getmək istəyənlər də var idi, hətta bir-iki dəfə qapısını döyüb deyiblər ki, "BağAta"-nın övladlarıdır, gəlmişik sizi görməyə, Firuzə xanım yaxın buraxmayıb. Siz necə fikirləşirsiniz, İsa Muğanna qalxıb desəydi ki, məsələn, mən də bir din yaradıram, təriqət yaradıram, peyğəmbərəm..

**Zəlimxan Yaqub:** Bilirsən, mən İsa Hüseynovu gördüyüm ilk görüşdən bir də son mənzilə yola salınana qədər ona inandım, onu sevdim, onun əsərlərini sevdim, özünü sevdim, xarakterini, təbiətini sevdim, dəfələrlə evlərində oldum, gözəl söhbətlər elədik. Amma, bu 30 il ərzində bir dəfə də olsun mənim onunla zarafatım olmayıb, həmişə ciddi söhbətlər etmişik. Yerdən, göydən, planetdən, ulduzdan, aydan, axar sudan, qaynar çeşmədən, göy otdan, açılan çiçəkdən, solan yarpaqdan, Allah yaratdığı nə varsa hər şeydən çox maraqlı şeylər danışırdıq. Bax, adi bir yarpaqdır, mən də baxıram, İsa Muğanna da baxır. Mən deyirəm yarpaqdır, Muğanna baxıb yarpaqda bir dünyanı təsvir edirdi ki, bax yarpaq buna görə yarpaqdır.

Amma mən bir şeyə çox təəssüf edirəm, siz də, mən də, İsa Hüseynov sevənlər də Allah qoysa çalışaq bu kişini bir az açaq. Açılmamış getdi. Bağlı getdi. Və ondan da nigaran getdi ki, mən niyə başa düşülmədim? Onu yazırdı, onları nəzərdə tutmuşdu...

**Şəmil Sadiq:** Özünün bir səhifəlik roman dediyi yazısı var – "Mənim məhəbbətim", sanki bir səhifədə bütün konsepsiyasını qeyd edib.

**Zəlimxan Yaqub:** Bilirsən, mən yenə deyirəm, İsa Hüseynovun əvvəl yazdığı əsərlər ayrı, Muğanna olandan sonra yazdığı əsərlərin vallah, billah heç birini özü yazmayıb, onu yazdırıblar. Ona deyiblər köçür, o da köçürüb, çünki bu insan ağlından, insan beynindən, insan zəkasından, insan ürəyindən xaric olan şeylər var ki, hamısını İsa Hüseynov kitaba gətirib.

**Şəmil Sadiq:** Siz İsa müəllimi Muğanna kimi tanıdınız ilk görüşdə, yoxsa elə Hüseynov kimi?



**Zəlimxan Yaqub:** Yox, İsa Hüseynov kimi tanıdım.

**Şəmil Sadiq:** Sonrakı müddətdə xarakter olaraq dəyişiklik görünürdü yəni insan, şəxsiyyət olaraq?

**Zəlimxan Yaqub:** Görünürdü. Dəyişiklik var idi. Məsələn, bəzən elə şey deyirdi ki, heç kəs ona inanmazdı, amma mən inanırdım. Yəni mənim ona dəhşətli bir inamım var idi. Özün də bir ədəbiyyat adamı kimi gözəl bilirsən ki, hər şeyi inam yaradır, inam, inam, inam... Səməd Vurğunun böyüklüyü də, Hüseyn Cavidin böyüklüyü də, İsa Muğannanın böyüklüyü də - hamısı inamdan irəli gəlirdi. İnanırdı, inanıb yazırdı.

**Şəmil Sadiq:** Deyəsən, Anarın sözü idi – "öz yazdığına inanan, inandığını yazan sənətkardır İsa Muğanna".

Mən çox çalışdım öyrənməyə ki, İsa müəllim yazdıqlarına tarixmi deyir, yoxsa ədəbiyyatmı?

**Zəlimxan Yaqub:** Hər ikisi. Həm tarixdir, həm ədəbiyyatdır.

**Şəmil Sadiq:** Açıq olaraq demirdi axı...

**Zəlimxan Yaqub:** Yox, o, heç vaxt demirdi tarix yazmışam. Onun tarixində ədəbiyyat var idi, ədəbiyyatında tarix var idi. Təkcə "İdeal"ı oxu, bir də görəcəksən ki, başdan-başa Azərbaycan xalqı olmaqla bərabər, həm də dünyadır, planetdir, kainatdır, həyatdır. Yəni onlar bir-birindən ayrı olmur. Səhv etmirəmsə yeganə adamdır ki, onun haqqında nə hər jurnalist danışa bilməz, nə hər oxucu danışa bilməz. Xüsusi adamlar var ki, onlar danışa bilərlər.



**Şəmil Sadiq:** "Cəhənnəm"i oxuyandan sonra getmişdim yanına, rəhmətlik ilə elə son görüşümüz onda olub, dedim istəyirəm əsərlərlə bağlı söhbət edək, fikirlərinizi alım, hər mövzunun qabağına sizin fikirləri yazım. İsa müəllim dedi ki, sən mənə de görüm nə başa düşmüsən? Mən də başa düşdüyüm dərəcədə danışdım. Söhbət açıldı, yenidən mövzuya qayıtdıq. Mənim "İdeal"dan sonrakı prosesdə ən çox bəyəndiyim əsər "Cəhənnəmdir".

**Elxan Nəcəfov:** Çox çətin əsərdir, çox.

**Zəlimxan Yaqub:** Dəhşət əsərdir, bir qırıq əsərdir, on dənə romandır. Bünyad bəyin obrazında hər şeyi açıb, cənnəti də, cəhənnəmi də bu dünyasında, o dünyasında açıb, şeytanı da, iblisi də...

**Elxan Nəcəfov:** Bu əsərdə müasirlik daha çoxdur.

**Şəmil Sadiq:** Elə janr baxımından postmodernist ədəbiyyatın ən yaxşı nümunələrindən biridir, çünki zaman və məkan anlayışı da yoxdur. Bir baxırsan real həyatdan danışır, bir də görürsən getmisən göydəsən. Mən məqalənin adını belə qoymuşdum: "İsa Muğannanın cənnət kimi cəhənnəm modeli". Çünki cəhənnəmin içərisində verdiyi qadına münasibəti... İsa müəllimdə bəşəri ideyalar, din, millət, fəlsəfə axtarışında oluruq, amma alt qatında bir şey var, xəyanət deməyək, qadın-kişi münasibətinə fərqli yanaşması var.



**Zəlimxan Yaqub:** O, dünya ədəbiyyatında yazılan şeylərdir. Dünya ədəbiyyatında da var, bizə də İsa müəllim onu gətirdi və düz elədi. Elə hallar həmişə olur.

**Şəmil Sadiq:** Həyatın qanunudur, qaçmaq olmur. Zəlimxan müəllim, İsa müəllimin dinə – İslama münasibəti necə idi, sizcə?

**Zəlimxan Yaqub:** Onun İslama münasibəti adamı heyrətə salırdı. Adamı çaşdırırdı, adamı dolaşdırırdı. Çünki Məhəmməd peyğəmbərə münasibəti ayrı idi, Qurana münasibəti ayrı idi, Allaha da ayrı idi. Allaha "ƏlAğ" deyirdi həmişə. Və Azərbaycan ədəbiyyatında İsa Muğanna yeganə adam idi ki, 4 müqəddəs kitabın dördünə də şübhə ilə yanaşırdı. Və şübhələrini də əsaslandırırdı – mən niyə buna belə baxıram, niyə belə deyirəm, niyə belə yazıram, niyə belə düşünürəm?! Bunların hamısı möcüzə idi. Mən dəhşətə gəlirdim o, "Quran"la bağlı şeylər danışanda.



**Şəmil Sadiq:** "Türfə"ni oxumusunuzmu? Son əseridir.

**Zəlimxan Yaqub:** Yox.

**Şəmil Sadiq:** Sizə bir şad xəbər deyim, çapa hazırlayıram.

**Zəlimxan Yaqub:** Çox yaxşı. "Türfə"di, yoxsa "Türbə"di?

**Şəmil Sadiq:** "Türfə"di, amma çox maraqlı yanaşması var, Türfənin mənası gözəl deməkdir. Amma İsa müəllim Türfəni ibadətgah kimi verib. Nəqşibəndiliyin nümayəndələri ora yığışır. Balaca bir kitabdır, öz dünyagörüşü ilə cəmiyyətdə bir çox şeylərin izahını verir.

**Zəlimxan Yaqub:** Oxuyarıq Allah qoysa.

**Şəmil Sadiq:** "İdeal"da cümlə-cümlə, o birilərdə xırda-xırda verdiklərini toplu şəkildə bu kitabda açıb qoyub.

**Zəlimxan Yaqub:** Maraqlı bilirsən nədir? İsa Hüseynov yeganə adam idi ki, 80 yaşında işlədiyi enerji ilə 20 yaşında da işləmişdi. 80-85-də də çox sağlam idi, ayıq idi.

**Şəmil Sadiq:** Sizlə İsa müəllimi bağlayan yəqin ki bir də sazdır.



**Zəlimxan Yaqub:** Şübhəsiz, elə 1-ci sazdır. O, məni çağırdı getdim evlərinə (bu söhbətin 20 ildən çox tarixi var), bir neçə hava dedi, çal dedi bunları, mən çaldıqca o əliylə başını tutub deyirdi "Allah, bu nədir", sonra özü aldı çaldı (şəkillərimiz var saz ilə), izah elədi. Bütün böyük ustadların hamısının sazını mən çalmışam, amma İsa Hüseynovun sazını çalanda mən dəli olurdum. Bu nədir? Nə deyir bu? Bu nə səsdir? Bu nə kökdür? Bu nə simdir? Saz özü də dəhşətli bir şey idi. Özdə sazı çaldıqca elə bil səs elə sazdan gəlirdi.

**Şəmil Sadiq:** Axırıncı müsahibəniz var idi, Nigar xanımla (Kaspi qəzetində), deyəsən, demişdiniz saz küsüb məndən, ya əksinə siz sazdan küsmüsünüz?

**Zəlimxan Yaqub:** Yox, ikimiz də bir-birimizdən küsmüşük.

**Şəmil Sadiq:** İsa müəllim də deyirdi ki, küsmüşəm, amma bir gün çalacam!

**Zəlimxan Yaqub:** Bilirsən, İsa Hüseynovun böyüklüyü nədə idi? O, həmsöhbət olduğu adamın səviyyəsini yoxlayırdı, sonra danışırdı. Görürdü ki, kimsə səviyyəsizdir, iki kəlimə söz deyib başını buraxırdı. Onunla həmsöhbət olmurdu. Amma biz otururduq saatlarla danışırdıq, hər şeydən danışırdıq – otdan, güldən, çiçəkdən, aydan, ulduzdan, yerdən, göydən, planetdən, insandan, kosmik gəmilərdən – Allahın yaratdığı, insanın yaratdığı nə varsa hər şeydən. Amma çox maraqlı, çox gözəl danışırdıq. Məsələn, mən Hüseyn Arifi əzbər bilirəm, Hüseyn Ariflə 5 dəqiqə söhbət edəndə bilirdin ki, böyük şairdir, həm də özünün böyük şair olduğunu dərk edirdi. Amma şairlər var ki, on saat söhbət elə bir kəlimə də heç nə qanmaq olmur. İsa Muğanna da belə adam idi. Onda elə bir çöhrə, elə bir görünüş, elə bir oturuş-duruş, lap çörək yeməyin özünə qədər qeyri-adi idi, çox qeyri-adi idi. Və mən ondan çox şeylər öyrəndim. Çox şeylər götürdüm. Bir də görürdün zəng edir, mən çox zəng edirdim, o hərdənbir – ayda bir dəfə, iki ayda bir dəfə: "Ağa, nə var nə yox? Deyirdim sağ ol, qağa, sən nətərsən? Deyirdi yaxşıyam, fikrimdən sən keçirdin, sənlə bağlı filan yazını işləyirəm. Deyirdim

çox sağ ol, qağa, minnətdaram." O, həmişə istədiyi, sevdiyi adamların üstündə əsməyi də bacarırdı.

**Şəmil Sadiq:** Həmişə də axtarırdı. Mən gözləmirdim, verdim romanımı oxudu, özü də demişdi böyük şriftlə çap elə, zəng elədi: "Yalla, romanını oxumuşam, gəl bir az söhbət edək. Xeyli qeydləri var idi, dedi bu qeydləri yazmasan kitabı çap etməyə icazə vermirəm"

**Zəlimxan Yaqub:** Özü də, bütün dünya aləm yığılaydı onu dediyindən döndərmək olmazdı.

**Şəmil Sadiq:** Bu, çox önəmli xüsusiyyətdir, mənə də bir dəfə dedi ki, sən yazıçısan, kim nə deyir desin, onun dediyinə görə nəyisə dəyişməyəcəksən ki. Mən belə deyirəm, xoşları gəlir gəlsin, gəlmir gəlməsin.



**Zəlimxan Yaqub:** Həm də onun böyüklüyü nədə idi? O kimlə ki söhbət edirdi, o həmsöhbət olan adam elə bilirdi ki, əmisi ilə, dayısı ilə, atası ilə danışır, belə çox doğma bir aura yaranırdı adamda.

**Şəmil Sadiq:** Yazıçılar Birliyində, deyəsən, o dövrdə bir xeyli problemlər olub. Bir dəfə bir hadisə danışmışdı, "Həyatımdan səhifələr"də də yazıb. Siz də yaxşı bilərsiz, mənə də maraqlıdır, Nizami müəllimin sözüdür deyəsən, deyir ki, "İsa müəllim şəxsi taleyi ilə milli taleyi birləşdirmişdi."

**Zəlimxan Yaqub:** Aşıq Alıdan danışır ki, atamın da toyunu edib, mənim də toyumu edib, o qədər gözəl açır o məsələləri. Yəni İsa Hüseynovun mütaliəsində müşahidə gücü var idi, müşahidəsində mütaliə gücü var idi. Ona görə heç kimə bənzəmirdi. İndi yazıçılar, şairlər var, iki dənə kitab oxuyur, onunla da qurtardı daha, amma gərək ölənə qədər, Məhəmməd Peyğəmbər demişkən, qəbir evinə qədər oxuyasan, yazasan, yaradasan.

**Şəmil Sadiq:** Oxumadan yazmaq olar, sizcə?

**Zəlimxan Yaqub:** Olar, amma istədiyin şeyi ala bilməzsən.



**Şəmil Sadiq:** Siz demişkən, cavan şairlər bəzən deyirlər, Aşıq Ələsgər şeir oxuyurdu, kitab oxuyurdu belə böyük şair olmuşdu?

**Zəlimxan Yaqub:** Aşıq Ələsgər bütün dastanları əzbər bilib. Çünki Aşıq Alıdan gəlirdi. Bir dəfə rəhmətlik Məmməd Araza dedim "əmi, bir şeyə mən məəttəl qalmışam, Naxçıvanda yaşayıb yaradan şairlər əksəriyyəti divan ədəbiyyatında yazıb yaradır. Amma səndə nə qədər qoşmalar var. Deyir, Zəlimxan, bizim evə Göyçə aşıqları həmişə qonaq gələrdi, atamın qonağı olardılar. Onlardan mənim ürəyimə, qanıma hopdu." Elə-belə deyil bu. Ruhdu da keçir. Məmməd Araz Naxçıvan ədəbiyyatına yenilik gətirdi.

**Şəmil Sadiq:** Zəlimxan müəllim Qazax şairləri ilə Tovuz şairləri arasında maraqlı bir rəqabət var sanki..

**Zəlimxan Yaqub:** Yox. Qazax çox güclüdür. Tovuzda elə sən deyən maraqlı bir şey yoxdur.

Bilirsən, əslində, bax təsəvvür elə də, hər şey vaxtladır, Vaqif, Vidadi, Səməd Vurğun, Osman Sarıvəlli, İsa Muğanna, Hüseyn Arif – hamısı Qazaxdan çıxdı. Ona görə Qazaxın yeri başqadır. Şirvanın yeri başqadır. Naxçıvanın yeri başqadır. Göyçənin yeri başqadır. Hər birinin özünəməxsusluğu var. O Tovuz rayonunda daha çox aşıq sənəti inkişaf etdi. Böyük aşıqlar yarandı. Böyük ustadlar yarandı. Onlar da hamısı Azərbaycan ədəbiyyatında öz yerini tutdu.



**Şəmil Sadiq:** Hərdən mən fikirləşir və şükür edirəm ki, bu ərəblər, farslar siz tərəflərə o qədər gedib çıxa bilməyiblər....

**Zəlimxan Yaqub:** Naxçıvan, Göyçə, Qazax, Borçalı, Dərbənd, Ordubad – bunlar hamısı xalis türklərdir. Amma sonra Bakıda ərəblər aləmi qarışdırdı.

**Elxan Nəcəfov:** Zəlimxan müəllimdən mən də narahat olduğum bir şeyi soruşum. Dediniz həm siz küsmüsüz, həm də saz küsüb, bu sazı bir də küsdürənlər var, sazı müxtəlif formalarda çalanlar var.

**Zəlimxan Yaqub:** Onlar hamısı səhv edir, dəfələrlə televiziyada deyirəm çıxışlarımda, böyük günahdır, böyük səhvdir, ustadlara hörmətsizlikdir, Dədə Qorquda, Aşıq Ələsgərə hörmətsizlikdir. Saz müqəddəs alətdir, onda oxunan şeirləri oxuduqca adamın başının tükü qalxır, sən sazı haraya boynuna mindirirsən, saz sinədən ötrüdür. Yeri ürəyin üstündədir. Yaddan çıxıb gedəcək o yamaqlar. Boş şeylərdir.

**Elxan Nəcəfov:** Sözsüz, qınaq obyektinə çevriləcəklər. Space tv-də olan verilişdə alqışlananlar da, qınaq obyektinə çevrilənlər də oldu. Bir də xalq Zəlimxan müəllimdən ona bir etiraz gözləyir.



**Şəmil Sadiq:** Həmişə aşıq müqəddəsdir, kultdur, belə olub. Amma indi aşıqlar ehtiyacdanmı çıxır ortalığa, nədən yaranır bilmirəm, bu 3-5 manatlıq aşıqlar çıxıb ortalığa... Yəni bunun adı mütrüflükdü.

**Zəlimxan Yaqub:** Bəli, mütrüflük edirlər.

**Şəmil Sadiq:** Təsəvvür edə bilmirəm saz o mütrüflüyə yaraşsın.

**Zəlimxan Yaqub:** Şou edirlər, o da heç bir şey olmur...

**Şəmil Sadiq:** Qəribə xalqıq, qazax qardaşların dombraya qoyduğu dəyəri biz saza qoya bilmirik.

**Zəlimxan Yaqub:** A kişi, sən niyə onu deyirsən. Almaniyada, Berlində gəzirik. Mərkəzi küçələrdən biri ilə gedirik. Gördüm saz dükanı var. Elə sevindim. Girmək istəyəndə yanımdakılar dedi, Zəlimxan müəllim, girmə, bu, ermənilərin dükanıdır. Berlində erməni saz dükanı. Biz özümüzünkülərə yiyə durmadıqca düşmən bir-bir aparır.

**Şəmil Sadiq:** İsa Muğanna ilə qeyri-rəsmi münasibətlərinizdən, xatirələrinizdən yadınızda qalan var?

**Zəlimxan Yaqub:** Vallah, həmişə onun evində görüşmüşük. Söhbətlərimiz elə həmişə ədəbiyyatdan olub, yazdığı əsərlərdən olub, yaradıcılığından olub, istədiyi adamların yaradıcılığından olub, belə. Dəhşətli dərəcədə çox zəngin adam idi.



**Şəmil Sadiq:** Ziya Bünyadovla, deyəsən, münasibəti olmayıb. Ziya Bünyadov hətta İsa Muğannaya deyib ki, səni öldürmək lazımdır.

**Zəlimxan Yaqub:** Hə, araları olmayıb.

**Şəmil Sadiq:** Yəqin tarixə müdaxilələrinə görədir.

**Elxan Nəcəfov:** Dini dünyagörüşləri də səbəb ola bilər.

**Zəlimxan Yaqub:** Tarixə münasibətdə barışmırdılar bir-biriləri ilə.

**Şəmil Sadiq:** Bir də bu "OdƏr" dili deyir İsa müəllim buna necə baxırsınız?

**Zəlimxan Yaqub:** Bilirsən, əslində, OdƏrlər mövcud olub, onlar türklərin babalarıdır, türk dili deyilən dil elə OdƏr dilidir. Amma sonradan dəyişikliklər, cəmiyyətdə yerdəyişmələr, zaman məkan dəyişməsi – bunlar hər halda İsa Hüseynovun yazdıqlarına mən bütün həyatımda inanmışam, inanıram, ölənə qədər də inanacam. Çünki o, boşuna söz demirdi.

**Şəmil Sadiq:** Bu "İdeal"dan sonrakı yaradıcılığını oxuyandan sonra saza, "Kollu koxa"ya qayıda bilirsiz, yoxsa?



**Zəlimxan Yaqub:** Qayıtmışam, onların hamısını böyük məhəbbətlə bir də oxumuşam, yəni qayıtmamaq olmur. İsa müəllim elə yazıb ki yazdıqlarını onlara qayıtmamaq olmur.

**Şəmil Sadiq:** Müasir yazıçılardan kimi oxuyursunuz və ya son oxuduğunuz əsər hansıdır?

**Zəlimxan Yaqub:** Son oxuduğum elə Nihal Atsızın "Ruh adam" əseridir.

**Şəmil Sadiq:** Son şeirlərinizi çap etdirməyi düşünürsünüzmü?

**Zəlimxan Yaqub:** Mənim yanvarın 21-də 65 yaşım olur, bu münasibətlə iki kitabı Mədəniyyət Nazirliyi hazırlayır. Birini Azər Turan hazırlayır, 4-5 kitab çıxacaq.

**Şəmil Sadiq:** icazə versə idiniz birini də mən hazırlayardım.

**Zəlimxan Yaqub:** Edərik Allah qoysa, qoy bunlar çıxsın.

**Şəmil Sadiq:** Zəlimxan müəllim, sizin yaradıcılığınızda necə? Şifahi xalq ədəbiyyatı önəmli rol oynayır, bu aydındır. Mən son yaradıcılığınızı poemadan gördüm, sonrakıları izləyə bilməmişəm. Sanki bir ilahi şeir xətti başlayıb, yoxsa lap elə əvvəldən bu var idi?



**Zəlimxan Yaqub:** Bilirsən necədir, Şəmil, həqiqi mənada İsa Muğannanın mənə çox böyük təsiri var. Hər şeyə şübhə ilə yanaşmaq, o şübhənin içindən həqiqəti çıxarmaq, həqiqəti ortaya qoymaq, özünü inandırmaq. 65 yaş şair üçün az yaş deyil, mənim indiyə qədər 50-dən çox kitabım çap olunub, müxtəlif illərdə, müxtəlif dillərdə. Hərəsinin öz yeri, öz gözəlliyi var, amma indi görürəm ki, getdikcə daha çox İlahiyə doğru gedirəm, daha çox adam göylərə doğru gedir, elə bil insan yerdən aralanır. Elə bil insan torpaqdan aralanıb göylərə doğru gedir, ayla, ulduzla, buludla, şimşəklə, üfüqlə, parıltı ilə, göylərlə danışır.

İnsanı bu vəziyyətə insan ömrünün mərhələləri gətirir. İndi, bax bu son yazdığım "Ün" poemasıdır. "Ədəbiyyat" qəzetində bir yazı çıxmışdı – Əhməd Ağaoğlunun "Tanrı dağı", onu mən oxudum, oxuyandan sonra bir bəndlik şeir yazdım. Çox təsirləndim, insan yaşa dolduqca daha çox dərinlərə getmək istəyir, məsuliyyət artır, oxucunun tələbatı artır, təcrübən artır, yaradıcılıq niyyətin güclənir, İsa Hüseynov kimi sən çap etdiyin kitabçada balaca bir şeirdir – "Ölümdən sonrakı həyat", amma nə qədər gözəldir.



**Şəmil Sadiq:** Zəlimxan müəllim, şeirlərdə necə? Siz yazdıqlarınızı, məsələn, nə vaxtsa qayıdıb hansısa şeirinizi redaktə etmək fikrinə düşmüsünüz?

**Zəlimxan Yaqub:** Demək olar ki, yox. Mən bir əsəri yazdım, yaddaşıma köçdü, qurtardı, daha ona ölüm yoxdur, harasından istəsən sənə əzbər deyim.

**Şəmil Sadiq:** Zəlimxan müəllim, son şeirlərinizdən birini eşidə bilərik?

**Zəlimxan Yaqub:** "Təklik" şerini oxuyuram:

Titrəyən dilimdir, alışan ağzım,
Göynəyən dişimdir, təkliyim mənim.
Yağdırar başıma qarı, boranı,
Sərt gələn qışımdır, təkliyim mənim.
Təklik qəbirdəki ölü kimidir,

Nə sən dillənirsən, nə dindirən var.
Nə sən bir kimsəni isindirirsən,
Nə səni bir dəfə isindirən var.
Yetimlik, yalqızlıq, tənhalıq, təklik,
Qəmli könüllərin sirdaşlarıdır.
Dünyada nə qədər duzlu su varsa,
Tək olan kəslərin göz yaşlarıdır.

## İsasız Firuzə Muğanna ilə söhbət

*İsa Muğannanın ocağı ... Senet.az-ın təsisçisi və müəllimim Şəmil Sadiqlə birlikdə bu ocağın qonağı idik. Məqsədimiz də Firuzə xanımın İsa Muğanna haqqındakı xatirələrini yığıb bütöv bir kitab kimi çap etdirməkdir. Evin qəribə, insanı rahatladan ab-havası vardı. Çox narahat, tez həyəcanlanan bir adam olsam da qəribədir, bu evdə o hisslər mənə yad oldu. Bizi İsa müəllimin qızı – Sevinc xanım qarşıladı. Simasında sevinclə kədərin qarışığından bir ifadə sezilirdi. İsa Muğnannanın xanımı Firuzə xanım otaqda bizi gözləyirdi. Adımı öyrəndiyində dedi ki, nəvəsinin də adı Səmadır. Bunu eşidcək ürəyimdən uşaq şıltaqlığı ilə sevinmək keçdi. Onun dediyinə görə Səma da yaşının az olmasına baxmayaraq yazılar yazır... Demək yeni bir yazıçı yetişir. Buna sevindim. Söhbətə başladıq. Söhbətimizdəki hadisələr qırıq-qırıq, rabitəsiz olsa da, olduğu kimi təqdim etməyə çalışacam, çünki bu İsa Muğanna ilə bağlı xatirələrdir. Qırıq və rabitəsiz olsa da dəyərlidir...*



***

İsa Mustafa oğlu Hüseynov (Muğanna) 1928-ci ildə Ağstafa rayonunun Muğanlı kəndində müəllim ailəsində dünyaya gəlib. Atası Mustafa məktəb direktoru, anası Xədicə isə tibb bacısı idi. Mən isə Qazaxda yaşamışam. İsa tətillərdə bizə gələrdi. Çox dəcəl uşaq idi. Çəkinirdi məndən. Mən çox sakit qız idim. O qədər sakit idim ki, məndən bir söz qoparmaq üçün kəlbətin lazım idi. Ancaq məktəbdə əla oxuyurdum. Elə məktəbi də əla qiymətlərlə bitirdim.

İsa orta məktəbi məndən bir il əvvəl bitirmişdi. O, Tibb Universitetinə imtahan verib qəbul olmuşdu. Mən də həmin universitetə daxil oldum. İsa II kursda oxuyanda dedi ki, oxumaq istəmirəm, həvəsim yoxdur. Anası ona nə qədər dil tökdü, İsanı qərarından uzaqlaşdıra bilmədi. İsa dedi ki, heç kəs mənə yalvarmasın, mən oxumuram, mən yazacam. O Tibb Universitetindən çıxanda dedim ki, yaxşı oldu ki, getdi, bir yerdə oxumadıq...

***

*Bu vaxt Firuzə xanımın yadına uşaqlığından maraqlı bir hadisə düşdü...*



...Uşaq vaxtı İsa bir dəfə bazardan iki balıq alıb gətirmişdi. Anama dedi ki, balıqları saxlamaq üçün bir qab versin. İsa həmin qabda balıqları saxladı. Ancaq balıqların ömrü çox da uzun olmadı. Anam balıqların qoxusundan şikayətlənirdi. Bacım Gülarə dedi ki, darıxma, onun balıqlarına mən divan tutum, o da baxsın. Balıqların başlarını kəsdi, amma onları qızartmağa cəhd etmədi. İsa gəlib gördü ki, qab qana bulaşıb. Bildi ki, balıqları Gülarə kəsib. Gülarə isə evdən qaçıb gizləndi. İsa dedi ki, balıqları bişir, amma canı çıxsa da, bundan bir tikə də ona yeməyə verməyəcəm. (gülür-red)

***

Müharibə illəri çox çətin illər idi. İsanın atası Berlində idi. Ordan çoxlu pal-paltar göndərmişdi.

Xalam (İsanın anası) ən yaxşılarını mənim üçün seçdi, dedi ki, al bunları, sən institutda oxuyursan. Mənim heç yadımdan çıxmaz ki, ayaqqabı almağa pulum yox idi. Qışı yay ayaqqabısı ilə keçirtməli oldum. O vaxt Bakıda bərk qar yağmışdı. Corabı corab üstündən geyinirdim. Hər şey indiki kimi deyildi. Çox çətin vaxtlar idi...

*Aradabir sükut yaranırdı... Firuzə xanım danışdıqca sanki yaddaşındakı kitabın səhifəsini biz də onunla bərabər vərəqləyirdik. Hər fasilədə otağın sol küncündəki İsa Muğannanın portreti gözümə dəyirdi. Sanki indi o da bizimlə bax bu otaqda ötüb-keçənləri xatırlayır, sakitcə dinləyirdi...*



***

Səhər saat 5-də durub "kartoçka" (kitabça) ilə 400 qr çörək alırdıq. Həmin qarlı qış günündə yataqxanadakı oğlanlarımız dedi ki, qızlar getməsin, "kartoçka"ları verin bizə biz gedək alaq. Semaşkonun (İndiki 1 saylı Şəhər Klinik xəstəxana) yanındakı mağazadan alıb gətirdilər. Müharibə illərində kartof, düyü tapılmazdı. Anam yaydan əriştə kəsərdi...

***

İsa universitetə daxil oldu (Bakı Dövlət Universiteti – red) Filologiya fakültəsinə. Universiteti əla qiymətlərlə bitirdi. Mehdi Hüseyn ( o zaman Yazıçılar İttifaqının katibi idi) İsaya dedi ki, "Sən çox qabiliyyətli oğlansan. Gəl səni Moskvaya oxumağa

göndərək. Mehdi Hüseynə "Mehdi qağa " deyirdik. İsa dedi ki, Mehdi qağa, mən rus dilini bilmirəm.

Mehdi dedi: "Öyrənəcəksən. Balaca kitablardan al, oxu". Həqiqətən də rus dilini öyrənə bildi. Amma atası, onu həmin il Moskvaya getməyə qoymadı. Dedi: "Ailə qur, sonra get Moskvaya." Həmin il ailə qurduq. İsa sonra Moskvaya getdi (Maksim Qorki adına Ədəbiyyat İnstitutuna daxil oldu – red). Burdan təyyarə ilə Moskvaya getmək üçün Həştərxana, ordan Stalinqrada getmək lazım idi. Stalinqraddan da Moskvaya... Sonra İsaya teleqram göndərdim ki, Moskvaya gəlmək istəyirəm, Ağstafada qala bilmirəm. İsa razılığını verdi. Qaynatam məni yola saldı. Moskva hava limanına çatdım. İsa məni hava limanında gözləyirdi. Yanında da bir kök oğlan var idi. İsa dedi ki, tanış ol, bu Nəbi Xəzridir, mənim dostumdur. Ev də kirayələmişəm. Qladkovun evidi".



Ev dağın başında idi, ayağından çay axırdı. Bu ev Qladkovun bağ evi idi. Smirnovla qonşu idik. Smirnov çox varlı adam idi. Kənarda inək, qoyun, at saxlayırdı. Günorta gətirib inəkləri sağır, südündən yağ-pendir hazırlayırdılar. Ancaq Qladkov ondan qat-qat yaxşı insan idi. Maraqlı yer idi, həm də soyuq idi. Kişinin 2 otağı vardı. Birində biz qalırdıq. Burda yaşamağa başladıq. Qəribsədim. İsaya dedim ki, burda yaşamaq mənə çox çətindi. İsanın da atası müharibədən yeni gəlmişdi. Hər ay bizə pul göndərməyə imkanı yox idi. İsa da çox qürurlu idi. Atasına dedi "Ata, pul göndərmə, mən öz ailəmi özüm saxlayacam".

Məqalələr işləyib çap edirdi. Yazılardan qazandığı pulla çox yaxşı dolanırdıq. Hələ pulumuz da artıq qalırdı. Stalin yazıçılar üçün ayrıca mağaza açmışdı. Toyuğun biri 15, kartofun kilosu 1 qəpik idi. Bazar günü olanda İsayla birgə oxuyan uşaqlar bizə gəlirdilər. Yalvarırdılar ki, ev xörəyi bişirim. Bişirərdim, bizdə yeyib gedərdilər. İsa çox gözəl insan idi. İsaya biri deyəndə ki, pulum yoxdu, acam, cibindəki pulun yarısını ona verərdi...

Moskva çox gözəl idi. İldə heç olmasa iki dəfə Moskvaya gəzməyə gedirdim. Moskva mehmanxanasında həmişə yerimiz var idi. İsa Bakıdan Yazıçılar İttifaqına teleqram göndərər, ordan da bizə cavab gələr, gedərdik. Bütün bunlar dövlət hesabına olurdu. Moskvada İsanın dostları çox idi, onlardan biri Aleksandr Fadeyev idi. Fadeyev İsa haqqında ədəbiyyat qəzetində məqalə yazmışdı ki, Azərbaycanın ən yaxşı yazıçısı İsa Hüseynovdur.



Moskvadan qayıdandan sonra qalmağa ev-eşik yox idi. İsa Azərnəşrdə işləyirdi. Nizami kinoteatrının yanında ev kirayələmişdik. Həmin evdə bizimlə birgə mənim 3 bacım, İsanın 4 bacısı, 2 qardaşı da qalırdı. Axşam olanda bütün otaq boyu yorğan-döşək salınardı. Yatmağa yer də yox idi. İsanın şüşəbəndi var idi, həmişə orda işləyərdi. Bir gün məni yuxudan tıqqıltı səsi oyatdı. Ayağa durub gördüm ki, İsa çörəyi kiçik-kiçik doğrayıb nəyi isə yemləyir. Diqqətlə baxanda gördüm ki, balaca-balaca siçanlardı. Mən də siçandan yaman qorxuram. İsa mənə, atama, anama and verdi ki, dəymə bunlara. Siçanlar

İsaya o qədər öyrəşmişdilər ki, ayağının ətrafında fırlanırdılar. O hər gün siçanları yedizdirirdi. Hətta su da qoymuşdu ki, içsinlər. Bax, İsa bu cür ürəyi nazik insan idi. Çox gözəl insan idi. O qədər zəhmətkeş idi. Gecə-gündüz işləyərdi...

*Firuzə xanım danışdıqca həmin səhnə gözümün qabağında canlandı. O böyük dahi insanın qəlbinin necə kövrək olduğunu gördüm. Divara söykənmiş portretindəki simasına, gözlərinə baxdım. Gözlərində mərhəmət, sevgi və müdriklik var idi...*

***



Mən İsayla sevib ailə qurmamışdım. Tibb İnstitutunda oxuyanda 1 il Qazaxa getməyib yataqxanada qaldım. Dedim mən onu sevə bilmərəm, xalam oğludu. İsmayıl Şıxlı bizə hər gün gəlirdi. O, orta məktəbdə mənim müəllimim olub. Məni çox istəyirdi, elə İsanı da... Mənə deyirdi ki, Firuzə, bax gör necə gözəl insandı. İsa İsmayıl Şıxlıya çox kömək edib. Kimlərə kömək etməyib ki, Bayram Bayramova, Əkrəm Əylisliyə... Əkrəm Əylisli bir dəfə bizə gəldi. İsadan kömək istəyirdi, dolanışığı çətin idi. O vaxta kimi Əkrəmi görməmişdim. Çünki o zaman hələ oxuyurdu, işləmirdi. İsa dedi ki, darıxma mən sənə kömək edərəm. Əkrəm gedəndən sonra mən də nə qədər ağladım, İsaya dedim ki, ürəyim ağrıyır, ona kömək et. İsa ona çox kömək etdi. Ancaq Əkrəmin “Daş yuxular” əsəri çap olunanda İsa zəng edib

onu danladı. Dedi ki, bu torpağın suyunu içmisən, çörəyini yemisən heç xəcalət çəkmirsən?

***

Sevinc 20 ildən sonra anadan oldu. İndiki ailələrdə uzağı 5 il övlad olmayanda tez ayrılırlar. Amma İsa buna görə heç narahat olmurdu. Valideynləri onu evləndirmək istəyirdi. Şərtə görə yeni arvad rayonda, mən isə Bakıda qalmalı idim. Mən dedim ki, İsanın icazəsini vermişəm. Halal xoşu olsun, getsin evlənsin. O isə razılaşmırdı. Deyirdi ki, səndə də bacı-qardaş çoxdu, məndə də. Qocalanda biri qeyrətli olar bizi saxlayar. Salam Qədirzadə İsaya deyirdi ki, cavan oğlansan, boşa get başqasını al, Firuzə də başqa insanla ailə qurar. İsa Salamı bu sözünə görə pilləkəndən aşağı yıxmışdı...



***

Sonra biz Türkiyəyə gəzməyə getdik. İlk dəfə bizə icazə verdilər ki, Türkiyəyə gedək. Axı əvvəl Türkiyə ilə sərhədlərimiz bağlı idi. Türkiyəyə gedənlər arasında Məsud Əlioğlu xanımı Rəna ilə, Süleyman Rüstəm xanımıyla, Rəsul Rza və həyat yoldaşı Nigar xanım və İsmayıl Şıxlı da var idi. Həmin dövrdə Türkiyə çox kasıb idi. Əziz Nesin Bakıya – bizə gedib-gələrdi. Bir dəfə bizə dedi ki, mən sizin hamınızdan üzr istəyirəm. Mənim elə pulum yoxdur ki, sizə qonaqlıq verim. Ancaq xahiş edirəm, sözümü yerə salmayın. Gedək hərənizi bir bulku ilə çaya qonaq edim.

Türkiyəyə gedəndə Orxan Gəncəbay bizi evinə qonaq çağırdı. Evləri çox böyük idi. Otaq pərdə ilə

iki yerə bölünmüşdü. Otağın bir tərəfində Hitlerin vaxtında əsir düşmüş, Gəncədən, Qazaxdan olanlar var idi. Amma onların bizimlə görüşməyə ixtiyarları yox idi. İcazə vermirdilər. Otaqda çoxlu "çekist" var idi. Dedilər ki, kim qohum-əqrəbasını axtarırsa kağızda adını yazsın, biz göndərəcəyik, sizə cavab gələcək. Mənim atamgil də 3-4 qardaş idi. Ordan cavab gəldi ki, əmim bizim olduğumuz otaqdadır. Amma görüşməyə izin verilmədi. İsmayıl Şıxlı da dayısını tapdı. Dayısı Türkiyədə hərbi təyyarəçi idi. Belə anlar insana çox pis təsir edir. Öz yaxınını, doğmanı görmək istəyirsən, amma görə bilmirsən. Bircə Rəsul Rzanın xanımı Nigar xanıma, qardaşı ilə görüşməyə icazə verdilər. O da Moskvadan icazə almışdı. Nigar xanımın orda 3 qardaşı var idi. İkisi rəhmətə getmiş, biri sağ qalmışdı. Hava limanında onlar görüşəndə ətrafdakı hər kəs kövrəldi. Bacı-qardaş elə ağlayırdılar...



Türkiyədə 20 gün qaldıq. Qayıdanda Nigar xanımı qardaşı ötürəndə üzü-əli əsdi. Dedilər ki, iflic olacaq. Dərman verdilər, həkim çağırdılar. Ancaq heç bir şey baş vermədi. Həmin hadisədən sonra Nigar xanım Bakıya gələndə xəstəliyə tutuldu...

***

Qara dənizdə kiçik-kiçik adalar var. Bizi də gəmi ilə həmin adalardan birinə apardılar. Gəmidə cürbəcür içkilər, şokoladlar var idi. Kişilər içkilərə baxıb geri qayıdırdı. İsa Mirmehdini çağırdı. Mirmehdi bizim binada olurdu, qəzəl yazırdı. Mirmehdiyə dedi ki, istədiyin 2-3 nəfəri çağıra bilərsən.

Onlar gələndə İsa soruşdu ki, nə istəyirsiz. Dedilər ki, 50 qr araq, konyak olsa içərik. İsa da onlara içki qonaqlığı verdi..

***

Şair Qabil də bizim binada olurdu. Təzə avtomobil almışdı. Şəhərdə də maşınlara çox az rast gəlinərdi. Qabil dedi ki, ay Firuzə xanım, durun gedək sizi poçta aparım. Ödəyəcəyiniz işıqpulu, qazpulu varsa gedək ödəyək. Qabilə dedim ki, səninlə gedə bilmərəm. Sən axı maşını sürə bilmirsən. Qabil təkid etdi, dedi ki, əl çəkməyəcəm. Yola çıxanda biraz getmişdik ki, polis bizi saxladı. Qabil qapını açıb dedi ki, mən şair Qabiləm. Polis isə, – nə olsun ki, şair Qabilsən, camaatı qırmaq istəyirsən? Polis özü bizi apardı. İsa da bu hadisəyə o qədər güldü, dedi ki, ağlınız yoxdurmu ki, Qabilin maşınına minirsiz ...



Söhbətimizi hələlik burda yekunlaşdırdıq...

Tofiq Hacıyev İsa Muğannanın yaradıcılığını uzaq səfərlər gəmisinə bənzətmişdi, İsa Muğannanı isə onun kapitanına. Bu xatirələri dinləməyə başladığımız andan biz də bu gəminin sərnişinlərinə çevrildik, qışın soyuğunu, aclıq illərini sanki birgə yaşadıq. Hər dəfə müxtəlif sahillərə yan alıb, müxtəlif hadisələrlə rastlaşdıq. Kapitan bizi gah kövrəltdi, gah da müdrikliyi ilə bizə dərs keçdi... Növbəti lövbərin hansı limanda salınacağını bilməsəm də səyahətin maraqlı olacağına əminəm...

***Şəmil Sadiq***
***Səma Fuadqızı***
***10.02.2015***

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI


1. Axundlu Yavuz, Tarixi roman yeni mərhələdə, Bakı: Maarif nəşriyyatı, 1988, s 8.

2. Arif Tekin, Kuranın Kökəni. İstanbul: Berfin Yayınları, 2013, s 6.

3. Atatürk Üniversitesi Türkiyat Araştırmaları Enstitüsü Dergisi, Erzurum 2013, s 171-184,

4. Azərbaycan. Ədəbi-bədii jurnal, Bakı 2014, №10.

5. Cəlal Bəydili, Türk mifoloji obrazlar sistemi: struktur və funksiya, Bakı: Mütərcim, 2007, s 17.

6. Con Adeyr. Lider. Bakı. Yənbu 2014, s 35.

7. Deniz Karakurt, Türk Söylence Sözlüğü (Açıklamalı Ansiklopedik Mitoloji Sözlüğü), 2011

8. Ərəstü Həbibəyli. Sivilizasiyaların kəsişməsində türk dünyası. Elm və təhsil. Bakı 2011, s 166.

9. Əsgər Əhməd, XII-XIV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti (tarixi etnoqrafik araşdırma), Bakı, 2012.

10. Faciənin kökü // Xalq Qəzeti. 4 may 1997
11. Fəxrəddin Salim. Milli Yaddaş sistemində Ürfan və təsəvvüf. Bakı: Elm və təhsil, 2010, s 43.

12. Gencay Şaylan, Postmodernizm, Ankara: İmge Kitabevi 2002, s 62.

13. Gene D.Matlock. Ey Dünya nsanları Hepiniz Türksünüz. Topkapı, İstanbul 2012, s 17.

14. Hatice Elif Diler, Derya Emir, "Büyülü Gerçekçilik, Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi 2011, Sayı 30201, s 52.

15. Hüseyn Cavid. Seçilmiş əsərləri II cild. "Şeyx Sənan" pyesi. Bakı, elm. 2007, s 172.





16. Hüseyn Cavid. Seçilmiş əsərləri III cild. Elm. Bakı 2007. s 119.

17. Hüseyn Töfviqi. Böyük dinlərlə tanışlıq. Xəzər Universitesi Nəşriyyatı. Bakı 2013, s 27.

18. Xəlil Rza Ulutürk, Mən Onsuz da Əbədiyəm. Gənclik 2003, s 92.

19. İsa Həbibəyli. İsa Hüseynovdan İsa Muğannaya: Axırıncı əlyazma və bütöv dünya. Bakı: Hədəf nəşrləri, s 3-5.

20. İsa Hüseynov, İdeal, Bakı: Yazıçı, 1986, s 5.

21. İsa Hüseynov, İlan dərəsi, Bakı: Hədəf nəşrləri, 2013, s 78.

22. İsa Hüseynov, Məhşər, Bakı: Gənclik, 1978, s 3.

23. İsa Hüseynovun son müsahibəsi: //"Düşmənlərim üçün də darıxıram", news.milli.az/culture/257340.html, (01.04.2014)

24. İsa Muğanna, Qəbiristan, Bakı: Hədəf nəşrləri, 2013, s 6.

25. İsa Muğanna, Türfə, Bakı: Hədəf nəşrləri, Bakı 2015, s 7.



26. İsa Muğanna, Cəhənnəm, Bakı: Hədəf nəşrləri, 2013, s 5.

27. İsa Muğanna, GurÜn, Bakı: Hədəf nəşrləri, 2013, s 49.

28. İsa Muğanna, Mənim məhəbbətim, Bakı: Hədəf nəşrləri, 2014, s 12-13.

29. İsa Muğanna. Seçilmiş əsərləri VI cild, Bakı: Avrasiya nəşrləri, 2009. s 330.

30. İsmayıl Şıxlının tanış etdiyi İsa və Firuzə Muğannalar.  http://modern.az 2014.06.22.

31. İsmayılov Ə. Dünya romantizm ənənələri və H.Cavid, Bakı: Yazıçı 1983, s 33.

32. İsrafilov H. Azərbaycan dramaturgiyasının inkişaf problemləri. Bakı: Elm, 1988, s 124.

33. Kamal Abdulla, Yarımçıq əlyazma, Bakı 2004, s 129.

34. Kitabçı, №3, Mega Basım, İstanbul, 2014.

35. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb-fars sözləri lüğəti. II cild. Bakı: Şərq-Qərb, 2015, s 411.

36. Kredo qəzeti. N44 (799) 31 oktyabr, 2014

37. Qiyasəddin Qeybullayev, Azərbaycan türklərinin təşəkkül tarixindən, Bakı, 1993, s 156.

38. Qulu Ağsəs, "İsa Hüseynov və Muğanna", news.lent.az/news/3358, (11.02.2016)

39. Magiya, http://az.wikipedia.org/wiki/Magiya#sitat_qeyd-3. (24.01.2016)

40. Marks K. Və Engels F., Din haqqında, Bakı. 1965, s 99.

41. Mehmet Dikici. Türklərdə İnanclar və din, Ankara: Akçağ, 2005, s 24.

42. Nəfisi S. Babək, Bakı, 1990.

43. Neşet Çağatay və İbrahim Agih Çubukçu, İslam Mezhebleri Tarihi, Ankara: Universiteti Basımevi, 1985, s 10-11.

44. Nizami Cəfərov, // Yazıçıya məktub, Ədəbiyyat qəzeti 6 iyun 2008.

45. Ölümdən sonrakı həyat, Məqalələr toplusu. Bakı: Hədəf nəşrləri, 2014, s 55.





46. Rüstəm Kamal, İsa Muğanna: Ün və İşıq məqamı, İsa Muğanna qnostikasına giriş (525.az. 14.10.13)

47. Roland Walter, Magical Realism in Contemporary Chicano Fiction. Frankfurt am Main: Vervuert Verlag, 1993

48. Salamoğlu T, Yarımçıq Əlyazma, Postmodernizm... www.kitabxana.net (12.09.2015)

49. Salidə Şərifova, Azərbaycan postmodern romanları və onların bədii xüsusiyyətləri, AMEA

Humanitar elmlər, Xəbərlər, Bakı: Elm, 2016, s 167.

50. Şebnem Atılgan, yazar Resul Yalçınkaya ile bilimkurgu ve fantazya üzerine konuştu, edebiyathaber.net (15.02.2012)

51. Şəmil Sadiq, Odərlər romanı, Bakı: Hədəf nəşrləri, 2013, s 88.

52. Şəmil Sadiq, Hüseyn Cavid yaradıcılığında qəhrəman konsepsiyası, Bakı: Hədəf nəşrləri, 2011, s 170.



53. Şəmil Sadiq, "İsa Muğanna Həqiqəti Hüseyn Cavid işığında", (525.az, 07.07.14)

54. Şərifova S, Çağdaş Azərbaycan postmodern romanı, Bakı: Elm və təhsil, 2015, s 20.

55. Şinasi Abdülhak Hisar, Romana Dair Bazı Hakikatler, Roman Sanatı, (Kléber Haedens- Çev: Yaşar Nabi, İstanbul: Varlık,1961, s 8.

56. Tuqay Gülər, Mehdix, Olasılıq teorisi. İstanbul, Hayat yayınları 2013 http://www.kitapyurdu.com/kitap/default.asp?id =592192, s 5.

57. Vüqar Zifəroğlu, Azərbaycan Milli Kimliyi, Azərbaycanda doğan 500 illik işıq – Əxilik, Bakı: Elm və Təhsil, 2014, s 260.

58. Zəlimxan Yaqub, Azərbaycan jurnalı, Ün, N10. 2014, s 39.

59. Ziya Bünyadov, Vasim Məmmədəliyev. Qurani-Kərim, Bakı, 1997, s 56.

60. kult.az/az/6947/bulqakovun-staline-mesaj 6. bulqakovun-staline-mesaj

61. www.kitabxana.net 09.07.2015

## Nəticə

Giriş və iki fəsildən ibarət olan "İsa Muğanna yaradıcılığı "İdeal" işığında" adlı tədqiqat işində yazıçı, ssenarist və kinoredaktor, "Nəsimi" mükafatının ilk laureatı İsa Mustafa oğlu Hüseynov (Muğanna) yaradıcılığının ikinci mərhələsinə aid əsərlər tədqiqata cəlb edilmişdir. Bu Monoqrafiya böyük sənətkar haqqında ilk irihəcmli elmi əsərdir. İndiyə qədər Muğanna yaradıcılığı ayrı-ayrı məqalələr şəklində araşdırılsa da, "İdeal" romanından sonra yazılan əsərləri haqqında ya heç yazılmamış, ya da müxtəlif müəlliflər tərəfindən məqalələrin yazılması ilə bitmişdir.

Girişdə yazarın "İdeal"dan sonra yazdığı əsərlərin tarixi, yazılma və çap olunma dövrləri, çapdakı maneələr və müəllifin əsərlərinə dönə-dönə qayıtmasının səbəblərini, İsa Muğannanın bir psotmodernist yazar, magik realizmin banisi kimi, yeni ideoloji konsepsiyanın yaradıcısı kimi, dinə olan yeni baxışının, romanlarının poetikasını araşdırmağı qarşımıza məqsəd qoyaraq araşdırdıq.

"Tarixilik, mistika, dini mifoloji aspekt" adlı birinci fəsil "İsa Muğanna romanlarında vahid din konsepsiyası", "İsa Muğannanın "Cəhənnəm" romanı dini-mifoloji kontekstdə", "İsa Muğannanın "İlan dərəsi" silsiləsində tarixilik və mistika", "GurÜn romanı: tarixilik və müasirlik", "Yarımçıq əlyazma və bütöv ədəbi və əbədi dünya" adı ilə dörd yarımbaşlığa bölünür.

Bu fəsildə İsa Muğanna romanlarında vahid dini konsepsiyanı, "Cəhənnəm" romanının dini-mifoloji

kontekstdə təhlili, "İlan dərəsi" kitabında tarixilik və mistikanın qarşılıqlı tədqiqi, "GurÜn" romanında tarixiliyin, müasirliyin təhlili aparılmış, "Türfə" romanında və "Mənim məhəbbətim" yarımçıq əlyazma Muğanna yaradıcılığının ədəbi yekunlaşdırması kimi qiymətləndirilmişdir.

Birinci fəslin "İsa Muğanna romanlarında vahid din konsepsiyası" adlı yarımbaşlığında dini zəmində yaranan münaqişələr nəticəsində meydana gələn müharibə və çaxnaşmaların səbəbi "GurÜn", "Cəhənnəm" kimi romanları əsasında araşdırılmışdır. Ədibin dinə münasibətini aydınlaşdırmaq üçün qarşıya qoyulan sualların cavabını məhz bu fəsildə müəyyənləşdirmiş, qərara gəlinmişdir ki, Hüseyn Cavidin "Tanrı birdirsə, onun dini də, dili də bir olmalıdır" fikri İsa Muğanna konsepsiyasının əsas ideyasıdır.



İsa Muğanna konsepsiyasında peyğəmbərlər Allahın-Bağ atanın oğulları kimi təqdim edilir. Muğanna onları bir olan Allahın oğlu kimi təqdim edir. Bu isə insanları qardaşlığa, birliyə səsləməkdir. İsa Muğanna da Tanrının oğulları deyərək təqdim etdiyi peyğəmbərlərə ilahi qüvvə kimi baxır, onları və onların ideologiyalarını məkrli insanların bulaşdırdığı çirkabdan təmizləyib, saflaşdırıb öz yozumu ilə bəşəriyyətə təqdim edir.

Bu fəsildə gəlinən önəmli qənatələrdən birincisi "GurÜn" romanının Azərbaycan ədəbiyyatında ilk magik roman olmasıdır.

“İsa Muğanna yaradıcılığına müqayisəli baxış” adlı ikinci fəsil “İsa Muğanna həqiqəti Hüseyn Cavid işığında”, “İsa Muğanna yaradıcılığının "Ün" poemasındakı poetik təhlili”, “Postmodern Azərbaycan romanında “Kitabi-Dədə Qorqud” dastanı və təhrif edilmiş tarix” adı ilə üç yarımbaşlıqda tədqiqata cəlb edilmişdir.

Bu fəsildə Hüseyn Cavidin İsa Muğanna yaradıcılığına təsirinin tədqiqi, ədibin yaradıcılığına həsr olunmuş Z. Yaqubun “Ün” poemasının təhlili, İsa Muğanna yaradıcılığı və Kamal Abdullanın “Yarımçıq əlyazma” romanı arasında paralellərin verilməsi, onların “Dədə Qorqud dastanı” ilə müqayisəli təhlili aparılmışdır.



İkinci fəslin ikinci yarımfəslində İsa Muğanna yaradıcılığına həsr edilmiş Zəlimxan Yaqubun “Ün” poemasının təhlili öz əksini tapmışdır. İsa Hüseynovdan İsa Muğannaya keçilən yolun həyat fəlsəfəsini özündə ehtiva edən dəyərli poema kimi dəyərləndirilmişdir.

İkinci fəslin sonuncu yarımfəslində yeni Azərbaycan romanının, postmodernizmin başlanğıcını İsa Muğannanın dünya ədəbiyyatı üçün də böyük önəm kəsb edə biləcək əsəri olan “İdeal” romanı və 1993-cü ildə “Dünya” jurnalının 3-cü nömrəsində çap edilən “Cəhənnəm” romanı Azərbaycan ədəbiyyatının ilk postmodern əsərlər olduğu iddiası faktlarla əsaslandırılmışdır.

### Резюме

В исследовательской работе под названием «Творчество Исы Муганны в свете «Идеала», состоящей из введения и двух разделов, привлечены к исследованию произведения, относящиеся ко второму периоду творчества Исы Мустафа оглы Гусейнова (Муганны), автора упомянутого произведения, сценариста и кинoредактора, первого лауреата премии «Насими». Настоящая Монография является первым объемным научным произведением о великом мастере. Хоть и до сих пор творчество Муганны было исследовано в отдельных статьях, о произведениях, написанных после романа «Идеал» или не было написано ничего, или же довольствовались написанием статей разными авторами.

Во введении мы, поставив перед собой цель исследования нового взгляда автора на религию, поэтику его романов, исследовали Исы Муганны, как постмодернистский писатель, основатель магического реализма, как основоположник новой идеологической концепции, даты произведений писателя, написанных после «Идеала», периоды их написания и публикации, препятствия в публикации и причины неоднократного возвращения в произведения автора.

Первый раздел под названием «Историчность, мистика, религиозно-мифологический аспект» разделен на четыре подзаголовки, названные «Роман «Ад» Исы Муганны в религиозно-

мифологическом контексте», «Историчность и мистика в серии «Змеиная долина» Исы Муганны», «Роман ГурЮн: историчность и современность», «Незаконченная рукопись и полный литературный и вечный мир».

В этом разделе проводился анализ концепции единой религии в романах Исы Муганны, анализ романа «Ад» в религиозно-мифологическом контексте, взаимное исследование историчности и мистики в книге «Змеиная долина», анализ историчности и современности в романе «ГурЮн», Роман «Утонченный» и незавершенная рукопись «Моя любовь» оценены, как литературный итог творчества Муганны.



В подзаголовке, названной «Концепция единой религии в романах Исы Муганны», причина войн и столкновений, происходящих в результате конфликтов, зарожденных на религиозной почве, исследованы на основе романов, как «ГурЮн», «Ад». Ответ на вопросы, представленные для выяснения отношения писателя к религии, определены именно в этом разделе, сделан вывод, что основной идеей концепции Исы Муганны является рассуждение Гусейна Джавида о том, что «Если Господь един, то и его религия, и язык тоже должны быть едиными».

В концепции Исы Муганны пророки тоже представлены, как сыновья Бога – отца Сада. Муганна представляет их как сыновья единого Бога. А это призыв людям к братству, единству. Иса

Муганна тоже рассматривает пророков, представленных сыновьями Бога, как Божественная сила, представляет их человечеству своим толкованием, обожествляя их, очищая от грязи, которой их и их идеологий испачкали коварные люди.

В этом разделе один из важных выводов, которых было сделано, является то, что роман «ГурЮн» первый магический рома в азербайджанской литературе.

Второй раздел под названием «Сравнительный взгляд на творчество Исы Муганны» привлечен к исследованию тремя подзаголовками под названием «Истина Исы Муганны в свете Гусейна Джавида», «Поэтический анализ творчества Исы Муганны в поеме «Зов», «Эпос «Китаби-Деде Горгуд» в постмодернистском азербайджанском романе и искаженная история».



В этом разделе проведено исследование влияния Гусейна Джавида на творчество Исы Муганны, анализ поэмы «Зов» З. Ягуба, посвященной творчеству писателя, параллели между творчеством Исы Муганны и романом «Незавершенная рукопись» Камала Абдуллы, их сравнительный анализ с эпосом «Деде Горгуд».

Во втором подразделе второго раздела получил свое отражение анализ поэмы «Зов» Залимхана Ягуба, посвященной творчеству Исы Муганны. Автор оценил поэму, как «Ценная поэма, охватывающая жизненную философию пути, пройденного от Исы Гусейнова до Исы Муганны».

В последнем подразделе второго раздела фактами обосновываются утверждения о том, что первыми постмодернистскими произведениями азербайджанской литературы являются роман «Идеал», Исы Муганны, положивший начало азербайджанского постмодернизма, который также имеет большое значение и для мировой литературы, а также роман «Ад», опубликованный в 3-м номере журнала «Мир» в 1993-м году.

## Summary

Isa Mughanna was a writer, screenwriter, film editor as well as the first laureate of "Nasimi" award. The works belonged to the second part of I. Mughanna's creative activity were involved in an investigation of the research paper called "I. Mughanna' creative activity enlighted by the light of "Ideal"". It contains an introduction and 2 chapters. The Monograph is the first longest scientific work about the writer. Although I. Mughanna's creative activity has been made research on many times, the works written after "Ideal" haven't been talked about yet or were touched upon only in the articles written by different authors.

In the introduction, we analyzed the history with the period of writing and publishing of the works written after "Ideal", the problems rose during the publishing process. Furthermore, I. Mughanna was studied as a postmodernist writer, the creator of magic realism and new ideological concept along with his religious views, the poetics of his novels.

In this chapter, a unique religious concept in Mughanna's novels was analyzed. The novel called "Jahannam" (The Hell) was studied religiously and mythologically. Historicism and mysticism in the book called "Ilan deresi" (The Valley of the Snake) and historicism and modernism in "GurUn" were investigated correlatively. The novel "Turfa" and the incomplete manuscript "My love" are considered the

end point of the creativity of I.Mughanna.

In the semi part of the first chapter named "The Unique Religious Concept in Isa Mughanna's novels" the reason of the wars and commotions appearing because of religious conflict was analyzed in the novels such as "GurUn" and "Jahannam" (The Hell). The answers of the questions directing to find out the author's attitude towards the religion were determined in this chapter. Mughanna's main idea of the religious concept inspiring from Huseyn Javid's leading idea "If the God is unique, his religion and worship must be unique" was approved.

In Mughanna's unique religion conception prophets were described as the sons of God – Bag father. The author introduced them as a unique God's sons. This wss a call for mankind's brotherhood and consolidation. Mughanna's approached these prophets who were being introduced as the sons of the God as divine creatures. The author introduced mankind their ideologies by purifying with his interpretation and clearing from the slander thrown by insidious people.



The main conclusion come in the first chapter was being appreciated the novel "GurUn" as the first magic novel in the Azerbaijan literature.

The second chapter named "Comparative approach to Isa Mughanna's creative activity" was investigated in three semi-parts under the titles of" Mughanna's ideology in the light of Javid's approach", "The poetic analyses of I.Mughanna's

creative activity in the poem " Un" "and "The epos" Kitabi – Dede Gorgud" in postmodern Azerbaijan novel and mispresentation of the history".

This chapter deals with H. Javid's influence to Mughanna's creative activity, the analyses of the poem Z.Yagub "Un" dedicated to Mughanna's activity, the parallelization of Mughanna's activity with K. Abdulla "Yarimchig elyazma"

("The unfinished manuscript")

In the second semi – part of the Chapter II the analyses of the poem Z.Yaqub "Un" dedicated to Mughanna's creative activity was touched upon. This piece was evaluated as a valuable piece containing the philosophy of the creativity way leading from I.Huseynov to I.Mughanna.



In the last semi – part of the Chapter II the claims about the evaluation of the the novels "Ideal" Mughanna's valuable piece for the world's literature and " Jahannam" ("The Hell") published in the third edition of the journal "Dunya" in 1993 as the new trend in Azerbaijan novel writing; the beginning of postmodernism were proved with facts.









Əli İbrahimbəylinin dəstəyi ilə Şəmil Sadiq ilk dəfə İsa Muğanna ilə görüşür




12.12.2012


12.12.2012 19:56












Firuzə Muğanna və İsa Muğanna




“İdeal” əsərinə nəşr öncəsi baxış






“İdeal” əsərinin son nəşri üzərində işləyərkən








“İdeal” romanının son nəşrini İsa Muğannaya təqdim edərkən




307





“İdeal” əsərinin son nəşrinə atılan  ilk avtoqraf

308





“Məhşər” romanının son nəşrinə baxarkən





Yusif Ali Afşar bəylə Şəmil Sadiq “Məhşər” romanının yeni nəşrini təqdim edərkən.









Firuzə Muğanna həyat yoldaşına dərman içirərkən





Gənc yazar Fərid Hüseynli "Məhşər" romanına imza alarkən.



Ustad sənətkarın süfrəsində








İsa Muğannanın 85 illik Yubileyi zamanı. Ustadın 85 illik yubileyi münasibətilə 6 roman yenidən Hədəf Nəşrləri tərəfindən çap edilmişdir. 18 may 2013.













Xalq Şairi Zəlimxan Yaqub Ustadı yubiley münasibətilə təbrik edərkən.







Qızı Sevinc Muğanna və həyat yoldaşı Firuzə Muğanna ilə..



1 aprel 2015... İsa Muğanna 7-8 saat öncə bu masadan əbədi ayrılmışdı...



317

Ustad sənətkarla Azərbaycan Dram Teatrında keçirilən vida mərasimindən






2 aprel...  Fəxri Xiyaban. İsa Muğanna öz vəsiyyətinə uyğun olaraq ruhani sədaları altında dəfn edilərkən.





Çapa imzalanıb: 25.05.2017
Formatı: 70x100 1/16. Ofset çapı
Həcmi: 20
Sifariş № 428